


«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

**HEYDƏR ƏLİYEV**

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**Arif PAŞAYEV** – *Redaksiya şurasının sədri, Milli Aviasiya Akademiyasının rektoru, akademik, fizika-riyaziyyat elmləri doktoru;*

**Aytən MUSTAFAZADƏ** – *Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor, hüquq üzrə elmlər doktoru, Milli Məclisin deputatı;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq üzrə elmlər doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq üzrə elmlər doktoru;*

**Nazim ƏLİYEV** – *Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının rəisi, polis general-mayoru, dosent, hüquq üzrə elmlər doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, professor, hüquq üzrə elmlər doktoru;*

**İbad ABBASOV** – *Bakı Biznes Universitetinin rektoru, professor, iqtisad elmləri doktoru;*

**İbrahim QULİYEV** – *Milli Aviasiya Akademiyası Hüquqşünaslıq kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Rüstəm MƏMMƏDOV** – *Bakı Dövlət Universiteti Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, Hüquq kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Bakı Dövlət Universiteti Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası, professor əvəzi, hüquq üzrə elmlər doktoru.*

**№1(1)**

**2020-ci ilin yanvar ayından çıxır.**

***Təsisçi və baş redaktor:***

**Əliyev Etibar Əli oğlu,** hüquq üzrə elmlər doktoru.

***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 210-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az

## REDAKSİYA HEYƏTİ:

**Məsul redaktor** — ***MƏMMƏDOV Ə.Q.*** — BDU Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Böyük redaktor:**

— ***Zümrüd TURABXANQIZI.***

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas;

— ***ƏLƏSGƏROVA S.Q.*** — Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin əməkdaşı – operator;

**İnzibatçı:**

— ***HÜSEYNOVA F.E.*** — BDU BXH və Avropa hüququ kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

7 yanvar 2020-ci il tarixdə 216 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

**2020**

I RÜB

# AZƏRBAYCANIN İNKİŞAFINI XXI ƏSRİN ÇAĞIRIŞLARINA UYĞUNLAŞDIRAN LİDER

**Ramiz MEHDİYEV,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti.**

Mənim üçün müasir Azərbaycanın inkişaf tarixi ilə bağlı açıq suallar qalmayıb. Ölkənin ümdə problemlərinin həllində iştirak etməli olanlar qeyri-ordinar transformasiyaların şahidlərinə çevrilir, ən mühüm məqamları gözləri ilə görmək və onun həqiqi miqyasını real zaman rejimində qiymətləndirmək imkanı əldə edirlər. O zaman istər-istəməz inanırsan ki, insanın quruculuq istedadının bənzərsizliyi mahiyyət etibarilə heç də təsadüfi deyil.

Quruculuq istedadı özünü həmişə göstərir – gündəlik münaqişələr, böhranlar, hadisələrin mürəkkəb gedişi burulğanında da, həyati məsələlərdə də. Labüd olaraq adilik mənzərəsi yaradan ilk təəssüratların effekti göz qabağında geri çəkilir, realist idraka geniş meydan verir.

Həssas və mahir loğman adlandırılan zaman keçmişə nəzər salmağa məcbur edir. Ötən günlərin səciyyəvi xüsusiyyətlərinin hərtərəfli təhlili həmvətənlərimizin hər birini olub-keçənlərə bir növ yekun vurmağa, ibrətamiz mübarizə praktikasına və qalib gəlmək məharətinə sövq edir.

Bu material Azərbaycanın dövlət başçısı vəzifəsində böyük siyasi xadim və görkəmli dövlət xadimi Heydər Əliyevi əvəz etmiş Prezident İlham Əliyev haqqında kitabın bir fəslidir. 2003-cü ilin oktyabr ayında növbəti prezident seçkilərindən bir qədər əvvəl Ümummilli Lider öz namizədliyini varisi İlham Əliyevin xeyrinə geri götürdü.

İnkişafın yüksək tempi və innovasiyalılıq ilə səciyyəvi olan XXI əsrin post-sənaye dövrü səhv etməyə şans vermir. Buna görə də Azərbaycan xalqı müstəsna düzgün seçim etməli idi. Bu seçim yeni, dünyada bərqərar olmamış şəraitdə ümummilli lider Heydər Əliyev tərəfindən başlanmış işi davam etdirməyə imkan verməli idi.

2003-cü il oktyabrın 15-də belə bir seçim edildi – İlham Əliyev Azərbaycan Prezidenti seçildi.

İlham Əliyevin həll etməli olduğu məsələlər çox genişmiqyaslı idi. Onlar Heydər Əliyevin fəaliyyətinin yekunları ilə müəyyən olunurdu – dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi artımın yüksək sürətinin təmin edilməsi və yeni iş yerlərinin yaradılması, xalqın sosial rifah səviyyəsinin yüksəldilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi yolu ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, xarici siyasət sahəsində milli maraqların təmin edilməsi və heç şübhəsiz, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və s.

Qarşıya qoyulmuş hədəflərə nail olmağa şərait yaradılması üçün dövlət başçısı, ilk növbədə, həm onun həmməsləklərinə, həm də ölkənin bütün vətəndaşlarına aydın olan müvafiq dövlət idarəçilik sistemi formalaşdırmalı idi.

Yeni dövlət başçısının qarşısında labüd olaraq Azərbaycanın gələcək inkişaf vekto-

runun müəyyən edilməsi, ölkəni inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmalı olan müvafiq məsələlərin formalaşması kimi mürəkkəb vəzifələr dururdu. Nəzərdə tutulan planların icrası üçün kreativ komanda formalaşdırmaq tələb olunurdu. Bu komanda idarəetmə sistemində innovasiyalı texnologiyalar tətbiq etməklə ölkədə “informasiya cəmiyyəti”nin inkişafına güclü təkan verməli idi. Bu o demək deyildir ki, yeni Prezident əvvəlki Prezident Heydər Əliyevin kadrları ilə işləmək istəmirdi. Ağıllı dövlət başçısı bu fürsəti əldən verməz və məhz təhsilli, təcrübəli, istedadlı, xalqın həqiqi mənafelərini müdafiə edən kadrları öz tərəfinə çəkər. Buna görə də Heydər Əliyevdən sonra kim prezident olsa, onun taleyi əvvəlki dövlət başçısının kadrlarına münasibətdən asılı olacaqdı.

Etiraf etmək lazımdır ki, yeni minilliyin əvvəlində Azərbaycanın üzləşdiyi təhdidlər İlham Əliyevdən ümummilli lider Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursunu davam etdirmək üçün zəruri olan xüsusi, demək olar ki, müstəsna qabiliyyətlər tələb edirdi. Heydər Əliyevin prezidentlik dövrünün tarixi göstərir ki, Azərbaycan şəraitində transformasiyalar təkamül yolu ilə və dərk edilmiş inkişafa əsaslananda səmərəli olur.

Qloballaşma proseslərinin fəallaşdığı şəraitdə Azərbaycanın inkişafı ilə bağlı genişmiqyaslı planları yalnız həqiqi siyasi liderlər həyata keçirməyə qadir idi. Bununla bərabər, siyasət olimpinə təsadüfən gəlib çıxmış insanların özlərindən sonra xarabalıqlar qoyub getməsi nümunələri tarixdə çox olub. Bu baxımdan, özlərindən sonra yalnız dağıntı və qanlı izlər qoyub getmiş Neron, İdi Amin, Pol Pot və bir sıra başqa tiranları xatırlamaq kifayətdir.

Bu və ya digər səbəblər üzündən peşəkarlıq baxımından yararsız insanlar dövlət sükanı arxasına keçəndə nələr baş verdiyini yəqin etmək üçün XX əsrin 80-ci illərinin sonunda və 90-cı illərinin əvvəlində Azərbaycan xalqının da imkanı olub. O vaxt məsuliyyətsiz və avantürist rəhbərlərin əməlləri nəticəsində ölkə dərin siyasi və sosial-iqtisadi böhranla üzləşdi, uçurum qarşısında qaldı.

XXI əsrin əvvəlinin reallıqları, dövlətin inkişafının yeni mərhələsində onun qarşısında duran mürəkkəb məsələlər tamam başqa tipli siyasi lider tələb edirdi. Müasir cəmiyyətin və yeni tipli siyasi liderin dialektikasını əvvəlki dünyabaxışı yanaşmaları və köhnə nəzəriyyələr əsasında anlamaq mümkün deyil. Müasir siyasi lider əvvəlki dövrlə müqayisədə daha incə və mürəkkəb məsələləri həll etməlidir. O, insanların psixikasından daha çox onların zəkasına təsir göstərməli və onları təkcə praktiki məsələlərin həlli üçün səfərbər etməklə kifayətlənməməlidir. O, xalq kütlələrinin mənafelərini demokratiya ilə birləşdirmək, öz nümunəsi və sözü ilə milləti birləşdirmək, onda quruculuq və vətənpərvərlik ruhu formalaşdırmaq qabiliyyətinə malik olmalıdır. Yeni siyasi lider irəli çəkiləndə deyil, əhalinin əksəriyyəti tərəfindən qəbul ediləndə sosial dəyər kəsb edir, əmin olur ki, dövlətin mənafeləri onun praktiki işi olacaq. Bu isə siyasi liderin dünyagörüşündən, zehni qabiliyyətindən və praktiki fəaliyyətindən, Vətənin taleyi üçün məsu-

liyyətindən, onun praktiki ideyalarının insanların qəlbinə nə dərəcədə yol tapmasından asılıdır.

İlham Əliyevin 2003-cü il oktyabrın 31-də andiçmə mərasimindəki nitqi hələ yaddaşlardan silinməyib. O, həmin nitqində demişdi: "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".[1]

Ötən 16 il göstərdi ki, İlham Əliyev siyasi-iqtisadi varislik yolunu, əvvəlki onillikdə Heydər Əliyevin nail olduqlarını rəvan, sabit şəkildə inkişaf etdirmək və artırmaq yolunu seçib.

Azərbaycan xalqı öz xilaskarı Heydər Əliyevə sadiq qaldı. Ölkə dinamik inkişafını davam etdirdi. Əlavə tədbirlər sayəsində prezidentlik institutu möhkəmləndi, daxili siyasət və ictimai həyat sahəsində ölkə vətəndaşları tərəfindən yüksək etimad əldə edildi. İctimai təsisatların hüquqi və təşkilati baxımdan təsbit olunması ölkədə sabitliyin bərqərar olmasını təmin etdi. Pozucu müxalifətin ölkədə xaos, hərc-mərclik yaratmaq, bununla da respublikada normal əmək ritmini pozmaq cəhdləri tamamilə puç oldu, bu cəhdlərin gələcəkdə dirçəlməsinə heç bir ümidi qalmadı. Ölkə ümumi inkişafa doğru aparan yola inamla qədəm qoydu.

Yeni minilliyin ikinci onilliyi xalqların həyatının bütün sahələrini əhatə edən ciddi transformasiyalarla əlamətdardır. Yeni tipli cəmiyyət formalaşdırmaq problemlərinin həllinə əvvəlki yanaşmaların potensialı tükənib. İndi güclü inkişaf üçün stimul yaradan yeni, innovasiyalı metodlar və mənbələr tələb olunur. Baş verən qlobal dəyişikliklər əhalidən və ölkənin ayrı-ayrı vətəndaşlarından mütəşəkkillik, intizam və səmərəli iqtisadi forma və dəyərlər axtarışını tələb edir. Bu dəyərlər dövlətin rəqabət qabiliyyətini təmin etməlidir.

Bu hədəflərə nail olmağın lokomotivi qismində vətəndaşlar özləri çıxış edirlər. Onların intellektual səviyyəsi və yaradıcılıq qabiliyyəti yeni dəyişikliklərə uyğun olaraq təkmilləşməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycan müasir dövrün diktə etdiyi məsələlərin həlli üçün nadir imkanlara malikdir.

İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın həyatında keyfiyyətcə yeni mərhələ başlanır. Prezident İlham Əliyev öz vəzifələrinin icrasına başlayanda "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" (noyabr 2003), "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının dövlət proqramının təsdiq edilməsi haqqında (2004-2008)" (fevral 2004)

fərmanları ilə ölkənin sosial-iqtisadi inkişafının sürətini müəyyən etdi. Məhz bu fərmanlar ölkənin inkişafı ilə bağlı problemlərin yeni, innovasiyalı dərkinə keçməyə təkan verdi. Cəmiyyət həyatının bütün tərəflərinin modernləşdirilməsi prioritetə çevrilir.

Beləliklə, Azərbaycanın inkişafında 2003-cü ilin oktyabrından başlanan yeni mərhələnin mahiyyəti ondan ibarətdir ki, Prezident İlham Əliyev ölkənin innovasiya texnologiyaları əsasında ümumi modernləşdirilməsinə yönəlmiş dövlət idarəçilik sistemini reallaşdırmağa başladı.

2019-cu ilin əvvəlində hərtərəfli düşünülmüş iqtisadi siyasət sayəsində Azərbaycan xeyli irəliləyib, neft amilindən asılılıq əhəmiyyətli dərəcədə azalıb. "Neftdən asılı dövlət" modeli keçmişdə qalıb. İqtisadiyyatın şaxələndirilməsində ciddi uğurlar qazanılıb. Dövlət sahibkarlığa və aqrar sənaye kompleksinə ciddi kömək göstərir. Ən başlıcası, Azərbaycan ərzaq mallarının əksəriyyəti üzrə özünü təmin etmək səviyyəsinə çatıb.

Prezident İlham Əliyevin idarəçilik istedadı sayəsində Azərbaycan özünün sosial dövlət mövqelərini xeyli möhkəmlədib. Mahiyyət etibarilə Azərbaycan güclü ordusu və güclü xarici siyasəti olan qüdrətli dövlətdir. Bu gün Azərbaycan dünya kosmik klubunun üzvüdür. Azərbaycanın müasir panoramı böyük inkişafın geniş məkanıdır.

Bununla belə, ictimai-siyasi sabitlik təmin edilmədən bu cür nəticələrə nail olmaq çətin olardı. Analitiklərin hesablamalarına görə, Azərbaycanın ümumi inkişafı məhz bu amillə müəyyən olunur.

Uğur qazanmağın digər şərtləri icra intizamının təmin edilməsi, vətəndaşların hər sahədə məsuliyyətinin artırılması, həmçinin ölkə rəhbərliyinin ölçülüb-biçilmiş hərəkətləridir. Bunlar bütün islahatların əsasıdır. Prezident İlham Əliyev bilir ki, ümumi modernləşdirmə olmadan tərəqqi də olmayacaq, ölkə əvvəlki vəziyyətdə ilişib qalacaq. O, rəqəmsal texnologiyaların geniş tətbiqinə, infrastrukturun inkişafına üstünlük verdi. Ölkədə tikinti işləri, məktəblərin və tibb müəssisələrinin təmiri, şəhərlərin və kəndlərin yeniləşməsi, yolların, yeni nəqliyyat qovşaqlarının və körpülərin inşası, müasir rabitə sistemlərinin yaradılması və yeni kommunikasiya texnologiyalarının tətbiqi geniş miqyas alıb.

Prezident ölkənin dünyada nüfuzunu artırmağa, başqa ölkələrlə iqtisadi tərəfdaşlığı genişləndirməyə nail olub. Nəticədə respublikada keyfiyyətcə yeni sosial-iqtisadi və siyasi mühit yaranıb. Prezident İlham Əliyevin uzaqgörən sosial-iqtisadi siyasəti və onun yaratdığı siyasi sabitlik sayəsində Azərbaycan gələcəyə doğru inamla irəliləyir.

Bir qədər irəli gedərək qeyd etməliyəm ki, Prezident İlham Əliyevin qurucu fəaliyyətinin nəticələrini çox gözləməyə ehtiyac qalmadı. Belə ki, 2005-ci ilin məlumatına görə, ümumi daxili məhsul 1990-cı illərin səviyyəsindən 11 faiz çox olub. 2004-2013-cü illərdə isə, Azərbaycan iqtisadi artım sürətinə görə (orta hesabla ildə 13 faiz) dünyada liderdir.

Bu illər ərzində vergi-büdcə siyasəti iqtisadi artımın ən mühüm amili olub. Bu

dövrdə büdcənin xərcləri 12,7 dəfə, əsaslı xərclər isə 47 dəfə artıb. Neft sektorundan əldə edilmiş mənfəətin təqribən yarısı ölkənin sosial-iqtisadi inkişafına sərf edilib. Dövlətin zəruri maliyyə resurslarından istifadə olunması keyfiyyətli sosial-iqtisadi infrastrukturun yaradılmasına kömək edib, respublikada iqtisadi-istehsal fəallığı əhəmiyyətli dərəcədə artıb.

İlham Əliyev Ümummilli Liderin siyasi xəttini yeni şəraitdə həyata keçirərək bütün sosial proqramları, iqtisadi və ictimai-siyasi, kadr islahatlarını həqiqətən inqilabi inadkarlıqla həyata keçirir. Bu islahatlar sayəsində ölkənin siması kökündən dəyişir. Bu gün hətta ən ucqar regionlar sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə, abadlığa, memarlıq və bədii simanın gözəlliyinə görə respublikanın paytaxtından heç də geri qalmır. Etiraf etmək lazımdır ki, Azərbaycanda baş verən genişmiqyaslı dəyişikliklərin sürəti dünyada ən yaxşı nümunələrlə müqayisə edilə bilər.

İnformasiya-kommunikasiya, müasir texnologiya və idarəçilik sahələrində nailiyyətlər Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatına fəal tətbiq edilir. Çoxsaylı genişmiqyaslı transmilli layihələr uğurla həyata keçirilib. Bütün bunlara bilavasitə Prezident İlham Əliyev rəhbərlik edir. Ölkənin hərtərəfli dəyişməsinə yönəlmiş və reallığa çevrilmiş yeni ideya və layihələrin müəllifi başqası deyil, Prezident özüdür. Onun sabit yeniləşmə siyasəti həm dövlət sektorunun, həm də özəl sektorun işçilərini ölkədə tarixi dəyişikliklərə ruhlandırır.

İlham Əliyev ölkə həyatının bütün sahələrində islahatlar strategiyasını seçib. Onun fundamental islahatlar yolu ilə dəyişikliklər etmək enerjisi aşıb-daşır və bu enerji iqtidarda onun məsləkdaşlarına da sirayət edir.

Hələ 2005-ci il iyulun axırlarında ABŞ dövlət katibinin Avrasiya regionunda münaqişələr və Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Stiven Mann Türkiyənin NTV telekanalına müsahibəsində Azərbaycan Prezidentinin fəaliyyətini çox yüksək qiymətləndirib. İlham Əliyevin əsl siyasətçi olduğunu deyən S.Mann onu da vurğulayıb ki, Azərbaycan xalqının İlham Əliyev timsalında çox yaxşı Prezidenti var. O, daha sonra deyib: “Hesab edirəm ki, ölkədə siyasi islahatlar davam etdiriləcək, neftdən alınan gəlirlər sıravi vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldiləcək”.[2]

Təbii ki, S.Mannın bu fikirlərini Vaşinqtonun Azərbaycan rəhbərliyinə münasibəti kimi qiymətləndirmək olar.

Bir məsələni də qeyd etmək lazımdır – Stiven Mann bu uzaqgörənliyində yanılmayıb. Məsələ burasındadır ki, son 16 ildə ölkədə islahatlar davam etdirilib və 2019-cu ilin əvvəlindən genişmiqyaslı xarakter alıb.

İslahatlar dövlət idarəçiliyi prinsiplərinin bütün sisteminin modifikasiya edilməsi və təkmilləşdirilməsi prosesidir. Onların mahiyyəti dövlət siyasətinin bütün strukturunun məzmununun təkamül yolu ilə yaxşılaşdırılmasından ibarətdir. İslahatlar cəmiyyətin siyasi, iqtisadi və sosial tərkib hissələrini

təkmilləşdirməklə bərabər, həm də hakimiyyət ilə cəmiyyət arasında münasibətləri tamamilə yeni səviyyəyə çatdırır.

İlham Əliyev islahatların səviyyəsini qaldırmaqla daim ciddi dövlət lideri keyfiyyətini nümayiş etdirir. Bu nadir keyfiyyətlər heç də bütün müasir siyasətçilərə və ya dövlət başçılarına xas deyil. Təəssüf ki, dünyada islahatlar aparmaq əzmində olan dövlət başçıları çox deyil. Belə hesab edilir ki, islahatların müəyyən aspektləri ölkədə bəzi qüvvələri idarəetmə və hakimiyyət sistemində radikal dəyişikliklərə stimullaşdırır. Onlar belə hesab edirlər ki, insanların şüurunu oyatmamaq yaxşıdır.

"The American Interest" nəşrində Amerika Xarici Siyasət Şurası yanında Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru, "Azərbaycan müstəqillik günündən sonra" adlı kitabın müəllifi Svante Kornellin məqaləsi dərc edilib. Müəllif bu məqalədə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatları, onların regionda inkişafa təsirini təhlil edir.

S.Kornellin fikrincə, ölkədə cari islahatlar əsl vaxtına düşüb. Budəfəki islahatlar 2015-ci ildə neftin qiymətinin azalması ilə bağlıdır, hərçənd Azərbaycanda bundan əvvəl də islahatlar aparılırdı. Məsələn, 1999-cu ildə Norveç modeli üzrə Dövlət Neft Fondu yaradıldı. 2012-ci ildə Azərbaycanda "ASAN xidmət" işə salındı. Müəllif hesab edir ki, "ASAN xidmət" sayəsində vətəndaşlarla dövlət qulluqçuları arasında əlaqələr məhdudlaşdırılıb, korrupsiya faktları aradan qaldırılıb. "ASAN xidmət" bu gün də çox populyardır. S.Kornell qeyd edir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dövlət xidmətlərinin təqdim edilməsi zamanı korrupsiya üçün əlverişli şəraitin aradan qaldırılması üzrə "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirib.

Müəllif qeyd edir ki, 2014-cü ildə neftin qiymətinin azalması nəticəsində Azərbaycanda iqtisadi vəziyyət pisləşib. İslahatlar da bundan sonra başlanıb. Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizinin inkişafı barədə Çinin və Avropa ölkələrinin planlarında Azərbaycanın iştirakı iqtisadiyyatın şaxələndirilməsinin aşkar metodu idi.

S.Kornell yazır ki, Prezident İlham Əliyevin islahatlara yanaşması köhnə təsisatları "təmir etmək" deyil, imkan daxilində yeni təsisatlar yaratmaqdan ibarət idi. Hökumət Mədəniyyət Nazirliyindən ayrıca Turizm Agentliyi yaratdı, viza prosedurları sadələşdirildi. Hazırda Azərbaycanda "ASAN xidmət" vasitəsilə idarə edilən elektron viza dünyada ən rahat sistem hesab olunub. Çinin, Cənubi Koreyanın, habelə bir neçə körfəz ölkəsinin vətəndaşları Azərbaycana gələndən sonra burada viza ala bilirlər. Bu, turizmin əhəmiyyətli dərəcədə inkişafına şərait yaradıb: 2008-ci ildə Azərbaycana 1 milyon turist gəldiyi halda, 2017-ci ildə bu göstərici 2,6 milyona bərabər olub. Kornell yazır ki, 2019-cu ildə turistlərin sayının 3 milyondan çox olacağı gözlənilir. Kosmopolit mühiti və parlaq mədəni həyatı ilə seçilən Bakı ərəb ölkələrindən çoxsaylı turistləri cəlb edir. Hazırda Bakı küçələrində Cənubi Asiyadan olan çoxlu turistləri görmək olar.

Azərbaycan ölkəni iki nəqliyyat dəhlizinin habına çevirməyi planlaşdırır: Aİ ölkələrindən Çinə tərəf uzanan Şərq-Qərb dəhlizi və Rusiyanı İran və Hindistanla əlaqələndirən Şimal-Cənub dəhlizi. Bu baxımdan Bakı ətrafındakı Ələt limanı və onun sərbəst iqtisadi zonası xüsusi əhəmiyyət kəsb edir. Rusiya, Mərkəzi Asiya və ya İrandan Ələtə gətirilən yük 2017-ci ilin oktyabrında açılmış Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu ilə qısa müddətdə Avropadakı təyinat məntəqələrinə göndərilə bilər.

Bu islahatlar nəticəsində Dünya Bankı özünün "Biznesin idarə edilməsi haqqında" hesabatında Azərbaycanın reytinqini 2018-ci ildəki 57-ci yerdən 2019-cu ildə 25-ci yerə yüksəldib. Dünya Bankı Azərbaycanda biznes qurulmasının asanlığını, tikinti işlərinin aparılmasına icazələrin alınması, mülkiyyətin qeydiyyatı, vergi və güzəştlərin ödənilməsi, gömrük prosedurları üçün şəffaf elektron sistemlər yaradılması üçün "bir pəncərə" sistemini xüsusi vurğulayıb.[3]

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə 2003-cü ilin noyabrından iqtisadiyyat yeni inkişaf relslərinə düşüb. 2018-ci ilə qədər heyrətamiz uğurlar qazanılıb. Bu, aşağıdakı cədvəldən də görünür.

| **İqtisadi göstərici** | **2003** | **2018** | **Fərq** |
|---|---|---|---|
| ÜDM (milyard manat) | 7.15 | 79.8 | +3.3 dəfə (real artım) |
| Adambaşına ÜDM (manat) | 872.7 | 8126.2 | +9.3 dəfə |
| Büdcənin gəlirləri (milyard manat) | 1.2 | 22.5 | +18.8 dəfə |
| İşsizlik səviyyəsi (%) | 9.2 | 4.9 | -1.9 dəfə |
| Yoxsulluq səviyyəsi (%) | 44.7 | 5.1 | -8.8 dəfə |
| Xarici valyuta şəklində ehtiyatlar (milyard ABŞ dolları) | 1.6 | 44.9 | +28.1 dəfə |
| Əhalinin gəlirləri (milyard manat) | 5.7 | 53.7 | +9.4 dəfə |
| Adambaşına gəlir (manat) | 700.7 | 5467 | +7.8 dəfə |
| Qeyri-neft sektorunda ÜDM (milyard manat) | 4.5 | 46.9 | +2.8 dəfə |
| Xarici ticarətin həcmi (milyard ABŞ dolları) | 5.22 | 31.8 | +6.1 dəfə |
| İqtisadiyyata investisiyalar (milyard manat) | 4.25 | 25.88 | +6.1 dəfə |
| Orta aylıq əməkhaqqı (manat) | 77.4 | 544.6 | +7 dəfə |

Son 16 ildə iqtisadiyyata 250 milyard dollar məbləğində sərmayə qoyulub. Nəticədə bu gün Azərbaycan şaxələndirilmiş iqtisadiyyat sisteminə malikdir. Bu sahədə ciddi nailiyyətlər qazanılıb. Neft sənayesi ardıcıl inkişaf edib, müasir texnologiyalarla təchiz olunmuş onlarca yeni sənaye müəssisəsi tikilib və fəaliyyətə başlayıb. "2015-2020-ci illər üçün Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət Proqramı" əsasında ölkədə çoxsaylı sənaye parkları və sənaye məhəllələri, texnoloji parklar yaradılıb, mövcud istehsal obyektləri genişləndirilib. İnnovasiyalı istehsal iqtisadiyyatda, o cümlədən aqrar sahədə aparıcı istiqamətə çevrilir. İxrac üçün sənaye məhsulları istehsalı yüksək sürətlə artmaqdadır.

İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan verib. Pambıqçılıq, taxılçılıq, ipəkçilik, üzümçülük, çayçılıq, tərəvəzçilik, çəltikçilik və arıçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələri dirçəldilib. Meyvə – badam, fındıq, sitrus, xurma, zeytun, qoz, nar bağlarının sahəsi xeyli genişlənib. Aqroparklar ölkənin landşaftını tanınmaz dərəcədə dəyişib, xarici dövlətlərin Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbatı xeyli artıb.

Prezidentin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli nəqliyyat layihələri həyata keçirilib: Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, 2014-cü il sentyabrın 20-də təməli qoyulmuş Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. Dəyəri 40 milyard dollardan artıq olan bu layihə yüksək sürətlə reallaşdırılıb və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, həmin il iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin reallaşdırılması qrafik üzrə davam edir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına başlanıb. 2017-ci il oktyabrın 30-da Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olub. Bu dəmir yolunun tikintisi 2007-ci ildə başlanmışdı. Azərbaycanın Rusiya, İran və Gürcüstan ilə sərhədlərinə qədər yeni magistral avtomobil yolları çəkilib. Azərbaycan böyük siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edən bu beynəlxalq layihələri reallaşdırmaqla Avrasiyanın çox mühüm tranzit və logistika mərkəzinə çevrilir.

Kosmik orbitə 3 peyk çıxarmış Azərbaycan dünyada sayı çox olmayan kosmik ölkələr klubuna daxil olub. 2013-cü il fevralın 8-də Azərbaycanın birinci, 2014-cü il iyunun 30-da ikinci, 2018-ci il sentyabrın 26-da isə üçüncü telekommunikasiya peyki orbitə çıxarılıb.

2003-cü ildən sonrakı dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və ya təmir edilib. Yüzlərlə tarixi bina, muzey, teatr və kitabxanada genişmiqyaslı yenidənqurma və təmir işləri aparılıb, onlar yeni avadanlıqla təchiz edilib. Ölkənin ali məktəblərində, elmi mərkəzlərdə, respublika Milli Elmlər Akademiyasının müəssisələrində də analoji işlər aparılıb. Ölkədə 16 il ərzində 15 min kilometrdən çox asfalt

yol çəkilib, 443 körpü inşa edilib. Bakı Metropoliteninin 4 yeni stansiyası istifadəyə verilib. Cəmi iki il bundan əvvəl Xəzər dənizində ən iri beynəlxalq liman – Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlayıb. Bu müddətdə Azərbaycanda altısı beynəlxalq olmaqla, 7 aeroport tikilib.

2003-2019-cu illərdə ölkədə 31 elektrik stansiyası tikilib istifadəyə verilib. Nəticədə Azərbaycan qonşu ölkələrə elektrik enerjisi ixrac etməyə başlayıb. Ölkənin yaşayış məntəqələrinin təbii qazla təmin edilməsi göstəricisi artaraq 51 faizdən 95 faizə çatdırılıb. Oğuz-Qəbələ-Bakı su kəməri xətti çəkilib, ən iri sutəmizləyici qurğu tikilib, regionlarda çoxsaylı subartezian quyuları qazılıb, yüzlərlə modul tipli sutəmizləyici qurğu istifadəyə verilib, əhalinin içməli su ilə fasiləsiz təchizatı təmin olunub.

Son 16 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş aparılıb. Ölkədə bütün çadır düşərgələri və "fin evləri"ndən ibarət qəsəbələr ləğv edilib, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilib. Şəhid ailələri, müharibə veteranları və əlilləri xüsusi qayğı ilə əhatə olunub. Onlara dövlət hesabına 5500-dən çox mənzil, 6 mindən çox minik avtomobili verilib.

Sosial sahədə islahatlar inqilabi xarakter daşıyır. 2019-cu il sentyabrın 1-dən etibarən pensiyalar, əlilliyə görə müavinətlər, tədris müəssisələrində təqaüdlər yüz faizdən çox artırılıb. Dövlət qulluqçularının, hüquq mühafizə orqanlarının işçilərinin, hərbi qulluqçuların və başqalarının əməkhaqqı artırılıb.

Ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən "ASAN xidmət" və DOST Azərbaycanın brendlərinə çevrilib.

İstedadlı müstəqil jurnalist Eynulla Fətullayev 2018-ci il fevralın 9-da "Haqqın.az" informasiya-analitik portalında dərc edilmiş məqaləsində yazır: "Dövlətçiliyin dirçəldilməsi, iqtisadiyyatın çiçəklənməsi, siyasi modernləşmə – Əliyev konsepsiyasının vəhdət təşkil edən bu üçlüyü iki prezidentin idarəçilik ruhunu xarakterizə edir. Parçalanma, məhvolma həddinə çatdırılmış, dəhşətli vətəndaş müharibəsi və erməni müdaxiləsi tonqalına atılmış ölkə sanki möcüzə sayəsində xilas edildi və qorunub saxlandı. Dünyanın ən narahat ölkələrindən birində sabitlik bərqərar oldu və bu sistem iqtisadi dirçəlişə, ümumi rifah cəmiyyətinin təşəkkülünə şərait yaratdı".

Daha sonra: "Taleyin və tarixin qismətindən Əliyevlər, indiki halda İlham Əliyev olmasaydı, Azərbaycan iflasa məhkum olardı. Axı, Azərbaycana yalnız inqilabi hərc-mərclik, qlobal özbaşınalıq və vətəndaş ayrı-seçkiliyi təklif edirlər. Azərbaycana dövlətçiliyi tamamilə torpağa göməcək inqilabi liberalizm təklif edirlər. Ya Əliyev, ya da parçalanma. Hətta əsrin dörddəbiri qədər vaxt keçəndən sonra da bizim seçimimiz böyük deyil: keçmiş ilə gələcək arasında cəmi bir imza olmalıdır".[4]

**Postneft dövrünün islahatları**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev postneft dövründə iqtisadiyyatı bacarıqla idarə edərək ölkəni yeni inkişaf yollarına çıxarıb. 2016-cı ildə Azər-

baycan iqtisadiyyatında xarici şokların və əsas ticarət tərəfdaşlarının resessiyasının təsiri altında baş vermiş qısamüddətli tənəzzül 2017-ci ildə sabitləşmə və 2018-ci ildə iqtisadi artımla əvəz olundu. Buna səbəb Prezident İlham Əliyev tərəfindən qısa müddətdə mühüm qərarların qəbul edilməsidir:

1.Xarici şokların təsiri altında olan iqtisadiyyatın restrukturizasiyası yeni iş yerləri yaratmağa və kütləvi işsizliyin qarşısını almağa imkan verdi;

2. Düzgün təşkil edilmiş makroiqtisadi əlaqələndirmə manatın sabitliyini və inflyasiyanın birrəqəmli olmasına nəzarəti təmin etdi;

3. Strateji yol xəritələri təsdiq edildi və inkişafın yeni iqtisadi modeli müəyyən olundu;

4. Ən vacibi, xarici şokların sosial rifaha potensial mənfi təsirlərinin qarşısı alındı.

İslahatların əsas istiqamətlərini bu cür qruplaşdırmaq olar:

1. İqtisadi islahatlar (vergi-gömrük, tikinti, enerji şəbəkəsinə qoşulma, sahibkarlığın dəstəklənməsi və s.).

2. Məhkəmə-hüquq islahatları (ədalət mühakiməsinin keyfiyyətinin, səmərəsinin və şəffaflığının artırılması).

3. Sosial islahatlar (institusional islahatlar və sosial paket).

4. Kadr islahatları.

Azərbaycan aparılan islahatların sayına görə təkcə 2019-cu ildə deyil, 2020-ci ildə də dünyada ən iri islahatçı ölkələr sırasına daxildir. Bu barədə Dünya Bankının “Doing Business 2020” hesabatının yayılmasından əvvəl dərc edilmiş bloqda bəhs edilir. Keçən il Azərbaycan 57-ci yerdə idi. O vaxt top-islahatçı olmaq asan idi. 25-ci mövqedə olan Azərbaycanın islahatların sayı ən çox olan ölkələr siyahısına düşməsi həqiqətən çətin idi. Hazırda ölkəmiz “Doing Business” biznes mühiti etalonundan 78,64 faiz həddinə çatıb, yəni, o, məqsədə yaxındır. Etalona yaxınlaşdıqca, top-islahatçı olmaq daha da çətinləşir. Lakin buna baxmayaraq, Prezident İlham Əliyev ölkəni inamla “Doing Business” zirvəsinə aparır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu antiböhran tədbirləri və kompleks islahatlar təbii ehtiyatlarla zəngin digər ölkələrlə müqayisədə daha səmərəli olub. Prezidentin rəhbərliyi ilə ölkədə sosial, siyasi və makroiqtisadi sabitlik, əhalinin sosial firavanlığı və davamlı iqtisadi artım təmin edilib.

Hazırda (2019-cu ildə) ölkənin strateji valyuta ehtiyatlarının həcmi 50 milyard ABŞ dollarından çox, xarici borcun məbləği isə ÜDM-in cəmi 17 faizi qədərdir. Azərbaycanın strateji valyuta ehtiyatları 5 il ərzində idxalın maliyyələşdirilməsi üçün kifayətdir. Tədiyyə balansının və konsolidə edilmiş büdcənin profisiti makroiqtisadi sabitliyin və davamlı inkişafın əsasıdır. 2019-cu ilin ilk 8 ayı ərzində ÜDM 2,4 faiz, qeyri-neft-qaz sektorunda 3 faizdən çox, qeyri-neft ixracının həcmi isə 17 faiz artıb. Xüsusi qeyd etmək lazımdır ki, qeyri-neft-qaz sənayesi 15,2 faiz, informasiya və kommunikasiya xidmətləri 17,6 faiz, kənd təsərrüfatı 6,2 faiz artıb. Hərçənd, iqtisadi inkişafın mövcud sürəti daha yüksək bazaya əsaslanır. Bütövlükdə 2003-2018-

ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin ÜDM-i 3,3 dəfə artıb.

2019-cu ilin əvvəlindən Azərbaycan iqtisadiyyatının imkanlarının çoxalması büdcənin gəlir hissəsinin 18 faiz artmasına gətirib çıxarıb. Prezidentin siyasi iradəsi ilə artan büdcə imkanları bilavasitə əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Bir məqam xüsusi əhəmiyyət kəsb edir ki, sosial təminat üzrə irimiqyaslı tədbirlər paketinin reallaşması Prezident tərəfindən müəyyənləşdirilmiş, maliyyə sabitliyini təmin edən büdcə qaydaları çərçivəsində həyata keçirilib. Başqa sözlə desək, inqilabi sosial paketin reallaşması inflyasiya təzyiqi yaratmadan və manatın sabitliyi şəraitində mümkün olub.

Qeyd etmək lazımdır ki, 2014-cü ilin ikinci yarısından başlayaraq neftin dünya bazarında qiymətlərinin üç dəfə azalması, tərəfdaş ölkələrdə tənəzzül və devalvasiya Azərbaycan iqtisadiyyatının kənar sarsıntılara uyğunlaşması zərurətini yaratmışdı. 2017-2018-ci illərdə ÜDM qeyri-neft sektorunun hesabına orta hesabla 2,3 faiz artıb. Bütövlükdə isə davamlı, uzunmüddətli, əhəmiyyətli və geniş əhatəli artımın təmin olunması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və beynəlxalq mövqelərinin qorunub saxlanması siyasətinin davam etdirilməsi dövlət üçün əsas çağırışlara çevrilib.

Prezident İlham Əliyev dərin struktur islahatlarına xüsusi diqqət yetirir. Bu islahatlar dünyada baş verən sarsıntılar fonunda sosial-iqtisadi göstəricilərin yaxşılaşmasında mühüm rol oynayır. Azərbaycanda kompleks islahatların növbəti mərhələsi 2016-cı ildə başlandı və 2019-cu ildə davam etdirildi. Milli iqtisadiyyatın perspektivləri barədə 2016-cı ildə qəbul edilmiş strateji yol xəritəsində əsas hədəf struktur islahatlarının davam etdirilməsi və daha səmərəli idarəetmə sisteminə keçid idi.

Struktur islahatlarının reallaşması ümumi inkişafa mane olan problemlərin aradan qaldırılmasında mühüm rol oynadı və əhalinin sosial problemlərini həll etməyə, biznes maraqlarını təmin etməyə, şəffaflığı artırmağa, müxtəlif sektorlarda inzibati prosedurların sayını və məsrəfləri azaltmağa, habelə dövlət xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa imkan verdi.

Beləliklə:

– biznesin qurulması üçün qeydiyyat prosedurlarının sayı üçdən birə, müddəti isə 3,5 gündən 12 saata düşüb;

– tikinti üçün bütün texniki spesifikasiyalar və icazələr sahibkarın iştirakı olmadan elektron formada təqdim edilir. Tikinti və istifadə üçün icazələr alınması pulsuzdur və internet vasitəsilə “bir pəncərə” prinsipi əsasında həyata keçirilir. Prosedurların sayı 18-dən 7-yə, onlara sərf edilən vaxt 116 gündən 38 günə, xərclər isə 6600 manatdan 3345 manata endirilib;

– elektrik şəbəkəsinə qoşulmaq üçün sifarişlərin elektron sistemi istifadəyə verilib, prosedurların sayı 7-dən 2-yə, bunun üçün tələb edilən vaxt 41 gündən 20 günə endirilib;

– daşınmaz əmlakın və kadastr işlərinin qeydiyyatı ilə bağlı problemlər üzrə apelyasiyalar üçün xüsusi müstəqil mexanizmlər yaradılıb, prosedurların sayı 3-dən 1-ə, bunun üçün tələb edilən vaxt 5 gündən 1 günə endirilib;

– kredit alınması üçün bütün növ girovlara icazə verilib, yüklənmə müqaviləsində əsas öhdəliyin maksimal məbləğini göstərmək imkanı yaradılıb;

– xırda investorların hüquqlarının müdafiəsi gücləndirilib. Səhmdarlar öz fəaliyyəti ilə vurduğu ziyana görə direktoru məsuliyyətə cəlb edə bilərlər;

– sosial sığorta üçün ödəmələrin həcmi 22 faizdən 15 faizə endirilib, ƏDV-nin ödənilməsinin inzibati proseduru təkmilləşdirilib və indi bu prosedur elektron formada həyata keçirilə bilər. Vergi yükü əhəmiyyətli dərəcədə azaldılıb, mikro və kiçik biznes subyektlərinə əlavə vergi güzəştləri təqdim edilir;

– xarici ticarətin iştirakçıları tərəfindən “Yaşıl dəhliz” sistemindən daimi istifadə etmək hüququ alınması üçün xüsusi qaydalar tətbiq olunur, bu hüquqların müvəqqəti dayandırılması, ləğv edilməsi və bərpası imkanları var. Gömrük nəzarəti və gömrük rəsmiləşdirməsi daha sürətlə və daha şəffaf həyata keçirilir, fiziki gömrük yoxlamaları minimuma endirilib;

– xırda iddialar və xırda iddialar üçün meyarlar barəsində sadələşdirilmiş prosedurlar qəbul edilib. Məhkəmə tənzimləməsi standartları yaxşılaşdırılıb. “Vasitəçilik haqqında” Qanun qəbul edilib, müvafiq inzibati qaydalar işlənib hazırlanıb. Şikayətlərlə bağlı məhkəmə araşdırmalarının elektron xidmətinin tətbiq edilməsi sahəsində qanunvericilik təkmilləşdirilib;

– müflisləşmənin tənzimlənməsinin bərpası üçün kreditorların qruplara bölünməsi, hər qrupda ayrıca səsvermə və müəyyən qrupun bütün üzvlərinə vahid yanaşma tətbiq edilməsi barədə qanun qəbul edilib. Hərracların keçirilməsi vaxtı azaldılıb;

– beynəlxalq standartlara uyğun olaraq dövlət satınalmaları üçün qanunvericilik bazası təkmilləşdirilib (üç milyon dollara qədər dövlət satınalmaları yalnız elektron şəkildə həyata keçirilir). Ən müasir standartlar əsasında dövlət satınalmalarının vahid internet portalı və elektron satınalmalar modeli yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi prosedurları sadələşdirilib və tamamilə kompüterləşdirilib. Bundan əlavə, səmərəli idarəetmə sistemi yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi proseduru üçün zəruri vaxt 53 gündən 31 günə, tender təklifinin həcmi 5 faizdən 1 faizə endirilib və sair;

– aparılan islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə mövqelərinə müsbət təsir göstərib. Məsələn, Dünya Bankı tərəfindən dərc edilmiş “Doing Business 2020” reytinqində Azərbaycan islahatçı ölkələrin ilk iyirmiliyinə daxil edilib. Bütövlükdə, Azərbaycan “Doing Business 2020” reytinqində 190 ölkə arasında 34-cü yeri tutur. “Biznesin qurulması” indikatoruna görə ölkəmiz 9-cu yerdədir, yəni, 2017-ci ildəki mövqeyini qoruyub saxlayır. “Kredit alınması” göstəricisi üzrə Azərbaycan xeyli irəliləyib, 2017-ci ildə 22-ci yerdən 2019-cu ildə beşinci yerə çıxıb. “Tikinti üçün icazə alınması” göstəricisi üzrə 2017-ci ildəki 61-ci yerdən 2019-cu ildə 5-ci yerə çıxıb.[5] “Doing Business 2019” hesabatında Azərbaycan həyata keçirilmiş islahatların sayının ən çox olduğu dövlət hesab edilib. Yeni hesabatda ölkəmizin mövqeyi 2017-ci ildəki ilə müqayi-

sədə 32 bənd yaxşılaşıb. Nəticədə Azərbaycan dünyanın 190 ölkəsi arasında 25-ci yeri tutur.

Dünya İqtisadi Forumu tərəfindən 2019-cu il üçün dərc edilmiş qlobal rəqabətqabiliyyətlilik indeksinə görə, Azərbaycan 11 bənd irəliləyərək 62,7 bal ilə 141 ölkə arasında 58-ci yeri tutur.[6] O, MDB-nin digər ölkələrini 12 göstəricidən 8-nə görə qabaqlayıb və Rusiya Federasiyası və Qazaxıstandan sonra liderlərin ilk üçlüyünə daxil olub. Ən yüksək tərəqqi əmtəə bazarları (+27), makroiqtisadi sabitlik (+23) və əməyin ixtisaslılığı (+17) göstəriciləri üzrə müşahidə olunub. Ərzaq bazarı daha yüksək qiymətləndirilib – 10-cu yer. Bu göstərici daxili rəqabəti, ticarətin açıqlığını, gömrük rəsmiləşdirməsinin sürətini və sair meyarları əhatə edir. Borcların ödənilməsi (+47), büdcənin şəffaflığı (+45), kreditlərdə fərq (+40), əməkdaşlar üçün xərclərin kompensasiyası (+39) və audit və hesabat standartlarının möhkəmliyi (+33) dinamikasında daha böyük tərəqqi müşahidə olunur.

Azərbaycanın beynəlxalq mövqelərinin yaxşılaşması dünya iqtisadiyyatına inteqrasiyanın dərinləşməsində mühüm rol oynayır. İslahatların həyata keçirilməsi sosial-iqtisadi infrastrukturun tam modernləşdirilməsinə və biznes mühitin yaxşılaşdırılmasına şərait yaradır. Onlar ölkə iqtisadiyyatına daha çox investisiya cəlb etməyə, iqtisadiyyatın strukturunu yaxşılaşdırmağa, yeni iş yerləri yaratmağa, əməyin peşəkarlığını və məhsuldarlığını artırmağa imkan verir. Bunlar Azərbaycanda həyatın bütün sahələrinin modernləşməsi prosesinin sürətləndirilməsi üçün ciddi amillərdir.

Prezident tərəfindən 2019-cu ildə təqdim olunmuş, əhalinin rifahı sahəsində inqilabi dəyişiklikləri təmin edən sosial islahatlar paketi 4,6 milyon nəfəri əhatə edib. Sosial paketin etibarlılığı onun maliyyə təminatı ilə səciyyələnir. Bu məqsədlə 2019-cu ilin dövlət büdcəsindən 2 milyard 79 milyon manat vəsait ayrılıb, 2020-ci ildə isə 2 milyard 791 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Qeyd edilən sosial paket çərçivəsində ölkədə minimum aylıq əməkhaqqı 93 faiz artırılaraq 130 manatdan 250 manata çatdırılıb. Əməkhaqqının artırılması ölkədə orta aylıq əməkhaqqına təsir göstərəcək, onu 15 faiz artıraraq bu ilin sonunda 625 manata çatdırmağa imkan verəcək. Bununla bərabər, Prezident sosial paket çərçivəsində pensiyaların və sosial müavinətlərin məbləğini ikiqat artırıb. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin yeni aylıq təqaüdləri təsis edilib: I qrup əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud olan 18 yaşa qədər uşaqlara qulluq edənlər üçün 50 manat, müharibə veteranlarına 80 manat. Minimum pensiyanın məbləği 2019-cu il martın 1-dən 160 manata, oktyabrın 1-dən 200 manata çatdırılıb. Bu, o deməkdir ki, ölkədə minimum pensiyanın məbləği 72 faiz artırılıb. Prezident məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətin həcmini 50 faiz, tələbələrin təqaüdlərini 20 faiz artırıb.

Prezidentin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən bu sahədə yaranmış problemlərin kompleks həlli ilə yanaşı,

yeni, dünya miqyasında nadir mexanizm – xarici valyutada vaxtı keçmiş kredit borclarının ödənilməsi sahəsində dövlət dəstəyi mexanizmi yaradılıb. Bu Fərmanın icrası nəticəsində fiziki şəxslərin banklara xarici valyutada 10 000 ABŞ dollarına qədər əsas kredit borclarının manatın devalvasiyası ilə əlaqədar artmış məbləği hesablanaraq ödənilib. Nəticədə 710,3 min kredit sazişi üzrə 629 milyon manat kompensasiya ödənilib.

Azərbaycan Prezidenti İlham Əliyevin qurucu fəaliyyətini qeyd edərək, bir faktı xüsusi vurğulamaq istəyirəm ki, hələ 2003-2008-ci illərdə, yəni, özünün birinci prezidentlik müddətində o illərin çağırışlarını nəzərə alaraq fəal hücumçu tədbirlər kursunu seçmişdi. İlham Əliyev özünün bütün fəaliyyəti ilə sübut edib ki, ölkənin daxili problemlərini ciddi və güzəştsiz həll etmək, Azərbaycanın xarici siyasətini həyata keçirərkən milli mənafeləri müdafiə etmək əzmindədir. Artıq həmin prezidentlik dövründə aydın oldu ki, İlham Əliyev bu və ya digər problemin həllinə öz prinsipi, öz yanaşması, öz baxışı olan müstəqil şəxsiyyətdir. Onun xarakteri ümummilli lider Heydər Əliyevin şöhrətindən bəhrələnməyə imkan vermirdi, buna görə o, siyasi varis kimi ona qalmış irsi daha da inkişaf etdirməyə çalışırdı.

Rusiyalı məşhur politoloq, Azərbaycan üzrə mütəxəssis Oleq Sıqanovun fikri ilə tam razıyam. O yazır: “Tamamilə aşkardır ki, bu gün Azərbaycan siyasətində potensial baxımdan effektivliyə görə İlham Əliyev şəxsiyyəti ilə uzaqdan-uzağa da olsa bərabər tutula biləcək başqa bir şəxsiyyət yoxdur. Məsələ alternativin olmamasında deyil, sadəcə, Azərbaycanın və onun xalqının mənafelərinə İlham Əliyevdən daha artıq dərəcədə uyğun gələ biləcək şəxs yoxdur”.[7]

Bu fikir 2008-ci ildə söylənilmiş olsa da, 2019-cu ildə də öz aktuallığını itirməyib.

Bütün prezident seçkilərində (2003, 2008, 2013, 2018) İlham Əliyevin namizədliyi alternativsiz görünürdü, hərçənd başqa partiyalardan olan namizədlər vardı. Bunun bir neçə səbəbi var. Məsələn, 1988-ci ilin ortalarından 1993-cü ilin ortalarına qədər mövcud olmuş siyasi avantüradan təngə gəlmiş ölkə vətəndaşları Əbdürəhman Vəzirovu, Ayaz Mütəllibovu və Əbülfəz Əliyevi (Elçibəy) siyasi həyatdan uzaqlaşdıraraq dövlət idarəçiliyi sükanını böyük siyasi xadim və təcrübəli idarəçi Heydər Əliyevə etibar etdilər. On il sonra isə dövlət başçısı vəzifəsində fəaliyyətə başlamış İlham Əliyev Azərbaycan vətəndaşlarının nəzərində Heydər Əliyev siyasi kursunun sədaqətli davamçısıdır. Ölkənin neft və qaz hesabına əldə etdiyi milyardlarla gəlir, həmçinin son 16 ildə uğurlu daxili və xarici siyasət İlham Əliyevin hakimiyyətini möhkəmləndirib. O, haqlı olaraq ölkə Prezidenti vəzifəsində öz fəaliyyətinin nəticələri ilə fəxr edə bilər.

Prezident İlham Əliyevin dövlət idarəçiliyinin əsasını təşkil edən konkret prinsiplərin hər biri ölkənin inkişafının müəyyən sahəsini təmsil edir. Dövlətin strateji məsələlərin həlli üzrə praktiki siyasəti bu prinsiplər əsasında qurulur. Kitabın sonrakı fəsilləri bu prinsiplərə həsr ediləcək. Burada isə onlardan bir neçəsinin adını çəkəcəyəm.

Belə ki, ən mühüm prinsip ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsidir. Sabitlik olmadan müstəqil dövlət qurmaq və ölkənin ümdə problemlərini həll etmək mümkün deyil. Yalnız bu məsələni həll edəndən sonra sosial-iqtisadi məsələlərin həllinə, ölkənin ərazi bütövlüyünün bərpasına, demokratiyanın inkişafına, insan hüquq və azadlıqlarının müdafiəsinə, tarazlaşdırılmış xarici siyasət həyata keçirilməsinə başlamaq olar.

İctimai-siyasi sabitliyin bərqərar olması nəticəsində ölkə iqtisadi sahədə keçid dövrünü uğurla başa çatdırdı və onun liberal bazar iqtisadiyyatına keçidi təmin edildi. Nail olduğu yüksək iqtisadi inkişaf səviyyəsinə görə Azərbaycan “Doing Business”in hesablamalarına əsasən dünya ölkələri arasında “ən islahatçı dövlətdir”.[8]

Rusiyalı müəllif Aleksandr Karavayevin fikrincə, İlham Əliyev dövlətin davamlılığının təcəssümüdür. Vətəndaşlardan soruşanda ki, ölkənin durmadan inkişaf etməsinin rəhni nədir, onların cavabı belə olur: bunun rəhni Prezident İlham Əliyevdir. Prezidentə bu cür münasibət sistemi birdənbirə yaranmayıb. İlham Əliyev bu etimad kapitalını uzunmüddətli gərgin səylər və böyük zəhmət sayəsində qazanıb.

Ümumiyyətlə, etiraf etmək lazımdır ki, İlham Əliyev nadir şəxsiyyətdir. Onun simasında həm islahatçı, həm sabitlik, həm də daxili siyasi tarazlığın saxlanması amili cəmləşib.[9]

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasi irsinə sadiq qalaraq, iqtisadi, sosial və ekoloji amillər nəzərə alınmaqla, kompleks islahatlar keçirməklə Azərbaycanın davamlı inkişafını uğurla təmin edir.

Prezident dövlət idarəçiliyi sistemində də islahatlar aparır: dövlət orqanlarının strukturu təkmilləşdirilir, bu orqanların, həmçinin dövlət qulluqçularının sayı nəzərəçarpacaq dərəcədə azaldılıb, kadrların tərkibi Qərbdə və Cənubi Asiya ölkələrində ən yaxşı ali məktəblərdə təhsil almış gənc mütəxəssislər hesabına yenilənir. Yeni idarəçilər elitası formalaşır.

Futuroloqların proqnozlarına görə, 2025-ci ilə qədər sabit inkişaf edən ölkələrdə, o cümlədən Azərbaycanda “common brain” (hərfi tərcüməsi “ümumi beyin”, “ümumi zəka” deməkdir) deyilən tamamilə yeni siyasi elita formalaşacaq. Bu, hər hansı radikallıqdan, dağıdıcı inqilabilikdən uzaq olan yüksək intellektli və praqmatik funksionerlərin ciddi strukturlaşdırılmış, iyerarxiya baxımdan nizamlanmış vahid komandası olacaq. Həmin komandaya yenə də birləşdirici siyasi lider İlham Əliyev başçılıq edəcək, o, idarəetmə sisteminin əsas rəhbəri funksiyasını yerinə yetirməkdə davam edəcək.

Heç də təəccüblü deyil ki, “informasiya cəmiyyəti”nin yaradıldığı əsrdə ölkənin idarə edilməsi müəyyən mənada “kompüter şəbəkəsində inzibatçılığı” xatırladacaq. Azərbaycanda artıq fəaliyyətə başlamış “elektron hökumət” dövlət məsələlərini səmərəli və operativ həll etməyə imkan verir.

Beləliklə, Azərbaycanda yaradılmış dövlət idarəçiliyi sistemi keyfiyyətcə yeni idarəçi kadrlar üçün nəzərdə tutulmuş, tamamilə yeni əsaslar üzərində qurulmuş vahid mexanizm olacaq. Həm ölkənin da-

xili inkişafını, həm də xarici aləmlə əlaqələri nizamlayan mexanizmlər məhz bu sistemin tələblərinə uyğunlaşdırılmış uzunmüddətli dinamizmi xatırladacaq. Rəhbərlik sahəsinə təsadüfi və ya siyasi idarəçilik sistemindən bixəbər funksionerin gəlməsi həm ölkə əhalisi üçün, həm də əcnəbi investorlar üçün ciddi problemlər yarada bilər. Hətta bu sistemə qoşulmuş yüksək təhsilli kadrın zəruri keyfiyyətləri yoxdursa (əgər həmin şəxs radikallıq, destruktivlik kimi sistemsiz keyfiyyətlərə malikdirsə), o, dövlət idarəçiliyi prinsiplərinə öz yanaşmalarını tətbiq edə bilər. Bu, inkişafın siyasi kursuna mənfi təsir göstərəcək. Bu isə həm arzuedilməz, həm də bütövlükdə yolverilməzdir.

XXI əsrdə həm bəşəriyyətin, həm də konkret dövlətin qarşısında duran keyfiyyətcə yeni məsələləri keyfiyyətcə yeni siyasi elita həll etməlidir. Bu, peşəkar həmfikirlər komandasıdır. Onun hər bir üzvü dövlət idarəçiliyinin konkret istiqaməti üzrə mütəxəssisdir. Geniş təhsilli, yüksək intellektual keyfiyyətlər, müəyyən idarəçilik təcrübəsi, işgüzar ünsiyyət vərdişləri, iyerarxik sistemə uyğunlaşmaq bacarığı – bütün bu və digər keyfiyyətlərin məcmusu komandanın hər bir üzvünə xas olmalıdır. Prezidentin komandasına müvafiq dünyabaxışına və mənəvi keyfiyyətlərə malik olan, İlham Əliyevi sözdə deyil, əməli işdə dəstəkləyən müasir təfəkkürlü və istedadlı təşkilatçılar gəlməlidirlər. Ən başlıcası, onlar əsl dövlətçilər olmalı, xalqın və dövlətin mənafelərini hər şeydən üstün tutmalıdırlar.

Siyasi ədəbiyyatdan elita nümunələri məlumdur: "Çikaqolu oğlanlar", "Harvard komandası", öz ideyalarını müxtəlif ölkələrin dövlət siyasəti formasında reallaşdıran həmfikirlərin digər kreativ qrupları.

Ekspertlərin fikrincə, Prezident İlham Əliyev dövlət idarəçiliyi prinsiplərinin dürüst sistemini qurub. Bu sistem XXI əsrdə qloballaşma proseslərinin fəallaşması və daim artan informasiya axını şəraitində milli mənafelərə uyğundur.

Bu prinsiplər sistemi ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilmiş ölkənin inkişaf strategiyasına tam uyğun gəlir. Çox sevindirici haldır ki, milli lider və dövlət başçısı İlham Əliyevə operativ qərarlar qəbul etmək, çoxvariantlı idarəçilik və böhranlı vəziyyətlərin kollektiv nizamlanması modellərini tətbiq etmək, beynəlxalq əlaqələrin həyata keçirilməsində çoxpilləli manevrlərdən istifadə etmək, xaricdən informasiya təsirinin artmasını nəzərə almaq, idarəetmə prosesinin qapalı seqmentlərinin məxfiliyini təmin etmək kimi keyfiyyətlər xasdır.

Müasir şəraitdə xalq kütlələri qarşısına çıxmaq, mitinqlərdə çıxış etmək, KİV-lərə müsahibə vermək kimi işləri, bir qayda olaraq təkcə liderlər özləri deyil, həm də onların imicmeykerləri, idarəçiləri, siyasi texnoloqları, politoloqlar, dövlət strukturlarının məsul işçiləri həyata keçirir və bütün bunlar aparılan işin tərkib hissəsi kimi reallaşır. Burada 1992-1993-cü illərdə ölkə ictimaiyyətini və onun hüdudlarından kənarda çoxlarını qıcıqlandırmağı öyrənmiş Azərbaycan müxalifətinin yürütdüyü populist qarşıdurma siyasətinə yer yoxdur, buna görə də mitinq burulğanına və yaxın keçmişin digər dağıdıcı hadisələrinə də yer yoxdur.

Azərbaycanda indiki siyasi və sosial-iqtisadi vəziyyətin təhlili göstərir ki, bu gün ölkədə praqmatik intellektuallardan ibarət komanda formalaşdırmağa qabil olan şəxsiyyət 2003-cü ilin oktyabrından hakimiyyətdədir. Azərbaycan xalqı onunla fəxr edə bilər. Bu, ölkədə daxili, ictimai, siyasi, iqtisadi və mədəni şəraiti çox gözəl başa düşən, energetika kimi mühüm sahədə zəngin təcrübə toplamış, qətiyyətli diplomatik vərdişlərə malik olan İlham Əliyevdir. Milli Olimpiya Komitəsinin prezidenti kimi İlham Əliyev özünü respublikada idman hərəkatının böyük təşkilatçısı kimi göstərib. O, bilavasitə Prezident Heydər Əliyevin rəhbərliyi ilə çox gözəl dövlət idarəçiliyi məktəbi keçib. Onun rəhbərliyi ilə ölkədə qazanılmış siyasi və sosial-iqtisadi nailiyyətlər, milli ideyaya sədaqət, təşkilatçılıq qabiliyyəti buna dəlalət edir ki, İlham Əliyev yeni minillikdə Azərbaycan xalqının ümummilli lideridir.

Bununla bərabər, İlham Əliyevin bütün dövləti fəaliyyəti onun dünyada həm müasir dövrün böyük siyasi xadimi, həm də görkəmli islahatçı kimi çıxış etməsinə əsas verir.

Beynəlxalq arenada tanınmış belçikalı siyasətçi An-Mori Lizii hələ 2010-cu ildə AZƏRTAC-ın xüsusi müxbiri ilə söhbətində demişdi: "Beynəlxalq arenada artıq islahatçı Prezident kimi tanınmış İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan modernləşib və inkişaf etmiş ölkəyə çevrilib.

Prezident İlham Əliyev təcrübəli dövlət başçısı və uzaqgörən siyasi xadim keyfiyyətlərini ümummilli lider Heydər Əliyevdən əxz edib. Heydər Əliyev SSRİ dağılandan sonra ağır vəziyyətdə olan Azərbaycanı inkişaf yoluna çıxartdı. Prezident İlham Əliyev bu gün öz ölkəsinin perspektivləri və işıqlı gələcəyi barədə düşünən dövlət başçısıdır. Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin siyasətini davam etdirərək Rusiya və Avropa ölkələri ilə yaxşı münasibətlər yarada bilib. Bu, inkişaf etməkdə olan Azərbaycan üçün çox mühüm məsələdir".[10]

Radikal müxalifət tərəfindən İlham Əliyevə hücumlar zamanı istifadə edilən tezislərdən biri belədir: "Prezidentin oğlu ümummilli miqyaslı lider ola bilməz, çünki o, gərgin siyasi mübarizədə, mitinqlər burulğanında, müxalifət ilə iqtidarın qarşıdurmasında sınaqlardan keçməyib". Həmişəki kimi, radikal müxalifət ictimaiyyəti çaşdırmağa çalışır.

İlham Əliyevin belə adlandırılan "inqilabi keçmişi"nin olmaması həm daxili ictimai rəydə, həm də xarici siyasətdə onun xeyrinədir. Radikal müxalifət başa düşə bilmir ki, bu gün İlham Əliyevin "XXI əsrdə tələb edilən yeni tipli lider" kimi tanınmasında məhz bu amil əsas şərtdir.

Hərçənd, qeyd etmək lazımdır ki, radikal müxalifətin nümayəndələri zamanın onların xeyrinə işləmədiyini çox yaxşı başa düşürlər. Həqiqətən, "radikallar", "inqilabçılar", "dağıdıcılar" yeni siyasi meyillər tərəfindən tarixin küncünə sıxışdırılır, onlar üçün fəaliyyət meydanı isə günbəgün daralır. Bu, təkzibedilməz faktdır. Azərbaycanın timsalında görünür ki, ən iddialı nümayəndələr, həmçinin öz təşkilatlarının çoxdan keçmişdə ilişib qaldığını başa düşənlər belə adlandırılan "milli radikallar" sıralarını tərk edirlər.

*(Davamı növbəti sayımızda)*

# HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK MƏKTƏBİ AZƏRBAYCANIN DAVAMLI İNKİŞAFININ TƏMƏLİ VƏ QARANTIDIR

***Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan Respublikasının qurucusudur və bu gün ölkə beynəlxalq təşkilatların qiymətləndirilmələrinə əsasən innovativ idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqinə görə dünya liderləri sırasındadır.***

Belə yüksək dəyərləndirmə ölkənin tarixi baxımdan qısa müddət ərzində iqtisadi, sosial, humanitar sahələrdə yüksək nəticələr qazanması ilə əlaqədardır. Bu gün BMT, Dünya Bankı, Davos Dünya İqtisadi Forumu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, dünyanın beynəlxalq inkişafı təhlil edən digər təşkilatlarının rəsmi hesabatlarında daim Azərbaycanın innovativ inkişaf sahəsində qazandığı yüksək nailiyyətlər barədə məlumatlar tirajlanır. Ölkənin iqtisadi, sosial və humanitar sahələrdə qazandığı nailiyyətlərinə işıq salan beynəlxalq təhlillərin sayı gündən-günə artmaqdadır.

Bu uğurların daha çox və əsasən son illərdə qazanılmasına baxmayaraq, onların əsasında Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal istedadı və yorulmaz fəaliyyəti durur.

Dərin və hərtərəfli bilik, yüksək iradə, qətiyyətlilik, ölkə və ətrafında baş verən mürəkkəb prosesləri hər zaman təhlil etmə və düzgün qiymətləndirmə bacarığı, gələcəyi aydın görə bilmək qabiliyyəti Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin uğurlarını şərtləndirən başlıca amillərdir. O həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik illərində xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Sovet dövründə Heydər Əliyev ölkə rəhbərliyini qəbul etdiyi zaman Azərbaycan Respublikası keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında ən geridə qalanlar sırasında idi. Qısa müddət ərzində Ümummilli Lider Heydər Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan Respublikası öz iqtisadiyyatının, sosial göstəricilərinin ən yüksək səviyyəyə qalxmasına nail oldu. Məhz onun müdrik siyasəti sayəsində Azərbaycan keçmiş SSRİ-nin öncül respublikasına çevrildi. Həmin illərdə Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə qalxmışdır ki, ölkə nəinki öz tələbatlarını təmin edirdi, eyni zamanda donor kimi çıxış edirdi. Keçmiş SSRİ-nin tərkibinə daxil olan 15 ölkə arasında ancaq 2 respublikada iqtisadiyyat belə yüksək səviyyədə idi. Qısa müddətdə bu irəliləyiş Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal bilik və bacarığının nəticəsi idi.

Heydər Əliyevin rəhbərliyi ilə ölkədə qazanılmış yüksək nailiyyətlərin əsasında Ümummilli Liderin fərdi liderlik istedadı ilə yanaşı, onun kadr potensialının forma-

laşdırılması və bu əvəzsiz sərvətin səfərbər edilməsi sahəsində xüsusi bilik və bacarığı, uzaqgörənliyi durur. Hələ Sovet dövründə Ümummilli Liderin təşəbbüsü ilə ölkənin minlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müasir biliklərin alınması və bacarıqların formalaşdırılması üçün göndərilirdi. Gənclərin təhsili həm mülki, həm də hərbi ali məktəblərdə həyata keçirilirdi. Prosesin iştirakçısı kimi, Ulu Öndər Heydər Əliyev bu prosesi daim diqqət mərkəzində saxlayırdı və səfərləri zamanı ölkədən kənarda təhsil alan tələbə və aspirantlarla şəxsən görüşürdü. O, bu görüşlər zamanı tələbələrin qayğıları ilə maraqlanır, onların problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi. Bu gün artıq müstəqil Azərbaycan Respublikasının inkişafında o zaman bu proqram çərçivəsində təhsil almış mütəxəssislərin rolu olduqca əhəmiyyətlidir. Eyni zamanda, bu proses xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması və güclənməsi baxımından böyük önəm daşımışdır.

Qeyd etmək lazımdır ki, ölkə gənclərinin hərbi məktəblərdə təhsil alması da vacib məqamlardandır. Ümummilli Lider Heydər Əliyevin hələ SSRİ dönəmində bu vacib istiqaməti diqqət mərkəzində saxlaması onun uzaqgörənliyinin təzahürüdür. Müstəqil Azərbaycanın hazırkı hərbi qüdrəti o zaman bu sahə üçün kadr hazırlığından qaynaqlanır. Bu kontekstdə eyni zamanda ölkədə C. Naxçıvanski adına hərbi liseyin açılmasını və fəaliyyətini də qeyd etmək yerinə düşər.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş kadr potensialının formalaşdırılması siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülmüş "qara qızılın insan qızılına çevrilməsi" konsepsiyası ölkə gəncləri üçün aparıcı xarici dövlətlərdə təhsil almaq imkanı yaratmışdır. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkənin kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi sahəsində fəaliyyəti də olduqca əhəmiyyətli və məhsuldardır. Onun təşəbbüsü ilə həyata keçirilən yeni məktəblərin inşası, tədris proqramlarının muasirləşdirilməsi, təhsilin inklüzivliyinə yönəldilmiş fəaliyyət, rəhbərlik etdiyi qurumlarda müasir kadrların hazırlanması və imkanlarının genişləndirilməsi yeni nəsil peşəkarlar ordusunun formalaşmasına xidmət edir. Müstəqil Azərbaycanda müasir tələblərə cavab verən kadr potensialının formalaşması sahəsində qazanılan nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin vaxtilə bu prosesi düzgün təməllər əsasında qurmasının nəticəsidir.

Ümummilli Lider Heydər Əliyev fenomeninin bir təqdirəlayiq cəhəti də gələcək perspektivləri düzgün müəyyənləşdirməsi və hərtərəfli inkişaf, o cümlədən insan potensialının inkişafına yönəlik yeni istiqamətlərdə qabaqlayıcı tədbirlərin reallaşdırılması ilə bağlı idi. Məsələn, hazırkı nəsillərin rifahını təmin edən və gələcək nəsillərin inkişaf imkanlarını məhdudlaş-

dırmayan davamlı inkişaf XXI əsrdə dünya üçün qlobal prioritetdir. 2015-ci ilin sentyabr ayında ABŞ-ın Nyu York şəhərində keçirilmiş dünya sammiti və BMT-nin 70-ci yubiley sessiyası davamlı inkişafın təmininin Yer kürəsində həyatın qorunması baxımından həlledici önəmini elan etmiş və bu sahədə 2030-cu ilə qədər bəşəriyyət qarşısında duran məqsədləri müəyyənləşdirmişdir. Həmin məqsədlərə nail olmaq üçün dünya əhalisi davamlı və insan potensialına əsaslanan inkişaf sahəsində müvafiq bilik və bacarıqlara malik olmalı idi. Göstərilən sahədə bilik və bacarıqların formalaşması üçün BMT və UNESKO 2005-2014-cü illəri dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan etmişdir. Sözügedən beynəlxalq təşkilatlar tərəfindən belə bir qərarın verilməsi məntiqi çox anlaşılan idi: 2005-2014-ci illərdə dünya əhalisi davamlı insan potensialına əsaslanan inkişaf, onun mahiyyəti və metodları barədə bilikləndirilir və 2015-ci ildən başlayaraq, göstərilən sahədə praktiki fəaliyyətə start verilir. Bu barədə sənəd 2005-ci il martın 1-də Nyu Yorkda, BMT-nin ozamankı baş katibi Koffi Annan və UNESKO-nun baş direktoru Koichiro Matsuura tərəfindən imzalanmışdır.

Davamlı inkişafın bəşəriyyət üçün prioritet əhəmiyyətini Ümummilli Lider Heydər Əliyev daha tez müəyyən edə bilmişdir. Onun təsdiq etdiyi Milli Təhsil Strategiyası artıq 2000-ci ildə orta ümumtəhsil məktəbləri və ali məktəblərdə davamlı insan inkişafının tədrisini nəzərdə tuturdu.

Təqdim olunmuş məlumatlardan aydın olur ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan Respublikasında davamlı inkişaf sahəsində biliklərin tədris prosesinə daxil edilməsi və bu sahədə kadr potensialının formalaşdırılmasına BMT və UNESKO tərəfindən qəbul olunmuş qərardan 4 il qabaq başlanılmışdı. Azərbaycanın bu qabaqlayıcı fəaliyyəti barədə məlumatı BMT Baş Qərargahı (Nyu York) 19 dekabr 2005-ci ildə "İdeyalar, innovasiyalar və təsirlər” başlığı altında dünyaya yayılmışdır. Azərbaycanın bugünkü uğurları məhz kadr potensialının hazırlanması və daimi təkmilləşdirilməsi ilə əlaqədardır. Bu prosesin əsası isə Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və bu unikal xüsusiyyətin inkişaf prosesinə təsirinə dair çox misallar gətirilə bilər. Bu misallardan biri Azərbaycan üçün önəmli sayılan neft sahəsi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının bünövrəsinin əsasən 1994-ci ildə imzalanmış "Əsrin müqaviləsi” kimi tanınan, dünyanın aparıcı neft şirkətləri ilə bağlanmış müştərək fəaliyyətə dair müqavilələrlə qoyulduğunu vurğulayırlar. Lakin bu strategiyanın formalaşma tarixini Bakıda dərin özüllər zavodunun inşası dövrü ilə əlaqələndirmək daha doğru olar. Hazırda Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu müəssisənin təməli 1978-ci ildə qoyulmuş və zavod istismara 1984-ci ildə verilmişdir. Bakıda qurulmuş dərin özüllər zavodu o

zaman keçmiş SSRİ-də bu tipli avadanlığı istehsal edən yeganə müəssisə idi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində bu müəssisənin Sovet dönəmində Bakıda qurulması müstəqillik dövründə ölkədə həyata keçirilən neft və qaz layihələrini sürətləndirdi və onların iqtisadi səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəltdi. Şübhəsiz ki, bu, Ulu Öndər Heydər Əliyevin eyni zamanda bu sahədə də dərin biliklərə malik olmasından xəbər verir.

Ulu Öndər Heydər Əliyev ömrü boyu ölkənin inkişafı üçün çalışmışdır. Onun bilik və bacarığı, cəsarəti, qətiyyətli və prinsipial fəaliyyəti ölkənin müstəqillik qazanmasının vacib şərtidir. Bakıda baş vermiş 20 Yanvar faciəsi zamanı Moskvada böyük təzyiqlər altında olan Ulu Öndər Azərbaycan Respublikasının daimi nümayəndəliyinə gəlmiş və bu cinayətlə bağlı prinsipial mövqeyini ortaya qoymuşdur. Belə qətiyyətli hərəkət eyni zamanda özü, onunla birgə həmin tədbirdə iştirak edən ailə üzvü, hazırda ölkə Prezidenti İlham Əliyev üçün olduqca böyük risk idi. Ümumiyyətlə, qeyd edilməlidir ki, ölkənin ən çətin anlarında Ümummilli Lider misilsiz cəsarət örnəyi nümayiş etdirmişdir. Bu, özünü həm Xalq Cəbhəsinin ölkədə yarıtmaz fəaliyyəti dövründə, həmçinin bu yarıtmaz fəaliyyətin ağır fəsadlarının aradan qaldırılması zamanı da biruzə vermişdir. Dövlət idarəçiliyindən xəbəri olmayan, tutduqları vəzifələrin məsuliyyətlərini dərk etməyən həmin dövrdəki hakimiyyət təmsilçiləri ara-sıra işlərini qoyub paytaxtdan köç edir, vəzifələrini dondurur və digər yolverilməz məsuliyyətsizlik nümunələri ortaya qoyurdular. Bu ona bənzəyirdi ki, gəmini idarə edə bilməyən kapitan öz bacarıqsızlığı nəticəsində gəmini çox mürəkkəb, praktiki olaraq çıxılmaz vəziyyətə salır, sonra isə çarəsiz sərnişinləri idarə olunmayan gəmidə qoyub sahilə çıxır və elan edir ki, mən bu gəmini sahildən idarə edəcəyəm. Belə bir şəraitdə xalq yalnız Heydər Əliyevi xilaskar simasında görürdü. Xalq anlayırdı ki, Ümummilli Liderin Naxçıvan Respublikasında həyata keçirdiyi dərin düşünülmüş strateji dövlət idarəçilik təcrübəsi Azərbaycanın müstəqilliyini qorumaq baxımından həlledici əhəmiyyətə malikdir. O dönəmdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist” sözlərinin çıxarılması, respublikamızın SSRİ-nin tərkibində qalmasına dair referendumda iştiraka qarşı çıxması, dövlət simvollarının qəbulu və digər xidmətlər tarixi önəm daşıyırdı. Xalqın təkidli tələbləri ilə rəhbərliyə gəlmiş Ümummilli Lider ölkəni parçalanma, suverenliyin itirilməsi riskindən xilas etdi. Onun cəsarəti və müdrikliyi ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. Silahlı separatçılarla silahsız Ümummilli Liderin görüşləri respublikada vətəndaş qarşıdurmasının aradan qalxmasını təmin etdi.

Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin miqyası onun qurucusu olduğu Azərbaycan Respublikasının bugünkü nailiyyətlərində özünü biruzə verir. Beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə, bu

gün Azərbaycan Respublikası iqtisadi imkanlarını ölkənin hərtərəfli inkişafı və insanların rifahının artırılması məqsədi ilə daha səmərəli istifadə edən dünya dövlətləri sırasındadır. Azərbaycan Respublikasının bu göstəricilərinin "böyük yeddilik" (G7) ölkələri ilə müqayisəsi şəkil 2-də nümayiş etdirilir.

Ölkənin hərtərəfli inkişafı və bu prosesin bütün əhalinin rifahının yüksəlməsinə xidmət edən inklüziv inkişafın məqsədlərinə nail olmaq üçün Azərbaycan G7 ölkələri ilə müqayisədə daha az vəsait sərf edir. Buna baxmayaraq, Davos Dünya Forumunun hesabatına əsasən, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 təşkil etdiyi halda, "böyük yeddiliyə" daxil olan ABŞ-da eyni göstərici 4,60, Yaponiyada 4,53, İtaliyada isə 4,31-dir. Az vəsait hesabına daha yüksək nəticələrin əldə edilməsi ilk növbədə dövlətin yüksək səviyyədə idarə edilməsi, yeni, daha optimal idarəetmə texnologiyalarının istifadəsindən xəbər verir. Bu idarəetmə texnologiyalarının işlənməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu texnologiyaların ölkə Prezidenti İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun inkişaf etdirilməsi və təkmilləşdirilməsi Azərbaycanı davamlı inklüziv inkişafın idarə edilməsində dünya liderləri səviyyəsinə yüksəltmişdir. Göründüyü kimi, Ulu Öndərin irsi bu gün də Azərbaycanın innovativ inkişafına xidmət edir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dünyada tanıdılması üçün hər zaman böyük əzmlə çalışmışdır. Hazırda bu sahədə olduqca əhəmiyyətli fəaliyyəti onun adını daşıyan fond həyata keçirir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə fəaliyyətini inkişaf etdirərək, UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına 2003-2017-ci illərdə Azərbaycanın 13 milli nominasiyasının daxil edilməsinə nail olmuşdur. Bu nominasiyalar sırasında muğam, Novruz, aşıq sənəti, tar və tar ifaçılığı, kəlağayı, çovqan – atüstü ənənəvi Qarabağ oyunu və digərləri yer alıb. Təbliğ edilən mədəni irslə bağlı bilgilər yüz və minillərlə məlumdur. Lakin onların UNESKO-nun siyahısında populyarlaşdırılmasına 2003-cü ildən sonra ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyi nəticəsində nail olunmuşdur. Bu fakt bir daha göstərir ki, Ümummilli Liderin kadr siyasəti bu gün də işləyir və Azərbaycanın inkişafına töhfələrini verməkdədir. Heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin özünün təbirincə desək, zamanında düzgün müəyyənləşdirilən strategiyanın nəticəsi olaraq, "Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

**Urxan ƏLƏKBƏROV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik.**

# DAHİ SİYASƏTÇİ, GÖRKƏMLİ DÖVLƏT XADİMİ, ÜMUMMİLLİ LİDER

***Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan bir sıra tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları olmuşdur. Onlar zaman-zaman xalqımızın tarixində gördükləri böyük işlər və əməllərlə yadda qalmış və unudulmamışlar. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının unudulmaz rəhbəri, görkəmli dövlət xadimi və dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Çünki tarix boyu Azərbaycanın dövlət xadimlərindən yalnız o, ümummilli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.***

***Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz ən böyük azərbaycanlı idi.***

**Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.**

**Çingiz AYTMATOV,**
**qırğız yazıçısı.**

Ulu öndər Heydər Əliyev dünyanın bənzərsiz, böyük amalları və misilsiz əməlləri ilən seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə ilahi vergidir. Buna Allahın bəxş etdiyi liderlik deyirlər. Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Digər vacib məqam səlahiyyət məsələsidir. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, çəkisi olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi

və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diqtə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə qurucu rəhbər deyil, həm də çağırışlarının çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi.

Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqa rəhbər şəxslərə nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir keyfiyyətdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara – zəmanəsini xeyli qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti, yüksək intellekti və dünya gerçəkliyinə dərin bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşıya qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və başqa cəhətlər Heydər Əliyevin fərdi naturasının özəl çaları idi.

Ümummilli lider Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir. Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi ilə hər cəhətdən ölçülüb biçildiyindən ətraflardakını heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar.

Ulu öndər siyasi uzaqgörənliyi, fitri istedadı, müdrikliyi, ölçülüb-biçilmiş qərarları, qətiyyətliliyi, siyasi iradəsi, dərin zəkası, ensiklopedik biliyə malik olması, geniş dünyagörüşü, milli maraqlara əsaslanması, tarixi şəraitdən düzgün baş çıxarması, zaman və məkan amilini obyektiv qiymətləndirməsi, dözüm və səbrliliyi, nəzəriyyəyə istinad etməsi və praktik həyatdan baş çıxarması – bir sözlə fenomenal şəxsi keyfiyyətləri onu qüdrətli siyasi və dövlət

xadimi səviyyəsinə ucaltmışdır. Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə "təftiş" ediləndə belə, irad tutulması, "nöqsan deyiləsi" olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Böyük öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini öncədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı bir zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, "biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin məsələni kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, maarif, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Onun kimi iqtisadiyyatı təsərrüfatçıdan, keçmişimizi tarixçidən, incəsənətimizi sənətşünasdan... yaxşı bilən, onun problem-

lərini həll etməyə istiqamətləndirən ikinci lider tapmaq mümkün deyildi.

Ulu öndər Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi kimi bu insan çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və ölkəmizi dünyaya tanıdan lider kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyildir. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun ümummilli liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu özü xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən ümummilli lideri olmuşdur.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilir. Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa da, Heydər Əliyevin böyük siyasi xadim olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmayıb. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi.

Təkcə belə bir faktı göstərmək kifayətdir ki, ötən illər də Braziliyanın "Planetin səsi" qəzeti doqquz dövlətin jurnalistlərinə "dünyanın hansı üç super siyasətçisinin adını çəkə bilərsiniz?" – sualını vermiş və altı dövlətin jurnalistləri birinci olaraq ümummilli lider Heydər Əliyevin adını çəkmişdilər. Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti, iti düşüncəsi, əqidə və məsləki ilə, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları ilə bağlıdır.

Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və pozitiv inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə qiymətləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmiş, ondan çox şey öyrəndiklərini

bildirmişlər. Onun haqqında deyilən söz, verilən qiymət tariximizin yaddaşına köçmüşdür.

Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraiti düzgün qiymətləndirirdi, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir.

Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi idi. Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi  onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də “sülh dili” ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi.

Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Azərbaycan xalqının ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. O, Azərbaycan tarixində, bəlkə də, yeganə siyasət adamıdır ki, fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edir. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, bitkin tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi bir dövlət başçısı kimi onun ən yüksək keyfiyyətləri idi.

Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq

qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı və yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi idi. "Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir" deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrosmeysteri", "siyasət patriarxı" kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərlə formalaşmış fikirdir, özü də doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, mili iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir. Çünki o, bir neçə on il bundan sonra görüləcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqqörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişmiş insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olmuş Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.

Bu gün ölkəmiz bu siyasətin uğurlarından gen-bol faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin ən layiqli siyasi varisi Prezident İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə qələbədən-qələbəyə irəliləyir. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və dövlət başçısının ətrafında daha sıx birləşir.

Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunu artırır.

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan Bölməsinin sədri,**
**akademik.**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAF STRATEGİYASI

**Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram çoxminillik tariximizin heç bir dövründə heç bir dövlət rəhbərinə nəsib olmamışdır. Ulu öndər Heydər Əliyevi xalqımızın qəlbində bu qədər ucalığa yüksəldən, müqəddəsləşdirən isə onun Azərbaycana olan böyük sevgisi olmuşdur. Azərbaycanın müdrik və qüdrətli oğlu bütün şüurlu həyatını Vətəninin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində, böyük çətinliklər bahasına bu istəyinə çatmışdır.**

***Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ümummilli lider Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik illərində bu istəyinə çatmağın başlıca təminatı olaraq iqtisadiyyatın inkişafına böyük önəm vermişdir. Siyasi liderlik bacarığına, idarəçilik təcrübəsinə mükəmməl yiyələnmiş ulu öndər həmişə belə hesab edirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafı üçün tarixi xidmətlər göstərmişdir.

Sovet zamanında ittifaqa daxil olan respublikaların rəhbərləri bir qayda olaraq mərkəzdən müəyyən edilən qaydalar əsasında fəaliyyət göstərirdilər. Hər bir mühüm məsələ SSRİ dövlətinin nəzarətində idi. Lider kimi fəaliyyət göstərmək üçün çoxlu məhdudiyyətlər var idi. 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev də bütün bu məhdudiyyətlərlə, çətinliklərlə üzləşməli olmuşdu. Üstəlik, respublika iqtisadiyyatında, sözün əsl mənasında, ağır vəziyyət yaranmışdı: bütün əsas sosial-iqtisadi göstəricilərə görə Azərbaycan ittifaqda axırıncı yeri tuturdu.

Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı mə-

sələlər qaldırdı və qısa vaxt ərzində sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarlarının qəbul edilməsinə nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik aradan qaldırıldı, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü.

Heydər Əliyev qəti qərara gəlmişdi ki, respublika iqtisadiyyatının uzaq gələcəyə yönələn inkişafı elmi-texniki tərəqqini müəyyən edən sahələrin daha üstün inkişafından çox asılı olacaq. Bu strateji xətti həyata keçirmək üçün Heydər Əliyev titanik fəaliyyət göstərdi, ciddi maneələrin aradan qaldırılmasına nail oldu. 1976-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanda sənayenin təkmilləşməsinə dair çox mühüm sənəd qəbul etdi. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan sənayesinin inkişafı tarixində mühüm rol oynayan bu proqramın uğurla reallaşması üçün böyük təşkilati iş aparıldı. Nəticədə, sənayenin vacib proporsiyaları xeyli yaxşılaşdı, yeni tipli müəssisələr, istehsal sahələri istifadəyə verildi, on minlərlə yeni iş yeri yaradıldı. Sənayenin ixrac potensialı xeyli artdı, istehsalın mədəni-texniki səviyyəsi yüksəldi.

1976–1980-ci illərdə Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxdı. Sənayenin strukturunda maşınqayırma və metal emalı sənayesinin payı 1965-ci ildəki 10 faizdən 16,3 faizə qalxdı. Elmi-texniki tərəqqini müəyyən edən sənaye sahələrində istehsalın həcmi əvvəlki onillikdəki səviyyəyə nisbətən 2,4 dəfə artdı. 1970-ci illər Azərbaycan tarixinə, sözün əsl mənasında, sənayenin intibah dövrü kimi daxil oldu.

XX əsrin əvvəllərində, istərsə də sovet hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatında əsas rolu neft sənayesi oynayırdı. Heydər Əliyev iqtisadiyyatın maddi-texniki bazasında yaranmış geriliyin aradan qaldırılması, qeyri-neft sahələrinin üstün inkişafının təmin edilməsi üçün əsaslandırılmış təkliflər hazırladı. 1971–1975-ci illərdə respublika iqtisadiyyatına əvvəlki 5 ildəkindən 30 faiz çox vəsait qoyuldu, 64 iri sənaye müəssisəsi istifadəyə verildi.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə bağlı müəyyən etdiyi strategiyada aqrar sektor xüsusi yer tuturdu. 1960-cı illərdə Azərbaycan kəndində əhalinin yarısı yaşayırdı, kənd təsərrüfatında istehsal olunan milli gəlir də böyük çəkiyə malik idi. 1971-1975-ci illərdə kənd təsərrüfatında da əvvəlki 5 ilə nisbətən məhsul istehsalı 34 faiz artdı, bir sıra vacib sahələrdə yüksək göstəricilərin əldə edilməsinin möhkəm təməli yarandı. 1976--1980-ci illərdə Azərbaycan kənd təsərrüfatının ümumi məhsulunun artımına görə ittifaqda birinci yerə çıxdı.

1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı göstəriciləri tarixi inkişafın ayrı-ayrı dövrləri ilə müqayisə etdikdə, birmənalı olaraq bu nəticəni çıxarmaq olar: Azərbaycanın 1969--1985-ci illəri əhatə edən dövründə iqtisadiyyatda yüksək artım sürəti təmin edilmiş, onun keyfiyyət göstəriciləri əsaslı surətdə yaxşılaşmışdır. Bütün bunlar isə müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşması və inkişafında müstəsna rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin böyük Vətən sevgisi, xalq məhəbbəti onu Azərbaycanın xilası üçün qorudu. 1993-cü ilin may-iyununda dövlət müstəqilliyinin ilk addımlarını atan Azərbaycanda hakimiyyət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsi və suverenliyin itirilməsi təhlükəsi yarandıqda xalqımız mövcud hakimiyyətin dəyişməsini təkidlə tələb etməklə, taleyini qəti surətdə ümummilli lider Heydər Əliyevə etibar etdi.

Zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdı, respublikanı ağır fəlakətdən qurtarmaq üçün ölkənin tarixi-iqtisadi xüsusiyyətlərinə, geopolitik şəraitinə, xalqın mentalitetinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı. Heydər Əliyev müstəqilliyini yeni bərpa edən dövlətimizi dünyaya tanıtmaq üçün sistemli şəkildə çalışdı. Müstəqil Azərbaycanın qanunvericilik sistemi də möhkəmləndirildi, yeni iqtisadi strukturlar yaradıldı. Bu sistemin yaradılması, qanunların qəbul edilməsi, ictimai-siyasi sabitliyin formalaşdırılması Azərbaycanın inkişaf imkanlarını köklü şəkildə dəyişdirdi.

İllər keçəndən sonra düşünürük ki, əgər ötən əsrin 70–80-ci illərində ulu öndərin mükəmməl rəhbərliyi, müstəsna səyləri ilə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, müstəqil Azərbaycan o zaman çoxlu çətinliklər, problemlərlə üzləşə bilərdi.

Ulu öndər düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşmasını, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi. Müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu, sivil demokratik cəmiyyətin, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə əlaqələndirildi. Respublikada iqtisadi inkişaf, investisiya mühitinin yaxşılaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması da Heydər Əliyevin adı ilə bağlıdır. Bu elə bir iqtisadi sistemdir ki, o, respublikamızın perspektiv inkişaf, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmaq üçün güclü zəmin yaratmağa qadirdir. Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin analitik təfəkkürə malik olan Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf strategiyası barədə baxışları fundamental xarakter daşıyır. Bu konseptual baxışlar Azərbaycan reallığına, onun malik olduğu imkanların sistemli təhlilinə, qloballaşan dünyada gedən proseslərin milli maraqlar baxımından qiymətləndirilməsinə əsaslanır.

Müstəqil Azərbaycan dövlətinin Prezidenti olaraq Heydər Əliyev xarici iqtisadi siyasətlə bağlı strategiyasını çox çətin bir şəraitdə formalaşdırdı. Müstəqilliyin ilk illərində respublikada yaranmış ağır şərait, ictimai-siyasi sahədə qeyri-sabitlik müstəqil Azərbaycanın beynəlxalq aləmdə imicini çox aşağı salmışdı. Heç bir dövlət Azərbaycana investisiya baxımından əlverişli bir region kimi baxmırdı. Respublika isə xariclə iqtisadi əməkdaşlığa böyük ehtiyac

hiss edirdi. Heydər Əliyevin tövsiyyəsi ilə beynəlxalq əməkdaşlığın yeni prinsiplər əsasında inkişafını formalaşdırmaq üçün bir sıra qanunlarda dəyişiklik edildi. Xarici ticarətin liberallaşdırılması istiqamətində cəsarətli addımlar atıldı.

Bütün bu mərhələlərdə ulu öndər milli maraqları ön plana çəkdi. Xarici şirkətlərin, demək olar ki, hamısı gözləyirdi ki, Heydər Əliyev tez bir zamanda ondan əvvəl hazırlanmış neft kontraktlarını imzalayacaq. Amma dövlət başçısı bunu etmədi və çıxışlarının birində bunu vurğuladı ki, biz milli mənafelərimizin ziddinə gedə bilmərik, təklif edilən şərtlər respublikanın maraqlarına cavab vermir. Bundan sonra dərin araşdırmalar aparıldı, müqayisəli təhlillər edildi, müstəqil ekspertlərin fikirləri açıqlandı.

Göründüyü kimi, müstəqillik şəraitində də Heydər Əliyev xarici iqtisadi əməkdaşlıq məsələlərində milli maraqları ön plana çəkməyi inkişaf strategiyasının vacib prinsipi kimi qiymətləndirirdi. Müstəqil dövlətin rəhbərini idxal və ixracın nisbətində ilk illərdə yaranmış mənfi saldo narahat edirdi. Bu gün isə nisbət ixracın xeyrinə dəyişib. Hələlik bu nisbət-saldo obyektiv olaraq neft faktoru hesabınadır. Amma qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi ilə bağlı müəyyən edilən strateji inkişaf xətti ixracın strukturunun daha da təkmilləşməsini təmin edəcəkdir. Heydər Əliyev açıq iqtisadiyyatın, bazar iqtisadiyyatının prinsiplərinin nəinki tərəfdarı, həm də fəal təbliğatçısı idi.

Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft faktoruna üstünlük verdi. Bu, yeganə çıxış yolu idi. Qeyd edək ki, son 15–20 ildə dünyada və Azərbaycanda siyasi və iqtisadi mübarizələrin kəskinliyi, Xəzər nefti uğrunda dünyadakı hökmran güclərin diplomatik savaşı bəzən elə bir böhran vəziyyətinə gətirib çıxarırdı ki, sanki, hər an bir partlayış qopacağı təhlükəsi yaranırdı.

Xəzər nefti üçün güclü dövlətlərin siyasi və iqtisadi maraqlarının toqquşması nəticəsində Azərbaycanın gələcəyinə və mənafeyinə zidd olan planların zərərsizləşdirilməsində Heydər Əliyevin müstəsna rolu oldu. Azərbaycan xalqı yaxşı bilir ki, Heydər Əliyevin neft siyasətinin həyata keçirilməsinə nə qədər güclü təzyiqlər, maneələr edildi. Amma dövlətimizin başçısı millətimizin və ölkəmizin taleyi, tərəqqisi üçün çox vacib olan prinsipial mövqeyindən dönmədi və 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, müstəqil Azərbaycan dövlətinin, onun Prezidentinin tarixi uğuru idi.

Bu, eyni zamanda, Azərbaycanın dünya inteqrasiyasında fəal iştirakı üçün əlverişli imkanların yaradılması demək idi. Biz hamımız bunu dərk etməliyik ki, neft faktoru qlobal bir məsələdir. XX əsrdə dünyada baş verən böyük konfliktlərin, müharibələrin əsas səbəblərindən biri neft sərvətlərinə yiyələnmək olmuşdur. Heydər Əliyev sübut etdi ki, Azərbaycan suveren dövlət kimi öz təbii sərvətlərinin sahibidir və tarixin ona verdiyi bu şansdan xalqının mənafeyi naminə uğurla istifadə edilməlidir. Müstəqil Azər-

baycanın neft strategiyası dünya təcrübəsini nəzərə aldı. Məlumdur ki, neftlə zəngin olan ölkələrin bir çoxu yoxsulluq, səfalət içində yaşayır. Bu ölkələrin təcrübəsindən məlum olur ki, onların milli mənafelərə cavab verən inkişaf strategiyası olmayıb, ictimai-siyasi sabitlik təmin edilməyib, demokratik institutlar yaradılmayıb, neft gəlirlərindən daxil olan külli miqdarda vəsaitlərdən istifadənin şəffaflığı təmin edilməyib. Neft faktoru hələ uzun bir müddət ərzində bütünlükdə respublika iqtisadiyyatının inkişafı üçün çox mühüm rol oynayacaqdır. Bu, həmçinin, onunla əlaqədar olacaqdır ki, neft satışından əldə edilən gəlirlərdən digər strateji inkişaf proqramlarının reallaşdırılması üçün istifadə ediləcəkdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyev qəti əmin oldu ki, kənddə torpaq münasibətlərini radikal şəkildə dəyişdirmədən, kəndlini torpağın sahibi etmədən əhalinin güzəranını yaxşılaşdırmaq, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün olmayacaqdır. Bu tarixi missiyanı yerinə yetirmək üçün Heydər Əliyev dünya təcrübəsini dərindən təhlil etdi, yerli xüsusiyyətləri, əhalinin mentalitetini, yaranmış vəziyyəti sistemli təhlil etdi, bir-birini tamamlayan qanunları imzaladı, normativ baza yaratdı, informasiya təminatını gücləndirdi.

Bütün bunlar respublikada torpaq islahatlarının uğurla, sosial sarsıntılar olmadan həyata keçirilməsini təmin etdi. Ötən illərdə əldə edilən nəticələr böyük inkişaf imkanlarından xəbər verir. İndi kənddə islahatların yeni məsul mərhələsi davam etdirilir ki, bu istiqamətdə də görüləsi işlər dövlət başçısı İlham Əliyev tərəfindən ciddi nəzarətə götürülüb. Çünki kəndə qayğı Azərbaycanın gələcəyinə qayğıdır.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı kimi dövlət və iqtisadiyyatın münasibətlərində optimallığı müəyyənləşdirməyə çalışırdı. O, sosial problemlərin, elm, təhsil, ekologiya, qlobal struktur və inkişaf problemlərinin həllində dövlətin imkanlarından, köməyindən (söhbət təkcə maliyyə yardımından getmir) səmərəli istifadə etməyi, iqtisadi orqanların məsuliyyətinin artmasını həmişə diqqət mərkəzində saxlayırdı. Böyük rəhbər daim çalışırdı ki, bank-maliyyə qurumları daha səmərəli fəaliyyət göstərsinlər, ölkənin milli maraqlarını daha güclü surətdə qorusunlar. Heydər Əliyev beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa xüsusi diqqət verirdi. Bu əməkdaşlıqda da milli maraqları əsas tuturdu və sevinirdi ki, ölkənin maliyyə imkanları ildən-ilə artır, borc almağa ehtiyac azalır, büdcə sisteminin göstəricilərində müsbət meyillər güclənir.

Unudulmaz rəhbərimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında dahiyanə xidmətlərindən biri də qədim İpək yolu nəqliyyat dəhlizində respublikamızın aktiv iştirakını təmin etmək oldu. Çünki bu yolun fəaliyyəti respublikamızın sosial-iqtisadi dirçəlişinə böyük təsir göstərəcəkdi. Böyük İpək yolunun bərpası və orada Azərbaycanın aktiv iştirakı qlobal əhatə dairəsi, miqyası, əsrlərboyu faydası çox böyük olan bir məsələ idi ki, onun da həllində Heydər Əliyev müstəsna rol oynadı.

Aparılan araşdırmalar sübut edir ki, yeni İpək yolu Azərbaycan üçün daimi kapitaldır,

davamlı iqtisadi inkişaf amilidir, önəmli gəlir mənbəyidir, siyasi sabitlik mənbəyidir. Eyni zamanda, unutmamalıyıq ki, nəqliyyat dəhlizlərinə yiyələnmək, bu mümkün olmadıqda isə alternativ yollar axtarmaq istiqamətində dünyada, elə bizim regionda gedən böyük mübarizələrdə ayıq-sayıq olmalıyıq. Bunu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə keçirilmiş Bakı sammitində qarşıya qoyduğu önəmli vəzifələrin həyata keçirilməsi zərurəti tələb edir.

Türk dünyasının iftixarına çevrilmiş Heydər Əliyev qardaş ölkələrin və toplumların daha sürətlə inkişafını da arzulayırdı və Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin də bu baxımdan tarixi rolunu xüsusi vurğulayırdı. O, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. Onun Türkiyənin dövlət, hökumət rəhbərləri ilə səmimi dostluğu türk dünyası ölkələrinin birliyinə xidmət edirdi.

Bu gün Azərbaycan dövləti alternativ neft-qaz ixracı ilə bağlı kəmərlərə və digər beynəlxalq nəqliyyat marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir və bu da öz müsbət nəticələrini verir.

Azərbaycan dövləti yaxın və uzaq gələcək üçün iqtisadi inkişaf strategiyasında aqrar sektorun daha davamlı inkişafını nəzərdə tutub. Azərbaycan qlobal dünya böhranı dövründə səylərini ölkədə maliyyə sabitliyinin qorunmasına yönəldib.

Heydər Əliyevin fərmanı ilə 2002-ci ildə təsdiq edilən kiçik və orta sahibkarlığın inkişafı dövlət proqramı ölkədə sahibkarlığın inkişafına böyük təkan verdi. Son illərdə bu işlər daha sürətlə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən dövlət proqramlarında müəyyənləşdirilmiş istiqamətlər: ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda sahibkarlığın maliyyə təminatının artırılması, istehsal resursları və kadr potensialı haqqında məlumat bazasının yaradılması, infrastrukturun inkişaf etdirilməsi, dövlət-özəl sektor münasibətlərinin inkişafı, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlara texniki yardımın genişləndirilməsi üzrə işlər uğurla davam etdirilir.

Ümummilli liderin ən layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı davamlı regional inkişaf proqramlarının qəbul edilməsi və uğurla gerçəkləşdirilməsi isə ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması, regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması, regionların malik olduğu resurslardan səmərəli istifadə olunması, mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerlərinin yaradılması, regionların istehsal, sosial infrastrukturunun müasir

tələblər səviyyəsində qurulması ilə nəticələnir.

Heydər Əliyev liderliyinin gücü onda idi ki, o, bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsl səfərbərlik faktoruna çevrilmişdi. O, daim təhlil aparırdı, müqayisəli araşdırmalara üstünlük verirdi, islahatların gedişi prosesində meydana çıxan problemlərin həlli üçün zəruri tələblərin həyata keçirilməsini hökumətdən tələb edirdi. Açığını deyək ki, bir sıra idarəetmə strukturları bu tələblə ayaqlaşa bilmirdilər. O, muvafiq strukturların rəhbərlərindən tələb edirdi ki, xidməti vəzifələrinin məsuliyyətini tam dərk etsinlər, dövlətin vəsaitlərindən səmərəli istifadə etsinlər, əhalinin ehtiyaclarına qayğı ilə yanaşsınlar, şəhər təsərrüfatlarında su, qaz, enerji ilə əlaqədar yaranan çətinliklərin təkrarlanmamasına, onların sistemli həllinə nail olsunlar.

Ümummilli liderin tarixi xidmətlərindən biri də hakimiyyətinin hər iki dövründə Azərbaycanı dünyada tanıtmaq, müstəqillik illərində isə onu ən aparıcı dünya dövlətləri sırasına yüksəltmək oldu. O, dövlətimizin müstəqil siyasət həyata keçirmək diplomatiyasını əldə etdi. Qloballaşan dünyanın, mürəkkəb siyasi proseslərin cərəyan etdiyi dönəmdə Heydər Əliyevin qurduğu, İlham Əliyevin idarə etdiyi Azərbaycan müstəqil siyasət yürüdə bilir.

Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər. Bu gün qürur hissi keçiririk ki, müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir və edəcəkdir.

Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir. Bu inkişaf meyli uzun bir dövr üçün mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atılsın.

Ümummilli lider Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, Vətənin milli-mədəni mövcudluğunu, dövlətin siyasi varlığını dərin zəkası və qüdrətli əzmi ilə qoruyub saxlamaq missiyasını artıq 16 ildir ki, onun layiqli varisi Prezident İlham Əliyev inamla və yaradıcılıqla davam etdirir. Ulu öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası isə onun əzəli və əbədi azularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə qovuşdurmuşdur.

**Ziyad SƏMƏDZADƏ,**
**Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik.**

# «AZƏRBAYCAN CƏMİYYƏTİ BÜTÖVLÜKDƏ PREZİDENT İLHAM ƏLİYEVİN HƏYATA KEÇİRDİYİ İSLAHATLARA CİDDİ İNAM İFADƏ EDİR»

**Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun növbədənkənar parlament seçkiləri ilə bağlı Trend-ə müsahibəsi:**

– Azərbaycanda son dövrlərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi və genişmiqyaslı islahatlar strategiyası həyata keçirilməkdədir. Əslində, bu, Azərbaycanda bir neçə il əvvəl başlanılan iqtisadi islahatların davamı kimi də qiymətləndirilə bilər. Aparılan islahatlar nəticəsində Azərbaycanda bütün sferalarda ciddi dəyişikliklərin, ən başlıcası isə yeniləşmənin həyata keçirilməsi nəzərdə tutulur.

Doğrudur, uzun müddətdir həyata keçirilən Heydər Əliyev siyasəti nəticəsində yeni bir Azərbaycan formalaşıb, iqtisadiyyatı inkişaf edib və digər güclü dövlətçilik parametrləri müəyyənləşib. Eyni zamanda, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, həyat daim inkişaf edir və bu inkişafın qarşıya qoyduğu vəzifələr də Azərbaycanın yenidən islahatlara getməsini, müasirləşməsini tələb edir. Buna müvafiq olaraq da artıq genişmiqyaslı, həyatımızın bir çox sahələrini əhatə edən islahatlara başlanılıb.

2019-cu il bu islahatların xüsusi bir mərhələsi kimi qeyd oluna bilər. Ona görə ki, bu ildə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların dinamizmi daha da yüksəlib. Məlum olduğu kimi, artıq idarəetmə sahəsində də islahatlar aparılır. Hakimiyyətin üç qolundan ikisində islahatlar intensiv şəkildə həyata keçirilməkdədir. Mərkəzi və yerli icra hakimiyyətlərində, yəni icra hakimiyyəti qolunda həm struktur, həm də kadr islahatları aparılır. Məhkəmə hakimiyyəti sahəsində geniş islahatların həyata keçirilməsi müşahidə edilir. Beləliklə də bu islahatların dinamizminin artırılması, həm qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsi, həm də bütün hakimiyyət qollarını əhatə etməklə islahatların ahəngdarlığının təmin edilməsi hakimiyyətin iki qolu ilə yanaşı, üçüncü – qanunverici hakimiyyət qolunda da islahatların aparılmasını zəruri edir.

Əgər qanunverici hakimiyyət sahəsində islahatların həyata keçirilməsinə başlanılmasa, digər sahələrdə aparılan islahatların qarşıda duran vəzifələrin Prezident İlham Əliyevin hədəflərinə uyğun həyata keçirilməsi bəlkə də müəyyən çətinliklərlə qarşılaşa bilərdi. Buna görə də sistemli şəkildə hakimiyyətin bütün sferalarını əhatə edən və nəticə etibarilə, çox möhtəşəm vəzifələrin reallaşmasına xidmət göstərən islahatların aparılması bu gün Azərbaycanda sosial sifarişə çevrilib.

Müşahidələrimiz bu fikri söyləməyə əsas verir ki, Azərbaycan cəmiyyəti bütövlükdə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir

və bu islahatlardan böyük gözləntiləri var. Vətəndaşlar eyni zamanda islahatların tətbiqi sferasının genişlənməsini də arzu edirlər. Yeni Azərbaycan Partiyası cəmiyyətdəki bu ab-havanı duymağa başladı və bizə daxil olan siqnallar əsasında, bu sifarişə uyğun şəkildə Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının məlum qərarını qəbul etdik. İstənilən halda, islahatların aparılması Azərbaycanda inkişafın sürətlənməsinə xidmət edir.

**– Həmişə olduğu kimi, radikal müxalifət növbədənkənar parlament seçkilərinə də öz prizmasından yanaşır və bu seçkilərə qara yaxmağa çalışır. Sizcə, radikal müxalifət burada hansı məqsəd güdür?**

– Azərbaycanın müxalifəti də rəngarəngdir və qarşıda gözlədiyimiz parlament seçkilərinə müxalifətin münasibətində də fərqli məqamlar var. Apardığımız müşahidələr və təhlillər nəticəsində deyə bilərəm ki, müxalifətdə təmsil olunan partiyaların əhəmiyyətli bir hissəsi parlament seçkilərində iştirak etmək ideyasını prinsipcə qəbul edir və yəqin ki, onlar iştirak etmək niyyətlərini də reallaşdırmağa çalışacaqlar.

Amma Azərbaycanda müxalifət içərisində bir radikal qanad var ki, onlar bütövlükdə ölkədə istənilən pozitiv hərəkətlərə, inkişafa və dəyişikliklərə fərqli bir prizmadan yanaşmağa meyl göstərirlər və buna adət ediblər. Bu fərqli yanaşmanın da mahiyyəti Azərbaycanın reallıqlarını təhrif etmək, böhtan atmaq, yalanlar uydurmaq, şayiələr yaymaq və beləliklə də Azərbaycanın dövlətçilik maraqlarına qarşı bir mövqe ortaya qoymaqdan ibarətdir.

Dəfələrlə biz radikalizmin Azərbaycanın siyasi məfkurəsində özünə yer tutmadığını və bizim üçün yad bir yanaşma olduğunu qeyd etmişik. Bütövlükdə, Azərbaycan cəmiyyətində radikalizmə yer yoxdur. Belə olan halda, mövcud olan siyasi partiyalardan bir neçəsinin radikal mövqedə dayanması insanı düşünməyə vadar edir. Radikalizm bu partiyalara kimlər tərəfindən təbliğ edilib? Və radikal mövqedə dayanmaqla həmin partiyalar Azərbaycandan kənarda olan hansı maraqlı dairələrin istəklərini və niyyətlərini ifadə edirlər? Hesab edirəm ki, bunun üzərində düşünülməlidir və təhlillər aparılmalıdır.

Həmin o radikal müxalifət parlament seçkiləri ilə əlaqədar irəliyə sürülmüş təşəbbüsə də özünün adətinə uyğun şəkildə, qarayaxma taktikası əsasında münasibət bildirməyə çalışır. Onlar bəzi hallarda çox gülməli və bəsit təfəkkürü ifadə edən arqumentlər gətirirlər ki, guya Azərbaycanda növbəti parlament seçkilərinin keçirilməsi təşəbbüsünün əsas səbəbi seçkilərin soyuq ayda baş tutması ilə əlaqədardır. Guya müxalifət soyuq aylarda seçkilərdən kənarda qalacaq. Bu fikri belə təfəkkürün daşıyıcısı olan Əli Kərimli səsləndirib. Bu insanın dünyagörüşü haqqında istər-istəməz düşünməli olursan və təbii ki, təəccüb edirsən ki, bu cür bəsit təfəkkürə malik olan bir insan özünü müxalifət lideri kimi təqdim etməyə çalışır.

Əslində, seçkilərlə bağlı özlərinə uyğun şəkildə ifadə etdikləri absurd fikirlərin kö-

kündə duran real səbəb isə onların seçkilərə hazır olmamaları və sosial dayaqlarını tamamilə itirmələri ilə əlaqədardır. Seçkidə iştirak etməyin ən başlıca səbəbi siyasi partiyanın yetərincə sosial dayağa və ictimai nüfuza malik olması ilə əlaqədardır. Bu parametrlərə malik olmayan partiyaların seçkilərdə iştirak edərək hər hansı uğur qazanması qeyri-mümkündür.

Radikal partiyalar Azərbaycan cəmiyyətində sosial dayaqlarını tamamilə itirdikləri üçün Azərbaycan vətəndaşlarının onların irəli sürəcəyi namizədlərə inamları yoxdur və beləliklə də seçkilərdə iştirak etmək radikal müxalifətə hər hansı bir uğur gətirmir. Belə olan halda onların taktikası ona əsaslanır ki, seçkilərdə özlərinin mütləq uğursuzluqlarını ört-basdır etmək üçün müxtəlif bəhanələrlə seçkilərdə iştirak etməkdən imtina etsinlər. Burada söhbət sadəcə olaraq həmin partiyaların seçkilərdə iştirak etmək üçün lazım olan insani, ictimai dəstək resurslarının çatışmaması ilə əlaqədardır. Bu resursları olmadığından onlar seçkilərdə iştirak edə bilmirlər, ancaq bunu müxtəlif bəhanələrlə əsaslandırmağa çalışırlar və beləliklə, yenə də adətlərinə uyğun olaraq Azərbaycan iqtidarının üzərinə qarayaxma kampaniyası ilə gəlməyə cəhdlər göstərirlər.

Boykot taktikasına gəldikdə isə əslində, bu, o zaman sözün həqiqi mənasında boykot taktikası adlandırıla bilər ki, belə çağırışlara insanlar səs versinlər və onu dəstəkləsinlər. Azərbaycanda radikal müxalifətin arxasında ictimai dayaq olmadığı üçün onların seçkiləri boykot etmək haqqında çağırışlarının ictimai əhval-ruhiyyəyə və seçicilərə hər hansı bir təsiri olmayacaq. Ona görə də onların boykot çağırışlarının qarşıdan gələn parlament seçkilərinə hər hansı bir təsir gücü yoxdur.

Əslində isə bu, onların özünün boykotu kimi qavranılmalıdır, Azərbaycan cəmiyyəti tərəfindən radikallığın boykotu kimi dəyərləndirilməlidir. Həqiqi mənada, Azərbaycan cəmiyyəti tərəfindən radikallığın ciddi bir boykotu var. Əgər siyasi partiya ölkədə keçirilən istənilən seçkilərdə iştirak etmirsə, həmin partiyanın bütövlükdə mövcud olmasının mənası və əhəmiyyəti qalmır.

**– Radikal müxalifət, həmçinin, növbədənkənar seçkilərin Konstitusiyaya uyğun olmaması ilə bağlı iddialar səsləndirir.**

– Müxalifətin və əsasən də radikal müxalifətin guya parlamentin vaxtından əvvəl buraxılmasının Konstitusiyaya uyğun olmaması haqqında fikirlərinin də heç bir məntiqi və hüquqi əsası yoxdur. Birincisi, 2016-cı ildə Azərbaycan Respublikasında keçirilən referenduma görə, Azərbaycanın Prezidentinə müəyyən şərtlər daxilində parlamenti buraxmaq səlahiyyəti verilib. Bu, Konstitusiyanın 98.1-ci maddəsində özünün ifadəsini tapıb.

Orada aydın şəkildə göstərilir ki, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi

Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

İndiki halda, Azərbaycan parlamenti deputatlarının mütləq əksəriyyəti Prezidentə müraciət edərək faktiki olaraq öz vəzifəsinə xitam verib. Beləliklə də Azərbaycanın parlamenti, qanunverici orqanı, Milli Məclisi Azərbaycan Konstitusiyasında müəyyən olunmuş, özünün həyata keçirməli olduğu vəzifələri aradan qaldırılması mümkün olmayan səbəblər üzündən həyata keçirə bilmir. Çünki kvorum yoxdur, parlamentin deputatları öz fəaliyyətlərinə xitam verməyi xahiş ediblər. Əslində, belə oluğu halda parlament Konstitusiyanın ona verdiyi vəzifələri yerinə yetirməsi üçün dediyim kimi, aradan qaldırılması mümkün olmayan səbəblər üzündən həmin vəzifələri yerinə yetirə bilmir.

Ona görə də parlamentin vaxtından əvvəl buraxılması Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə uyğundur və bununla əlaqədar Konstitusiya Məhkəməsinin çıxardığı qərar da bu hüququn Konstitusiya maddələrinə kifayət qədər istinad edildiyini göstərir.

**– Əli müəllim, Yeni Azərbaycan Partiyası namizədlərini müəyyənləşdirən zaman hansı amillərə diqqət yetirəcək?**

– Hər bir seçki kampaniyasının öz xüsusiyyətləri var və indiki dövrün səciyyəsindən çıxış etməli olsaq, burada həyata keçirilən islahatlar strategiyası və onun ümumi konteksti mütləq şəkildə nəzərə alınmalıdır. Bu gün aparılan islahatlar həm də kadr dəyişiklikləri formasında özünü göstərir. Belə olan halda, müəyyən dərəcədə parlamentdə də bir dəyişikliyin həyata keçirilməsi ilə bağlı cəmiyyətdə sanki gözlənti var. Amma, eyni zamanda onu da qeyd etmək lazımdır ki, Azərbaycanda parlamentin formalaşması səlahiyyəti birmənalı şəkildə Azərbaycan vətəndaşlarına məxsusdur. Seçicilər kimlərin parlamentdə təmsil olunmasını istəsələr, onlara da səs verəcəklər və onlar da parlamentdə Azərbaycan xalqını təmsil edəcək. Seçilənlər gənc və ya orta yaşlı nəslin nümayəndəsi olacaq, bunu seçicilərin müstəsna səlahiyyəti müəyyənləşdirəcək.

Azərbaycan cəmiyyətində yeni, ləyaqətli, yüksək təhsilli, geniş dünyagörüşə malik və dərin vətənpərvərlik ruhunda tərbiyə almış gənc nəsil formalaşıb. Bu gənc nəsil Azərbaycanın inkişafına öz töhfəsini verə bilər. Biz onların imkanlarından, potensialından istifadə etməliyik. Taktikamız ondan ibarətdir ki, imkan dərəcəsində gənc insanların namizədliyini irəli sürək. Yerdə qalan məsələni isə seçicilər müəyyən edəcəklər.

URL: www.xalqqazeti.com

# MÜKƏMMƏL TARİXİ MİSSİYA

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bütün şüurlu həyatını, dərin zəkasını və böyük enerjisini canından artıq sevdiyi xalqının tərəqqisi və xoşbəxtliyi yolunda şam kimi əridib əbədiyyətə qovuşmasından 16 il keçir. Dərin hüzn və sonsuz ehtiramla yad etdiyimiz o tarixdən uzaqlaşdıqca xalqımızın unudulmaz oğlunun nurlu amal və əməllərinin nəhəngliyi, əfsanəvi obrazının bənzərsizliyi gözlərimiz önündə daha əzəmətlə canlanır.**

***Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.***

**Gerhard ŞRÖDER,**
**Almaniya Federativ Respublikasının**
**Federal kansleri.**
**(1998-2005-ci illər)**

Çağdaş Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin şah əsəridir. Onun adı, əməlləri və ideyaları müstəqil Azərbaycan dövlətinin ərsəyə gəlməsini və ümumi varlığını təcəssüm etdirir. Ulu öndərin indiki nəsillərə ən mükəmməl örnək olan ömür yoluna nəzər salmaq Azərbaycanın müstəqillik ərəfəsi, istiqlala qovuşması və sonrakı tarixinin ən qiymətli və öyünclü səhifələrini vərəqləmək deməkdir.

Xalqımızın bütün tarix boyu yetirdiyi ən mükəmməl və qüdrətli lider olaraq Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə öz xalqının milli müstəqillik arzusunun gerçəkləşməsinə və istiqlalının əbədiləşdirilməsinə çalışmış, öz ölkəsinin potensialını hərəkətə gətirmək və soydaşlarının enerjisini səfərbər etməklə Vətənini dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çatdırmağa çalışmışdır. Ulu öndər bütün bunları böyük bir cəsarətlə, gördüyü işin düzgünlüyünə tarixi bir inamla etmişdir.

Ötən illərdə xalqımızın əbədi lideri kimi tarixdə rolu və yeri sabitləşmiş, Türk dünyasının da iftixar mənbəyinə çevrilmiş Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir. Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan, həqiqətən, qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

XX əsrin ortalarında ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsi üçün yenidən tarixi şərait yetişməyə başlamışdı. Lakin simvolik funksiya daşıyan dövlət rəhbərləri respublikada həmin prosesin lazımi intensivlikdə getməsinə, milli döv-

lətçilik təfəkkürü olan kadrların formalaşdırılmasına diqqət yetirməmişdilər. Dərin zəkası, tükənməz enerjisi və yüksək təşəbbüskarlığı ilə çevrəsindəki rəhbər şəxslərdən önəmli dərəcədə üstün olan Heydər Əliyevin 1969-cu ildə respublikada rəhbərliyə gəlməsi ilə Azərbaycanda nəinki sovet dövlətinin – mərkəzin verdiyi imkanlar daxilində, hətta müəyyən maneələr dəf edilərək müstəqil düşüncəyə meydan açılmışdı. Ötən əsrin 70–80-ci illərində Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri isə özünü 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərmişdi.

Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə malik ikinci bir şəxs olmamışdır. Onun imzasına keçən əsrin 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən Azərbaycanın hər yerində, iqtisadi, ictimai-siyasi, mənəvi-ideoloji həyatın, demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. O illərin Azərbaycanı ən müxtəlif baxımlardan tarixdə "Heydər Əliyevin Azərbaycanı" kimi qalmışdır.

Azərbaycan xalqının ümummilli lideri, dünya miqyaslı ictimai- siyasi xadim, böyük mütəfəkkir Heydər Əliyevin tarixi xidmətləri haqqında danışılarkən, məlum olduğu kimi, əsas diqqət onun dövlət quruculuğu missiyasına verilir ki, bu da tamamilə təbiidir. Hər şeydən əvvəl, ona görə ki, Heydər Əliyev Azərbaycanda, ümumən, Sovetlər Birliyində siyasi nüfuz qazanmağa başladığı ilk illərdən – keçən əsrin 60-cı illərinin ortalarından enerjisini, əsasən, Azərbaycanda milli, müasir və mərkəzin imkan verəcəyi qədər müstəqil bir dövlətin qurulmasına həsr etmişdir. Ulu öndər bir neçə mərhələdən keçən kifayət qədər inamlı, ardıcıl mübarizələrdən sonra – 90-cı illərin əvvəllərindən başlayaraq müstəqil Azərbaycan dövlətini həm qurmuş, həm də onun inkişafı üçün mükəmməl strateji perspekivlər müəyyən etmişdir.

Bu, əlbəttə, mənsub olduğu xalqın iradəsini ifadə edən böyük liderin əsas tarixi missiyası idi. Bununla belə, Heydər Əliyevin dövlət quruculuğundan heç də kiçik olmayan bir missiyası da millət quruculuğu idi. Böyük rəhbərin millət quruculuğu siyasətinin, fikrimizcə, üç əsas prinsipi mövcuddur: millətin özünü özünə tanıtmaq; milləti, xüsusilə, onun ziyalılarının, böyük şəxsiyyətlərinin timsalında hər hansı təhlükədən xilas etmək; milləti dünyaya tanıtmaq. Heydər Əliyevin təmənnasız xalq, millət sevgisi imkan verdi ki, o, mənsub olduğu xalqı, milləti ən yüksək səviyyədə irəli apara, qarşıya çıxan kifayət qədər güclü maneələri cəsarətlə aradan qaldıra bilsin.

Heydər Əliyev tədricən Moskvaya, ümumən Sovetlər Birliyinə konkret işlə sübut etdi ki, azərbaycanlılar zəhmətkeş, mədəni, hər sahədə uğurlar qazana biləcək istedadlı bir xalqdır. Xalqı yüksəltməyin, özünə və dünyaya tanıtmağın elə bir üsulu, forması qalmadı ki, Heydər Əliyev ondan tam gücü ilə istifadə etməmiş, sınaqdan keçirməmiş olsun. İqtisadiyyat, mədəniyyət,

dövlət idarəçiliyi kimi fundamental sahələrdəki uzun illərin gerilikləri, ətaləti və hərc-mərcliyi tezliklə nəinki aradan qaldırıldı, hətta respublikanın ictimai həyatında elə bir canlanma oldu ki, insanlar milli mənsubiyyətlərilə qürur duymağa başladılar.

Hakimiyyətə gəldiyi ilk illərdən hamıya məlum idi ki, Heydər Əliyev tarix yaradır. Heydər Əliyev Azərbaycanda sovet dövlət idarəçiliyi sistemini öz xalqının xidmətinə verməklə onu mərkəzi hakimiyyətin "canişinliyi"ndən çıxardı. Və bunun nəticəsidir ki, azərbaycanlılar yalnız idarə olunan yox, həm də idarə edən xalqa çevrildilər. Sovetlər Birliyinin dağılması, Azərbaycanda milli müstəqillik (və dövlət müstəqilliyi) uğrunda hərəkatın güclənməsi illərinin sosial-siyasi mənzərəsi də göstərdi ki, Heydər Əliyev Azərbaycan xalqını doğru yolla aparmış həqiqi milli liderdir.

Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən bir neçə il sonra Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində, həqiqətən, yeni bir dövr başlandı. Bakı hələ Moskva deyildi, sovet hakimiyyəti Bakıya, deyək ki, Tbilisidən, yaxud Yerevandan çox əhəmiyyət verirdi. 1926-cı ildə Bakıda Türkoloji qurultay keçirilmişdi, burada Şərq xalqlarının məclisləri, yığıncaqları olmuşdu. Buradan Şərq dünyasına tarixi yollar uzanırdı, Bakı Şərqin qapısı idi. Heydər Əliyevin Bakıda gözlənilməyən bir sərbəstliklə respublikanı idarə etməyə başlaması nəinki Moskvada, heç Bakının özündə də rahat qarşılanmadı.

Niyə? Ona görə ki, yeni dövlət başçısı gözlənilməyən bir halda neçə illərin sükunətini hərəkətə gətirdi, milləti oyatdı, türk düşüncəsini silkələdi, pozulmaqda olan ictimai əxlaqı dindirdi. Bu isə özünə möhkəm yer eləmiş gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, müxtəlif millətlərdən ibarət məmurları təmin etmirdi. Belələri şantaja, böhtana əl atdılar, lakin bu türk o biri türklərdən deyildi.

Azərbaycan rəhbəri respublikanı tezliklə nəhəng tikinti meydanına çevirdi. Bakı şəhəri görünməmiş bir sürətlə abadlaşdırıldı, Naxçıvanda, Gəncədə, Sumqayıtda, respublikanın rayon mərkəzlərində mədəniyyət evləri, məktəblər, inzibati binalar, yaşayış evləri tikildi, kanallar çəkildi, su anbarları yaradıldı və s. Heydər Əliyev bu vaxta qədər ittifaq miqyasında, demək olar ki, adı çəkilməyən respublikanı SSRİ-nin ən qabaqcıl müsəlman-türk respublikasına çevirdi. On ildən artıq müddətdə Heydər Əliyevin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi.

Həmin işlərdən, planlardan biri, bəlkə də, birincisi xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi. Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verdi. İxtisasca tarixçi olan Heydər Əliyev üçün tarix yalnız "üzü keçmişə siyasət" deyildi, həm də və bəlkə də, daha çox millətin öz həqiqi keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir məktəb, ilham mənbəyi idi. Azərbaycan xalqının mənşəyi, formalaşması,

Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyuldu, müşavirələr, müzakirələr keçirildi.

Yeni milli-mədəni oyanışa yönəlik bu proses Heydər Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında gedir, vaxtaşırı ona məlumatlar verilirdi. Onun üçün tarix sosial-siyasi tarixlə məhdudlaşmırdı. Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin yalnız tarixi ilə deyil, bugünü ilə də sonsuz enerji ilə məşğul olan, Azərbaycan yazıçıları, mədəniyyət, incəsənət xadimləri ilə ardıcıl görüşən, onların qurultaylarında fəal iştirak edən respublika rəhbəri millətin yaradıcı qüvvələrini əvvəlki illərin ətalətindən çıxardı, onlarla görkəmli yazıçı, incəsənət, mədəniyyət, elm xadiminin sədası məhz respublika rəhbərinin nüfuzu sayəsində qısa bir zamanda SSRİ-nin mərkəzindən gəlməyə başladı.

Azərbaycan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə təkcə nefti, pambığı, üzümü ilə deyil, mənəvi-intellektual sərvətləri ilə də ittifaq miqyasında məşhurlaşmışdı. Respublikanın müxtəlif rayonlarında dünya mədəniyyətindən, demək olar ki, təcrid edilmiş şəkildə yaşayan, lakin zəhmətkeş, istedadlı xalqın Azərbaycanın mərkəzi ilə əlaqələrinin genişlənməsində də Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Məhz bu görkəmli şəxsiyyətin, böyük dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Bakı "beynəlmiləl" şəhərdən milli şəhərə çevrilmişdir.

Nəhayət, 80-ci illərdə sovet dövlətinin rəhbərliyində ardıcıl dəyişikliklər getdi. Baş katiblər biri digərini əvəz edir, Siyasi Büronun tərkibi dəyişirdi. Heydər Əliyev belə bir mürəkkəb dövrdə Moskvaya çağırıldı, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini oldu. Bu, sovet dövləti yaranandan bəri türk-müsəlman dövlət xadiminin gəlib çıxdığı ən böyük vəzifə idi. Artıq Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının yox, ümumən türk-müsəlman xalqlarının lideri idi. Türk dünyasının həm strateji, həm də taktiki problemlərini həll etmək yalnız onun üzərinə düşdü.

Bütün bunlara görə SSRİ dağıldıqdan sonra Azərbaycanda ən çox xatırlanan, müstəqil respublikanın dövlətçiliyini formalaşdırmağa dəvət edilən, istedadına istinad olunan şəxs Heydər Əliyev olmuşdur. Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə hakimiyyətə gələn qüvvələrin dövlət idarəçiliyi sahəsində təcrübəsizliyi ortaya çıxanda isə Azərbaycanın məhz "Heydər Əliyevin Azərbaycanı" olduğu bütün aydınlığı ilə təzahür etmişdir.

Siyasi tarixçilər, publisistlər 1993-cü ilin iyun böhranını Heydər Əliyevin hakimiyyətə gəlməsində xüsusi hadisə kimi təqdim edirlər. Lakin Heydər Əliyevin hakimiyyətə gəlişi dövlət müstəqilliyinin ilk aylarından siyasi-mənəvi zərurətə çevrilmişdi. Bir-birinin ardınca baş verən hadisələrin inersiyası, get-gedə güclənən xaos "ölkənin sahibi"ni tələb edirdi. Heydər

Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyl də güclənirdi. O, Azərbaycan xalqına yalnız bilavasitə idarəedici, dövlət qurucusu kimi yox, Tarix kimi də lazım idi.

1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı hərc-mərclikdən xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu isə birinci növbədə onda təzahür etdi ki, xalq uzun illər ərzində yetirmiş olduğu tarixi liderə inamını sonsuz bir enerji ilə ifadə etdi. Və həmin inam xırda “xalq qəhrəmanları”nın, heç bir tarixə söykənməyən siyasət dəllallarının “obraz”ını ictimai təfəkkürdən bütünlüklə silib atdı. Təəssüf ki, bu “qəhrəman”ları tarix yox, təsadüflər, mövcud ictimai-siyasi kükrəyiş ortaya çıxarmışdı. Çox keçmədi ki, tarix onları inkar etdi.

Ümummilli fəlakətin astanasında Azərbaycanı və onun yenicə qazanılmış suverenliyini dünya miqyaslı siyasət və dövlət xadimi, xalqımızın qeyrətli oğlu Heydər Əliyev xilas etdi. Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün oldu. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın xilası üçün o zaman gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyas olaraq xalqın yalnız o dövrkü taleyini müəyyən etmədi, həm də onun gələcəyinə əhəmiyyətli təsir göstərdi.

Bu mənada Azərbaycanın o zamankı qurtuluşu gələcəyə getdikcə tarixi məzmunu daha yaxşı dəyərləndiriləcək bir hadisədir. Azərbaycanın qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanı oldu. O Azərbaycan ki, müxtəlif nəsillərdən olan azərbaycanlılar onu arzulamış, onun qurulması uğrunda mübarizə aparmışlar. Azərbaycan Respublikası parlamentinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında ulu öndər Heydər Əliyev həmin mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: “Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”.

Bu sözlərin deyilməsindən sonrakı 10 illik müddətdə dahi mütəfəkkir, dövlət qurucusu, həqiqətən, müstəqil Azərbaycan dövlətinin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu istiqamətləndirmişdir. Heydər Əliyevin zəkası öz nuru ilə yalnız o günləri deyil, bugünümüzü də işıqlandırır, müstəqil respublikanın müasir dünyanın üzvi, tərkib hissəsi olması üçün hər cür stimul verir. Heydər Əliyev müdrikliyi yalnız bir insanın fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə mənsub olduğumuz xalqın tarixi iradəsinin ifadəsi idi. Həmin iradə 1993-cü il 15 iyun tarixli (və tarixi!)

iclasında tarixə diqtə etmişdi: "Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir".

Sovet imperiyasının çöküşü və müstəqillik epoxasının başlanması nə qədər yeni olsa da, aydın baxışlı siyasətçi olan Heydər Əliyev əvvəllər gördüyü işləri yeni tarixi şəraitdə davam etdirdi. Onun əvvəllər gerçəkləşdirdiyi böyük işlər, planlar, proqramlar, tamamilə inkar olunardısa, istər-istəməz, xalqı bir yerə toplamaq, yeni dövlət quruculuğu proqramını həyata keçirmək, iqtisadiyyatı dirçəltmək, cəmiyyəti, onun milli-mənəvi gücünü toplamaq mümkün olmazdı. Ənənə davam etməli idi. Bu ciddi varislik xətti ondan irəli gəlirdi ki, ulu öndər Heydər Əliyev heç bir işini yarımçıq qoymurdu. O hansı işə başlayırdısa, onu, necə deyərlər, yüz ölçüb bir biçir, tələsmədən və gecikmədən həyata keçirirdi.

Bu həqiqətin sübutu olaraq ümummilli liderin müstəqil Azərbaycan dövlətinin xilas edilməsinə və onun mövcudluğunun əbədiləşdirilməsinə həsr olunmuş son 10 ilinə nəzər salaq. Bu baxımdan bütün ziddiyyətli prosesləri ilə 1993-cü il müstəqil dövlətçilik tariximizdə böyük dönüş ili olaraq xatırlanır. O zaman çərçivəsində cərəyan edən hadisələr dövlətçiliyimizi və insanları ciddi sınaqlarla üz-üzə qoymuşdu. Dövlət müstəqilliyinin ilk aylarından başlayıb şiddətlənən mürəkkəb hadisələr, idarəçilikdə yol verilən nöqsanlar 1993-cü ilin ikinci yarısına doğru siyasi böhran həddinə gəlib çatmışdı.

Hərbi müxalifətin zərərsizləşdirilməsi üçün AXC-Müsavat hakimiyyətinin uğursuz hərbi əməliyyatı nəticəsində Gəncədə qardaş qanı tökülmüş və cəmiyyət, demək olar ki, vətəndaş müharibəsinə sürüklənmişdi. O vaxtkı iqtidarın səriştəsiz və məsuliyyətsiz siyasəti nəticəsində 4 iyundan başlayaraq ölkədə getdikcə geniş miqyas alan anarxiyadan sui-istifadə edən təcavüzkar Ermənistanın silahlı birləşmələri isə cəbhə xəttində həmlələrini gücləndirmişdi. Ötən iki ildə torpaqlarımızın etibarlı müdafiəsi təmin olunmamışdı. Orduda vahid komandanlıq yox idi.

Belə bir taleyüklü məqamda növbəti yanlış və daha bir məsuliyyətsiz qərar dövlətçiliyimizin məhvi ilə nəticələnə bilərdi. Soydaşlarımızın minbir məhrumiyyətdən keçib gəlmiş azadlıq arzusu, müstəqillik amalı ilk addımlarındaca puç ola bilərdi. Çeşidli daxili və xarici düşmən qüvvələrin dağıdıcı həmləri Azərbaycanı ölüm kürsüsünə doğru sıxışdırırdı. Xüsusən, kənar qüvvələr Cənubi Qafqaz regionundakı maraqlarını daha böyük perspektivi olan Azərbaycanı parçalamaqla həyata keçirmək niyyətində idilər. Bunun üçün müəyyən ictimai-siyasi zəmin də hazırlanmışdı.

O zamankı hadisələr ölkədə hakimiyyətlə xalq arasında birliyin olmamasının, dövlət idarəçiliyində boşluğun hökm sürməsinin acınacaqlı nəticəsi idi. Yuxarı rəhbərlik eşelonunda tez-tez dəyişən səriştəsiz kadrların başı kürsü davasına qarışdığından dövlətin müdafiəsi və idarə olunması məsələsi tamamilə unudulmuş, bununla da hakimiyyətin yerlərdə sosial-siyasi dayaqları

sarsılmışdı. Orduda yaranmış başıpozuqluq, hər yerdə dövlət əmlakının dağıdılmasından doğan hərc-mərclik milli birliyi pozmuş, düşmən qüvvələr qarşısında ölkənin müdafiə və müqavimət qabiliyyətini tamamilə zəiflətmişdi.

Belə bir faciəli durumda yaxınlaşan təhlükəni bütün dəhşətləri ilə duyan və anlayan xalq gerçək fəlakətdən – müstəqilliyin itirilməsindən, ərazilərin parçalanmasından, sərvətlərin yağmalanmasından xilas olmağın yeganə düzgün yolunu aydın görə bildi. Cəmiyyətin mütləq çoxluğu öz düşüncəsi, ağlı ilə xilasolma istiqamətini – qarşıdurmadan milli birliyə, xaosdan sabitliyə, dağıntılardan quruculuğa aparan yolu seçdi. Xalq bu yola keçidin yeganə bələdçisi və təminatçısının ümummilli lider Heydər Əliyev olduğuna birmənalı qərar verdi.

Beləliklə, Azərbaycana rəhbərliyi dövründə onu öz əlləri ilə qurub-yaratmış, iqtisadiyyatını və mədəniyyətini əsaslı surətdə inkişaf etdirmiş, ümummilli lider məqamına yüksəlmiş Heydər Əliyev xilaskarlıq missiyası ilə yenidən respublikanın ali idarəçiliyi sükanı arxasına qayıtdı. İdarəetmənin iflic vəziyyətə düşdüyü günlərdə xalqın istəyi və iradəsi dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirdi.

Bu mərhələdə Heydər Əliyev ilkin olaraq xalqı vətəndaş müharibəsi təhlükəsindən, dövləti ağır siyasi, iqtisadi böhrandan qurtarmaqla böyük vətənpərvərlik, iradə və zəka nümayiş etdirdi. Çox keçmədən xalqın mütləq əksəriyyətinin iradəsi ilə müstəqil Azərbaycanın həqiqi lideri etimadı qazanan Prezident Heydər Əliyevin legitim rəhbərliyi, gərgin, çoxyönlü fəaliyyəti ilə respublikanın ictimai-siyasi həyatında sürətli sabitləşmə, hərtərəfli dirçəliş, böyük quruculuğun əsaslarının müəyyənləşdirilməsi proseslərinə start verildi. Məhz bu taleyüklü məsələlərin reallaşmasından sonra bütün diqqət cəbhə xəttində müdafiəyə və bununla yanaşı, iflic olmuş iqtisadiyyatın sahmana salınmasına yönəldildi.

Böyük qurtuluşdan dərhal sonra xalqın həqiqi lideri olduğunu hər işdə sübuta yetirən Heydər Əliyev böyük quruculuğun, daxili vəziyyətin stabilləşməsi tədbirlərini gerçəkləşdirməyə başladı. 1994-cü ilin mayından cəbhə xəttində atəşkəs barədə razılığın əldə olunması ilə ölkə yeni bir mərhələyə daxil oldu. Əslində, işğalçı Ermənistan cəbhədə daha irəliləyə bilmədiyini, itkilərinin artdığını görüb atəşi dayandırmağa məcbur oldu. Müharibədən hər evə, ailəyə boylanan göz yaşı, qan-qada kəsildi. Vətəndaşların rahat gün-güzəranına qənim kəsilmiş, yenicə təşəkkül tapan milli dövlətçiliyin möhkəmlənməsinə hər vəchlə mane olmağa çalışan qanunsuz silahlı dəstələr zərərsizləşdirildi və ictimai asayiş bərpa olundu.

Millət fasiləsiz hüznü unudub gələcək haqqında, azadlıq və müstəqillik arzularının daha gerçək ifadəsi barədə düşünməyə macal tapdı. Artıq xarici investisiyaların Azərbaycana təhlükəsiz axını üçün ümid körpüsü salındı. Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı dünyanın diqqətini Azərbaycana cəlb edə bildi və bu mənada qısa

zamanda ölkəmiz beynəlxalq iqtisadi sistemə daxil oldu. Bu inteqrasiyanın 1994-cü ildə Qərbin iri neft şirkətləri ilə imzalanmış məşhur "Əsrin müqaviləsi" kimi böyük bir başlanğıcı var. Xəzər hövzəsinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının işlənilməsi ideyası dünyamiqyaslı kompleks iqtisadi layihələrin birbaşa respublikamızla bağlanmasını real müstəviyə çıxardı.

Belə bir siyasətin sayəsində iqtisadiyyatımızın daha yüksək formada təkamülünü həyata keçirmək və yeni təşəbbüslərlə çıxış etmək Azərbaycanda sabitliyin, ictimai təhlükəsizliyin dönməz xarakter almasına güclü təsir göstərdi. Lakin bütün bu zəruri tədbirlərlə hesablaşmaq istəməyən, iddiası özündən böyük olan dağıdıcı qüvvələr iki dəfə– 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhd etdilər. Lakin yenə də mahir siyasətçi Heydər Əliyevin öz liderinə axıradək sadiq qalan xalqla birliyindən yaranan möhtəşəm siyasi iradə hakimiyyəti qeyri-qanuni yolla ələ keçirməyə göstərilən cəhdlərə üstün gəldi.

Bununla da cəmiyyətin həyatı yenidən təbii axarına düşdü. Dağılmış iqtisadiyyatı müasir dünyanın tələbləri səviyyəsində bərpa etmək, ordu quruculuğu prosesinə keçmək mahiyyət etibarilə gələcək inkişaf üçün təməl addımlar idi və bütün bunların hamısı cəbhədə atəşkəsin əldə olunmasından sonra həyata vəsiqə ala bildi. Azərbaycanın Avropa dəyərlərinə inteqrasiyası prosesinin ilk təcrübələrinin görünməsinə və dünyanın qabaqcıl strukturları ilə əlaqələrin qurulmasına start verildi.

Bütün bu proseslər sonrakı illərdə davamlı surətdə bir-birini əvəzləyən uğurların təminatçısı və müjdəçisi oldu. İctimai qayda-qanun mühitinin, qanunçuluğun aliliyinin bərpası ona imkan yaratdı ki, müstəqil dövləti beynəlxalq aləmin hüquqi subyekti kimi tanıdan, ictimai quruluşu müəyyən edən əsas amil olan yeni Konstitusiya qəbul edildi. Prezident Heydər Əliyevin bir epoxadan digərinə ahəngdar keçidi təmin edən çevik təfəkkürlü, modern rəhbər obrazı xarici arenada cəmiyyətimizin həyatındakı həqiqi azadlıq arzusunun, dünyaya inteqrasiya seçiminin görünməsinə, iqtisadi, elmi, mədəni, mənəvi potensialın açılmasına, hüquqi baxımdan köklü dəyişikliklərin yalnız inkişaf səciyyəsi daşımasına böyük bir impuls verdi.

Bununla belə, Heydər Əliyev bildirirdi ki, Azərbaycanın müstəqilliyini, sadəcə, elan etmək nə qədər sevindirici olsa da, müstəqillik uğrunda mübarizə illər boyu, tədricən – həm tələsmədən, həm də gecikmədən aparılacaq. Odur ki, qurtuluşun Azərbaycanı taleyin ixtiyarına buraxılmış bir dövlət təsəvvürü olmadı. Dünyanın böyük dövlət qurucusunun, dahi mütəfəkkirin düşünüb müəyyənləşdirdiyi "ritm" üzrə hərəkət edən, get-gedə möhkəmlənən elə bir sosial-siyasi reallıq oldu ki, bizim hər birimizin azərbaycanlı kimi vətəndaş xoşbəxtliyi ondan asılı idi. Heydər Əliyev yaxşı bilirdi ki, "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən,

dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır".

Sonrakı proseslər də göstərdi ki, etnik münasibətlər sahəsində 1991--1992-ci illərdə, 1993-cü ilin birinci yarısında buraxılmış səhvlər fəlakətlə nəticələndi. Azərbaycan dövlətinin qurucusu bir neçə il məhz keçmiş səhvlərin düzəldilməsi ilə məşğul oldu. Qurtuluşun Azərbaycanı yalnız 1995-ci ildən sonra normal inkişaf yoluna düşməyə başladı ki, bunun da ilk rəsmi ifadəsi Azərbaycan Respublikasının Konstitusiyası oldu.

Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya məhv olmaqdan xilas edilmiş, qurtulmuş Azərbaycanın "pasport"u idi. Artıq 3 onilliyə yaxın bir müddətdir ki, müstəqil Azərbaycan Respublikası yaşayır, dünyanın üzvi tərkib hissəsi olmaq uğrunda mübarizə aparır. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə heç şübhəsiz, Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə–əbədi müstəqilliyə aparır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olaraq hakimiyyətə gələn Heydər Əliyev başladığı millət quruculuğu prosesini yeni tarixi şəraitdə daha inamla davam etdirərək ən tendensiyalı və ya qısqanc tarixçinin belə etiraf etməli olduğu həqiqətən, cahanşümul işlər gördü ki, buraya aşağıdakılar xüsusilə aiddir: milli mütəşəkkilliyin müstəqil dövlətçilik səviyyəsində təmin olunması; dünya azərbaycanlılarının mədəni, ictimai- siyasi birliyinin gücləndirilməsi; türk dünyasının etnik-mədəni birliyinin siyasi birlik səviyyəsinə yüksəldilməsi. Bütün bunlar isə Azərbaycan xalqının dünya miqyasında özünə get-gedə daha möhkəm mövqe tutmasını təsdiq etməklə böyük milli inkişaf perspektivləri müəyyənləşdirir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişafında, yeni tarixi şəraitə uyğun interpretasiya edilməsində – modern səviyyədə təfsirində və həmin ideologiyanın tarixdə ilk dəfə əbədi (və dönməz) olaraq həyata keçirilməsində mənsub olduğu millətlə birlikdə apardığı mübarizə, ən nihilist "dostlarımızın" (və düşmənlərimizin) belə inkar edə bilməyəcəyi bir hadisədir.

Heydər Əliyevin nə səviyyədə bir azərbaycançı olması, milli ideologiyamızın inkişafı, həyata keçirilməsi tarixindəki rolu barədə danışarkən yalnız bircə gerçəkliyi yada salmaq kifayətdir ki, o, məfkurə olaraq meydana çıxandan bəri həmişə istər ədəbi, istər romantik siyasi təsəvvürlərin tərənnüm obyekti olmaqdan o yana keçməmiş azərbaycançılıq ideallarına bir millətin müqəddəratını təyin edəcək qədər rəsmi məzmun-mündərəcə verdi.

Azərbaycançılıq Heydər Əliyevin genişmiqyaslı fəaliyyətinin, sadəcə, tərkib hissələrindən biri deyil, həmin fəaliyyətin (əslində, mübarizənin!) əsası, başqa sözlə, mahiyyətidir. Və bu həm sovet dövründə, həm də müstəqillik illərində belə olmuşdur. Sovet dövrünün milli ideal ların həyata keçirilməsi üçün olduqca məhdud şəraitdə

Azərbaycan rəhbəri respublikanın iqtisadi-təsərrüfat həyatının canlandırılması, – elmin, təhsilin inkişafı, ana dilinin, ədəbiyyatın, incəsənətin mövqeyinin yüksəldilməsi, milli hərbi kadrların yetişdirilməsi, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması və s. kimi əhəmiyyətli tədbirlər görmüşdür. Və böyük mütəfəkkir bütün bunları elə etmişdir ki, görülən tədbirlər sovet rejiminin əks reaksiyası, dağıdıcı müqaviməti ilə qarşılaşmasın.

Müstəqillik illərində Azərbaycan qabaqcıl Avropa dövlətləri cərgəsində özünə layiqli mövqe qazanmış, bərabərhüquqlu sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev hakimiyyətin və xalqın həmrəyliyi kontekstində ölkəmizin inkişaf edən dünyanın harmoniyası ilə, demokratik dəyərlərə uyğun olaraq yaşaması ideologiyasının möhkəm əsaslarını yaratmışdır.

İctimai-siyasi, iqtisadi, mədəni-mənəvi həyatda gedən reablitasiya işləri elə uğurla və sistematik şəkildə aparılmışdır ki, xalq bütün istiqamətlərdə potensialını, bütövlükdə, ortaya qoymaq imkanı qazana bilmişdir. Eyni zamanda, bu proseslərin yalnız normal axarda getməsi ilə yanaşı, ulu öndərin qurduğu milli dövlət kompleks iqtisadi, hüquqi, aqrar islahatların həyata keçirilməsini də himayə etmişdir.

Azərbaycanda Heydər Əliyevin yaratdığı müasir dövlətçiliyin inkişafı və möhkəmlənməsi ideyalarının özəyini təşkil edən demokratiya, ədalət və humanizm prinsipləri keçid dövründən normal, az itkilərlə ötüşməyi, vətəndaş cəmiyyəti yaradılmasını ümumi quruculuğun tərkib hissəsinə çevirməyi təmin etmişdir. Böyük öndərimiz insan hüquq və azadlıqlarının etibarlı qorunmasını Azərbaycanda demokratik, hüquqi dövlət quruluşunun əsas strateji amillərindən biri hesab etmiş və bunun hüquqi aspektlərini müəyyənləşdirmişdir. Bu amil isə dünyanın həlledici siyasi dairələrində ölkəmizin nüfuzunun möhkəmlənməsində, nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına qəbul olunmasında digər prinsiplərlə yanaşı, xüsusilə mühüm rol oynamışdır.

Heydər Əliyev Azərbaycanda böyük siyasətə yenidən ölkənin, ümumən, məhv olmaq təhlükəsi altında olduğu zaman gəlmişdi.

Azərbaycan artıq 16 ildir ki, ümummilli lider Heydər Əliyevin ideya və əməllərinin ən layiqli davamçısı, yeni tipli siyasət və dövlət xadimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə inkişaf və hərtərəfli yeniləşmə yoluna qədəm qoyub. Qazanılan uğurlar bütün sferalarda özünü göstərir. Ulu öndər Heydər Əliyevin parlaq ideyaları bu inkişaf və tərəqqinin lokomotividir.

Təbii ki, bütün bu tarixi nailiyyətlər və bundan sonrakı dövrlərdə qazanacağımız uğurlar ümummilli lider Heydər Əliyevin yaratmış olduğu fundamental əsaslara söykənir.

**Nizami CƏFƏROV,**
**Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik.**

# HEYDƏR ƏLİYEV İDEYALARININ AZƏRBAYCANIN MELİORASİYA VƏ SU TƏSƏRRÜFATININ UĞURLU İNKİŞAFINDAKI MİSİLSİZ ROLU

**Azərbaycanın çağdaş tarixi dünya şöhrətli siyasətçi, dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndərimiz müstəqil Azərbaycan dövlətinin qurucusu və bəşəriyyətin yetirdiyi ən böyük şəxsiyyətlərdəndir. "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış ulu öndərimiz Heydər Əliyev Azərbaycanın kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır.**

Keçmiş Sovetlər İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Ulu öndər Azərbaycanın işıqlı və parlaq gələcəyini görür, xalqımızı bu gələcəyə hazırlayır, respublikanın iqtisadi potensialını gücləndirirdi. O illərin canlı şahidi olan orta və yaşlı nəslin nümayəndələrinin yaxşı xatirindədir ki, Azərbaycan bütün sahələrdə sıçrayışa necə sürətlə nail olmuşdur. Sonralar müstəqil dövlət quruculuğuna açılan yol əslində 1969-cu ildən – Heydər Əliyevin respublika rəhbəri seçildiyi vaxtdan başlamışdır. Belə ki, 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul olundu. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975-ci il), "1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi.

1971-1975-ci illərdə meliorasiya işlərinə 580 milyon manatdan artıq vəsait xərclənmişdir ki, bu da 1966-1970-ci illərdəkinə nisbətən iki dəfə çox idi. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. 88 min hektar sahədə torpaqların yuyulması, o cümlədən 48 min hektarda əsaslı yuma, 110,3 min hektar

sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 133,2 min hektar sahədə hamarlama işləri aparılmış, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri inşa edilmişdir.

Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz çayı üzərində həcmi 1 milyard 350 milyon kubmetr olan Araz su anbarı elektrik stansiyası ilə birlikdə, İran İslam Respublikası və Azərbaycan Respublikası ərazilərində 400 min hektar sahəni suvaran Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də 6 min hektar sahəni suvaran üçpilləli Qaraçuq və ikipilləli Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda həcmi 3,5 milyon kubmetr olan Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri və s. obyektlər tikilib istismara verilmişdir.

Torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması və yeni suvarılan sahələrin istifadəyə verilməsi kənd təsərrüfatı istehsalının xeyli artırılmasına və məhsuldarlığın yüksəldilməsinə imkan verdi. 1976-1982-ci illərdə respublikanın rəhbəri Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində su təsərrüfatı və meliorasiya tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma-drenaj sistemlərinin yenidən qurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi.

Bu dövrdə Tərtərçay üzərində 143 min 500 hektar sahəni suvara biləcək həcmi 565 milyon kubmetr olan Sərsəng su anbarı su elektrik stansiyası ilə birlikdə, həcmi 5,86 milyon kubmetr olan Madagiz su anbarı, Tərtərçay magistral kanalları, Naxçıvan MR-də Arpaçay üzərində həcmi 150 milyon kubmetr olan Arpaçay su anbarı və magistral kanallar, Naxçıvançay çayından qidalanan həcmi 12,7 milyon kubmetr olan Sirab su anbarı, Füzuli rayonunda Aşağı Köndələnçay su anbarı, Lənkəran rayonunda həcmi 52 milyon kubmetr olan Yuxarı Xanbulançay su anbarı kompleksi, Tovuz rayonunda 3 pilləli nasos stansiyası və digər obyektlər tikilib istifadəyə verildi. Kür çayı üzərində Şəmkir su anbarının, Şəki rayonunda Əyriçay su anbarının, Qazax rayonunda Coğazçay su anbarının, Füzuli rayonunda Qozluçay, Naxçıvan MR-də Qıvraq və Həmzəli nasos stansiyalarının və s. obyektlərin inşasına başlanıldı.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər) meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq olmuşdur. Bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı yaxşılaşdırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

1983-cü ildə kənd təsərrüfatında faktiki istifadə olunan suvarılan torpaqların sahəsi 1970-ci ildəkinə nisbətən 265,1 min hektar

artmışdı, eyni zamanda istifadə olunmayan suvarılan torpaqların sahəsi 89,7 min hektara qədər azalmışdır.

Azərbaycanda su axınını bölüşdürən və tənzimləyən suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları və su anbarlarından ibarət geniş və mürəkkəb su təsərrüfatı kompleksi fəaliyyət göstərir. Hazırda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi sututumu 22 milyard kubmetr olan 138 su anbarından istifadə edilir, 19 hidroqovşaq, 51800 km suvarma kanalı, 32633 km kollektor-drenaj şəbəkəsi, 1048 nasos stansiyası, 138 min müxtəlif hidrotexniki qurğu, 7633 subartezian quyusu, 2000 km-dən artıq sel və daşqınlardan mühafizə bəndi, 1025 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur. Onların sırasında Ağstafaçay, Arpaçay, Xanbulançay və s. su anbarları, Mil-Muğan, Bəhrəmtəpə, Samurçay hidroqovşaqları, Samur-Abşeron, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Cənubi Muğan magistral kanalları, Baş Mil-Muğan, Baş Şirvan, Mil-Qarabağ, Aşağı Şirvan magistral kollektorları, Tovuz, Şəmkir, Cənubi Muğan nasos stansiyaları, başqa vacib irriqasiya, meliorasiya sistemləri və qurğuları vardır.

Heydər Əliyevin müntəzəm, nəzarəti və bilavasitəköməkliyi ilə bu illərdə respublikada iri su təsərrüfatı obyektləri, o cümlədən Füzuli və Beyləqan rayonlarının 19 min 600 hektar suvarılan əkin sahələrinə xidmət edən Yuxarı Mil kanalı, Masallı rayonunun 11 min hektar əkin sahələrini suvarma suyu ilə təmin edən ümumi həcmi 46 milyon kubmetr olan Viləşçay su anbarı sağ sahil kanalı ilə birlikdə, Qax və Şəki rayonlarında 17 min 300 hektar əkin sahələrini suvarma suyu ilə təmin edən ümumi həcmi 80,6 milyon kubmetr olan Əyriçay su anbarı sol və sağ sahil magistral kanalları ilə birlikdə, Biləsuvar və Cəlilabad rayonlarında 32 min hektar sahəni suvara biləcək Cənubi Muğan kanalının maşın qolu, Şəmkir, Xanlar, Samux və Goranboy rayonlarında 100,9 min hektar sahəni su ilə təmin edən Şəmkir maşın kanalı, İmişli və Saatlı rayonlarının 17 min 500 hektar əkin sahələrini suvarma suyu ilə təmin edən Rəsularx kanalı, Beyləqan, Ağcabədi və Ağdam rayonlarında 57 min 300 hektar sahəni suvarma suyu ilə təmin edən Xan qızı kanalı, digər obyektlər tikilib istismara verilmişdir.

Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən müvəffəq olmağın mümkünsüzlüyünü göstərən ulu öndərimiz Heydər Əliyevin bu sahəyə xüsusi diqqət yetirməsi və həyata keçirilən böyük tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində görkəmli nailiyyətlər əldə olundu. Belə ki, 1970-ci ilə nisbətən 1980-ci ildə respublikada taxıl istehsalı 2,1, pambıq 2,6, üzüm 4,6, tərəvəz və tütün 2,3, meyvə 4,4, çay yarpağı 2,2, mal-qara və quş 1,4, süd istehsalı 1,8 dəfə artmışdır.

Xalqın təkidli dəvəti, taleyin hökmü ilə müdrik rəhbərimiz, dünya miqyaslı siyasətçimiz ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən ali hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha sə-

mərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi.

Məlumdur ki, 1993-1995-ci illərdən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və məqsədyönlü tədbirlər ölkədə əvvəllər baş alıb gedən özbaşınalıqlara və xaosa son qoymuş, ictimai-siyasi sabitliyi təmin etmiş, respublikada hərtərəfli sosial-iqtisadi siyasət aparmaq və beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmaq üçün əlverişli şərait yaratmışdır. 1995-ci ildən başlayaraq ardıcıl aparılan islahatlar nəticəsində iqtisadiyyatın inkişafında mühüm irəliləyişlər əldə edilmişdir. Bir çox sahələrdə, xüsusilə aqrar sahədə yüksək nəticələrə nail olunmuşdur.

Aqrar islahatının bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutuldu. İslahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi sənəd hazırlandı. Bu sənədlərdən ən mühümü ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli Fərmanıdır.

Ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin – Baş Mil-Muğan Kollektoru tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Ümummilli lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan Kollektoru tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı.

İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara qəbul olundu.

Heydər Əliyevin yaxından köməkliyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanıldı. Baş Mil-Muğan kollektorunun istismara verilməsi 500 min hektar suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və onun əhatə etdiyi ərazidə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına şərait yaratmışdır.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir.

Hazırda bu sistem respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyuna və Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizini təmin edir.

Heydər Əliyevin tapşırığına əsasən bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur. Sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. İqtisadi səmərəlilik nöqteyi-nəzərindən bu layihə çox sərfəlidir. Təkcə suyun öz axını ilə Ceyranbatan gölünə ötürülməsi nəticəsində Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 167 milyon kilovat/saat elektrik enerjisinə qənaət edilməsi mümkün olmuşdur.

Son 16 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artmış, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir, köklü iqtisadi islahatlar, bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan vermiş, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişmişdir. Hazırda meliorasiya və su təsərrüfatı sistemi də ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq, qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, eyni zamanda başlanılmış genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2018-ci illərdə 4,2 min km uzunluğunda suvarma kanallarının, 2,8 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 413 min hektar sahədə torpaqların su təminatının və 264 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 166 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləşdirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 187 km-dən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2273 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zoğalavaçay, Ləvain) təmir-bərpa edilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş sudurulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və

bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidən qurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır. 15 noyabr 2014-cü ildə möhtərəm Prezident cənab İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmışdır.

Keçmiş Sovetlər Birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20 min hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev 26 meliorasiya və su təsərrüfatı obyektinin təməlqoyma, işlərin gedişi ilə tanışlıq və açılış mərasimlərində iştirak etmişdir ki, bu da onun sahəyə olan diqqət və qayğısının təzahürüdür.

Azərbaycan Respublikası Prezidentinin ölkədə iri taxılçılıq və pambıqçılıq təsərrüfatlarının yaradılması ilə əlaqədar müvafiq sərəncamlarının icrası olaraq Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əliləmbəyli kəndlərinin 11648 ha əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 11,52 km uzunluğunda magistral təzyiqli boru kəmərinin, nasos stansiyasının, 31 km uzunluğunda dəmir-beton üzlüklü magistral və paylayıcı kanalların qurğularla birlikdə tikintisi üzrə işlər yerinə yetirilmiş və obyektin tikintisi tamamlanmışdır. Ağcabədi rayonunun 1900 hektar yeni suvarılacaq torpaq sahəsinə suvarma suyunun çatdırılması üçün Yuxarı Mil kanalının davamı olaraq onun 6,0 km-lik hissəsi qurğularla birlikdə tikilmişdir.

Eyni zamanda, Sabirabad rayonunun 14319 ha və Biləsuvar rayonunun 1631 ha qış otlaq sahəsinə Kür çayından suvarma suyunun çatdırılması üçün 15 km uzunluğunda dəmir-beton üzlüklü magistral kanalın, 9,74 km uzunluğunda basqılı boru kəmərinin, 14 km uzunluğunda açıq kollektorların və 3277 metr monolit dəmir-beton üzlüklü sutullayıcı kanalın tikintisi işləri yerinə yetirilmişdir.

Araz çayının 54,2 km uzunluğunda yeni qol-kanalının beton üzlüyə alınması işləri tamamlanmış və əlavə olaraq 13145 ha (Saatlı-2500 ha, İmişli -9645 ha və Biləsuvar - 1000 ha) olmaqla, ümumilikdə 53 min hektar yeni suvarılacaq torpaq sahələrinə suvarma suyu çatdırılmışdır. 2018-ci il oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Araz çayının yeni qol-kanalının istifadəyə

verilməsinin açılış mərasimi keçirilmişdir. Arazın yeni qolundan torpaq sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların tikintisi üzrə 1-ci mərhələdə İmişli və Biləsuvar rayonlarının 16863 ha əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 37 km uzunluğunda paylayıcı kanalların qurğularla birlikdə tikintisi aparılmışdır.

2018-ci il iyunun 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 km-lik hissəsinin açılış mərasimi keçirilmişdir. Kanalın son 14 km-nin 5,5 km-lik hissəsinin tikintisi ilə 11788 ha (ondan 1570 hektar yeni suvarılacaq sahələrdir) torpaq sahəsinə suvarma suyu çatdırılmışdır.

Qax rayonunda yaradılan Aqroparka məxsus 1553 hektar yeni suvarılacaq torpaq sahəsinə suvarma suyunun verilməsi üçün tikinti işləri başa çatdırılmış və 2018-ci il oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılış mərasimi keçirilmişdir.

Şəki-Oğuz rayonları ərazisində 12300 hektar sahədə yaradılması nəzərdə tutulmuş Aqroparkda salınacaq qoz və badam ağaclarının Türyançay çayından suvarma suyu ilə təmin edilməsi məqsədilə nasos stansiyasının, təzyiqli boru kəmərinin və sututumu 700 min kubmetr olan su anbarının tikintisi işləri davam etdirilmişdir. Eyni zamanda, Xəzər rayonunun Qoşaqışlaq kəndi ərazisində 758 hektar yeni torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün 7 km uzunluğunda təzyiqli boru kəmərinin və 50 min kubmetrlik basqılı hovuzun beton işləri tamamlanmışdır. Xəzər və Pirallahı rayonlarında yerləşən 1227 ha torpaq sahələrinə Abşeron Magistral kanalından, Xızı rayonu ərazisində yerləşən 380 hektar torpaq sahəsinə Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi üçün müvafiq tədbirlər başa çatdırılmışdır.

Şirvan düzünə yeni həyat verəcək Yuxarı Şirvan kanalının yenidən qurulması üzrə layihə sənədlərinin hazırlanması işləri davam etdirilmişdir. Layihə çərçivəsində mövcud suvarılan və suvarılması nəzərdə tutulan yeni sahələrin müəyyənləşdirilməsi üçün Yevlax, Ağdaş, Ağsu, Kürdəmir, Ucar, Göyçay, İsmayıllı, Hacıqabul və Şamaxı rayonları üzrə yer quruluşu, topoqrafiya, geoloji-axtarış və digər işlər yerinə yetirilmiş, kanalın 123 km-lik hissəsinin yenidən qurulmasının layihə-smeta sənədləri hazırlanmış və hazırda aidiyyəti qurumlarla razılaşdırma işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin 12 mart 2018-ci il tarixli Sərəncamı ilə respublikanın 38 şəhər və rayonunun 248 yaşayış məntəqəsində 8740 hektar əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd, 5 noyabr 2018-ci il tarixli Sərəncamı ilə Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün əlavə olaraq 35 ədəd subartezian quyusunun qazılması işləri tamamlanmışdır.

Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə məqsədilə Samur-Abşeron və Xanarx kanallarının Qudyalçay, Qusarçay, Vəlvələçay çayları ilə kəsişmələrindəki qurğularda və Vəlvələçay çayından sugötürücü qurğuda yaranmış qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə tikinti işləri başa çatdırılmışdır.

Dünya Bankının krediti ilə həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 5 rayonunda (Şabran, Siyəzən, Lerik, Yardımlı və Cəlilabad) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Lerik rayonunda işlər yekunlaşdırılmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 15 oktyabr 2018-ci il tarixində şəhərin içməli su sisteminin və kanalizasiya şəbəkəsinin əhalinin istifadəsinə verilməsi mərasimində iştirak etmişdir.

Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonları ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi üzrə Şabran rayonunda 4762 hektar yeni suvarılan torpaqlara suvarma suyunun çatdırılması və 7172 hektar sahədə su təminatının yaxşılaşdırılması üçün suvarma və kollektor-drenaj şəbəkəsinin tikintisi işləri aparılmışdır.

2017-2018-ci illərdə həyata keçirilmiş yenidənqurma və tikinti tədbirləri hesabına 195261 hektar (ondan 111574 hektar yeni suvarılan) sahədə torpaqlara suvarma suyu çatdırılmış və 25526 hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verilən tapşırıqların icrası olaraq Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sahələrin genişləndirilməsi, sel və daşqın sularına qarşı mübarizə və digər istiqamətlərdə əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də fəaliyyətini uğurla davam etdirmişdir.

Taxtakörpü su anbarı zonasında meliorativ tədbirlərin davamı olaraq 9 km uzunluğunda boru xəttinin tikintisi ilə Şabran rayonunda yerləşən Şabran Aqroparka məxsus 1738 hektar torpaq sahəsinin Taxtakörpü su anbarından əlavə su mənbəyi yaratmaqla su təminatı yaxşılaşdırılmışdır. Eyni zamanda Qaraçay çayında sugötürücü qurğunun və uzunluğu 16 km-dən artıq olan nəqledici kanalın tikintisinin tamamlanması ilə Samur-Abşeron kanalına əlavə su verməklə yanaşı, Quba rayonunun 6 min hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılması mümkün olmuşdur. Xaçmaz rayonunda yaradılmış Yalama Aqroparka məxsus torpaq sahələrinin daha 956 hektar yeni suvarılacaq torpaq sahələri hesabına genişləndirilməsi üçün 10 min metr suvarma kanalı və sututumu 50 min kubmetr olan 2 ədəd su hovuzu tikilmişdir. Taxtakörpü su anbarından cari ilin 10 ayı ərzində 332 milyon kubmetr su verilmişdir.

Şəmkirçay su anbarı zonasında Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının 2-ci növbəsinin (ümumi uzunluğu 27,9 km) son 8,5 km-lik hissəsinin tikintisi işlərinin başa çatdırılması ilə Goranboy rayonunun daha 11682 hektar torpaq sahəsinə suvarma suyu çatdırılmışdır. Magistral kanalın uzunluğu 21 km-dən çox olan 3-cü növbəsinin tikintisinin layihə sənədlərinin hazırlanması başa çatdırılmış və onun tikintisi ilə Goranboy rayonunun 23,0 min ha (ondan 10 min ha yeni suvarılacaq torpaqlardır) torpaq sahəsinə suvarma suyunun çatdırılması mümkün olacaqdır. Keçən əsrin 80-ci illərində inşası yarımçıq qalmış Kür çayı üzərində nasos stansiyalarının suvermə qabiliyyətinin artırılması işləri davam etdirilmişdir. Şəmkirçay su anbarından cari ilin 10 ayı ərzində 198 milyon kubmetr su verilmişdir.

Cari ildə respublikanın 11 rayonunda sahəsi 20 min hektara yaxın olan ərazidə yaradılmış 10 Aqroparkdan sahəsi 4150 hektar olan 4 ədədi Ağcabədi, Goranboy, Füzuli və Yevlax pambıqçılıq rayonlarının ərazisində yerləşir. Ağcabədi və Goranboy rayonları ərazisində yaradılmış aqroparklara məxsus 1250 hektar sahədə yeni suvarılan torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi işləri cari ilin sonuna qədər başa çatdırılacaqdır.

Araz çayının uzunluğu 54 km olan Yeni qolundan suyun suvarma sahələrinə çatdırılması və paylanması məqsədilə paylayıcı kanalların (daxili suvarma şəbəkəsiz) tikintisi cari ildə də davam etdirilmişdir. 1-ci mərhələdə Yeni qolun sağ sahilində yerləşən 17 min hektar sahədə suvarma suyunun paylanması üçün 78 km torpaq məcralı kanalların tikintisi tamamlanmış və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması işlərinə başlanılmışdır. Eyni zamanda Yeni qolun sol sahilində yerləşən 14 min hektara yaxın torpaq sahəsinə suvarma suyunun paylanması üçün 37 km beton üzlüklü kanalların tikintisi işləri başa çatdırılmışdır.

Respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 8362 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd, eləcə də Goranboy və Ağcabədi rayonlarının 23 yaşayış məntəqəsində 24 ədəd olmaqla, cəmi 324 ədəd subartezian quyusunun (onlardan 160 ədədinin pambıqçılıq rayonlarının ərazilərində qazılması nəzərdə tutulmuşdur) qazılması təmin ediləcəkdir. Hazırda subartezian quyularının 289 ədədində, o cümlədən pambıqçılıq rayonlarında olan 125 ədədində qazma işləri başa çatdırılmışdır. Pambıqçılıq rayonlarında 49 min hektara yaxın ərazidə torpaqların su təminatı və meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Erməni işğalından azad edilmiş və 2018-ci ildə 400 əkin sahələri suvarma suyu ilə təmin edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin cari ildə 17 hektar həyətyanı sahələrinə suvarma suyunun verilməsi üçün 4880 pm magistral və paylayıcı boru kəmərlərinin tikintisi tamamlanmışdır.

Dünya Bankının krediti və Azərbaycan Respublikası Hökumətinin pay iştirakı ilə həyata keçirilən layihə üzrə cari ildə respublikanın 8 rayonunda (Şabran, Siyəzən,

Ağsu, İsmayıllı, Masallı, Cəlilabad, Lerik və Yardımlı) su təchizatı və kanalizasiya şəbəkələrinin, içməli və çirkab təmizləyici qurğuların tikintisi başa çatdırılmış və onların "Azərsu" ASC-nin istismarına verilməsi yekunlaşmaq üzrədir.

Cari ildə respublika üzrə 1400,0 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin edilməsi üçün mənbələrdən 8124 milyon kubmetr su götürülmüş, suayırıclarından 5798 milyon kubmetr su verilmiş və bitkilər 3,3 dəfə suvarma suyu ilə təmin edilmişdir.

2020-ci ildə Səhmdar Cəmiyyəti meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim etmişdir. Taxtakörpü və Şəmkirçay su anbarları zonalarında magistral və paylayıcı suvarma kanallarının tikintisi işləri davam etdiriləcəkdir.

Şəmkir su anbarı zonasınada Şəmkir-Samux-Goranboy magistral kanalının Kür çayı üzərindəki 1-ci və 2-ci pillə nasos stansiyalarının hər birində nəzərdə tutulan 3 nasos aqreqatının quraşdırılması, Şəmkir-Samux-Goranboy magistral kanalının 3-cü növbəsinin, eyni zamanda tikintisi başa çatmış Şəmkir-Samux-Goranboy magistral kanalının 2-ci növbəsinin və Şəmkirçay su anbarının layihə zonalarında paylayıcı kanalların tikintiləri, Sabirabad rayonunda qış-otlaq sahələrində meliorativ tədbirlər və Araz çayının Yeni qol-kanalı zonasında kollektor-drenaj şəbəkəsinin və paylayıcı kanalların tikintisi, ölkənin kənd təsərrüfatının inkişafında xüsusi rol oynayan Aqroparklara məxsus torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi işləri 2020-ci ildə də davam etdiriləcəkdir.

Möhtərəm Prezident cənab İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar təsdiq edilmiş Dövlət proqramları və Tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur.

Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ölkə melioratorlarının əməyinə və sahənin roluna verilən yüksək qiymət bizi daha böyük məsuliyyətlə işləməyə və daha böyük nailiyyətlər qazanmağa sövq edir. Bu böyük diqqət və qayğıya cavab olaraq, Cəmiyyətin kollektivi mövcud meliorasiya və irriqasiya sistemlərinin qorunub saxlanılması, lazımi səviyyədə istismarının həyata keçirilməsi, təmir-bərpa işlərinin təşkili sahəsində qarşıya qoyulmuş tapşırıqları tam məsuliyyəti ilə dərk edərək, onların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bundan sonra da bütün bacarıq və imkanlarından istifadə edəcək, daha səylə çalışacaq, ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatında üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirəcəklər.

**Əhməd ƏHMƏDZADƏ,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri.**

# İSLAHATLARIN ƏSAS HƏDƏFİ QÜDRƏTLİ DÖVLƏT QURMAQDIR

***İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik.***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Prezident İlham Əliyevin son 16 ildə ulu öndərin strategiyasından qaynaqlanan sosial-iqtisadi siyasəti keyfiyyətcə yeni prioritetləri müəyyənləşdirərək, innovasiya əsaslı inkişaf modelinə keçidi şərtləndirib, yüksək rəqabət qabiliyyətli və diversifikasiya olunan iqtisadiyyatın formalaşmasını sürətləndirib. Azərbaycanda yaradılan böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadi idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər iqtisadiyyatın davamlı inkişafını təmin edib.

Əldə olunan iqtisadi uğurlar, maliyyə imkanlarının artması nəticəsində bu gün Azərbaycan xarici ölkələrdə müxtəlif irimiqyaslı investisiya layihələrini maliyyələşdirir, o cümlədən sosial-mədəni təşəbbüsləri gerçəkləşdirir, humanitar yardımlar göstərir. Tədricən kreditor və mühüm investor ölkəyə çevrilməkdə olan Azərbaycan, eyni zamanda, donor ölkə statusu qazanmağa başlayıb.

Azərbaycan bu mövqeyə gəlib çıxmaq üçün uzunmüddətli iqtisadi quruculuq yolu keçib və bütün bu işləri mütərəqqi qabaqcıl dünya təcrübəsi əsasında həyata keçirmək üçün beynəlxalq maliyyə-kredit institutları, xüsusilə, Dünya Bankı ilə sıx əməkdaşlıq edib. Struktur islahatlarının dərinləşdirilməsi, sosial-iqtisadi infrastrukturun bərpası və inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması bu dövrdə Azərbaycanla Dünya Bankı arasında əməkdaşlığın başlıca istiqamətləri olub.

### İslahatlar dönməz xarakter alıb

Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə söylədiyi nitqində respublika iqtisadiyyatının bugünkü vəziyyətinə toxunaraq deyib: "Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur… Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır.

Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır".

Hazırda ölkə həyatının bütün sahələrində ciddi islahatlar gerçəkləşdirilir. Belə şərait dayanıqlı iqtisadi inkişafın sürətləndirilməsinə və bunun nəticəsində maliyyə imkanlarının genişlənməsinə müsbət təsir göstərir. Bu isə, öz növbəsində, sosial sahədə dövlət siyasətinin daha uğurla reallaşdırılmasını təmin edir. Hazırda bu, sözügedən istiqamətdə tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi prosesində daha aydın müşahidə olunur.

Respublikada səmərəli iqtisadi tədbirlər görülməsi hesabına əlavə gəlirlərin əldə olunması və büdcənin güclənməsi sosial islahatların gerçəkləşdirilməsinə əlverişli şərait yaradır. Dövlətimizin başçısı Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə islahatlardan danışarkən, bu məsələnin ölkəmizin sosial-iqtisadi inkişafının sürətlənməsində önəmli rol oynadığını xüsusi vurğulayıb: "İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik".

Bu gün Azərbaycanda əhalinin sosial müdafiəsinin günün tələblərinə uyğun təşkili, bu sahədəki problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən islahatlar nəticəsində respublikada yoxsulluq həddində yaşayanların sayı getdikcə azalır. Son 16 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradılması, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə müvafiq dövlət proqramlarının uğurlu icrası nəticəsində yoxsulluq səviyyəsinin 49 faizdən 4,9 faizə, işsizlik səviyyəsinin isə 5 faizə endirilməsi bunun bariz ifadəsidir.

**Sosial islahatlar xalq–iqtidar birliyini daha da möhkəmləndirib**

Prezident tərəfindən 2019-cu ildə təqdim olunan, əhalinin rifahı sahəsində inqilabi dəyişiklikləri təmin edən sosial islahatlar paketi 4,6 milyon nəfəri əhatə edib. Sosial paketin etibarlılığı onun maliyyə təminatı ilə səciyyələnir. Bu məqsədlə 2019-cu ilin dövlət büdcəsindən 2 milyard 79 milyon manat vəsait ayrılıb, 2020-ci ildə isə 2 milyard 791 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Qeyd edilən sosial paket çərçivəsində ölkədə minimum aylıq əməkhaqqı 93 faiz artırılaraq 130 manatdan 250 manata çatdırılıb. Əməkhaqqının artırılması ölkədə orta aylıq əməkhaqqına təsir göstərib, onu 625 manata çatdırmağa imkan verib. Bununla bərabər, Prezident sosial paket çərçivəsində pensiyaların və sosial müavinətlərin məbləğini ikiqat artırıb. Bundan əlavə, Azərbaycan Prezidentinin yeni aylıq təqaüdləri təsis edilib: I qrup əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud olan 18 yaşa qədər uşaqlara qulluq edənlər üçün 50 manat, müharibə veteranlarına 80 manat müəyyənləşdirilib. Minimum pensiyanın məbləği 2019-cu il martın 1-dən 160 manata, oktyabrın 1-dən 200 manata çatdırılıb. Bu, o deməkdir ki, ölkədə minimum pensiyanın məbləği 72 faiz artırılıb. Prezident məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinətin həcmini 50 faiz, tələbələrin təqaüdlərini 20 faiz artırıb.

Prezidentin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına əsasən bu sahədə yaranmış problemlərin kompleks həlli ilə yanaşı, yeni, dünya miqyasında nadir mexanizm – xarici valyutada vaxtı keçmiş kredit borclarının ödənilməsi sahəsində dövlət dəstəyi mexanizmi yaradılıb. Bu fərmanın icrası nəticəsində fiziki şəxslərin banklara xarici valyutada 10 min ABŞ dollarına qədər əsas kredit borclarının manatın devalvasiyası ilə əlaqədar artan məbləği hesablanaraq ödənilib. Nəticədə 710,3 min kredit sazişi üzrə 629 milyon manat kompensasiya ödənilib.

**Maliyyə sektorunda aparılan islahatların uğurlu nəticələri**

Respublikamızda son illər karbohidrogen hasilatından əldə edilən gəlirlərin iqtisadiyyatın digər sektorlarına yönəldilməsi nəticəsində iqtisadi şaxələndirmə güclənib və özəl sektor ümumi inkişafın əsas prioritetlərdən birinə çevrilib. Bununla yanaşı, maliyyə sektorunda aparılan islahatlar nəticəsində vergi yükü azalıb, mikro, kiçik və orta sahibkarlığın inkişafı dəstəklənib.

Ölkə rəhbərinin təşəbbüsü ilə son illərdə iqtisadiyyatın müxtəlif istiqamətlərində olduğu kimi, maliyyə sektorunda da həyata keçirilən silsilə islahatlar artıq öz bəhrəsini verib. Belə ki, 2015-ci ildən sonra maliyyə-bank sistemində narahatlıq doğuran məsələlərdən biri--əmanətlərin banklardan geri götürülməsi problemi müsbət həll edilib. Əlbəttə, bu, dövlət başçısının məsələyə çevik reaksiyası nəticəsində reallaşıb. Başqa sözlə, 2016-cı ildə əmanətlərin tam sığortalanması haqqında qanun imzalanıb ki, bununla da ölkəmizin maliyyə bazarlarının effektivliyinin qısa zamanda bərpa edilməsi gerçəkləşib. Artıq 2017-ci ilin ikinci yarısından başlayaraq, əmanətlərin banklardan geri götürülməsi prosesi dayanıb və bank sektorunda ilkin müsbət trendlər müşahidə olunmağa başlayıb.

**Aqrar sahədə innovativ texnologiyaların tətbiqi**

Son illərdə aqrar sektorda innovativ texnologiyaların geniş tətbiqinə, müasir idarəetməyə mühüm önəm verilir. Məhz bunun nəticəsidir ki, ötən müddətdə mövcud

sahədə məhsuldarlığın artmasına nail olunub. Məsələn, cari təsərrüfat ilində dislokasiya sisteminin qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara "GPS" quraşdırılması və onların düzgün dislokasiyası nəticəsində taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da yüksək olub. Ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner çox məhsul əldə edilib.

Aqrar sahədə innovativ texnologiyaların tətbiqinə xüsusi əhəmiyyət verilməsi təsadüfi deyil. Prezident İlham Əliyev hələ cari ilin əvvəlində regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, kənd təsərrüfatında islahatlar dərinləşdirilməlidir. Aqrar sektor elmi əsaslarla inkişaf etməlidir. Müasir texnologiyalar, yanaşmalar tətbiq olunmalıdır.

Dövlət başçısının bu tövsiyəsinə xüsusi diqqət yetirilməsinin nəticəsidir ki, respublikada ilk dəfə olaraq Milli Aviasiya Akademiyasında akademik Arif Paşayevin rəhbərliyi ilə ozonlaşdırma texnologiyası hazırlanıb. AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun mütəxəssisləri tərəfindən ozonlaşdırmanın kənd təsərrüfatında tətbiqi əsasında taxıl istehsalının az məsrəflə, habelə ekoloji təmiz üsullarla artırılması, məhsulun ekoloji təmiz və itkisiz saxlanılması üzrə elmi-tədqiqat və sınaq işləri aparılıb, mühüm nəticələr əldə edilib.

Respublikamızda çəltik əkinlərinin elmi əsaslarla həyata keçirilməsi ilə bağlı son illər xeyli iş görülüb. Hazırda bu sahədə əl əməyi, demək olar ki, aradan qaldırılıb. Əkindən başlayaraq, məhsulun yığımına kimi, bütün proseslər mexanikləşdirilib. Məsələn, respublikada, ilk dəfə olaraq, cənub bölgəsində çəltik şitilləri Koreyadan gətirilən ən müasir maşın və mexanizmlərdən istifadə edilməklə əkilib və biçilib. Müasir texnologiyanın tətbiqi nəticəsində keçən il çəltiyin əkin sahəsi 2017-ci illə müqayisədə 2 dəfədən çox artırılaraq, 5,1 min hektara çatdırılıb. İstehsal 2,9 dəfə yüksələrək (10,6 min ton) 16,2 min tona çatıb və orta məhsuldarlıq 31,1 sentner/hektar olub.

Artıq ölkəmizdə pambığın da innovativ texnologiya əsasında yetişdirilməsinə başlanılıb. Ucarda bu il təcrübə üçün ayrılan 10 hektarlıq pambıq sahəsi Çin texnologiyası əsasında, Beyləqan rayonunun Mil Təcrübə Stansiyasında isə innovativ texnologiya (damlama suvarma sistemi) ilə becərilib.

Məhz həyata keçirilən tədbirlər sayəsində bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6 milyard 900,3 milyon manat təşkil edib ki, onun da 3 milyard 350,8 milyon manatı heyvandarlıq, 3 milyard 549,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 7,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 11,4 faiz artıb.

e-mail: www.xalqqazeti.com

# İLHAM ƏLİYEV. ƏLİ XALQIN NƏBZİNDƏ OLAN İSLAHATÇI PREZİDENT

***Azərbaycanın və onun xalqının taleyinə görə məsuliyyət İlham Əliyevin üzərinə gənc yaşlarında düşmüşdü. Prezident seçiləndə onun 42 yaşı vardı. Müasir dünya tarixinə nəzər yetirsək, bu yaşda dövlət başçısına nadir hallarda rast gələrik. Şəkkaklar vardı: bacaracaqmı? Bacardı. Zamanın çağırışı və xalqın seçimi ilə ona həvalə olunan bu missiyanın öhdəsindən heyrətamiz dərəcədə uğurla gəldi.***

***İlham Əliyevin həyatı uğur səhifələridir. Moskvada təhsil illəri, çətin neft danışıqları, hər ayı, hər ili tarixə yazılan 16 illik prezidentlik dövrü...***

***Bunu bir xarizma, fitri liderlik istedadı da hesab etmək olar. Üstəlik o, Heydər Əliyev məktəbi keçib, siyasi-mənəvi baxışları bu məktəbdə formalaşıb. İdarəetməni dahi siyasi xadim, müasir müstəqil dövlətimizin banisi, xalqımızın ulu öndəri Heydər Əliyevdən əxz edib. Siyasətdə varislik prinsipi Prezident İlham Əliyevin bir çox çıxışlarında qırmızı xətt kimi keçir. Onu dünya liderlərindən fərqləndirən ən üstün cəhət xalqla daim təmasda, ünsiyyətdə olmasıdır. Müsahibələrindən birində deyir: "Bu canlı ünsiyyət mənə əlimi xalqın nəbzində saxlamaq, nəyin insanları narahat etdiyini bilmək və əlbəttə qərarların yerinə yetirilməsinə nəzarət etmək imkanı verir".***

***Adı tariximizə islahatçı lider, inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu kimi düşmüş Prezidentimizin həyat yolunun bəzi səhifələrini birlikdə vərəqləyək.***

**MDBMİ-nin ən gənc məzunu və müəllimi**

Valideynləri onu məktəbə 6 yaşı tamam olmamış göndərmişdilər. Orta məktəbi bitirəndə isə 16 yaşı tamam olmamışdı. Bu yaşda pasport verilmədiyindən İlham Əliyev Moskvaya, ali məktəbə qəbul olunmağa arayışla getmişdi. İmtahanları uğurla verərək elə ilk cəhddə nüfuzlu ali məktəblərdən sayılan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) ən gənc tələbəsi adını qazandı. İlk müstəqil həyat və ünsiyyət təcrübəsinə burada yiyələndi. İnstitutu bitirəndən sonra SSRİ-nin xarici ölkələrindən birindəki səfirliyinə təyinat alsa da, MDBMİ-də qalmağa üstünlük verdi. Aspiranturaya daxil oldu, dissertasiya müdafiə etdi və 23 yaşında almamaterdə müəllim işləməyə başladı.

Ümumiyyətlə, İlham Əliyevin həyatının 15 ili MDBMİ ilə bağlı olub. Həmin dövrü unudulmaz illər adlandıran İlham Əliyev Rusiya telekanallarına müsahibəsində belə deyib: "Tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir. Həmin illər mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi".

Prezident İlham Əliyevin sözügedən müsahibəsi mənə Ulu Öndərimizin öz siyasi varisi barədə 16 il əvvəl dediyi sözləri xatırlatdı: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsdir".

İlham Əliyevin sonrakı siyasi fəaliyyətində, kamil dövlət xadimi kimi formalaşmasında MDBMİ-də yiyələndiyi bilik və təcrübə, oradakı ab-hava mühüm rol oynayıb. Bu nüfuzlu institut da, öz növbəsində, məzunları arasında ilk Prezident olan İlham Əliyevlə qürur duyur. Bununla bağlı araşdırma apararkən MDBMİ-nin sabiq rektoru Nikolay Lebedevin İlham Əliyevə müraciətlə dediyi bu sözlərə rast gəldim: "Mən Sizə həmişə beş vermişəm. Siz bu qiymətə çiçəklənən dövlətin rəhbəri kimi də layiqsiniz".

Məncə, İlham Əliyevin tələbəlik illərini və Prezidentlik fəaliyyətini ikicə cümlə ilə bu qədər dəqiq səciyyələndirən digər lakonik ifadə tapmaq çətindir.

**Çətin neft danışıqları və opponentləri inandırmaq məharəti**

Azərbaycan müstəqilliyin ilk illərində ağır iqtisadi böhran yaşayırdı. Heydər Əliyevdən əvvəl iqtidarda olanlar ona ağır miras qoymuşdular. Dövlət xəzinəsi boş idi. Belə vəziyyətdə heç bir iş görmək mümkün deyildi və ümid yalnız dənizin dibindəki neftə qalırdı.

Ulu Öndər çox böyük uzaqgörənliklə xarici şirkətləri Xəzər neftinin çıxarılmasına cəlb etməyə çalışırdı. Lakin o vaxt Azərbaycan riskli ölkə sayılırdı. Ulu Öndərin Vətəni və xalqı qarşısında tarixi xidmətlərindən biri də əcnəbi investorları Azərbaycana sərmayə yatırmağın hədər getməyəcəyinə inandırması oldu.

Danışıqlar isə çətin gedirdi. Tərəflərdən hər biri öz marağından çıxış edirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbulda və Hyustonda davam etdirildi. Qarşı tərəf çox ağır şərtlər qoyurdu. Hətta belə bir şərt irəli sürülmüşdü ki, Azərbaycan Rusiya ilə razılaşıb Xəzərin hüquqi statusunu həll etməsə, danışıqlar dayandırılacaq. Status məsələsinin həlli isə bir-iki ilin işi deyildi. Bu barədə məlumat alan Ulu Öndər o vaxt Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. O, okeanın o tayında çox faydalı görüşlər keçirib məsələni yoluna qoydu.

Uzun illərin müşahidələri göstərir ki, İlham Əliyev şəxsi xidmətlərini qabartmağı xoşlamır. Neft danışıqlarında iştirakı barədə də nadir hallarda danışır. Bu yaxınlarda "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə keçirilən mərasimdəki çıxışında yalnız onu dedi ki, Amerikanın Hyuston şəhərində bir aydan çox davam edən danışıqlar həlledici rol oynadı: "Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoş-

bəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi".

Danışıqların iştirakçısı olmuş Xoşbəxt Yusifzadə xatırlayır: "Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi".

Beləliklə, "Əsrin müqaviləsi" adını almış həmin neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı və neft sənayesinin, bütövlükdə ölkənin sonrakı taleyində həlledici rol oynadı. Kontrakt çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan indiyədək 500 milyon ton neft çıxarılması, iki il əvvəl kontraktın müddətinin 2050-ci ilədək uzadılması 1994-cü ildə nə qədər düzgün qərar qəbul edildiyini bir daha təsdiqləyir.

**Zamanın çağırışı və xalqın müdrik seçimi**

On altı il əvvəl Azərbaycan zamanın yeni çağırışı ilə üz-üzə qalarkən xalqımız növbəti dəfə müdrik seçim edərək, gələcək taleyini Ulu Öndərimizin siyasi varisi İlham Əliyevə etibar etdi. Sözsüz ki, bu seçim Heydər Əliyev kursunun uğuru ilə yanaşı, onun varisinə inam və etimaddan qaynaqlanırdı.

İlham Əliyevin Prezidentlik dövrünü necə səciyyələndirmək olar? Bir cümlə ilə desək, bu illər ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb: istər iqtisadi-sosial və siyasi baxımdan, istərsə də idarəçilik sisteminin təkmilləşdirilməsi və islahatların dinamizmi baxımından.

Digər baxış bucağından yanaşsaq, bu illər ərzində Azərbaycanın modernləşərək yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu görəcəyik. Ölkə həyatının bütün sahələri yenilənərək tanınmaz dərəcədə dəyişib. Bu yeniləşmə xalqın rifah halının davamlı olaraq yüksəlməsi, mövcud problemlərin böyük qisminin həlli ilə müşayiət olunub, dövləti və xalqı vahid platformada birləşdirib.

Gözlərimiz qarşısında baş verən misilsiz inkişaf yalnız zəngin təbii sərvətlər –

neft, qaz, bərəkətli torpaqlar hesabınamı mümkün olub? Yox, nefti və qazı Azərbaycandan qat-qat çox olan ölkələr var ki, səfalət içərisində yaşayır, münaqişələr girdabında boğulur.

Söhbət, ilk növbədə, liderin həlledici rolundan gedir. Praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma, uzaqgörənlik və prinsipiallıq, yüksək idarəçilik və humanistlik - bütün bunlar Prezident İlham Əliyevə xas olan liderlik keyfiyyətləridir. Azərbaycanın inkişafı, milli maraqlarımızın yüksək səviyyədə qorunması və təmin edilməsi dövlətimizin başçısının bu və digər ali keyfiyyətləri sayəsində mümkün olub. O, Azərbaycanı zamanın çağırışlarına məharətlə uyğunlaşdıra bilib.

Prezident İlham Əliyev öz əsas vəzifəsini xalqına xidmətdə görür və hər bir məmurdan da bunu tələb edir. Yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları dayanır. Elə buna görə də xalq öz liderinə bütün zamanlarda böyük dəstək göstərib və göstərir. Bunu son bir ildə keçirilən rəy sorğuları əyani şəkildə təsdiqləyir.

**Etimad əmsalı və daim yüksələn reytinq**

Dünya praktikasına nəzər salsaq, prezident seçkilərindən sonra liderlərin reytinqinin adətən aşağı düşdüyünü görərik. Bu, onunla izah olunur ki, dövlət başçıları seçkiqabağı vədlərinin heç də hamısını yerinə yetirə bilmir, yaxud cəmiyyətin mənafeyi və maraqları ilə toqquşan addımlar atırlar. Onların fəaliyyətinin bəyənilmə əmsalı ən yaxşı halda 50-60 faizdən yuxarı qalxmır.

Prezident İlham Əliyevin reytinqi isə sabit və kifayət qədər yüksəkdir. Fransanın "Opinion Way" sosioloji tədqiqat institutunun Azərbaycanda son prezident seçkilərindən bir il sonra keçirdiyi rəy sorğusunun (2019-cu ilin apreli) nəticələri əhalinin 85 faizindən çoxunun İlham Əliyevin rəhbərliyi ilə görülən işləri dəstəklədiyini göstərdi. Prezidentin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala respondentlərin 75,6 faizi müsbət cavab verdi. İnstitutun rəhbəri Brüno Jaubar etiraf edir ki, sorğu azərbaycanlıların öz siyasi rəhbərliyindən çox razı olduğunu birmənalı şəkildə təsdiqlədi.

Azərbaycan Prezidentinin fəaliyyəti ilə bağlı daha bir rəy sorğusu bu yaxınlarda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılıb. Sorğu zamanı, ümumilikdə, 1316 respondentdən İlham Əliyevin oktyabr ayındakı fəaliyyətini qiymətləndirmək xahiş olunub. Onların 77,5 faizi ölkə Prezidentinə inam və etimadın daha da artdığını, 18,1 faizi həmişəki inam və etibarın qorunub saxlanıldığını bildirib: üst-üstə 95,6 faiz.

Digər suallara verilən cavablar da maraq doğurur. Məsələn, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezidentin son bir ildə apardığı islahatları respondentlərin 90,5

faizi, bölgələrin inkişafı üzrə görülən işləri isə 93,1 faizi müsbət qiymətləndirib.

Ölkəmizdə mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanmasını respondentlərin 80 faizindən çoxu Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Bu yüksək qiymətin səbəbi adi gözlə görünə biləcək qədər aydındır: regionda və dünyada bir çox mənfi proseslər yaşanmasına baxmayaraq, Azərbaycan öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, ardıcıl tədbirlər görülüb.

Ekspertlər Prezident İlham Əliyevin müsbət imicini şərtləndirən amillər sırasında 2018-ci ilin aprelindən 2019-cu ilin aprelinədək olan dövrdə həyata keçirilən struktur və kadr islahatlarını, dövlət idarəetməsinin səmərəsinin artırılması və şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması istiqamətində atılan ciddi addımları xüsusi qeyd edirlər.

**Vədlə işin vəhdəti**

Bir qədər əvvəl qeyd etdiyimiz kimi, dövlət başçılarının reytinqinə birbaşa təsir edən ən mühüm amil seçkiqabağı vədlərə nə dərəcədə əməl olunmasıdır.

“Opinion Way” sosioloji tədqiqat institutunun bununla bağlı sualını rəyi soruşulanların 75,6 faizi müsbət cavablandırıb. Bu qiymət təbii ki, sözlə əməlin vəhdətindən qaynaqlanır, Prezident İlham Əliyevin indiyədək verdiyi heç bir vəd söz olaraq qalmayıb. Xatırlayırsınızsa, neft gəlirlərinin kəskin şəkildə azaldığı, dünyanın qlobal maliyyə böhranı ilə üzləşdiyi vaxtlarda belə, Azərbaycanda sosial proqramların hamısı icra edilib. İlham Əliyev başladığı hər bir işi uğurla başa çatdırmağa nail olub. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən transmilli energetika və nəqliyyat layihələrini, ölkəmizin azsaylı kosmik dövlətlər sırasına daxil olmasını da bura əlavə etsək, mənzərə daha da aydınlaşar.

Əhali ilə birbaşa təmasda olan Prezident cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirərək qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görüb. Çoxlarının yadında olar, İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçilərkən 600 mindən çox iş yeri yaradılacağını bildirmişdi. O vaxt bəziləri buna fantastika kimi baxırdı. Prezident bu vədini də yerinə yetirdi. Bu gün ölkəmizdə işsizlik 45 faizdən 5 faizə, yoxsulluq 50 faizdən 5 faizə enib.

2000-ci ilin əvvəllərində bölgələrin elektrik enerjisi, qaz və su təchizatı, yol infrastrukturu, məktəblərin, xəstəxanaların vəziyyəti qənaətbəxş deyildi. Prezident əhalini narahat edən bu məsələlərin tezliklə yoluna qoyulacağını dedi. Çox gözləmək lazım gəlmədi. Hazırda ölkə ərazisinin 95 faizi qazlaşdırılıb. On altı ildə 16 min kilometrə yaxın yol çəkilib. Üç

mindən çox məktəb tikilib, 600-dən çox tibb müəssisəsi yenidən inşa olunub və ya təmir edilib. Bu müddətdə 30-dan çox elektrik stansiyası istifadəyə verilib və Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevrilib.

İlham Əliyev Prezident seçildiyi ilk gündən ulu öndər Heydər Əliyevin siyasətini davam etdirəcəyinə söz vermişdi. Demişdi ki, hər bir vətəndaşın Prezidenti olacaq. Bu və digər vədlərin hər biri əməli işlərlə tamamlanıb.

Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil və azad olmayıb. Bu güclü, sözün hər bir mənasında, müstəqil, gündən-günə modernləşən Azərbaycan İlham Əliyevin əsəridir.

**Skeptiklərə cavab: iş və nəticə**

Adətən yeni ideya, yaxud təşəbbüs irəli sürüləndə buna şübhə ilə baxanlar çox olur, xüsusən belə bir ideya ilə Azərbaycan kimi yeni formalaşan kiçik bir ölkə çıxış etdikdə. Vaxtilə Heydər Əliyevin Bakı-Tbilisi-Ceyhan neft kəməri ideyasının necə qarşılandığını yadınıza salın. Skeptiklər Azərbaycandan Aralıq dənizinə boru kəməri çəkilməsini xəyal adlandırırdılar. Ona hətta üç dəniz əfsanəsi adı verilmişdi.

Yaxud Prezident İlham Əliyevin ideyası olan Cənub Qaz Dəhlizi layihəsini götürək. TANAP boru kəmərinin çəkilməsi təşəbbüsünə də eyni skeptik yanaşma müşahidə olunurdu. Fikir vermişdinizsə, bunun baş tutmayacağı ilə bağlı çox söz-söhbət gedir, məqalələr yazılırdı.

Həmin məqam Çin televiziyası müxbirinin də diqqətindən yayınmamışdı. Çinli müxbirin bu barədə sualını cavablandıran Prezident İlham Əliyev dedi ki, Bakı ilə Aralıq dənizindəki Ceyhan arasında uzunluğu təxminən 2 min kilometr olan boru kəməri çəkilməsi ilə Azərbaycan skeptik düşüncəni darmadağın etdi. Həmin layihə başlayanda Azərbaycan indi olduğu qədər güclü deyildi, xarici maliyyə dəstəyindən çox asılı idi. Buna baxmayaraq, layihə uğurla başa çatdırıldı.

Cənub Qaz Dəhlizinə gəlincə, o, daha böyük layihədir: 7 ölkəni əhatə edən, dəyəri 40 milyard dollar olan bu layihədə 10-a yaxın beynəlxalq bank, çoxsaylı şirkətlər iştirak edir. "Bu layihəni biz başlatmışıq. Resursların həcmi, kəmərin necə tikiləcəyi, texniki çətinliklər, maliyyə mürəkkəbliyi və digər məsələlərlə bağlı çox skeptik fikirlər var idi. Biz isə dedik: biz bunu başlamışıqsa, bunu edəcəyik. İndi demək olar ki, həmin layihə tamamlanmaq üzrədir. Buna görə, biz skeptik yanaşmaya sözlərlə deyil, atdığımız addımlarla, gördüyümüz işlərlə cavab verməliyik", – deyə Azərbaycan Prezidenti müsahibəsində vurğulayırdı.

Təbii ki, bu gün skeptiklərin səsi eşidilmir. Xüsusən Cənub Qaz Dəhlizinin bir hissəsi olan TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı

Azərbaycanın gücünü və qərarlılığını bir daha nümayiş etdirdi.

Ümumiyyətlə, Azərbaycanın başlatdığı və ya qoşulduğu bütün layihələr onun tərəfindən tamamlanıb. İki il əvvəl Bakıda Türkiyə və Azərbaycanı, Mərkəzi Asiya və Çini birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı oldu. Avropa və Cənub-Şərqi Asiya arasında sürətli və sərfəli ticarət əlaqəsi yaratmaq məqsədi daşıyan digər mühüm layihənin - Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsi demək olar yekunlaşıb.

Skeptik və qərəzli yanaşma Azərbaycanın ev sahibliyi etdiyi mühüm beynəlxalq tədbirlər ərəfəsində də özünü göstərirdi. Belələrinə cavab yenə iş və uğurlu nəticə ilə verildi. Siyahı yetərincə zəngin və çoxspektrlidir: Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT-nin Sivilizasiyalararası Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Sammiti, həmçinin birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Forumula 1 yarışları...

Mövzunu yekunlaşdırarkən onu da qeyd etməyi lazım bilirəm ki, bir müddət əvvəl Bakıda yüksək səviyyədə təşkil olunan Qoşulmama Hərəkatının Zirvə Görüşü dünyada güclü əks-səda doğurdu, skeptiklərə də, bədxahlarımıza da növbəti tutarlı cavab oldu.

**Yerində və vaxtında deyilən söz**

Son 16 ildə biz möhtərəm Prezidentimizin bir çox beynəlxalq tribunalarda cəsarətli, dərin məntiqə söykənən çıxışlarının şahidi olmuşuq. İlham Əliyev ikili standartları çəkinmədən tənqid edir, milli maraqları qətiyyətlə qoruyur. Liderin qətiyyətinin, iradəsinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan heç kimin qarşısında baş əymir, sözünü cəsarətlə və açıq deyir.

Yerində və vaxtında deyilən söz, əlbəttə, daha kəsərli, daha təsirli olur. Çox da uzağa getmədən son vaxtlar baş vermiş iki hadisəni xatırlamaq kifayət edər. Ermənistanın baş naziri Paşinyan Dağlıq Qarabağın mənsubiyyəti ilə bağlı sərsəm fikirlər səsləndirmişdi. Azərbaycan Prezidenti ona cavab verməyə tələsmədi, bunun üçün münasib məqam gözlədi.

Nəhayət, belə bir məqam yetişdi. İlham Əliyev sözünü Rusiyada, “Valday” Diskussiya Klubunun tribunasından dedi: “Qarabağ Azərbaycandır və nida işarəsi”. Mötəbər tribunada, canlı efirdə deyilən bu sözü bütün dünya eşitdi. Hamıya bir daha agah oldu ki, Qarabağ Azərbaycanındır. Azərbaycanın lideri münaqişə ilə bağlı haqlı mövqeyindən bir addım da geri çəkilən deyil.

Ermənistan rəhbərliyinin əsl mahiyyətini açıb göstərən, ifşa edən növbəti bəyanat bir neçə gün sonra Aşqabadda, MDB dövlət başçılarının zirvə görüşündə səsləndi. Azərbaycan Prezidenti diqqəti Ermənistanda nasist Qaregin Nijdeyə ucaldılmış abidəyə yönəltdi. Dedi ki, MDB məkanında faşistlərə abidələr ucaldılması yolverilməzdir və Yerevandakı

abidə sökülməlidir. İlham Əliyevin səsləndirdiyi bu fikir ətrafında hələ də müzakirələr gedir, Ermənistan rəhbərliyinin mövqeyi pislənir.

Dünyada artmaqda olan islamofobiyanı kəskin tənqid edən İlham Əliyev müsəlman və İslam həmrəyliyinə inadlı çağırışları ilə də yadda qalıb. Bununla bağlı son çıxışlarının birində səsləndirdiyi fikir hamımızın ürəyindən xəbər verdi: “Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar?”

**İnqilabi islahatlar və brend layihə olan “ASAN xidmət”**

Bu gün dünya İlham Əliyevi islahatçı Prezident kimi tanıyır və qəbul edir. Dünya Bankının “Doing Business-2020” hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə ölkəmiz 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsinə görə isə 5-ci yerdədir.

Azərbaycan vətəndaşları ölkə rəhbərliyinin şüurlu seçimi olan islahatların bilavasitə şahididir, onun müsbət nəticələrini gündəlik həyatda hiss edirlər. Son bir ildə isə islahatlar daha dərin, inqilabi xarakter alıb. Dövlətimizin başçısı bunun anonsunu 2018-ci ilin aprelində, prezident seçkiləri ərəfəsində vermişdi: “Gələcəkdə əsas məsələ yenə də idarəetmənin təkmilləşdirilməsi, fəaliyyətimizin səmərəsinin artırılması, sahibkarlar və iqtisadiyyatın şaxələndirilməsi üçün daha yaxşı şərait yaradılması olacaq”.

Bakı Dövlət Universitetinin 100 illik yubileyində çıxışı zamanı da islahatların önəmini vurğulayan Prezident İlham Əliyev bu sahədə daha böyük addımlar atılacağını bildirdi. Çox keçmədən dövlət idarəçiliyi sistemində növbəti köklü islahat və kadr dəyişiklikləri aparıldı. Ardınca V çağırış Milli Məclis buraxıldı və parlamentə yeni seçkilər təyin olundu.

Hər bir islahatın inkişafa və xalqın rifahına xidmət etdiyi göz qabağındadır. Bir fakta diqqət yetirmək kifayət edər: son iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox əlavə gəlir daxil olub. Həmin vəsait sosial sahəyə, əhalinin rifahına yönəldilib. Reallaşdırılan böyük sosial paket 4,2 milyon nəfərdən çox insanın büdcəsinə müsbət təsir edib. Minimum

əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz artırılıb. Tələbələrin təqaüdlərində, məcburi köçkünlərə verilən sosial yardımlarda da əhəmiyyətli artımlar olub.

Daha bir məqam diqqət çəkir: həyatın bütün sahələrini əhatə edən, dünyada maraqla qarşılanan islahatların təşəbbüskarı Prezidentin özüdür. İlham Əliyevin mühüm təşəbbüslərindən olan "ASAN xidmət" Azərbaycanın intellektual brendi kimi dünyaya səs salıb. Əhalinin gündəlik təmasda olduğu xidmət sektorunda korrupsiyaya, rüşvətxorluğa, bürokratiyaya, süründürməçiliyə sipər çəkən "ASAN xidmət" sıradan bir layihə deyil, mahiyyət etibarilə bütün ölkədə vətəndaş məmnunluğu doğuran, ictimai şüurda inqilabi dəyişikliklər yaradan köklü islahatdır. Son rəy sorğularına əsasən, vətəndaşların xidmətdən məmnunluğu 99,4 faiz təşkil edir. Şəbəkəsi getdikcə genişlənən "ASAN xidmət" mərkəzlərinə indiyədək 34 milyondan çox müraciət olub. Həm məmnunluq əmsalı, həm də müraciətlərin sayı layihənin çox böyük səmərəsindən xəbər verir.

**Ailə ocağı və uğura yol**

Prezident İlham Əliyev müsahibələrinin birində asudə vaxtını ailəsi ilə keçirdiyini, həyat üçün enerjini məhz ailəsində aldığını deyib. Bu da öz sözüdür: "Mən o insanlardanam ki, işə sevinə-sevinə gedir və işdən evə sevinə-sevinə qayıdıram".

İlham Əliyev və Mehriban xanım uzun illərdir həyat yollarında birgə addımlayırlar. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayan, yüksək intellektə malik, prinsipial və xeyirxah insan olan birinci xanım Mehriban Əliyeva xalqın böyük məhəbbətini, rəğbətini qazanıb. Onun 15 ildir ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz mühüm proqramları, bənzərsiz layihələri ilə ölkəmizin inkişafına dəyərli töhfələr verir. Bu illər ərzində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində üç mindən çox məktəb binası əsaslı təmir olunub və ya yenidən tikilib. Fondun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə alıb. Fond, həmçinin maddi-mənəvi irsimizin qorunmasında əvəzolunmaz rol oynayır. Odur ki, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması gördüyü işlərin məntiqi nəticəsi kimi rəğbətlə qarşılandı.

Mehriban xanım Prezidentin ən yaxın silahdaşıdır. Birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək ölkə üçün taleyüklü məsələlərin həllində dövlətimizin başçısına çox böyük dəstək verir. Hesab edir ki, dövlət qurumlarında çalışan hər kəs gündəlik fəaliyyətində "insanpərvərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq" kimi mənəvi dəyərləri uca tutmalıdır və yalnız bu halda ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Zənnimcə, İlham Əliyevin uğur yolu başlanğıcını məhz ideal ailə ocağından götürüb. O, zəmanəmizin dahi siyasi xadimlərindən biri olan Heydər Əliyevin və görkəmli alimimiz Zərifə Əliyevanın əlindən su içib, onların tərbiyəsini görüb. Sonradan tale ona Mehriban xanım kimi əsil-nəcabətli, həssas qəlbli, mənən zəngin ömür-gün yoldaşı nəsib edib. Prezidentin və birinci xanımın ictimai-siyasi baxışları üst-üstə düşür, bir-birini tamamlayır və bu, Azərbaycanın uğurlarını şərtləndirən amillərdən biridir. Birinci vitse-prezident Mehriban Əliyevanın bu ilin noyabrında Moskvaya etdiyi uğurlu səfər, RF Prezidenti Vladimir Putin və Baş Nazir Dmitri Medvedevlə apardığı danışıqlar onun beynəlxalq imicinin göstəricisi kimi diqqət çəkir.

Ulu Öndərimiz təcrübəsini zamanında addım-addım öz varisinə ötürüb, ona müxtəlif vəziyyətlərdə necə davranmaq lazım gəldiyini öyrədib. Bunun nəticəsidir ki, Azərbaycanın XXI əsrdə yeni lideri olan İlham Əliyev öz dövrünü, zamanı qabaqlayan, möhkəm xarakterə malik kamil şəxsiyyət kimi yetişib və bu, Prezidentimizin istər daxili, istərsə də xarici siyasətdə atdığı hər bir addımda özünü göstərir. O, narahat bir regionda yerləşən Azərbaycanı təhlükəsizlik adasına, müasir iqtisadiyyata malik ölkəyə, dünyada söz və nüfuz sahibinə çevirib. Xüsusən nəhəng transmilli layihə olan TANAP-ın reallaşması Prezident İlham Əliyevin şöhrətini daha da artırıb. Onun liderliyi ilə bağlı yalnız son bir ayda səsləndirilən fikirlərə diqqət yetirək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: TANAP-ın reallaşmasında qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil.

Gürcüstan Prezidenti Salome Zurabişvili: TANAP layihəsinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətləri əvəzsizdir. O, zəmanəmizin ən uğurlu liderlərindən biridir.

İordaniya Kralı II Abdullah: Beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Sizə regionda və dünyada oynadığınız rolunuza görə təşəkkürümü bildirirəm. Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram.

Dünya liderlərinin dilindən bu sözləri eşitmək çox xoşdur. Xalqımız və hər bir qədirbilən azərbaycanlı zəmanəmizin ən uğurlu liderlərindən biri olan, beynəlxalq arenada mühüm rol oynayan Prezidenti ilə qürur duyur. Çünki 16 il əvvəl başlayan uğur yolu Azərbaycanı zirvədən-zirvəyə aparmaqdadır...

**Aslan ASLANOV,**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri,**
**OANA-nın vitse-prezidenti.**

# XALQIN İNAM VƏ ETİMADINA ARXALANAN LİDER

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə son 16 ildə həyata keçirilən uğurlu siyasət nəticəsində müstəqil Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji yolla inamla irəliləyir. Son 1 ildə isə Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə daha önəmli nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ulu öndər Heydər Əliyevin ideya və əməllərinin siyasi daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev 2018-ci ildə möhtəşəm qələbə qazanaraq yenidən Azərbaycan Prezidenti seçildi. Bu qələbə Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının da cəmiyyət qarşısında növbəti məsul sınaqdan üzüağ çıxdığını göstərdi.**

> ***Azərbaycan cəmiyyəti monolitdir. Bizi bir-birimizə bağlayan əsas amil həmrəylikdir və düzgün seçilmiş hədəfdir. Bu birlik bizim gücümüzdür və imkan verir ki, öz siyasətimizi ardıcıl surətdə həyata keçirək və Azərbaycanın hərtərəfli inkişafına nail olaq.***
>
> **İlham Əliyev,**
> **Azərbaycan Respublikasının Prezidenti .**

Ötənilki prezident seçkilərinin ən mühüm siyasi yekunu ondan ibarət oldu ki, Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil dövlətçilik siyasətini inamla dəstəklədiyini bütün dünyaya bir daha nümayiş etdirdi. Xalq bu strateji xətti ona görə müdafiə etdi, onun davam etdirilməsinə ona görə səs verdi ki, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan cəmiyyəti dinamik inkişaf edir, demokratiya dərinləşir, sosial-iqtisadi yüksəliş davam edir, həyatın bütün sahələrində əsaslı islahatlar aparılır, cəmiyyətdə sabaha inam gündən-günə artır.

Ümumiyyətlə, YAP öz fəaliyyətini dünya şöhrətli siyasət və dövlət xadimi, xalqımızın əbədi lideri Heydər Əliyev ide-yaları əsasında davam etdirir, onun ideyalarının gerçəkləşdirilməsi uğrunda ümumxalq mübarizəsinin önündə gedir. İndi bütün dünya aydın görür ki, Prezident İlham Əliyevin siyasətinin uğurla həyata keçirilməsində və təbliğində aparıcı rol Yeni Azərbaycan Partiyasına məxsusdur. YAP-ın seçki təcrübəsini və xalq tərəfindən dəstəklənməsini nəzərə alaraq deyə bilərik ki, Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərində də yüksək nəticələr əldə edəcək.

Doğrudan da, son 16 ildə Azərbaycanın ictimai-siyasi və sosial-mədəni həyatının ən mühüm yönü və əlaməti Heydər Əliyevin müəyyən etdiyi yolun ardıcıl davam etdirilməsi, həyata keçirilən siyasətin xalqın

arzu və istəklərinə uyğun qurulması, ümummilli maraqları tam ifadə etməsidir. Ötən dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli siyasət aparılır. Nəticədə, Azərbaycan regionda həlledici söz sahibinə, Qafqazın ən qüdrətli dövlətinə çevrilib.

Dağlıq Qarabağ cəbhəsində 2016-cı ilin qalibiyyətli Aprel döyüşləri Azərbaycanın prinsipial mövqeyindən bir addım da geri çəkilmədiyini, öz ərazi bütövlüyünü bərpa etmək əzmində və gücündə olduğunu, düşmən üzərində hərbi, siyasi, iqtisadi və mənəvi-psixoloji üstünlüyünü bir daha sübuta yetirdi. Bu reallıqlar həmçinin Ermənistanda hərbi-xunta rejiminin çöküşündə mühüm rol oynadı. Azərbaycan Ermənistanı regionda təcrid vəziyyətə salıb, bunun nəticəsində işğalçı ölkə iqtisadi və siyasi böhrana sürüklənib.

Ümumiyyətlə, müstəqillik dövründə Azərbaycan öz tarixinin ən möhtəşəm nailiyyətlərinə imza atıb. Azərbaycan bu gün həm regionda, həm də beynəlxalq müstəvidə öz yeri, rolu və xüsusi çəkisi olan ölkədir. Respublikamızın beynəlxalq təşkilatlarda da nüfuzu çox yüksəkdir, Azərbaycan bu ildən Qoşulmama Hərəkatına sədrlik edir- bu, ölkəmizin çox mühüm diplomatik nailiyyətidir. Azərbaycanın beynəlxalq müstəvidə əməkdaşlıq və təhlükəsizliyə verdiyi fundamental töhfələrdən bəhs edərkən iqtisadi baxımdan onun bölgədə həlledici rolu olduğunu xüsusi vurğulamaq lazımdır. Bunun əyani ifadəsi kimi ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan qlobal xarakterli layihələrin nəticələrini göstərmək olar.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə, xüsusən son 1 ildə ölkə başçısının sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu islahatlar nəticəsində bu sahədə problemlərin həllində ciddi irəliləyiş əldə edilib. Əhalinin rifahı durmadan yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm tədbirlər gerçəkləşdirilib. Ölkəmizdə bu yöndə həyata keçirilən sistemli, ardıcıl islahatlar, bir-birini tamamlayan proqram və layihələr bir daha sübut edir ki, dövlətin sosial siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımdan aztəminatlı təbəqəsi daimi dövlət qayğısı ilə əhatə olunub. Sosial sahəyə büdcə vəsaitlərinin ildən-ilə artırılması bu sahəyə Azərbaycan Prezidentinin xüsusi diqqətini bir daha təsdiq edir.

Bütün bunlar onu göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib. Ötən dövrdə yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təmin olunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inte-

qrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə bu sektorun daha çox artacağını şərtləndirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlət başçısı İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb.

Azərbaycanda din – dövlət münasibətləri nümunəvi xarakter daşıyır, tolerantlıq və multikultural mühit hökm sürür. Son hesablamalara görə, ölkə ərazisində 2250 məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. 2018-ci ildə dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 909-a çatıb. Onlardan 877-si İslam, 32-si qeyri-islam təmayüllüdür. Sonunculardan 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçımızın diqqət və qayğısından kənarda qalmırlar. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Azərbaycan müsəlman aləmində də çox böyük hörmətə, nüfuza malikdir. Ölkəmiz İslam həmrəyliyinə müstəsna töhfələr verir. Son 16 ildə dövlət başçısı bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın İslam həmrəyliyi ilə bağlı atdığı addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir: "Yəni bizim apardığımız siyasət İslam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir. Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər İslam birliyini daha da möhkəmləndirir".

Ötən illərdə biz Prezident İlham Əliyevin siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğunun bir daha şahidi olduq. Ölkə rəhbərliyinin dəstəyi ilə müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslar keçirilib ki, bu tədbirlər coğrafi olaraq çox geniş ərazini əhatə edib. İspaniya, Avropanın müxtəlif ölkələri, Almaniya və başqa ölkələrdə təşkil edilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb.

Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə reallaşan beynəlxalq tədbirlər insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verib. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-

səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verir.

Yeri gəlmişkən bildirək ki, Azərbaycanın qazandığı bütün bu uğurlar bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Onlar ölkəmizin müsbət beynəlxalq imicinin və uğurlarının üzərinə kölgə salmağa çalışırlar. Bu məqsədlə ayrı-ayrı media orqanlarında və sosial şəbəkələrdə vaxtaşırı Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Əlbəttə, bu cəhdlər əbəsdir. Azərbaycan xalqı öz taleyini böyük inamla etibar etdiyi ölkə rəhbəri İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən siyasəti birmənalı olaraq dəstəkləyir. Prezident isə xalqın bu etimadına arxalanaraq daxili və xarici aləmdə müstəqil, milli maraqlara əsaslanan siyasət yeridir. Bu isə onu göstərir ki, ölkəmizin suveren inkişaf yolunda irəliləməsinə mane olmaq mümkün deyil.

Təəssüf ki, ölkəmizdə uğursuzluğa düçar olmuş və milli maraqlara zidd hərəkətləri ilə özlərini ifşa etmiş bəzi adamlar da xaricə üz tutaraq Azərbaycan əleyhinə qarayaxma kampaniyasında iştirak edir, sosial media vasitəsilə həqiqətlərə uyğun olmayan, uydurma, böhtan xarakterli məlumatlar yayırlar. Əlbəttə, Azərbaycan cəmiyyəti belələrini dəstəkləmir, onların öz uğursuzluqlarını ört-basdır etmək üçün dövriyyəyə yalan məlumatlar buraxdıqlarını, anti-milli çağırışlar səsləndirdiklərini yaxşı bilir. Ümumiyyətlə, bu cür cəhdlər faydasız və nəticəsizdir, iflasa məhkumdur. Çünki Azərbaycanda xalq – lider birliyi mövcuddur, ölkəmizdə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir.

Bütövlükdə, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr Azərbaycan üçün çox mühüm nailiyyətlərlə zəngindir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.

Əlbəttə, bütün bu nailiyyətlər qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə imkanlar yaradır. Dövlət başçısı İlham Əliyevin inkişaf və quruculuq siyasəti ölkəmizə bundan sonra da böyük nailiyyətlər qazandıracaq. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib.

Bütün bu reallıqları görən hər bir vətəndaş Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasəti yüksək qiymətləndirir, bu xəttin Azərbaycanın gələcək inkişafının əsası olduğunu anlayır və dövlətimizin başçısına, onun siyasətinə daim böyük inamını ifadə edir.

**Mübariz QURBANLI,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini.**

# İNKİŞAFA, RİFAHA VƏ MÜTƏRƏQQİ İDARƏÇİLİYƏ XİDMƏT EDƏN İSLAHATLAR

***Tarixin bütün dövrlərində planetin siyasi-hərbi və sosial-iqtisadi mənzərəsi təlatümlü olub. Təəssüf ki, zaman ötdükcə demək olar ki, dünyanın hər yerində baş qaldıran müharibələr, münaqişələr azalmayıb, əksinə artıb. Başa çatmamış bir təlatümdən sonra yeniləri yaranıb. Bu gün də istər hərbi-siyasi, milli, etnik, dini müstəvilərdə qarşıdurmalar davam edir. Ayrı-ayrı qütblərdə dayanan dövlətlərin hərbi ritorikası gündən-günə daha da artır.***

**Hədəf daha qüdrətli dövlət qurmaqdır**

Başa çatmaqda olan 2019-cu il beynəlxalq aləmdə təbəddülatlarla, geosiyasi mübarizənin daha da güclənməsi, ayrı-ayrı ölkələrin bir-birinin işinə kobudcasına qarışması, terrorçuluğun hələ də tüğyan etməsi ilə yadda qalacaq. Bu baxımdan cari il xalqların və dövlətlərin həyatında fərqli izlər qoyacaq. Bir qisim ölkələr növbəti ilə hansısa böhranla qədəm qoyacaq, bəziləri isə inkişaf, sabitlik və əmin-amanlıqla öz yolu ilə addımlayacaq.

Azərbaycan da dünya birliyinin üzvü kimi beynəlxalq proseslərdən kənar deyil. Hətta respublikamız bu gün qlobal məsələlərdə söz sahibi kimi çıxış edir, öz nüfuzu ilə müxtəlif proseslərə təsir edir. Başqa bir məsələ isə Azərbaycanın başa çatmaqda olan ili bir çox dövlətlərin həsəd aparacağı vəziyyətdə başa vurmasıdır. Azərbaycanın builki uğurları həqiqətən qürurvericidir. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitliyini və inkişafını təmin etməklə, iqtisadiyyatını müsbət artım dinamikasına kökləməklə, irimiqyaslı layihələri reallaşdırmaqla beynəlxalq səviyyədəki nüfuz və rəğbətini daha da möhkəmləndirməyə müvəffəq olub.

İl ərzində Azərbaycanı xarakterizə edən əsas nailiyyətlərdən biri də həyata keçirilən islahatlardır. Elə buna görə Azərbaycanın yüksəliş nümunəsindən danışarkən hər bir sahədə zamanın nəbzini tutan islahatların aparılması, fəaliyyət dinamizminin təmin edilməsi üçün yeni yanaşmaların tətbiqi daha çox diqqəti cəlb edir. Respublikamızın ildən-ilə artım nümayiş etdirən inkişaf göstəriciləri islahatların vacibliyinin və müsbət nəticəsinin təsdiqidir.

"2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır”. Bu fikirləri Prezident İlham Əliyev hələ bu ilin fevral ayında bildirmişdi. Və elə fevral ayında imzaladığı müvafiq fərman və sərəncamlar göstərdi ki, dövlət başçısının fəaliyyətinin və islahatların əsas qayəsini insan amilinin uca tutulması təşkil edir. Çünki insanın həyatını yaxşılaşdırmağa xidmət etməyən heç bir iqtisadi inkişaf öz məqsədinə, yüksək amallarına nail ola bilməz. Bu mənada vətəndaşların sosial rifahının yaxşılaşdırılması, həyat tərzinin müsbət mənada dəyişdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas məqsədlərindən biridir.

Bütövlükdə yeni iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə imkanları son dövrlərdə əhəmiyyətli dərəcədə artıb. Maliyyə imkanlarının artması isə digər məsələlərlə yanaşı, vətəndaşların sosial rifahının yüksəldilməsinə də real zəmin yaradır. Ona görə də fevral və iyun aylarında Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü fərman və sərəncamlar 4 milyondan artıq vətəndaşı əhatə etdi. Bütün bunlar göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər uğurla davam etdirilir.

**Cəmiyyət islahatları dəstəkləyir və təqdir edir**

İnkişaf prosesləri dövlət idarəetməsinin də təkmilləşdirilməsini əhatə edir. Məhz bundan irəli gələrək Prezident İlham Əliyevin islahatların kompleks şəkildə aparılmasını, struktur və kadrların yenilənməsini vacib sayır. Təcrübə göstərir ki, təkmil və mütərəqqi idarəçilik sistemini formalaşdırmaq mümkün olmazsa, qarşıya qoyulan vəzifələr də yarımçıq qalar. Çünki belə olduğu tərzdə bir çox müəyyən olunmuş iqtisadi və siyasi vəzifələr yerinə yetirilməz. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir.

Bu prosesə isə hələ ilin əvvəllərindən start verilib. Belə ki, yanvar ayında bir sıra dövlət orqanlarında struktur islahatları həyata keçirildi. Mərkəzi icra hakimiyyəti orqanlarını əhatə edən qurumların bəziləri ləğv edildi, bəzilərinin əsasında yeniləri yaradıldı. Aprel ayından isə Prezidentin müvafiq fərmanı ilə dövlət hakimiyyətinin əsas qollarından biri olan məhkəmə-hüquq sistemində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə yeni islahatlara başlanıldı.

Dövlət idarəetməsinin icra hakimiyyəti sistemində islahatlar davamlı xarakter alıb. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Nazirlər Kabinetində, yerli icra hakimiyyəti orqanlarında, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

İslahatlar həm də qanunverici orqanı əhatə edir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə fevralın 9-da Milli Məclisə seçkilər keçiriləcək. Təbii ki, Milli Məclis də ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qala bilməzdi.

Dövlət hakimiyyətinin bütün qolları idarəetmənin sosial-siyasi funksiyası olub, ictimai həyatın bütün sferalarının tənzimlənməsində, davamlı inkişafın, yüksək rifah və məmnunluq səviyyəsinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Ölkədə həyata keçirilən yeni islahatlar da məhz bu məqsədlərə, idarəetmədə keyfiyyətin və səmərəliliyin daha da artırılmasına xidmət edir. Məqsəd həm də idarəetmənin cəmiyyətdə formalaşan yeni çağırışlara və ölkədə baş verən pozitiv dəyişikliklərə adekvat uyğunlaşmasını təmin etməkdir. Bu baxımdan yeni islahatlar dövlət hakimiyyəti idarəetməsini inkişafın yeni mərhələsinə uyğunlaşdırır. Ən əsası isə odur ki, cəmiyyət islahatları dəstəkləyir və təqdir edir.

**Rəşad CƏFƏRLİ.**

www.azerbaijan-news.az

# YENİ AZƏRBAYCANIN MÜƏLLİFLƏRİ

***Prezident İlham Əliyevin milli dövlətçilik tariximizdəki yeri, zamanın çox maraqlı, amma elə bir o qədər də çətin və mürəkkəb dövrünə təsadüf edir. Bu dövrü tarixə baxış bucağından asılı olaraq müxtəlif açar kəlmələrlə assosiasiya edə bilərsən.***

***Çünki bütün güclü liderlərin öz xalqına rəhbərliyi dövrünü xarakterizə edən ən azı konkret bir ad mütləq var.***

***Mənsə uzun zamanlar idi ki, bir yazı-pozu adamı kimi bu dövrün ayrı-ayrı tarixi salnamələrinə işıq sala-sala, təəssüratlarımı kağız qələmlə bölüşə-bölüşə həm də bu dönəmin ümumi mənzərəsinə çevrilə biləcək ən uğurlu ifadənin axtarışında idim...***

Bir neçə gün əvvəl televiziyada izlədiyim maraqlı bir reportaj, deyəsən, düşüncə karvanımın sarvanına çevrilərək illərdən bəri axtardığımın izinə düşməkdə kömək göstərdi.

Kadrlar Prezidentin Bakı Gəmiqayırma Zavodunda inşa olunmuş ilk tankerin – "Laçın"ın istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirakını əks etdirirdi. Dövlət rəhbərimizə verilən məlumatlardan belə anladım ki, ölkəmizdə tam sıfırdan həm tankerin, həm də gəmi-bərənin tikilməsi tarixdə bir ilkdir.

Bəli, məhz tarixdə bir ilk...

Bu kəlmələri cənab İlham Əliyevin iştirak etdiyi çox açılış mərasimlərində, bir dövlət qurucusu kimi nəcib imzasının parladığı çox işlərdə eşidib duymuşuq, Azərbaycan Prezidentinin tariximizdəki bir çox ilklərə müəllifliyinə şahid olmuşuq.

Müstəqillik tariximizdəki möhtəşəm ilklərin çoxu məhz İlham Əliyevin adı ilə bağlıdır.

Milli dövlətçilik tariximizdəki İlham Əliyev mərhələsi möhtəşəm ilklər dövrüdür.

Düşünürəm ki, gələcək tədqiqatçılar da bu dönəmi məhz belə bir ifadənin işığında öyrənib tədqiq edəcəklər.

İlham Əliyev şəxsiyyətinə bu ilkləri yaratmış, onlara müəlliflik etmiş, bu ilklərlə birgə tarixin Yeni Azərbaycanını formalaşdırmış Lider kimi yanaşacaqlar.

Xalqla əl-ələ, çiyin-çiyinə bu missiyanı həyata keçirmək qismətini Tanrı və tale Ona, həm də Mehriban xanıma əta edib...

***

Bəhs etdiyim o reportajın kadrları bir-birini izlədikcə xəyal bir anlıq məni əsrlərin gərdişinə alıb aparırdı... Görünür, yazıçı kimi keçmişə dair mövzularla mütəmadi maraqlanmağın, bu mövzuda bədii əsərlər qələmə almağın bir özəlliyi də elə bundadır ki, rastlaşdığın hər mühüm hadisəyə bir də salnamələrin işığında nəzər salmağa çalışırsan.

O kadrlara baxdıqca yüz illər əvvəl böyük donanmalar qurmuş, limanlar, tərsanələr yaratmış, gəmilər inşa etmiş döv-

lət rəhbərlərini xatırlayırdım. Düşünürdüm ki, hər zaman dövlətin qüdrət rəmzi sayılan gəmilər, donanmalar, tərsanələr bugünkü texnoloji inkişaf dövründə də öz simvolik məzmununu itirməyib.

Yola çıxan hər gəmi gələcəyə doğru bir ümiddir... Gəmiləri qarşılayan hər liman yan almaq üçün güvənli, sabit, fayda dolu bir yerdir... Dünyaya açılmış ölkənin giriş-çıxış qapısı, hər addımında hərəkət görünən, iqtisadi inkişaf qaynayan qələbəlik məkanıdır...

Azərbaycan Prezidentinin iştirak etdiyi o mərasim də sıradan rəsmi tədbiri yox, əslində, Vətənin qüdrət rəmzini nümayiş etdirirdi. Elə Xəzərin zümrüd suları ilə qovuşub uzaq səfərlərə yol başlayan gəmi-bərənin adı da rəmzi idi. Bir anlıq mənə elə gəldi ki, o gəmi-bərə – "Azərbaycan" dövlət rəhbərimizin əmin və güclü əllərinin məharətlə idarə etdiyi sükanın diktə etdiyi istiqamətlə xoşbəxt gələcəyinə doğru yola çıxmış Vətəndir...

Bu gəmini – "Azərbaycan"ı və Azərbaycanı yolundan sapdırmaq, səmtini dəyişmək, sürətini azaltmaq daha heç vaxt, heç bir bədxahımıza müyəssər olmayacaq.

Heç bir qüvvə Azərbaycan adlı bu möhtəşəm gəmini öz hədəflərindən, üz tutduğu inkişaf üfüqlərindən yayındıra bilməyəcək.

Çünki gəminin sükanı etibarlı əllərdədir!

Önündə daim işıq saçıb ona düzgün yolu nişan verən, gələcəyə səsləyən parlaq mayak var...

O mayakı belə aydınladan tarixilik və müasirlikdən düşən işıqdır...

Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik düşüncəsinin ruhudur...

Keçmişə aid dəyərlərlə çağdaş inkişafın uzlaşmasıdır...

Azərbaycan Prezidentinin bir strateq kimi ənənələrlə müasirlik arasında vəhdət yarada bilməsidir...

***

Şamaxı...

Məşhur Şah Xəndan türbəsi...

Cənab İlham Əliyev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Şamaxıya səfəri zamanı bu türbənin ətrafında aparılan abadlıq işləri ilə tanış olur.

Bu türbənin də, burada uyuyan Şah Xəndanın da yaradıcılıq dünyamda xüsusi yeri var. Şah Xəndan anadan olmasının 650 illiyi vətənində bütöv bir ilə çevrilmiş böyük mütəfəkkirimiz İmadəddin Nəsiminin doğmaca qardaşıdır. Kəlamının qüdrəti ilə bütün Şərq dünyasında səs salan qardaşı qədər o da öz dövrünün güclü şairlərindən sayılırdı.

...Dərviş idi, tərki-dünya idi, Məcnun kimi həmişə çiyinlərinə tökülən uzun, dağınıq saçları vardı və bu saçlara işarə ilə "Julidəmu" da deyərdilər adına...

Bu obraz nədənsə gəncliyimdən mənə çox doğmalaşmışdı. Tale qismət elədi, onun düşüncələrimdəki surətini bir gün bacardığım qədər bədii yaradıcılığıma da gətirə bildim. İmadəddin Nəsimiyə həsr olunmuş "Son səfər" povestimdə Nəsiminin mənəvi dünyasının özünə-

məxsusluqlarını təqdim etməkdən ötrü Şah Xəndan obrazının təsir gücündən faydalanmağa çalışdım. Nəsiminin həyata, dünyaya, insanlığa baxışlarını iki qardaşın mükalimələri işığında canlandırmağa yaradıcı cəhdlərim oldu.

Və bəlkə heç özüm də fərqinə varmadan, amma ədəbi tənqidçilərin qənaətincə, "Son səfər" əsəri Nəsimi ilə yanaşı, həm də qardaşı Şah Xəndanın povestinə çevrildi...

"Azərbaycan ədəbiyyatında Şah Xəndanın geniş planda mükəmməl bədii obrazını ilk dəfə Hüseynbala Mirələmov "Son səfər" povestində yaratmışdır" – zəmanəmizin müqtədir ədəbiyyatşünaslarından akademik İsa Həbibbəylinin bu fikri, təvazökarlıqdan hər nə qədər uzaq olsa da, indiyə qədər bədii yaradıcılığım haqqında yüksək dəyərləndirmələrdən biri kimi məni, yəqin ki, hətta əlimin yazı-pozudan soyuduğu ən həvəssiz, yorğun vaxtlarımda da, ahənrüba sayaq daim yazı masasına doğru çəkəcək...

Prezidentin və Mehriban xanımın Şah Xəndan türbəsinə ziyarətindən xəbər tutanda sevincimdən gözlərim güldü, fərəhimdən kövrəldim...

Heydər Əliyev Fondu "Nəsimi ili" çərçivəsində artıq bu türbə ətrafında da geniş abadlaşdırma işlərinə başlayıb. Yaxın vaxtlarda Şah Xəndan türbəsinin konservasiyasına da başlanacaq.

***

Bu, xalqın tarixi keçmişinə, min illərlə formalaşmış fikir xəzinəsinə verilən dəyərdir. Dəyərləri yaşadanlar, sözə, mədəniyyətə həyat verənlər təkcə yaradıcı kəslər deyil ki... Onun qiymətini dərk edənlərdir, bu mənəviyyat incilərinə sahib çıxanlardır, onları göz bəbəyi kimi qoruyanlardır...

Ən çox da ali mənsəb sahibləridir. Çünki əksər hallarda ümumən cəmiyyətin bir çox məsələlərə münasibəti, rəyi onların yanaşmalarından asılı olur.

İlham Əliyev xalqımızın mənəvi dünyasına həssas münasibəti, diqqəti, qayğısı ilə insanlarımızda bu münasibəti yenidən formalaşdıran, dəyərlərimizə əbədi həyat bəxş edən, bu davranışlarında da Ulu Öndərin yoluna sadiq qalan Liderdir...

Qədimdən qədim tariximizin çox böyük dövlət adamlarını, fatehlərini, sərkərdələrini hərdən ərklə qınadığımız vaxtlar olur ki, kişilər o boyda imperiyalar, ucsuz-bucaqsız böyük dövlətlər yaradıblar, amma yaratdıqlarının tarixini səliqə-sahmanla qələmə aldırmaq, kitablara çevirtdirmək, kitabxanalar yaratmaq elə bil heç ağıllarına gəlməyib. Ona görə də məcburiyyətdən tariximizin qədim qatlarını bir çox yadellilərin məhz özlərinə sərf edən şəkildə yazıya aldıqları xaricidilli mənbələr əsasında açmağa, oxuyub-öyrənməyə çalışırıq.

Xalq olaraq çox böyük xəzinəyə sahibik, amma ona lazımi qədər sahib çıxa bilməmişik, bunu etiraf edək...

İlham Əliyevinsə bir dövlət adamı kimi böyüklüyü ondadır ki, Heydər Əliyevin mükəmməl dövlətçilik irsinə sadiqlik hissi ilə o, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir Şah, Cümhuriyyət

qurucuları kimi qüdrətli sələflərinin də tarixilik məsələlərinə münasibətdə yol verdikləri yanlışları düzəltməyə çalışır.

Yaratdığı nümunələrlə göstərir ki, bir xalqın öz tarixi sərvətlərini həyata qaytarması, əslində, heç vaxt gec deyil. Yetər ki, istək olsun, diqqət olsun, insanları bu dəyərlərə doğru aparan yol-iriz kolkosdan təmizlənib sahmana salınsın.

Onların əsrlərin təsiri ilə aşınan, batıb gedən, torpağın köksündən silinmək təhlükəsi ilə üz-üzə qalan nişanələrini qoruyub möhkəmləndirən tapılsın. Xalqın milli ruhunu yaşadan tarixi irs keçmişin zülmətindən gün işığına çıxarılsın. Kiçik bir sorağın bələdçiliyi ilə böyük bir söz xəzinəsini gedib tapmağa qadir tədqiqatçılar qarşısında vəzifə qoyulsun, onlara yüksək səviyyədə dəstək verilsin.

Onda xalq öz böyüklüyünü dərk edəcək, özü ilə qürur duyacaq, əsrlər boyu yaratdığı nailiyyətlərin sırasını çağdaş dönəmdə yeniləri ilə əvəz etməkdən ötrü cani-dildən çalışacaq və bunu bacaracaq. Bir də heç vaxt, heç kimin ona, tarixinə, milli mənəviyyatına yuxarıdan aşağı baxmasına izn verməyəcək.

İlham Əliyev bu qürurun, bu düşüncənin müəllifi olan, öz xalqına yeni bir ruh gətirən, xalqın ruh yüksəkliyinə çevrilən Lıderdir...

Bunu izlədikcə, duyduqca Prezidentimizin öz davranışları, bizi xalq olaraq ayaqda saxlayan məsələlərə münasibəti ilə hələ ötən əsrin 60-cı illərinin sonlarından milli şüurumuzun nuruna çevrilmiş Ulu Öndər Heydər Əliyevi nə qədər çox xatırlatdığını, ona bənzədiyini hiss edirəm.

Azərbaycan Prezidentinin bütün ölkə boyu ucaltdığı mədəniyyət ocaqları, onun tövsiyəsi ilə alimlərimizin tarixin ayrı-ayrı maraqlı anları ilə bağlı qələmə aldıqları kitablar, çəkilən sənədli filmlər, təmir-bərpa edilən, abadlaşdırılan, arxeoloji qazıntılarla üzə çıxarılıb yenidən gündəlik həyatımıza qaytarılan qədim mədəni irsimiz bunun nişanəsidir...

İlham Əliyev bu məsələlərə ona görə xüsusi diqqətlə yanaşır ki, bütün böyük dövlət adamları kimi, o da təkcə bir anı deyil, bütöv tarixi duya bilir, xalqın keçmişi, bugünü qədər gələcəyini də düşüncələrində şəkilləndirməyi bacarır, həyata keçirdiyi siyasətin strateji hədəflərini sabahda, birigündə deyil, onilliklər, qərinələr, əsrlər sonrada müəyyənləşdirə bilir...

***

İlham Əliyevin təşəbbüsü ilə bütöv bir ili "Nəsimi ili” kimi yaşadıq. Nəsimi kəlamının qüdrəti ilə düşüncələrimiz çıraqban oldu.

Nəsiminin fikir dünyası Yer üzünün hüdudlarından çox kənardadır, o, bu hüdudları aşır, təkcə bir fərdin, bir xalqın deyil, ümumilikdə insanın, bəşəriyyətin problemlərini önə çəkir, bu problemlərin həlli üçün yol göstərir. Ona görə də şair Nəsimi təkcə Azərbaycan xalqına aid deyil, onun kəlamı ümumən bəşərindir, külli-aləmə məxsusdur.

İlham Əliyevin həyata keçirdiyi siyasətin məzmunu, məndəricəsi də bəşəridir, təkcə bir xalqın, toplumun deyil,

ümumən bəşəriyyətin problemlərinin həllinə hədəflənib. Zəmanəsinin parlaq liderlərindən biri kimi Azərbaycan Prezidenti dünya miqyaslı siyasət adamıdır. Ona görə də xalqımızın yetirdiyi Nəsimi kimi mütəfəkkirlərin bəşəri ideyaları onun hər zaman diqqətini çəkir.

İlham Əliyev bir insan, mütəfəkkir şəxsiyyət olaraq Nəsiminin sümüyünə, iliyinə qədər milli, bizimki, Azərbaycanın olduğunu da nəzərə alır və həm də bunu təbliğ edir.

Xalqımızın başını bu cür şəxsiyyətləri ilə ucaldır, Azərbaycan mədəniyyətinin zənginliyini, qədimlərdən malik olduqlarımızı, ən əsası isə müstəqil Azərbaycan dövlətinin əsaslandığı prinsipləri belə şəxsiyyətlərimizin işığında göstərir. Millət bu cür şəxsiyyətlərdən güc alır, onların boyuna baxıb böyüyür, onların adını tutub qürurlanır, onların nurunda aydınlığa çıxıb tərbiyələnir, özünə çəki-düzən verir.

Bəşər mədəniyyətinə Nəsimi kimi düha bəxş etmiş bir xalqa necə hörmət bəsləməmək olar ki?! Bu, mümkün deyil!

İlham Əliyevin belə şəxsiyyətlərimizi daim gündəmdə saxlaması Azərbaycan xalqına öz böyüklüyünü hər an dərk etdirir.

Amma təkcə Azərbaycan xalqınamı?!

Bununla dövlət rəhbərimiz Azərbaycan xalqını da dünyaya, demək olar ki, yenidən tanıdır. Çoxları Azərbaycanı qədim mədəniyyət beşiyi kimi özü üçün yenidən kəşf edir. Bu gün dövlət səviyyəsində, eləcə də Heydər Əliyev Fondu xətti ilə aparılan məqsədyönlü, ardıcıl işlər xalqımızı öz tarixi keçmişi ilə, zəngin ənənələri ilə, mədəniyyət inciləri ilə, hər kəsə örnək olası həyat tərzi ilə layiq olduğu ucalıqlara yüksəldir.

Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu xətti ilə həyata keçirdiyi layihələr milli ənənələrimizi dirçəldir, onlara əbədi həyat bəxş edir, hər birini dövlətçilik ideologiyamızın mühüm tərkib hissəsinə çevirir.

İlham Əliyev və Mehriban xanımın fədakar, əzmkar fəaliyyəti bütün dünya üçün mədəniyyətlərarası dialoqun, multikulturalizmin, din və dövlət münasibətlərinin, tolerantlığın Azərbaycan adlı parlaq örnəyini formalaşdırır və göstərir ki, son illər Bakıda ardıcıl olaraq təşkil edilən beynəlxalq humanitar forumlardan bəşəriyyətə ünvanlanan nəcib çağırışlar Azərbaycanın pafos xatirinə səsləndirdiyi kəlmələr deyil! Yüz illər əvvəl bu torpaqlarda yaşayıb yaratmış dühalarımızın timsalında Azərbaycanda bu ideyaların əsrlər öncə mükəmməl elmi-fəlsəfi əsaslarını işləyib, əsərləri ilə dünyaya mükəmməl nümunələr təqdim edənlər olub.

Azərbaycan Prezidenti bu yöndə apardığı işlərlə təkcə Azərbaycana aid olanlara deyil, ümumən qoca Şərqin hikmət dünyasına sahib çıxır. Şərqi, islam dünyasını indiyə qədər bəlkə də heç kimin fərqində olmadığı, yaxud çox az görünmüş tərəflərindən təqdim edir. Və bununla sübuta yetirir ki, ünlü rus tənqidçisi Belinskinin təbirincə,desək, bəşər mədəniyyəti, həqiqətən Şərqdə doğulub, amma əfsuslar

ki, Şərq onu beşikdən yerə qoya, ayaq tutub yeriməyi öyrədə, böyüdə bilməyib.

Əsrlər əvvəl Şərqin yol verdiyi bu yubanmanı, bacarıqsızlığı aradan qaldırmaq missiyası isə Şərq və Qərb sivilizasiyasının təmas nöqtəsində, iki mədəniyyətin, iki dünyagörüşünün aralığında, bu iki dünyanın ən yaxşı cəhətlərini əxz edərək, mənfi cəhətlərini mümkün qədər kənara qoyaraq öz zəngin keçmişinin möhkəm təməlləri üzərində bugününü və gələcəyini quran Azərbaycana, onun qüdrətli Liderinə düşər.

Azərbaycan Prezidenti bütün bunlarla Şərq dünyası qədər Qərbin bugünü və gələcəyi üçün də faydalı işlər görür. Çünki hazırda texnologiyaların aramsız inkişafı, misilsiz elmi kəşflərin möcüzələri mühitində yönünü, demək olar ki, itirən, sabahını təsəvvür etməkdə müşkülləri olan, mənəvi dünyadan daha çox maddi aləmə xitab edən Qərbin də tez-tez qarşıya çıxan saysız-hesabsız etik suallara cavab tapmaqdan ötrü mənəvi istinad yerlərinə çox böyük ehtiyacı var. Bu mənəvi istinadlar olmasa, indiki inkişaf sürəti insanı bir gün insanlıqdan çıxarıb, ruhsuz, düşüncəsiz, hissiz məxluqlara, adi robotlara çevirər. Müasir Qərb üçün də, Şərq üçün də bu cür mənəvi istinad ünvanları isə Nəsimi kimi düşüncə ümmanlarıdır, onların fikir aləmidir...

Azərbaycan Lideri Şərqə də, Qərbə də bu aləmə doğru qapı açır...

***

Böyük liderlər, kamil dövlət xadimləri o kəslərdir ki, rəhbərlik etdikləri toplumu yenidən formalaşdırsınlar. Dünya tarixini vərəqlədikcə öz xalqını yenidən yaratmış, onun ən böyük tarixi uğurlarına vəsilə olmuş liderlərin bu cəhəti onların ən oxşar xüsusiyyəti kimi diqqəti həmişə cəlb edir.

Kim deyir ki, xalq cəmi bircə dəfə yaranır, onu yenidən formalaşdırmaq mümkün deyil?!

Yaxud kim iddia edər ki, dünyada ancaq müsbət və ya ancaq mənfi cəhətləri ilə tanınmış xalqlar var, bunu dəyişmək mümkünsüzdür?!

İki bağ təsəvvür edək: birinin çox qayğıkeş, zəhmətsevər bağbanı var, hər gün ağacların suyunu verir, dibini belləyir, qurumuş budaqlarını arıdır, meyvəsini vaxtında toplayır, gördüyü işə ürəyinin sevgisini qoyur, ağacların, güllərin nizamından, səliqəsindən zövq alır, bu bağ həmişə gülüstan olacaq. Digər bağsa baxımsızdır, başlanğıcda nə qədər nizamlı görünsə də, qısa zamandan sonra kolkos basacaq, ağaclar quruyub gedəcək, hər şey məhv olacaq.

Xalqlar da o bağlar kimidir, xalqların da onları hər gün yenidən yaradan, səliqə-sahmanına, nizamına diqqət göstərən, ehtiyacları qayğısına qalan bağbana ehtiyacı var. Bu olmasa, xalq nə qədər böyük potensiala malik olursa-olsun, mənəvi dəyərlərə nə qədər önəm verirsə-versin, zamanla aşınıb gedəcək, yolunu, yöntəmini itirəcək, nizamlı millətdən mənasız, qorxulu, qaragüruh kütləyə çevriləcək.

Bu gün cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın apardıqları işlər,

Vətən evinin abadlığı naminə atdıqları addımlar, göstərdikləri nəcib təşəbbüslər, yaratdıqları səliqə-sahman, əslində, konkret maddi məkanlardan da çox düşüncələrdə, insanlarımızın mənəvi dünyasında aparılan abadlıqdır.

Bunu etməsən, əsrlər əvvəl cəhalətə meydan oxuyan mütəfəkkirlər yetirmiş xalqın bu cür şəxsiyyətlərindən uzaq düşməsini, onları bilmərrə unudub savadsızlığa, kitabsızlığa, xürafata mübtəla olmasını kənardan laqeyd nəzərlərlə izləsən, özünü də, vətənini də, gələcəyini də tez bir zamanda itirərsən.

Bu gün İlham Əliyev Azərbaycan dövlətini qüdrətləndirməklə yanaşı, həm də xalqı yenidən formalaşdırmaq missiyasını yerinə yetirir. Bir tərəfdə tarixi, bir tərəfdə müasirliyi, bir tərəfdə insanların sosial rifahını, maddi ehtiyaclarının təmin olunması zərurətini, o biri tərəfdə isə həm də mənəvi dünyasının daim zənginləşdirilməsini diqqətdə saxlamaqla Vətəni gələcəyə hazırlayır...

İlham Əliyev milli köklər üzərində, Şərqin fikir xəzinəsindən süzülən mənəvi ruh işığında, Qərbə xas çevik texniki həllər mühitində Azərbaycan xalqını addım-addım gələcəyə yönləndirir...

***

İlham Əliyev Dədə Qorqud müdrikliyindən Şah İsmayıl Xətainin dövlət quruculuğu əzminə, Nadir şahın islahatçılıq qətiyyətinə, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi maarifçilərimizin bəsirətinə, Heydər Əliyevin siyasət ustadlığına qədər bir çox tarixi dəyərlərimizi öz şəxsiyyətində bir araya gətirən və bu dəyərlər işığında özü də bir dövlətçilik dəyərimiz kimi ucalan şəxsiyyətdir.

Onun vətənin sabahı olan Azərbaycan gəncliyinə xitablarına diqqət edək, apardığı köklü islahatların mahiyyətinə nəzər salaq. Dövlət rəhbərimiz gəncliyə bütün müraciətlərində təhsilə xüsusi diqqət yetirməyi, dövrün innovasiyalarını mənimsəməyi, texnologiyalara vaqif olmağı tövsiyə edir. Çünki təminatlı gələcəyin, özünə də, xalqına da, dövlətinə də üstünlük qazanmağın, fayda verməyin yeganə yolu ancaq budur. Elə bir zamana gəlib çatmışıq ki, reallıqlar daha nəinki bir əsr, heç beş-on il əvvəlki də deyil. Yeniliklərə, müasir trendlərə daim həssas bir cəmiyyət olaraq çox sürətli və aramsız hərəkət axınının baş verdiyi və bu axının getdikcə də gücləndiyi geniş bir inkişaf yoluna çıxmışıq.

Azərbaycan Prezidenti bu yolda irəliyə doğru hərəkətimizin xaotik deyil, nizamlı olmasına çalışır, gəncliyi də bunun üçün bilik və bacarıqlarla güclənməyə çağırır, eyni zamanda tariximizi öyrənməyə, milli kimliyi unutmamağa, vətənpərvərlik hissini qorumağa səsləyir. Bütün bunlar sürətli inkişaf axınında büdrəməmək üçün hər zaman söykənə biləcəyimiz, bizi güvənli şəkildə qoruyan möhkəm dayaqlardır.

Vaxtın sürətinə müvazi şəkildə İlham Əliyev Azərbaycanı demək olar ki, hər gün yeniləyir, qurur, yaradır, ölkə, cəmiyyət həyatına zamanın çağırışlarına uyğun yeniliklər gətirir, effektivliyə şərait

yaradan meyilləri daha da inkişaf etdirir, sürəti ləngidən məqamları aradan qaldırır, problemləri imkanlara çevirir.

Verdiyi strateji qərarları doğru-dürüst və vaxtında yerinə yetirməyə qabil icraçılar komandası, çevik, səmərəli idarəetmə sistemi formalaşdırır, bunun üçün ciddi kadr islahatları, struktur dəyişiklikləri aparır, eyni zamanda zamanın ruhuna uyğun yeni yanaşmalar, fərqli metodlar, meyarlar formalaşdırır.

Ona görə də dünənki Azərbaycanın bugünkündən nə qədər fərqləndiyini və hər açılan sabahlara da yeni inkişaf fərqləri ilə daxil olduğunu hər bir insanımız duyur və bu yenilənmə prosesində bütün Azərbaycan vətəndaşları iştirak edir. Cənab İlham Əliyev həyata keçirdiyi inkişaf siyasətinə hər bir insanımızı cəlb edir, bu nəcib işdə əməyinin olmasına can atan hər kəsə şərait yaradır, meydan verir.

Bu, yeni dünyanın Yeni Azərbaycanıdır...

Bu Azərbaycanı Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 90-cı illərinin əvvəllərində gələcəyin əngin üfüqlərində görürdü...

Onun Vətən sevgisi ilə dolu köksündə göyərən, elə bu munis arzu ilə də qurduğu partiyanın adına çevrilən Yeni Azərbaycanı bu gün cənab İlham Əliyev, Mehriban xanım Əliyeva xalqla birlikdə, el birliyi ilə qurub yaradır...

Onların formalaşdırdıqları Yeni Azərbaycanda dövlətçilik əsasları möhkəm tarixi köklərə, əsrlərlə formalaşmış ənənələrə əsaslandığı qədər, eyni zamanda, müasirliyə yönəlir, çağdaş inkişaf proseslərinə qucaq açır.

Bu, dövlət bayrağımızın üzərindəki üç rəngin, soy-kökümüzün, müasir inkişaf əzmimizin, müqəddəs inancımızın real həyat mənzərələrində əks olunduğu ideyalarda, xəyallarda deyil, gerçəklərdə vəhdət tapdığı Azərbaycandır...

Bu, "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istərik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın..." deyən Əli bəy Hüseynzadə kimi ideoloqlarımızın öz xəyallarında şəkilləndirdikləri Vətəndir...

İndiyə qədər yaşayıb-yaratmış, xalq olaraq inkişafımıza, milli dövlətçilik irsimizin formalaşmasına töhfələr vermiş dühalarımızın görmək istədikləri Azərbaycan!..

Əslində, cənab İlham Əliyevin tarixdə yaratdığı ən mükəmməl ilk də elə budur!..

Yeni həyatın, bugünün və gələcəyin mübarək, Vətən!

Səni yenidən qurub-yaradan hər kəs qayım-qədim olsun!..

**Hüseynbala MİRƏLƏMOV,**
**Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri.**

# MÜASİR, İNKİŞAF EDƏN AZƏRBAYCAN – HEYDƏR ƏLİYEVİN GERÇƏKLƏŞƏN ARZUSU

***Taleyinə bir əsrdə iki dəfə özünün dövlət müstəqilliyini elan etmək düşmüş Azərbaycanın ilk müstəqilliyinin ömrü cəmi 23 ay oldu. 1991-ci ildə ölkəmiz yenidən müstəqillik qazandı. Lakin bir tərəfdən erməni təcavüzü, digər tərəfdən səriştəsiz hakimiyyətlərin, antimilli qrupların xəyanəti nəticəsində müstəqilliyimiz yenidən itirilmək təhlükəsi ilə üzüzə qalmışdı. Qısa müddət ərzində bir-birini əvəz edən iqtidarları xalqın, ölkənin taleyi deyil, yalnız hakimiyyət hərisliyi düşündürürdü. Xüsusilə, Xalq Cəbhəsinin qeyri-peşəkarlardan ibarət iqtidar komandasının birillik hakimiyyəti dövründə ölkədə talançılıq baş alıb getmiş, cəmiyyətdə xaos, anarxiya hökm sürmüşdür. Ölkədə nəinki qanunun aliliyindən söhbət getmir, hətta ayrı-ayrı hakimiyyət nümayəndələri xoşlarına gəlməyən media nümayəndələrini, ziyalıları döyməkdən, hədələməkdən belə çəkinmirdilər. Siyasi opponentlərinə qarşı barbar mübarizə üsullarından gen-bol istifadə edirdilər.***

Belə bir vəziyyət cəmiyyəti qane edə bilməzdi. Ölkəni ağuşuna almış hərc-mərclik, ölkə həyatının bütün sahələrində baş verən tənəzzül xalqı, cəmiyyətin ziyalı kəsimini çıxış yolu axtarmağa sövq edirdi. Çıxış yolu isə bir idi: idarəetmə sükanını ölkənin düşdüyü bu ağır sosial-iqtisadi, mənəvi-psixoloji, hüquqi böhrandan çıxara biləcək və xalqın etimadını doğrulda biləcək sınanmış liderə vermək. Ölkədə bu keyfiyyətləri özündə birləşdirən yeganə lider isə təcrübəli siyasətçi Heydər Əliyev idi. Beləliklə, cəmiyyət, ziyalılar ciddi-cəhdlə onun ölkənin siyasi həyatına qayıtmasını, ölkənin idarəetmə sükanını öz əlinə almasını Heydər Əliyevdən xahiş etdilər.

Heydər Əliyev Bakıya qayıdaraq, sonradan Azərbaycan xalqının Qurtuluş tarixinə çevrilmiş 15 iyun 1993-cü ildə Ali Sovetin sədri seçildi. Oktyabrın 3-də isə xalqın böyük əksəriyyətinin – 98,84 faizinin səsini qazanaraq ölkə Prezidenti seçildi.

Heydər Əliyev siyasi hakimiyyətə qayıdarkən onu hansı çətinliklərin gözlədiyini yaxşı dərk edirdi. Belə ki, respublikanın iqtisadiyyatı çökmüş, ölkə açıq şəkildə Ermənistanın aqressiyası ilə qarşı-qarşıya qalmışdı. Ordu quruculuğunda acınacaqlı vəziyyət hökm sürür, hüquqi nihilizm baş alıb gedirdi.

Sadalanan problemlər sırasında ən ciddisi Ermənistanın getdikcə artan təcavüzü idi. Belə ki, havadarlarının dəstəyi və ölkədə yaranmış başıpozuqluqdan istifadə edən düşmən Azərbaycanın rayonlarını bir-bir işğal edirdi. Heydər Əliyev, ilk növbədə, düşmənin bu aqressiyasına son qoymağı qarşıya məqsəd qoymuşdu. Heydər Əliyev yaxşı dərk edirdi ki, ölkədə digər sahələrdə tənəzzülün qarşısını almaq, islahatlar aparmaq, inkişafı təmin etmək üçün düşmənlə müvəqqəti də olsa, atəşkəs bağlamaq vacibdir. Heydər Əliyevin qısa müddətdə ordu quruculuğunda həyata keçirdiyi tədbirlər nəticəsində ordumuz cəbhə bölgəsində vəziyyəti dəyişməyə nail oldu və erməni işğalçılarının hücumlarının qarşısı alınaraq, əks hücumlarla bir sıra işğal edilmiş kənd və qəsəbələr geri alındı. Bu isə Ermənistanı atəşkəs sazişini imzalamağa məcbur etdi. Beləliklə, 1994-cü il mayın 12-də Bişkekdə Azərbaycan və Ermənsitan Rusiyanın vasitəçiliyi ilə atəşkəs sazişi imzaladılar. Məhz bundan sonra ümummilli lider Heydər Əliyev bütün diqqətini ölkənin qarşısında duran problemlərin həlli yollarının tapılması və onların reallaşdırılmasına yönəltdi.

Məlum olduğu kimi, Azərbaycan iqtisadiyyatının əsasını hər zaman neft sənayesi təşkil etmişdir. SSRİ-nin dağılmasından sonra neft sənayesində də durğunluq yaşanmış və büdcə gəlirləri ciddi şəkildə azalmışdır. Ölkənin düşdüyü ağır iqtisadi durumdan çıxarılmasının yeganə yolu isə neft sənayesinin dirçəldilməsi, bu sahəyə beynəlxalq investisiyanın cəlb edilməsi idi. Heydər Əliyev bütün gücü ilə buna çalışırdı. Nəhayət, onun zəhməti öz bəhrəsini verdi, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı.

Ölkəyə rəhbərlik etməyə başladığı ilk gündən Heydər Əliyevin qarşısında duran ən vacib məsələ Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq idi. Ulu öndər problemin ədalətli həllini və ölkənin ərazi bütövlüyünün təmin olunması ilə bağlı fəaliyyətini bütün müstəvilərdə ardıcıllıqla həyata keçirmişdir. Xüsusilə, beynəlxalq tribunalardan, sammitlərdən bu məqsədlə məharətlə istifadə etmiş və Ermənistanın işğalçılıq siyasətini ifşa etmişdir. Bu istiqamətdə ATƏT-in Lissabon sammiti xüsusilə yaddaqalan olmuşdur.

1996-cı il dekabrın 2–3-də Lissabonda 52 Avropa dövləti, ABŞ, Kanada və 10 Asiya–Afrika dövləti başçılarının müşahidəçi statusunda iştirakı ilə ATƏT dövlət və hökumət başçılarının Zirvə toplantısı keçirilmişdir. Qafqaz regionu, xüsusilə, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yüksək səviyyədə ilk dəfə geniş müzakirə olunduğu Lissabon sammitindəki nitqində Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin ATƏT prinsipləri, BMT Nizamnaməsi və beynəlxalq hüququn

ümumi qaydalarına uyğun olan müddəaları diqqətə çatdırmışdır.

Heydər Əliyev Lissabon sammitinin nəticələrini aşağıdakı kimi dəyərləndirirdi: “Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini açıb həm zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik”.

Ümummilli liderin ölkə həyatının dirçəldilməsinə verdiyi mühüm töhfələr sırasında həyata keçirdiyi iqtisadi islahatlar və onların hüquqi bazasının yaradılması mühüm yer tutur. Liberal iqtisadi siyasət nəticəsində ölkənin maliyyə sistemində sabitlik yarandı, investisiyaların həcmi artdı ki, bu da əhalinin həyat səviyyəsinin yüksəlməsilə nəticələndi. Beləliklə də ölkənin iqtisadi transformasiyası istiqamətində vacib mərhələ geridə qaldı, bazar iqtisadiyyatına keçidin əsası qoyuldu.

Ümummilli liderin müstəqil dövlət quruculuğu siyasəti çərçivəsində hüquqi islahatlar strategiyası özünəməxsus yer tutmuşdur. Ölkədə bu sahədə həyata keçirilən ən mühüm addım kimi, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi idi. Məhz ulu öndərin böyük zəhməti və yorulmaz fəaliyyəti sayəsində Konstitusiyanın hazırlanması və ümumxalq səsverməsinə çıxarılması mümkün olmuşdur.

Müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbulu ilə ölkəmizdə hüquqi islahatların əsası qoyuldu.

Konstitusiyanın qəbul edilməsinin ardınca, hüquqi islahatların həyata keçirilməsinə başlanmışdır. “Məhkəmələr və hakimlər haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında” qanunlar və digər qanunların qəbul edilməsi Heydər Əliyevin həyata keçirdiyi hüquqi islahatlar çərçivəsində mümkün olmuşdur.

Ümummilli liderin müstəqil ölkəmizin hüquq sisteminə töhfələrindən biri də əfv institutunun bərpası olmuşdur. Qeyd edək ki, Azərbaycan Respublikasında məhkum edilmiş şəxslərin əfv olunması Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aiddir.

Bundan başqa, insan hüquqları sahəsində mühüm addımlar atılmışdır. 1998-ci ildə Heydər Əliyevin təsdiq etdiyi insan hüquqları sahəsində ilk fundmental sənəd olan Milli Dövlət Proqramında bu sahəyə nə qədər böyük önəm verdiyini görmək olar. Bu tədbirlər çərçivəsində ilk dəfə Azərbaycanda İnsan hüquqları Müvəkkili (Ombudsman) təsisatı yaradılmışdır.

1998-ci il noyabr ayının 30-da ümummilli lider Heydər Əliyev “İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun yaradılması haqqında” sərəncam imzalamışdır. İnsan hüquqları və demokratiya sahəsində elmi araşdırmalar, analitik tədqiqatlar aparmaq məqsədilə Milli Elmlər Akademiyasında belə bir institutun yaradılması da mühüm addım kimi qeyd edilə bilər.

Ümumilikdə, Heydər Əliyevin ölkədə həyata keçirdiyi hüquqi islahatları təhlil edərkən, belə qənaətə gəlmək olar ki, məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının maksimum dərəcədə müdafiəsi üçün çevik mexanizmlərin yaradılması, habelə qanunun aliliyinin təmin olunması islahatların mühüm istiqamətini təşkil etmişdir.

Heydər Əliyevin həyata keçirdiyi demokratiya və söz azadlığı istiqamətindəki islahatları da öz ardıcıllığı və sistemliliyi ilə seçilmişdir. Belə ki, demokratik siyasi təfəkkür sahibi olaraq Heydər Əliyev Azərbaycanda siyasi plüralizmin, söz və mətbuat azadlığının təmin edilməsinin qətiyyətli tərəfdarı kimi böyük nüfuz qazanmışdır.

Bu istiqamətdə həm qanunvericilik bazasının təkmilləşdirilməsi, həm kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Ümummilli liderin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı ilə Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi ləğv edildi. Hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edildi. Bundan başqa, 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması isə dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoyuldu. Beləliklə də ölkəmizdə söz və mətbuat azadlığının qarşısında olan maneələr aradan qaldırılmaqla onun müstəqil inkişafına təminat yaradıldı.

Ulu öndərin 2000-ci il 6 mart tarixli sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə milli mətbuatın maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynamışdır.

Ümumilikdə, Azərbaycan cəmiyyətinin, ölkə həyatının elə bir sahəsi, sferası yoxdur ki, Heydər Əliyevin diqqətindən, onun həyata keçirdiyi islahatlar strategiyasından kənarda qalsın. Ölkədə siyasi, sosial, iqtisadi, hərbi, mədəni-humanitar və digər başqa sferalarda həyata keçirilən siyasət ölkənin gələcək inkişafının təməlini qoydu.

Təbii ki, burada Heydər Əliyevin inkişaf strategiyasının əsaslandığı möhkəm təməllərlə yanaşı, bu siyasətdə varislik prinsipinin əhəmiyyətinin layiqincə dərk edilməsi və reallaşdırılmasında nümayiş etdirilən əzmkarlıq da həlledici rol oynadı. Başqa sözlə, 2003-cü ildə ölkə Prezidenti seçilən İlham Əliyevin əfsanəvi Heydər Əliyev dövlətçilik məktəbinin, obrazlı desək, "əlaçı" məzunu olması öz sözünü dedi. Həmçinin İlham Əliyevin malik olduğu yüksək intellekt, bacarıq, əzmkarlıq, qə-

tiyyət, daxili və beynəlxalq siyasi arenalarda qazandığı siyasi təcrübə ölkənin uğurlu inkişafının davam etdirilməsinin zəmanəti idi.

Bütün bunlar İlham Əliyevə Heydər Əliyevin başladığı zəfər yürüşünün estafetini böyük məharətlə təhvil alaraq, ölkəni daha böyük uğurlara aparmağa imkan verdi. Təsadüfi deyildir ki, ümummilli lider də İlham Əliyevə ölkənin gələcək inkişafının təmin edilməsində böyük inam bəsləyirdi.

İlham Əliyevin prezidentliyə namizəd olarkən elan etdiyi "mən hər bir azərbaycanlının prezidenti olacam" – devizinə hakimiyyətdə olduğu 16 il ərzində daim sadiq qalması da onun uğurlarının əsaslarından biri kimi dəyərləndirilməlidir. Belə ki, bu deviz xalqın onun ətrafında sıx birləşməsində böyük rol oynadı. Fəaliyyəti dövründə xalqın dəstəyini daim hər şeydən üstün tutan Prezident İlham Əliyevə xalq-iqtidar birliyi Heydər Əliyev ideyalarının reallaşdırılmasında, Azərbaycanın yeni inkişaf strategiyasının həyata keçirilməsində yardımçı oldu.

Dövlətimizin başçısı qısa müddət ərzində Azərbaycanı regionun lider dövlətinə, Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm körpüyə çevirməyə nail oldu. Həm enerji resurslarının nəqlinin diversifikasiyasını uğurla reallaşdırmaqla, həm də əhəmiyyətli tranzit ölkəyə çevirməklə bir növ, Azərbaycanı enerji habına çevirmişdir.

Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində respublikamız hazırda Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin aparıcı vəzifəsi rolunu oynayır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı – Tbilisi–Qars dəmir yolunun, TAP və TANAP layihələrinin günün reallığına çevrilməsi, ölkəmizin üç süni peykinin orbitə buraxılması ilə kosmik dövlətlər klubuna daxil olması Prezident İlham Əliyevin düşünülmüş, məqsədyönlü siyasətinin real nəticəsi olmaqla Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərinin daha da güclənməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, Azərbaycan artıq Avropa və dünyanın aparıcı enerji təchizatçılarından birinə çevrilmişdir.

Ölkənin nüfuzunun və gəlirlərinin artması Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində mühüm amilə çevrilmişdir. Bu gün dünyada müstəqil siyasət yeridən dövlət azdır. Bunlardan biri də məhz Azərbaycandır. Bu isə təsadüfi deyildir. Çünki dövlətimizin başçısının apardığı düşünülmüş siyasət nəticəsində ölkənin iqtisadi və siyasi cəhətdən xarici asılılığı tamamilə aradan qaldırılmışdır. Bu da Azərbaycan dövlətinə digər güc mərkəzlərinin diktəsi ilə deyil, öz milli maraqlarından çıxış edən siyasət yürütməsinə imkan verir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıb.

Prezident İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasına dəvət edilən azsaylı prezidentlərdən biri kimi etdiyi çıxışı ilə uzun müddət beynəlxalq ictimaiyyətin diqqətində olması Azərbaycanın beynəlxalq nüfuzunun daha da güclənməsinə şərait yaratmışdır.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasından bəhs edərkən, ölkəmizin 155 üzv dövlətin dəstəyi ilə BMT TŞ-yə qeyri-daimi üzv seçilməsi və bu mötəbər quruma sədrlik etməsini, Qoşulmama Hərəkatına sədr seçilməsini, "Eurovision" və Avropa Oyunları, Qlobal Humanitar Forum və s. kimi nüfuzlu qlobal tədbirlərin ölkəmizdə ən yüksək səviyyədə keçirilməsini də qeyd etmək lazımdır.

Respublikamızın rəhbəri ölkənin regional və beynəlxalq nüfuzunun artırılması, uğurlu neft-qaz strategiyası, çoxşaxəli tranzit layihələri və s. ilə yanaşı, daxili siyasətdə də ciddi uğurların əldə edilməsinə nail olmuşdur. Əgər 2003-cü ildə Azərbaycanın dövlət büdcəsi təqribən 1,5 milyard dollar idisə, 2020-ci ilin dövlət büdcəsi 24 milyard manatdan artıqdır. Yoxsulluq səviyyəsi 2003-cü ildə 45 faiz idisə, hazırda 5 faizdən də aşağı düşmüşdür. Ölkəmizin valyuta ehtiyatları 27 dəfədən çox artaraq hazırda 50 milyard dollara çatmışdır.

Azərbaycanda idarəetmə və vətəndaşlara xidmət sferasında həyata keçirilən işlər ölkəmizə dünyaya innovasiya ixrac edən dövlətlər sırasında layiqli mövqe qazandırmaqdadır. Bu sırada xüsusilə "ASAN xidmət" innovasiyası mühüm yer tutur. Qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində "ASAN xidmət" təcrübəsinin öyrənilməsinə və tətbiqinə başlanmışdır. Məsələn, artıq Əfqanıstanda eyniadlı qurum təsis edilib. Bundan başqa, müxtəlif Avropa ölkələrində "ASAN xidmət" təqdimatları keçirilmiş və maraqla qarşılanmışdır. Dünyanın qabaqcıl ölkələrinin və beynəlxalq qurumlarının nümayəndə heyətləri mütəmadi olaraq "ASAN xidmət"in fəaliyyəti ilə tanış olmaq üçün mərkəzləri ziyarət edirlər. Yarandığı gündən bu günə qədər bir çox xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan 600-dən çox nümayəndə heyəti "ASAN xidmət" mərkəzlərinə baş çəkib. Həmçinin "ASAN" innovasiyası mühüm aparıcı beynəlxalq qurumlar tərəfindən mükafatlara, sertifikatlara layiq görülüb.

2019-cu ildə ölkədə sosial siyasət sahəsində həyata keçirilmiş addımlar isə misilsizliyi ilə yadda qalmışdır. Belə ki, il ərzində minimum əməkhaqqı 2 dəfə artırılaraq, 130 manatdan 250 manata qaldırılmışdır. Bundan başqa, əhalinin sosial rifahının yüksəldilməsi çərçivəsində dövlət büdcəsindən maliyyələşən müxtəlif sahələrdə əməkhaqlarının artırılması ilə bağlı bir gündə – 2019-cu il iyunun 19-da 18 Prezident sərəncamı imzalanmışdır. Bu isə 1 milyondan çox insanın əməkhaqqının əhəmiyyətli dərəcədə artması deməkdir.

Əlbəttə ki, həyata keçirilən bu siyasət xalqın ciddi dəstəyinə söykənir. Bunu xarici araşdırma mərkəzlərinin keçirdiyi sorğular da təsdiq edir. Belə ki, 2019-cu ilin fevral – mart aylarında Azərbaycan ərazisində Fransanın “Opinion Way” şirkətinin apardığı rəy sorğusu zamanı “Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz” sualı respondentlərin 85,1 faizi tərəfindən “müsbət” olaraq qiymətləndirilib. Prezidentin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala isə respondentlərin 75,6 faizi müsbət cavab verib. Prezident İlham Əliyevin kadr islahatlarını isə 78,8 faiz respondent bəyəndiyini bildirib.

Bu gün Azərbaycanın müasir, sivil dövlətə çevrilməsi, onun beynəlxalq imicinin möhkəmləndirilməsi istiqamətində əldə olunan uğurlarda ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzedilməz rolu vardır. Mehriban xanım Əliyeva uzun illər ərzində Heydər Əliyev Fondunun prezidenti kimi ölkədə milli-mədəni irsin qorunmasında, qayğıya ehtiyacı olan vətəndaşların problemlərinin həll edilməsində, təhsilin, səhiyyənin və s. sahələrin inkişafında mühüm rol oynamışdır. Fondun xeyriyyəçilik fəaliyyəti ölkə hüdudlarından kənarda da geniş-əks-səda doğurmuşdur.

Bu yaxınlarda Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri, keçirdiyi yüksək səviyyəli görüşlər onun ölkəmizin daxili həyatı ilə yanaşı, xarici siyasətində oynadığı əhəmiyyətli rolu da bir daha ortaya qoydu. Belə ki, Rusiya kimi dünyanın nəhəng dövlətinin Prezidenti tərəfindən yüksək səviyyədə qəbul edilməsi, “Dostluq” ordeninə layiq görülməsi nadir hadisələrdən olmaqla, onun fəaliyyətinə verilən yüksək dəyərin bariz nümunəsidir. Bu, həm də onu göstərir ki, Rusiya dövləti və onun siyasi elitası Mehriban xanım Əliyevanı parlaq siyasətçi kimi qəbul edir və onunla mühüm məsələlər ətrafında müzakirələr aparmaq və razılaşmalar əldə etməyə hazırdır.

Azərbaycanın yarım əsrlik tarixinin adı ilə bağlı olduğu ümummilli lider Heydər Əliyevin ideyaları, irsi bu gün ləyaqətlə davam və inkişaf etdirilir. Heydər Əliyevin təməlini qoyduğu inkişaf etmiş, güclü, modern Azərbaycan dövləti artıq dünya miqyasında özünü təsdiq etmişdir. Bu isə onu göstərir ki, Heydər Əliyevin möhkəm özüllər üzərində qurduğu Azərbaycan dövləti və onun irsi etibarlı əllərdədir.

**Aytən MUSTAFAZADƏ,**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq üzrə elmlər doktoru, professor, V çağırış Milli Məclisin deputatı.**

# НЮРНБЕРГСКИЕ ПРИНЦИПЫ КАК КОМПАС МЕЖДУНАРОДНО-ПРАВОВОГО УРЕГУЛИРОВАНИЯ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

К 75ЛЕТИЮ НЮРНБЕРГСКОГО ТРИБУНАЛА

**О.Ф. Эфендиев,**
**профессор, доктор юридических наук.**

*В посвящённой знаменательной дате – юбилейной годовщине Нюрнбергского трибунала – статье рассматриваются различные аспекты, касающиеся, в частности, роли и значения Нюрнбергского процесса в развитии современного международного права, формировании и становлении других его отраслей и мирового уголовного правопорядка. Особо акцентируется вопрос о возможности и необходимости использования международно-правовых положений и предписаний Нюрнбергских принципов в урегулировании армяно-азербайджанского, нагорно-карабахского вооруженного конфликта.*

**Ключевые слова:** нюрнбергские принципы, современное международное право, нагорно-карабахский конфликт, Международный уголовный суд, Азербайджанская Республика, международно-правовое урегулирование, Организация Объединенных Наций, мировой уголовный правопорядок, и др.

В современную эпоху, на протяжении 75 лет, каждый год, мировое сообщество отдает справедливую дань Нюрнбергскому процессу (20.11. 1945 - 1.10. 1946 г. г.) за тот колоссальный вклад, который он внёс в развитие современного международного права. Исключительно важно и то, что этот процесс в значительной мере способствовал возникновению и формированию ряда других, специальных его отраслей, в частности, международного уголовного права, международного гуманитарного права, а также в становление уголовно-правового миропорядка.

Краткая история этого становления такова, что ещё в середине прошлого столетия были предприняты попытки создать постоянно-действующий Международный уголовный суд, который бы рассматривал дела об военных преступлениях и преступлениях против человечества, но только в начале этого века такой орган международного правосудия начал функционировать в полном объёме.

Примечательно и то, что деятельность этого органа была изначально построена не только на классических международно-правовых основах, но и таких его принципах, которые были признаны статутом Нюрнбергского трибунала, яв-

ляющегося, по существу, сводом особых правовых принципов. Именно тех, которые характеризовали деяния, являющиеся в соответствии с положениями современного международного права, преступлениями против мира и безопасности человечества.(1)

Более того, данные принципы, сформулированные, как известно, по поручению Генассамблеи ООН Комиссией международного права (1950 г.) для кодификации правовых принципов, базирующихся на положениях Нюрнбергского процесса, именно так, чтобы в последствии на его основе сформировать Международный уголовный кодекс. Важно вспомнить и то, что данная Комиссия, по существу, не занималась разработкой «новых» принципов, а только обобщила деятельность Нюрнбергского военного трибунала, а также сформулировала начала, выраженные в его решении. После же они были широко-признаны международным сообществом и, с другой стороны, явились основой при формировании международного уголовного права и нового уголовного миропорядка.

Такими положениями, Нюрнбергскими принципами, имеющие высокий, авторитетный международно-правовой характер, являются:

1. Всякое лицо, совершившее какое-либо действие, признаваемое, согласно международному праву преступлением, несет за него ответственность и подлежит наказанию.

2. То обстоятельство, что по внутреннему праву не установлено наказания за какое-либо действие, признаваемое, согласно международному праву, преступлением, не освобождает лицо, совершившее это действие, от ответственности по международному праву.

3. То обстоятельство, что какое-либо лицо, совершившее действие, признаваемое, согласно международному праву, преступлением, действовало в качестве главы государства или ответственного должностного лица правительства, не освобождает такое лицо от ответственности по международному праву.

4. То обстоятельство, что какое-либо лицо действовало во исполнение приказа своего правительства или начальника, не освобождает это лицо от ответственности по международному праву, если сознательный выбор был фактически для него возможен.

5. Каждое лицо, обвиняемое в международно-правовом преступлении, имеет право на справедливое рассмотрение дела на основе фактов и права.

6. Преступления, указанные ниже, наказываются как международно-правовые преступления:

a) Преступления против мира:

i) планирование, подготовка, развязывание или ведение агрессивной войны или войны в нарушение международных договоров, соглашений или заверений;

ii) участие в общем плане или заговоре, направленных к осуществлению любого из действий, упомянутых в пункте (i).

b) Военные преступления:

Нарушение законов и обычаев войны и, в том числе, но не исключительно, убийства, жестокое обращение или увод

в рабство или для других целей гражданского населения оккупированной территории, убийства или жестокое обращение с военнопленными или лицами, находящимися в море, убийства заложников или разграбление государственного или частного имущества, бессмысленное разрушение городов и деревень или их разорение, не оправдываемое военной необходимостью.

с) Преступления против человечности:

Убийства, истребление, порабощение, высылка и другие бесчеловечные акты, совершаемые в отношении гражданского населения, или преследование по политическим, расовым или религиозным мотивам, если такие действия совершаются или такие преследования имеют место при выполнении какого-либо преступления против мира или какого-либо военного преступления, или в связи с таковыми.

7.Соучастие в совершении преступления против мира, военного преступления или преступления против человечности, о которых гласит Принцип VI, есть международно-правовое преступление.

Развитие и история международных отношений в последующие десятилетия наглядно свидетельствует о том, что данные принципы /положения/ внесли существенный вклад не только в создание и формирование международного уголовного права, но и обеспечили основу для существования и функционирования международных уголовных судов современности, конкретно, в создание в 2002 г. постоянно действующего Международного уголовного суда (МУС) (2), что явилось важным событием для мира и международной справедливости.

Вместе с тем, в законодательстве ряда стран эти принципы нашли своё отражение и были не только закреплены в национальных уголовных кодексах, предусматривающих наказание за преступления против мира и безопасности человечества. Они способствовали и тому, что ответственность за такие преступления предусматривалась в соответствующих статьях Уголовных кодексов подавляющего большинства современных государств, в том числе и в УК Азербайджанской Республики. В этом контексте очевидно, что преступления против человечности, военные преступления и геноцид, не должны оставаться безнаказанными и их преследование должно быть обеспечено мерами на внутреннем и международном уровнях.

Существует огромное количество фактов и доказательств того, что Азербайджан последовательно проявляет как приверженность в борьбе за реализацию принципов, сформулированных Нюрнбергским трибуналом, так и о неуклонно проводит политику соблюдения предупреждения агрессии, соблюдения прав и свобод человека, укрепления международного право-порядка, норм и принципов современного международного права. При этом, подчеркивая их значение этих в становлении реальной системы междуна-родной юрисдикции в борьбе против каких-либо форм и проявлений терро-ризма. Таким образом, Нюрнберг-

ским процессом впервые в истории между-народных отношений не только агрессия, оккупация, но и терроризм были признаны тягчайшим преступлением, что, безусловно, стало принципи-альным шагом к созданию новой, эффективной системы правосудия.

С достижением политической независимости, для Азербайджанской Республики открылись благоприятные перспективы для устойчивого и поступательного внутриэкономического развития. Одновременно, возникли возможности активизации основных направлений своей внешнеполитической деятельности, важнейшая из которых освобождение оккупированных земель и разрешение Нагорно-Карабахской проблемы(3) Поэтому неслучайно, наряду с продолжением переговоров с соседней страной-оккупантом, имело место дальнейшее расширение деятельности по налаживанию и укреплению связей, в частности, с крупными и авторитетными международными организациями, в первую очередь ООН, в которой, относительно, чаще стали обращать внимание на вопрос об урегулировании данной проблемы.

Активизация и усиление дипломатических позиций нашего государства было обусловлено серьёзными переменами и более растущего понимания противоправности захватнической политики Армении, а также проявлений интенсивных попыток международных организаций оказать эффективное воздействие на неё, совершивших в ходе конфликта многочисленные военные преступления. Результатом этих перемен и углублённого понимания существа Нагорно-Карабахской проблемы стал тот факт, что ведущие государства и мировое сообщество, в целом и чаще, чем в прошлом, стали уже открыто выражать своё недовольство и неравнодушие затянувшимся решением этой проблемы.

Очевидно, что возросшая интенсификация усилий, в первую очередь Президента Азербайджана И. Алиева, направленных на разрешение конфликта на международном уровне и в рамках требований современного международного права, а также активизация переговорных процессов с заинтересованными сторонами свидетельствую о значительных достижениях внешнеполитической деятельности, дипломатии нашего государства.

Примечательно и то, что на фоне серьёзных геополитических изменений в мировом масштабе, неурегулированность данного конфликта, наряду с отрицательным воздействием на происходящие в глобальном плане процессы, рассматривается как весьма серьёзная угроза всеобщей безопасности, а не только, как угроза для стран южно-кавказского региона. В этом смысле, в основе внешнеполитической деятельности нашего государства лежат конструктивные подходы к наметившимся тенденциям к росту значимости территориальных вопросов, как причины и источника возникновения межэтнических конфликтов, где бы они не происходили, что, в свою очередь, может способствовать негативному воздействию не только на всеобщую, но и региональную безопасность.

Принципиальное значение имеет и то обстоятельство, что неурегулированность проблем территориальных конфликтов ставит под угрозу формирующийся миропорядок, в котором должны быть созданы благоприятные условия для свободного развития государств, для обеспечения в полном объёме прав и свобод человека и гражданина.

Современная азербайджанская дипломатия в вопросах урегулирования Нагорно-Карабахского конфликта всегда отрицала возможности каких-либо уступок  со своей стороны, постоянно демонстрировала свою непримиримость с оккупацией, терроризмом, военными преступлениями, осуществленными армянской стороной, потерей власти над частью собственной территории. А наоборот, неоднократно  заявляла о возможности вынесения этой проблемы на качественно новый этап и даже разрешение её военно-политическим способом. Подобные подходы свидетельствовали о приверженности  нашего государства к идеям и международно-правовому принципу неприкосновенности территории государства.

Юридическую природу такого принципа, как известно, составляет положение о том, что любое суверенное государство при осуществлении своей внешнеполитической деятельности должны избрать соответствующую модель поведения, исключающей какие бы то ни было притязания (аннексия) на территорию другого субъекта в любой форме, с использованием воору-жённых сил или угрозой их применения. Открытое вторжение регулярных вооруженных сил, оккупация, а, по- существу, агрессия, терроризм, предпри-нятые Арменией по отношению к Азербайджану, квалифицируется  международным правом как одна из тяжких форм посягательства на территорию суверенного государства. При этом существенное значение имеет квалифицирующий признак любой формы посягательства на неприкосновенность государственной территории – это его преднамеренный характер, чем бравировала неоднократно армянская сторона.

Примечательно и то, что даже некоторые авторы, например, Р.А. Адельханян, ссылаясь на статьи О.Ф. Эфендиева (4) отмечают, что «концептуальной основой существующих доктрин, посвященных регламентации вооруженных конфликтов, является признание базовых принципов ведения военных действий: гуманность, ограничение воюющих, защита гражданского населения и мирных /гражданских/ объектов. Уже достаточно давно стали признаваться на международном уровне. В этом отношении знаковым можно назвать принятие четырех Женевских конвенций  о защите жертв войны от 12 августа 1949 г. и Дополнительных протоколов к ним от 8 июня 1977 г., Уставов Международных военных трибуналов, Римского статута Международного уголовного суда от 17 июля 1998 г. и других международно-правовых актов» (5).

В арсенале доводов и позиции Азербайджана, более чем достаточно, международно-правовой аргументации, опровергающей и доказывающей категори-

ческую несостоятельность армянской стороны, в том числе, по вопросу о возможной приемлемости принципа самоопределения народов вплоть до отделения и создания собственного государства в отношении Нагорно-Карабахского конфликта. Одним из таких доводов является то обстоятельство, что Азербайджан никогда не был колониальным государством, и, наоборот, в соответствии с Гюлистанским (1813г.) и Тюркменчайским (1828 г.) соглашениями, юридически закрепили ситуацию и колонизацию нашей страны (со всеми его территориями, в том числе регион Карабаха) царским режимом. Нагорная же, равно как и низменная, часть этого региона, всегда рассматривалась частью Азербайджана.

Нельзя не согласиться и с мнением, согласно которому «очевидно, что природа так называемых «замороженных конфликтов» на постсоветстком пространстве идентична – территориальные претензии одного государства к другому под прикрытием и спекулятивным использованием принципа «права наций на самоопределение», военная агрессия и оккупация части территории суверенного государства, члена ООН. ...в случае с армянами Нагорного Карабаха этот принцип абсолютно неуместен, так как отдельной «нагорно-карабахской» нации в мире не существует, а у армянского народа своя государственность уже имеется, причём на весьма сомнительных территориях» (6).

По нашему же мнению, спекулятивные рассуждения кого-либо по поводу фундаментальных основ современного международного права и, тем более, о реализации Декларации о предоставлении независимости колониальным странам и народам (от 20 декабря 1960 г.), мягко говоря, не состоятельны и не уместны, поскольку ни армянский, ни какой-либо другой народ или национальность бывшего СССР, даже при больших натяжках, не обладали и не могли обладать статусом колониального.

В настоящее время неслучайно и то, что благодаря активизации внешнеполитической деятельности Азербайджана сложилась ситуация приемлемого решения урегулирования Нагорно-Карабахского конфликта. По той же причине, некоторые достаточно авторитетные международные структуры, как например Парламент Европейского Союза, касаясь возможностей данного урегулирования, справедливо и чётко квалифицировал позицию армянских оккупантов, так и не принявших, в частности, обновлённый вариант Мадридского документа, признав Армению как единственно виновную за сознательное торможение, затягивание переговорного процесса, а также потворствующей сепаратизму в НКР, несущую за это политическую и прямую ответственность.

Другое за последнее время важное признание исходит от Ж. Суареса, председателя Парламентской ассамблеи ОБСЕ, отметившего, что именно по вине армянской стороны не продвигается вперёд так активно как это должно быть, а также то, что единственной стороной, последовательно желающей подлинного

урегулирования конфликта в рамках территориальной целостности и суверенитета, является именно Азербайджан.

Как видно, эти два конструктивных и объективных признания следует расценивать как важный политико-дипломатический успех лично Президента И.Г. Алиева и внешнеполитической деятельности нашего государства, в целом. Такое признание неслучайно, поскольку современный Азербайджан всё больше обретает репутацию государства, которому характерны такие особенности, как многовекторность своего развития, существующий финансово-экономический и другие потенциалы, политическая стабильность и, безусловно, геостратегическое расположение.

Примечательно и то, что одним из главных аспектов содержания внешнеполитической деятельности нашего государства, в частности, в вопросах разрешения конфликта является доказательство не только безосновательности, но и несостоятельности армянской позиции с точки зрения норм и стандартов современного международного права. Это, в конечном счёте, объясняет факт изоляции государства-оккупанта, несущего ответственность за совершённые в ходе вооружённого конфликта военные преступления, от процесса динамичного и взаимовыгодного развития в южно-кавказском регионе от энерго-коммуникационных проектов глобального значения.

Следует учитывать и дипломатические усилия Азербайджана по разъяснению неадекватности совершенно абсурдного, не соответствующего реальностям, требования армянского населения Нагорного Карабаха о «самоопределении». Нелишне напомнить, что в соответствии с широко известными нормами и принципами современного международного права, народы, не являющиеся независимыми странами, могут выступать с требованием самоопределения(7) лишь в установленных правовых рамках, тем более, что у армянского народа, как хорошо известно, уже есть своё независимое государство. А потому выступление сепаратистского режима в Нагорном Карабахе никак не согласуется с международно-правовыми нормами, и, следовательно, является несостоятельным. Полезно в этой связи для армянской стороны учесть мнение проф. И.И. Лукашука о том, что «субъектом права на самоопределение является народ, нация, а не любая социальная, этническая или религиозная общность»(8).

С другой стороны, нельзя не согласиться с мнением о том, что проблематика соотношения и взаимосвязи принципов территориальной целостности государств и равноправия и права народов (наций) на самоопределение, часто лежащая в основе многих этнических конфликтов, является одной из актуальных проблем современного международного права. Бесспорно, что не только в актах современного международного права, но и в его доктрине пределы реализации принципа самоопределения народов и наций ограничено применением другого принципа – принципа территориальной целостности государств.

Азербайджанская дипломатия последовательно разоблачала международно-правовую противоправность действий армянской стороны, начиная с 1987 г., когда были открыто предъявлены территориальные притязания на Нагорно-Карабахскую автономную область Азербайджанской ССР. Как видно, сначала речь шла о конфликте между субъектами бывшей федерации, а с 1991 г. о межгосударственном армяно-азербайджанском конфликте, сопровождаемым жестокими, террористическими методами насилия со стороны вооружённых сил государства-оккупанта, сепаратистами по отношению к этническим азербайджанцам, по - существу, геноциду, огромным масштабом интенсивных военных преступлений. При этом противоправным квалифицировалось само провозглашение (в 1991 г.) так называемой Нагорно-Карабахской республики и объявление этого образования «независимым государством», противоречащим, в частности, нормам Конституции бывшего Советского государства, конкретно, ст. 78.

Другим существенным дипломатическим достижением нашего государства является вопрос о вынесение всех конфликтов, которые имеют место на постсоветском пространстве в результате сепаратистских тенденций, в единый пакет их справедливого решения, и именно тех конфликтов, в основе которых лежит именно этнический сепаратизм, политика аннексий чужих территорий.

За последние годы важные дипломатические успехи Азербайджанской Республики на международной арене, конкретно в ООН, нашли своё авторитетное отражение в ряде широко известных резолюций Генеральной Ассамблеи о положении на оккупированных территориях Азербайджана, а также 62/243 (2008 г.), 60/285 (2006 г.), и о сотрудничестве между ООН и ОБСЕ - 54/117 (2000г.), по вопросам исключительно касающихся урегулирования Нагорно-Карабахского конфликта.

Исключительно важно, что в первом документе содержится ссылка на широко известные резолюции Совета Безопасности (1993 г.) и требование к сторонам в конфликте неукоснительно соблюдать нормы международного гуманитарного права. Здесь же изложено предостережение о том, что вооружённый конфликт в Нагорно-Карабахском регионе Азербайджана и вокруг него продолжает создавать угрозу международному миру и безопасности, и учитывая его негативные последствия для гуманитарной ситуации и развития в странах Южного Кавказа.

В документе 60/285, также посвященном положению на оккупированных территориях Азербайджана, выраженная серьёзная обеспокоенность пожарами на пострадавших территориях, которые наносят им обширный экологический ущерб.

Анализ приведённых международно-правовых документов позволяет сделать ряд выводов, главный из которых то, что Нагорный Карабах – это регион Азербайджанской Республики, и что необходимо безотлагательно, без каких-либо предварительных условий, вывести все оккупационные силы из всех на-

сильственно захваченных Арменией территорий, районов Азербайджана. Особо подтверждено положение об уважении суверенитета, территориальной целостности всех государств в южно-кавказском регионе, а также нерушимость, неприкосновенность международных границ, признанных мировым сообществом, и недопустимость применения силы для приобретения территории.

Кроме того, во многих документах содержится положение, согласно которому оставшееся население Нагорного Карабаха после насильственного изгнания азербайджанского населения рассматривается как «армяне нагорно-карабахского региона Азербайджана», а не как несуществующий в природе «народ Нагорного Карабаха». Как само собой разумеющееся, в этих международно-правовых документах подтверждено неотъемлемое право население, изгнанного с территорий Азербайджана, на возвращение в свои дома и подчёркнута необходимость создания надлежащих условий для этого возвращения, в том числе всеобъемлющую реабилитацию пострадавших от конфликтов территории. Специально было оговорено, что ни одно государство не должно признавать законной ситуацию, сложившуюся в результате оккупации азербайджанской территории, и не должно содействовать или способствовать сохранению этой ситуации.

Так или иначе, принятие, несмотря на деструктивную позицию некоторых ведущих стран, вышеприведённых международно-правовых актов свидетельствует о новых дипломатических успехах Азербайджанской Республики, об усилении её позиции и репутации государства, искренне и последовательно стремящегося к мирному урегулированию Нагорно-Карабахского конфликта. С одной стороны, и ощутимым ударом по политическим амбициям Армении, страны-оккупанта, совершившей многочисленные и жестокие военные преступления, падении её престижа в мировом сообществе, с другой.

Иными словами, кардинальное требование внешнеполитической деятельности нашего государства – урегулирование Нагорно-Карабахского конфликта исключительно в рамках территориальной целостности Азербайджана, на основе фундаментальных норм и стандартов современного международного права. Целенаправленность такой позиции очевидна, поскольку в настоящее время, в эпоху глобализирующихся процессов, в международных отношениях, мировая политика это не эмоции и не абсурдные амбиции, которые демонстрирует армянская сторона, а возможности, конкретные и конструктивные тенденции политико-экономи-ческого сотрудничества и партнёрства. Понятно, что такие прагматические и взаимовыгодные ценности как мир, обеспечение всеобщей безопасности и другие универсальные явления, имеют повышенную ценность.

Благодаря существенным успехам дипломатической деятельности нашего государства, достижениям по реализации крупных энергетических проектов мирового значения, возрождению и укреплению отечественной экономики Азербайджанская Республика превратилась

в стабильное, динамичное и лидирующее южно-кавказское государство с высоким авторитетом в мировом сообществе. Это обстоятельство и активизация переговорных процессов с заинтересованными сторонами свидетельствуют о значительных достижениях внешнеполитической деятельности Азербайджана и его миролюбивой дипломатии.

**Список научной литературы по данной теме:**


1. Подробнее об этом см. А.В. Наумов. Преступления против мира и безопасности человечества и преступления международного характера// Государство и право. 1995. №6;Р.М.Валеев, Сафиуллина И.П. Нюрнбергские принципы и их влияние на развитие современного международного права // Московский журнал международного права. — 2006. № 3. С. 185-200; Мюллер Г. 40 лет после Нюрнберга: Перспективы международного уголовного права — американская точка зрения // Советское государство и право. 1986. № 10. С. 102-104; Котляров И.И. Преемственность Нюрнбергских принципов в международном гуманитарном праве // Московский журнал международного права. 2006. № 4. С. 93-109.;Деханов С.А. Нюрнбергские принципы и международный военный трибунал для Дальнего Востока // Российский ежегодник международного права. 2006. С. 217-222 и др.
2. См., например, И.М. Махнибородa. Роль Статута международного уголовного суда в механизме имплементации норм международного гуманитарного права//Московский журнал международного права. 2005. №3; МУС на сайте ООН//Официальный сайт Организации Объединённых Наций. URL: http www.un.org/ru/law/court.shunl
3. Подробнее см., например, О.Ф. Эфендиев. Военные преступления от Нюрнберга до Карабаха (международно-правовой анализ). Изд-во ЦЧКИ, Москва, 2000; о н ж е, Вооружённые конфликты и военные преступления на Центральном Кавказе (международно-правовой аспект). Изд-во «Кавказ». Баку. 2006; о н ж е, О противоправности международных военных преступлений // Международное публичное и частное право. № 2, 2007. М., стр. 41-46 и др.
4. См. Эфендиев О.Ф. О противоправности международных военных преступлений // Международное публичное и частное право. М., 2007. №2; о н ж е, О военных преступлениях в системе законов и обычаев войны //Военно-юридический журнал. М. 2006. №11.
5. См. Цит. по Адельханян Р.А. Противодействие военным преступлениям в международном и национальном уголовном праве: современное состояние и тенденции разви-тия//Российский ежегодник международного права. 2011. Санкт-Петербург. 2012, с. 154.
6. http:www.osce.org/documents/odihr/1998/04/1215_en.pdf
7. Об этом см. И.П. Блищенко. Автономия и международное право // Московский журнал международного прав. № 6. 1997; А.Г. Аксененок. Самоопределение: между правом и политикой // Россия в глобальной политике. № 5, 2006; Н.А. Цивадзе. О развитии принципа самоопределения в международном праве // Новые вызовы и международное право. Отв. ред. А.Г. Лисицин-Светланов. М. 2010, стр.174-183 и др.
8. См. И.И. Лукашук. Международное право. Учебник. М., 1997, стр. 317.

# YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİNDƏ BİLAVASİTƏ XALQ DEMOKRATİYASI

**İbrahim Oruc oğlu Quliyev,**
**Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrasının müdiri, h.e.d., professor.**

*Bu elmi məqaləni yazmaqda əsas məqsədim qarşıda gələn bələdiyyə seçkilərində yəni 23 dekabr 2019-cu ildə keçiriləcək seçkilərdə vətəndaşların siyasi aktivliyini qaldırmaq, eyni zamanda ölkədə demokratik və vətəndaş cəmiyyətinin yaranmasında, hüquqi dövlətin qurulmasında yerli özünüidarəetmə orqanlarının yerini və rolunu elmi əsaslarla təhlil etməkdən ibarətdir.*

**Açar sözlər:** demokratiya, xalq demokratiyası, bələdiyyə seçkiləri, yerli özünüidarəetmə, Azərbaycan Respublikasının Konstitusiyası

Demokratiya institutu böyük tarixə malik olan institutlardan biridir. Bəşəriyyət yarandığı andan insanlar həmişə ədalət uğrunda mübarizə aparıblar. Haqqınədalətin daim axtarışında olublar. Xalqın birbaşa mənafeyini müdafiə etmək eyni zamanda ölkənin ictimai və siyasi həyatında hər bir vətəndaşın iştirakını təmin etmək imkanı yaradan demokratik institutlardan biri də Yerli özünüidarəetmə institutudur. Bələdiyyə, ərazidə yaşayan vətəndaşların maraqlarını təmin edir və yerli əhəmiyyətli məsələlərin həll olunmasında birbaşa iştirak edirlər.

Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanları xalq hakimiyyəti sisteminin bünövrəsini təşkil edir. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul olunmuş konstitusiyasının IV bölməsi IX – fəsli yerli özünüidarəetmə, bələdiyyələrə həsr olunmuşdur.

Aparılmış elmi-tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, demokratik institutların inkişafında yerli özünüidarəetmə orqanlarının cəmiyyətdə yeri və rolu müstəsna əhəmiyyət kəsb edir.

Yerli özünüidarəetmə real demokratik institut kimi demək olar ki, ölkədə idarəetmə sistemində çox sahələri əhatə edir.

Qeyd etməliyəm ki, yerli özünüidarəetmə orqanlarınındövlət tərəfindən bir sıra lazımi siyasi, iqtisadi və maliyyə təminatları olduğu zaman, ərazidə yaşayan insanların yerli əhəmiyyətli məsələlərin səmərəli həll edilməsi üçün çox vacib hesab olunan demikratik idarəçilik institutlarındandır.

Bu problemləri yerli özünüidarəetmə orqanlarından başqa nə siyasətçilər nədəki dövlət idarəçilik institutuna daxil olan digər qurumlar effektli formada həll etmək imkanına malik deyillər.

Düzgün anlaşılmalıdır ki, yerli əhəmiyyətli məsələlər dedikdə - bu heçdə əhəmiyyətsiz problemlər demək deyil. Bu problemlərin həll olunması üçün dövlət orqanları o qədərdə böyük cəhd və maraq göstərmirlər, eyni zamanda vaxt baxımından buna imkanları məhduddur.

Bu problemlər spesifik xüsusiyyətlərə malik problemlər olduğu üçün onlar yalnız

yerli səviyyədə idarəçilik üsulları ilə həll olunaraq ərazidə yaşayan insanların iştirakı ilə aradan qaldırmaq mümkündür.

Bundan başqa yerli özünüidarəetmə orqanları cəmiyyətdə digər demokratik institutların formalaşmasında da aktiv rol oynayır. Bu qurumlar vətəndaşların hüquqlarının və azadlıqlarının təmin olunmasında öndə gedən qurumlardan biridir. Cəmiyyətdə Demokratiya məsələləri həmişə elmi tədqiqatçılarıntədqiqat predmetləri olmuşdur.Bir çox hallarda tədqiqatçılar tərəfindən demokratiya anlayışını digər müqayisəli formada idarəçilik institutlarıilə araşdırilaraq, cəmiyyətdə demokratiyanın siyasi mahiyyətinin səciyyəvi xüsusiyyətlərini göstərmişlər.

Demokratiyanın yaranması, onun davamlı fəaliyyəti və ya onun böhranını səciyyələndirən ilkin səbəblər xüsusilə həmişə maraq doğurmuşdur.

Keçən əsrdə bu sahəyə maraq daha da artmışdır. Bu istiqamətdə elmi tədqiqatçılar çoxsaylı naliyyətlər qazanmışlar. Bu məsələ heç də təsadüfi deyildir. Beləki son illərdə demokratiyanın dərinləşməsi istiqamətində tədqiqatın predmeti daha da genişlənmişdir. Demokratiya ənənəsi bir sıra ölkələrin siyasi təcrübəsinə çevrilmişdir. Azərbaycan Respublikasında bu istiqamətdə müəyyən təcrübə toplamışdır.Belə ölkələr müxtəlif sosial iqtisadi inkişaf səviyyəsinə malik olub, demokratik siyasi rejimin müxtəlif tiplərini nümayiş etdiriblər.

12 noyabr 1995-ci il tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası öz statusuna görə ilk növbədə demokratik dövlət kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikasında hakimiyyətin yeganə mənbəyi suverenliyin daşıcısı hesab olunan Azərbaycan xalqıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında xalq tərəfindən hakimiyyətin həyata keçirilməsi mexanizmi də nəzərdə tutulmuşdur.

Belə ki 2-ci maddədə təsbit olunmuşdur ki, xalq suverenliyi, sərbəst və müstəqil öz müqəddaratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

Eyni zamanda Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Konstitusiyadan göründüyü kimi xalqın öz iradəsini bildirmə formasından asılı olaraq bilavasitə və nümayəndəli demokratiya institutları müəyyən edilibdir. Demokratik cəmiyyətdə bilavasitə və nümayəndəli demokratiyanın müxtəlif institutları, formaları, prosedurları yaranır və həyata keçirilir.

Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən olunmuşdur ki bilavasitə xalq hakimiyyətinin ən yüksək ifadəsi referendumla yanaşı azad seçkilərdir.

Yerli özünüidarəetmə orqanlarında azad seçkilərin həyata keçirilməsi yerli özünüidarə sahəsində nümayəndəli demokratiyanın əsasını təşkil edir.

Bələdiyyə seçkiləri – Azərbaycan Respublikasının qanunları ilə hər beş ildən bir keçirilən vətəndaşların bilavasitə birbaşa iradəsinin ifadə formasıdır. Əsas məqsəd müvafiq bələdiyyə təşkilatlarının ərazisində yaşayan əhalinin nümayəndələrinin müəyyən edilməsidir.

Bələdiyyə hakimiyyəti kollegial orqanı kimi öz tərkibində əhalinin adından yerli

əhəmiyyətli məsələləri həll edir və eləcədə başqa qanuni formalardan istifadə edərək yerli özünüidarəetməni həyata keçirirlər.

Bələdiyyə seçkiləri ərazidə yaşayan əhali üçün siyasi baxımdan əhəmiyyətlidir, beləki, onların vasitəsilə nümayəndəli orqanlar formalaşır və yerli özünüidarəetmə orqanlarına seçilən şəxslər vəzifələrə təyin olunur. Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri 1999-cu ilin dekabr ayında keçirilmişdir. 2019-cu ilin 23 dekabrında növbəti bələdiyyə seçkiləri keçiriləcəkdir. Azərbaycan dövlətinin və xalqının siyasi həyatında bu böyük bir tarixi hadisədir. Bu siyasi kompaniyada bələdiyyə seçkilərində hər bir azərbaycan vətəndaşının aktiv iştirak etməsi layiqli namizədlərə səs vermələri vacibdir. Bu demokratiya ənənələrini daha da dərinləşdirməlidir.

Azərbaycan dövləti və xalqı yerliözünüidarəetmə orqanlarının fəaliyyəti ilə bağlı artıq 20 ilə yaxındır ki, böyük təcrübə yolu keçmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunubki, azərbaycan xalqıöz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi, referendumla yanaşı, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndəli vasitəsilə həyata keçirir.

Bələdiyyə seçkiləri Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir və hər beş ildən bir keçirilir.

Bələdiyyə seçkilərinin keçirilməsində əsas məqsəd vətəndaşların bilavasitə (birbaşa) iradəsinin ifadəsi formasında bələdiyyə təşkilatında əhali nümayəndələrinin müəyyən edilməsidir.

Bu xalq hakimiyyətinin əsas fəaliyyət istiqaməti də yerli əhəmiyyət kəsb edən məsələləri həll etmək, eləcə də yerli özünüidarəetmə orqanların başqa funksiyalarını həyata keçirməkdən ibarətdir. Bələdiyyə seçkiləri yerli əhali üçün son dərəcə əhəmiyyətlidir, belə ki, seçkilər vasitəsilə nümayəndəli orqanlar formalaşır və yerli özünüidarəetmə orqanına seçilən şəxslər vəzifəyətəyin olunur. Əhaliyə maksimum dərəcədə yaxın olan yerli özünüidarəetmə qurumu formalaşır. Beləliklə bələdiyyə qurumları ərazisində yaşayan əhalinin yerli əhəmiyyətli məsələlərin həllini öz öhdəsinə götürür. Eyni zamanda keçirilən seçkilər birbaşa vətəndaşların yerli özünüidarəetmənin fəaliyyətinə nəzarətin bir formasıdır. Digər tərəfdən bələdiyyələrin əhali qarşısında məsuliyyətini yaradır.

Bütövlükdə keçirilən hər seçki kompaniyası ölkədə böyük bir siyasi kompaniya olmaqla bərabər eyni zamanda vətəndaçların ictimai-siyasi aktivliyini qaldırır, onların ən vacib olan tələblərinin və maraqlarının üzə çıxmasına səbəb olmaqla bərabər bu problemlərinin həll olunması üçün zəmin yaradır.

Bu baxımdan bələdiyyələrə layiqli namizədlərin seçilməsi prosesi vacib məsələlərdən biridir. Seçilən namizədlərə müəyyən olunmuş tələblər irəli sürülür.

Bütün bu qoyulan tələbləri seçki komissiyaları həyata keçirməlidirlər.

Seçki hüququnun o cümlədən onun bir sahəsi olan bələdiyyə seçkilərinin başlıca prinsipləri Azərbaycan Respublikasının Seçki Məcəlləsində öz əksini tapmışdır. Bələdiyyə seçkilərində nümayəndəli orqanlarına və seçkili vəzifələrə seçilən bu prosesləri tənzimləyən hüquq normalarının məcmusu bələdiyyə seçkilərinin hüquqi institutunun təşkil edir. Seçki hüququnun tənzimləmə predmetinə əsasən daxildir:

– Seçki hüququnun əsas prinsipləri;
– Seçkilərə və seçilən şəxslərə qarşı irəli sürülən tələblər;
– Seçkilərin təşkili və aparılmasını birbaşa həyata keçirən seçki komissiyasının fəaliyyət və formalaşma ardıcıllığı;
– Seçki prosesində subyektlərin birləşmələrinin statusu;
– Seçki kompaniyası və səsvermə proseduru;
– Seçkilərin maliyyələşdirilməsi ardıcıllığı;
– Seçkilərin nəticələrinin müəyyənləşdirilməsi;
– Seçki kompaniyası, səsvermə və seçki nəticələri gedişatında baş vermiş pozuntulara etiraz və şikayət etmə qaydaları.

Seçki hüququnun o cümlədən, onun bir sahəsi kimi, bələdiyyə seçkilərinin başlıca prinsipləri Azərbaycan Respublikasının qanunvericiliyində təsbit olunmuşdur.

Azərbaycan RespublikasıKonstitusiyasının 56-cı maddəsində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüququ təsbit olunmuşdur.

Bu maddənin 1-ci bəndində nəzərdə tutulur ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək habelə referendumda iştirak etmək hüququ vardır.

Göründüyü kimi Azərbaycan Respublikasının Konstitusiyasının 56-cı maddəsində vətəndaşlara seçki hüququnda yerli özünüidarəetmə orqanlarına seçkilərdə seçmək və seçilmək üçün əsas hüquqlardan sayılan seçki hüququ verilməmişdir. Bu məsələ yalnız Seçki Məcəlləsində tənzimlənmişdir. Beynəlxalq təcrübədən göründüyü kimi əksər qabaqcıl demokratik dünya ölkələrinin konstitusiyalarında o cümlədən Rusiya Federasiyasının Konstitusiyasında yerli özünüidarəetmə orqanlarına vətəndaşlara seçmək və seçilmək əsas hüquq kimi Konstitusiyada təsbit edilmişdir.

Azərbaycan RespublikasıKonstitusiyasının 56-cı maddəsində yerliözünüidarəetmə orqanlarına seçkidə iştirak etmək seçmək və seçilmək hüququnun nəzərdə tutulmaması bu əsas qanunda olan boşluqdan xəbər verir.

Düşünürəm ki, gələcəkdə növbəti Konstitusiya referendumu keçirilən zaman bu nəzərə alınmalıdır. İlk öncə vətəndaşlara əsas konstitusion hüquqlardan biri olan yerli özünüidarəetmə orqanlarına seçki zamanı seçmək və seçilmək hüququnun verilməsi onların konstitusiya hüquqlarının təmin olunması üçün vacib şərtlərdən biridir. Bu hüquq konstitusiyada təsbit olunmadan birbaşa seçki məcəlləsində təsbit olunması qanunvericilik prinsiplərinin kontekstində müəyyən ziddiyyətlər təşkil edir.

Azərbaycan Respublikasının qanunvericiliyində bələdiyyə seçkilərinin hər beş ildən bir keçirilməsi və vətəndaşların sərbəst ifadələrinin həyata keçirilməsinin bariz nümunəsidir.

Bələdiyyə seçkilərinin aparılması ardıcıllığı qanunla müəyyən olunmuşdur.

Yerli özünüidarəetmənin nümayəndəli orqanına bələdiyyələrə şəxslərin seçilməsi ümumi bərabər və birbaşa seçki hüququ əsasında, gizli səsvermə yolu ilə və vətəndaşların qanunla müəyyən olunmuş seçki hüquqları təmin olunmaqla həyata keçirilir.

Seçicilərin bələdiyyə seçkilərində iştirakı könüllüdür.

Azərbaycan RespublikasınınSeçki Məcəlləsində nəzərdə tutulurki, Azərbaycan Respublikası vətəndaşları yerli özünüidarəetmə orqanlarına seçmək və seçilmək hüqu-

quna malikdirlər. Seçmək və seçilmək hüququna o şəxslər malik deyillərki, onlar haqqında məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunsun.

Eyni zamanda hərbi qulluqçuların, hakimlərin dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin hüququ qanunla məhdudlaşdırıla bilər.

Vətəndaşların seçmək hüququna (aktiv seçici hüququ) 18 yaşına çatmış və bələdiyyənin ərazisində daimi yaşayan vətəndaşlar olmalıdır.

Bələdiyyələrə seçilən şəxslər (passiv seçki hüququ) seçilmə hüququ qanun ilə nəzərdə tutulmuş yaş həddinə çatdıqda yaranır.

Azərbaycan Respublikası vətəndaşı irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarının və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq seçmək və seçilmək hüququna malikdirlər.

Seçkilərin vaxtında təyin olunub keçirilməsi azad və demokratik seçkilərin ən mühum təminatlarındandır.

Bu da vətəndaşların yerli özünüidarəetmə orqanlarına seçmək və seçilmək konstitusiya hüququnu təmin edir, eləcə də namizədlərə seçkiqabağı təbliğatın aparılması üçün kifayət qədər vaxt verilməsinə imkan yaradır.

Bələdiyyə seçkilərin təyin olunması qaydası Azərbaycan Respublikasının qanunları ilə və seçki məcəlləsi ilə tənzimlənir.

Seçki komissiyaları bələdiyyə seçkiləri zamanı müstəsna rol oynayır.

Onlar bələdiyyə seçkilərinin hazırlığını, təşkilini, keçirilməsini eyni zamanda seçkilərin gedişi prosesində vətəndaşların seçki hüquqlarının həyata keçirilməsini və müdafiəsini təmin edir.

Seçki sisteminə dairə və məntəqə seçki komissiyaları daxildir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası birbaşa bələdiyyə seçkilərin təşkili və keçirilməsi üçün məsuliyyət daşıyır. Eyni zamanda Mərkəzi Seçki Komissiyası vətəndaşların seçki hüquqlarının qorunmasına nəzarəti həyata keçirir, eləcədə yerlərdə seçki komissiyalarına lazımi hüquqi, metodiki, təşkilati, texniki yardım göstərir.

Seçki komissiyaları kollegial orqan olmaqla bərabər onların formalaşması və fəaliyyətləri, səlahiyyətləri Azərbaycan Respublikasının qanunları ilə əsasən seçki məcəlləsi ilə tənzimlənir. Seçki Komissiyaları seçkilərin hazırlığı və təşkili zamanı öz səlahiyyətləri çərçivəsində dövlət orqanlarından və yerli özünüidarəetmə orqanlarından eləcədə onların vəzifəli şəxslərindən tam müstəqildirlər.

Seçki komissiyaların müstəqilliyi onun dövlət orqanları və onların vəzifəli şəxsləri ilə qarşılıqlı əlaqə yaratmağını istisna etmir.

Seçicilərin qeydiyyata alınması, bələdiyyə seçkilərində namizədlərin yoxlanması, seçki zamanı ictimai asayişin və təhlükəsizliyin təmin olunması seçki prosesində vacib hesab olunur.

Dövlət orqanları yerli özünüidarəetmə orqanları, ictimai birliklər müəssisələr, təşkilatlar, kütləvi informasiya vasitələri, eləcədə onların vəzifəli şəxsləri seşki komissiyalarına öz səlahiyyətlərini həyata keçirilməsində onlara kömək etməlidirlər. Eyni zamanda seçki komissiyaları üçün lazımi məkanın ayrılması nəqliyyat texniki təchizatlar, məlumat və materiallarla təmin olunmalı, qanunla müəyyən olunmuş vaxtda, seçki komissiyaların müraciətlərini cavablandırmalıdırlar.

Seçki komissiyalarının qəbul etdikləri aktları, hakimiyyətin icra orqanları, yerli özünüidarəetmə orqanları, ictimai birliklər, müəssisələr, təşkilatlar, vəzifəli şəxslər və eləcə də dairə və məntəqə seçki komissiyaları üçün mütləqdir.

Seçki komissiyalarının formalaşmasının əsasında onların müstəqillik statusunun təminatı dayanır.

Seçki komissiyaları öz fəaliyyətlərini açıq və aşkar formada həyata keçirir.

Seçki Komissiyasının iclası, əgər seçki komissiyasının üzvlərinin mütləq əksəriyyəti iştirak edirsə səlahiyyətli sayılır. Seçki komissiyasının iclaslarında namizədlərin və ya onların etibarlı şəxslərinin və kütləvi informasiya vasitələrinin iştirak etmək hüquqları vardır.

Səsvermə günü, məntəqə seçki komissiyası işə başladıqdan səsvermə yekunlaşıb, nəticələri haqqında protokolla üzvlər tərəfindən imza qoyulana kimi namizədlərin etibarlı şəxsləri ictimai birliklərin və Siyasi partiyaların nümayəndələri, eləcədə beynəlxalq müşahidəçilərin seçki məntəqəsində olmaq hüququ vardır.

Seçki komissiyasının sədrinin sədr müavininin və katibinin seçilməsi, seçkilərin təşkili və keçirilməsinin təminatı ilə bağlı maliyyə məsələləri, namizədlərin qeydiyyatı və namizədlərin qeydiyyatlarının ləğvi haqqında seçkilərin etibarsız hesab edilməsi ilə bağlı təkrar seçkilərin keçirilməsi seçki komissiyasının qərarları seçki komissiyasının üzvlərinin mütləq səs çoxluğu ilə qəbul olunur.

Seçki komissiyaların qərarları, qanunvericilikdə müəyyən olunmuş qaydada və müddətdə mətbuatda dərc olunur və kütləvi informasiya vasitələrinə verilir.

Seçki komissiyalarının qanunvericiliyə zidd qərarları yuxarı seçki komissiyaları və ya məhkəmə tərəfindən ləğv olunmalıdır.

Bununla bağlı vətəndaşların seçki hüququnu pozan seçki komissiyasının və onun vəzifəli şəxslərin qərarları və ya fəaliyyəti (fəaliyyətsizliyi) ilə bağlı yuxarı seçki komissiyasına və ya məhkəməyə vətəndaşlar müraciət edə bilərlər.

Yuxarı seçki komissiyasına müraciət məhkəməyə müraciət üçün mütləq şərt deyildir. Seçkilərin gedişatı ilə bağlı şikayətlərin baxılmasına beş gün ərzində baxılıb qərar qəbul olunmalıdır. Seçki günü isə dərhal baxılmalı və qərar qəbul olunmalıdır.

Daxil olmuş şikayətin əlavə yoxlamağa ehtiyacı varsa belə halda on gün müddətində baxılır və qərar verilir. Eyni zamanda yuxarı seçki orqanin hüququ vardır ki, müstəqil qərar qəbul etsin.

Bələdiyyə seçkilərində əsas mərhələ seçicilərin siyahısının hazırlanmasıdır.

Seçicilərin siyahısı vacibdirona görə ki, hər bir seçiciyə özünün aktiv seçici hüququnun həyata keçirilməsinə imkan yaradılsın.

Seçicilərin siyahısının hazırlanması çox mürəkkəb və məsuliyyətli işdir. Seçicilərin siyahısı hər seçki məntəqəsi üzrə ayrı-ayrılıqda nəzərdə tutulmuş qaydada və formada məlumatlar əsasında hazırlanır. Bura seçki məntəqəsinin ərazisində daimi yaşayan və səsvermə günündə aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşları daxil edilir.

Bələdiyyələrin ərazisində yaşayan vətəndaşların qeydiyyatları əsasında seçicilərin siyahısı hazırlanır. Seçki məntəqələrində yaşayan insanlar ərazidə fəaliyyət göstərən bələdiyyə qurumu üçün qanunvericilikdə nə-

zərdə tutulmuş sayda bələdiyyə üzvlərini seçirlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məntəqələr üzrə bələdiyyələrə yalnız birmandatlı seçki keçirilir.

Seçki dairələrinin və seçki məntəqələrinin sərhədləri və hər bələdiyyə üzrə seçki komissiyası tərəfindən müəyyən olunur və seçkilərə 60 gün qalmış təsdiq olunur.

Səsvermənin keçirilməsi və seçicilərin səslərinin hesablanması üçün seçki məntəqələri yaradılır. Seçki məntəqələrinin siyahısı, onların sərhədləri və məntəqə seçki komissiyalarının tərkibi göstərilməklə səsvermə gününə 30 gün qalmış elan olunur və mətbuatda dərc olunur.

Bələdiyyə seçkilərinin hazırlıq mərhələlərindən biridə bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsidir.

Bələdiyyələrə öz namizədliyini irəli sürən hər kəs sərbəst formada namizədliyini irəli sürür.

Bələdiyyə üzvlüyünə namizədlər imzaları yalnız bələdiyyə ərazisi üzrə imza toplamalıdır.

Namizəd yalnız səsvermədə iştirak edən seçicilərin səs çoxluğunu topladıqda seçilmiş hesab olunur.

Namizəd istənilən vaxt öz namizədliyini geri götürə bilər.

Qeydiyyata alınmış namizədlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada namizəd statusunu əldə etmiş olur, bu da özündə namizədin hüquq, vəzifə və fəaliyyətinin tənzimləyir. Bütün namizədlər bərabər hüquqa malikdirlər, bərabər vəzifələr daşıyırlar, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla.

Bir qayda olaraq, bütün namizədlər üçün dövlət bərabər səviyyədə, qanunla nəzərdə tutulmuş, təşkilati, maliyyə, məlumat dəstəyi təmin edir.

Bundan əlavə, hər bir namizəd, seçkiqabağı təşviqat qaydalarına uyğun olaraq öz təşviqatını aparır.

Qeydiyyatdan keçmiş namizədə kütləvi informasiya vasitələrində bərabər səviyədə çıxış etmək hüququna malikdir və təmin olunur.

Bələdiyyə seçkilərin maliyyələşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bələdiyyə seçkilərinin təşkili və keçirilməsi büdcə vəsaiti hesabına ödənilir.

Bələdiyyə seçkilərinin səsvermə prosesi, səslərin hesablanması və nəticələrin müəyyən olunması seçkilərin ən məsuliyyətli və son mərhələsi hesab olunur. Bu mərhələdə bütün işlərin nəticələrinin hesabatları aparılır.

Qanunvericiliyə əsasən, məntəqə seçki komissiyalarının seçkilərin nəticələrini protokollaşdırılır dairə seçki komissiyalarına təqdim olunmuş protokolların əsli əsasında məlumatlar cəmləşdirilib dairə seçki komissiyasının protokolunu tərtib edirlər. Bələdiyyə seçkilərinin keçirilməsi zamanı vətəndaşların seçki hüquqlarının pozulmasına görə qanunvericilikdə məsuliyyətə cəlb edilmə nəzərdə tutulur. Bələdiyyə seçkisi zamanı zorakılıq, yalan, hədə-qorxu, digər qeyri-qanuni yollarla seçkiqabağı təşviqatın aparilmasının qarşısının alınması, seçki sənədlərində saxtakarlığa yol verilməsi səslərin səhvən hesablanması və digər qanunsuz işlərə görə bu əməlləri törədən şəxslərə qarşı qanunla müəyyən olunmuş qaydada inzibati və ya cinayət qaydasında təqsirləndirilən şəxs məsuliyyətə alınır.

Bütövlükdə bələdiyyə seçkiləri institutunin tətbiqinin səmərəliliyi həmin cəmiyyətdə demokratik və siyasi mədəniyyətin səviyyəsi ilə müəyyən olunur.

Qeyd edirəm ki, 23 dekabr 2019-cu il tarixində Azərbaycan Respublikasının ərazisində keçiriləcək bələdiyyə seçkiləri xalqın aktiv iştirakı ilə keçməklə, layiqli namizədlər demokratik yolla xalq tərəfindən seçiləcək. Bu da ölkədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə apardığı islahatların daha da dərinləşməsinə dəstək olmaqla bərabər demokratik və vətəndaş cəmiyyətin yaranması prosesinin sürətlənməsinə kömək olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq Yayın Evi", 2019.
2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi Bakı, "Hüquq Yayın Evi", 2019.
3. Azərbaycan Respublikasının bələdiyyə hüququ. Dərslik 3 cilddə, MAA, 2019.
4. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, "Hüquq Yayın Evi", 2019.
5. Hüquq qaydalarının təmin edilməsində yerli özünüidarəetmə orqanlarının fəaliyyəti. Dərs vəsait, MAA, Bakı, 2006, 276 s.
6. Vətəndaşların hüquqlarının təmin edilməsində kütləvi informasiya vasitələrinin rolu Dərs vəsait MAA, Bakı, 2006, 171 s.
7. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin nəzəri və hüquqi əsasları. Dərs vəsait. MAA, Bakı, 2006, 357 s.


## НЕПОСРЕДСТВЕННАЯ НАРОДНАЯ ДЕМОКРАТИЯ В СИСТЕМЕ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ


Основная цель написания данной статьи состоит в том, чтобы в период предстоящих муниципальных выборов 23 декабря 2019 года повысить политическую активность граждан, а также провести научный анализ роли и места органов местного самоуправления в построении правового государства и формировании демократического, гражданского общества.



**Ключевые слова:** демократия, народная демократия, муниципальные выборы, местное самоуправление, Конституция Азербайджанской Республики.


## IMMEDIATE NATIONAL DEMOCRACY IN THE SYSTEM OF LOCAL SELF-GOVERNMENT


To increase the political activity of citizens during the upcoming municipal elections on December 23, 2019, conduct a scientific analysis of the role and place of local governments in building of constitutional state and a democratic, civil society is the main purpose of writing this article.



**Key words:** democracy, national democracy, municipal elections, local self-government, Constitution of the Republic of Azerbaijan.

# МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ОСНОВЫ СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВО РОССИЙСКОЙ ФЕДЕРАЦИИ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В БАССЕЙНЕ КАСПИЙСКОГО МОРЯ

**Рустам Фахраддин оглы Мамедов, заведующий кафедрой международного публичного права Бакинского госуниверситета, доктор юридических наук, профессор.**

*В статье отмечается, что Каспийское море является одним из феноменальных водоемов нашей планеты. С древних времен его живые и минеральные ресурсы были основой экономики народов и государств, расположенных на его побережье. Транспортные возможности Каспия, уникальных туристических и оздоровительных курортов, а главное, нефтяных и газовых месторождений, ресурсы которых, по мнению экспертов, уже превышают запасы Персидского залива, превратили его в приоритет внешней и внутренней политики прибрежных районов. государства, особенно Азербайджанская Республика. Эти качества могут оправдать внимание, которое весь мир – ученые, политики, лидеры бизнеса посвятили последние десятилетия Каспийскому морю и Каспийскому бассейну.*

*Практика эксплуатации ресурсов Каспийского моря, созданная в пределах бывшего СССР на основе его отраслевого деления, в равной степени послужила основой для последующих соглашений, заключенных между Азербайджанской Республикой и Российской Федерацией как независимыми государствами и равноправными субъектами международного права. В ходе переговоров Россия и Азербайджан проанализировали два варианта: сохранение общего использования акватории при разделении дна; разделение водоема и дна на национальные сектора.*

*Сотрудничество Российской Федерации и Азербайджанской Республики ярко выразилась в ходе подписания Конвенции по правового статуса в Астане в августе 2018 года.*

**Ключевые слова:** нефтяные и газовые месторождения Каспия, прикаспийские государства, субъекты международного права, постсоветское пространство в регионе Каспия, суверенитет на Каспийском море, становление новых государств и межгосударственных границ.

Каспийское море – один из феноменальных водных объектов нашей планеты. Его живые и минеральные ресурсы с давних времен составляют основы экономики народов и государств, расположенных на его побережье. Транспортные возможности Каспия, уникальные туристические и курортно-оздоровительные комплексы, а самое главное – нефтяные и газовые месторождения, ресурсы которых, по мнению экспертов, уже превышают запасы Персидского залива, превратили его в приоритет внешней и внутренней политики прибрежных государств, особенно Азербайджанской Республики. Этими качествами можно обосновать внимание, ко-

торое весь мир – ученые, политики, лидеры делового мира уделяют последние десятилетия Каспийскому морю и Каспийскому бассейну.

Известно, что до распада Советского Союза в конце 1991 г., Каспийское море периодически находилось во владении СССР и Ирана. Но фактически же только Советский Союз всем Каспием и обладал и практически он превратился в «советское море» [5, 52-53; 28, 31-33; 29, 80-83; 30,190].

Постсоветский период породил новую ситуацию вокруг Каспия, вызванную тем, что количество независимых государств, расположенных вокруг его бассейна увеличилось от двух до пяти (Азербайджан, Иран, Казахстан, Россия и Туркменистан). Каспий и в советский период имел множество проблем как политического, экологического, гидрологического, так и др. характера. Однако, после 1991 г. эти проблемы приобрели острый конфликтный характер, ибо в новых условиях новые прибрежные государства в силу возникших интересов встали не на путь сотрудничества, а на определение объема своих прав и выгод. Прикаспийские государства погрязли во взаимных претензиях и обидах. Самое драматичное, то что они не смогли сдвинуться в сторону налаживания реальной интеграции сторон, как в отношении самого бассейна Каспия, так и вокруг разрешения проблем вне его, но с участием прибрежных государств [3, 162-163.

Одной из главных проблем в результате появления на берегах Каспия четырех новых субъектов международного права является вопрос делимитации этого озера, т.е. установления на нем государственных границ [12, 10].

После распада СССР и обретения бывшими советскими республиками суверенитета, на Каспийском море, ставшем общим для пяти независимых государств (Азербайджана, Ирана, Казахстана, России и Туркменистана), сложилась критическая ситуация, вызванная отсутствием какой-либо взаимно узаконенной водной границы между странами бывшего Союза. По причине богатейших запасов природных ресурсов на шельфе Каспия и их стратегического значения для стабилизации экономики новых независимых государств вопрос статуса Каспия приобрел первостепенное значение.

Однако, до сих пор никакого приемлемого решения по вопросу границ между Азербайджаном, Ираном, Казахстаном, Россией и Туркменистаном на акватории Каспия принято не было[11, 30-31].

Анализ процессов последних 15-ти лет позволяет сделать вывод о том, что наиболее сложные проблемы постсоветских государств связаны с преобразованием административных границ в межгосударственные. В свою очередь, становление новых государств и межгосударственных границ породили новые геополитические и геоэкономические последствия, масштабы которых, зависят от хода и перспектив регионального сотрудничества на двух- и многосторонней основе.

Итак, постсоветское пространство в регионе Каспия также вплотную столкнулось с проблемами определения границ.

По мнению, Ю.В.Косова «Границы выполняют важные геополитические

функции, т.к. они разделяют зоны действия национальных суверенитетов, служат рубежами передовой обороны государств, выступают в качестве пунктов контроля за миграцией людей и т.д. В этой связи примыкающие к границе территории, так называемые пограничные зоны, имеют не только особый правовой, но и геополитический статус. Здесь сходятся силовые векторы и концентрируются национальные интересы различных государств [9].

Границы, как известно, являются непременным атрибутом государственности, а государственная территория неизбежно предполагает наличие государственной границы. Это обстоятельство в свое время метко заметили Б.М.Клименко и А.А.Порк, отмечая то, что «государственные границы определяют... пределы территориального верховенства государства, то есть полной и исключительной власти государства, обеспеченной всеми средствами принуждения, предусмотренными его законодательством» [13, 211-225].

Установленная в пределах бывшего СССР практика эксплуатации ресурсов Каспия на основе своего секторального деления в равной мере послужила основой последующих соглашений, заключенных между Азербайджанской Республикой и Российской Федерацией в качестве независимых государств и равноправных субъектов международного права. В подтверждение сказанному следует подчеркнуть особую роль российско-азербайджанского Соглашения по сотрудничеству в разведке и освоении месторождений нефти и газа на территории Азербайджана от 29 ноября 1993 г. [30, 178-182].

Данное соглашение констатировало наличие азербайджанского сектора в бассейне Каспия и подтвердило право собственности Азербайджана на месторождения «Азери» и «Чираг».

В период, когда пятисторонние переговоры прикаспийских государств по поводу определения международно-правового статуса завершились один за другим полным «фиаско», нефтяники Азербайджанской Республики и Российской Федерации сумели договориться по поводу транзита нефти из азербайджанского сектора Каспия через территорию Российской Федерации. Была заключена специальная конвенция (18 января 1996 г.). Однако главным в ней было то, что стороны согласовали важную норму (ст. 2), согласно которой оговаривалось право Азербайджана на свою нефть в Каспии и подтверждалось отсутствие претензий со стороны Российской Федерации.

Указанное подтверждает то, что с молчаливого согласия сторон (прикаспийских государств) постсоветская часть Каспийского моря еще до подписания казахстано-российского соглашения была «de facto» поделена, и советские договорно-правовые границы (административные) служили линией разграничения национальных суверенитетов. В данном случае речь идет о российско-азербайджанской делимитации. Возможно, указанное обстоятельство привело к возобновлению российско-азербайджанских двусторонних переговоров по поводу официальной делимитации Каспия между соответствующими секторами. «...Из переговоров, проводимых 27 марта 1998 г. между Российской Федерацией и Азербайджаном, – указывает французский ученый Р.Миз, – вытекает, что два государства соглашаются, чтобы дно и недра Каспийского моря были бы раз-

делены на сектора в соответствии с соглашением между соседними государствами на основе принципа справедливых точек и других общепринятых принципов международного права, принимая во внимание каспийскую практику»[32, 499-502]. При этом, отмечает он далее, «стороны согласились, что каждое прибрежное государство, в результате такого деления, будет обладать в своем секторе исключительными правами в отношении подводных минеральных ресурсов» [32, 490-496].

Несмотря на эти переговоры и даже заключенные договоры, которые косвенно касались проблем разграничения Каспия на секторы, процесс делимитации между Азербайджанской Республикой и Российской Федерацией, который завершился принятием заявления по Каспию от 9 января 2001 г., можно назвать «хождением по мукам». Еще до подписания казахстано-российского соглашения (от 6 июля 1998 г.) весной того же года (27 марта 1998 г.) Российская Федерация и Азербайджанская Республика начали переговоры по поводу возможных вариантов делимитации. Тогда Россия дала понять, что готова на секторальное деление при условии, что делить будут дно Каспия, а водная часть останется общей для всех прикаспийских государств.

В ходе переговоров с первым заместителем министра иностранных дел РФ Б.Н.Пастуховым Президент Г.А.Алиев «выразил свое согласие по вопросу разделения дна Каспия» [7].

28-29 июля 1998 г. состоялся очередной рабочий визит делегации РФ во главе с тем же Б.Н.Пастуховым в Баку, произошел обмен мнениями, велись консультации и переговоры по представляющему взаимный интерес широкому кругу вопросов двустороннего и многостороннего сотрудничества, включая проблему определения международно-правового статуса Каспия и прежде всего делимитации его пространств [8].

Россия и Азербайджан в ходе переговоров проанализировали два варианта: сохранение в общем пользовании водного пространства при разделе дна; раздел и водного пространства, и дна на национальные секторы. Однако и эта встреча завершилась безрезультатно, и поэтому стороны договорились продолжить консультации и переговоры по кругу обсуждаемых вопросов [13, 200-203].

Главный итог бакинской встречи, отмечает А.Дубнов, заключается в том, что «Россия и Азербайджан решили вернуться к поиску решения по статусу Каспия на основе консенсуса... Однако, в литавры бить рано. По главному вопросу: как же делить «озеро-море», определенности по прежнему нет» [4].

Вслед за этим состоялась известная конференция «каспийской пятерки» (16-17 декабря 1998 г. в Москве), которая прошла от начала до конца в неконструктивной форме, сопровождалась постоянными упреками и капризами со стороны Ирана. Несмотря на включение в итоговое коммюнике специального положения о необходимости раздела Каспия, стороны не смогли договориться о принципах делимитации Каспия[1].

В течение всего 1999 г. усилия отдельных прикаспийских стран не привели к взаимопониманию о границах и секторах

на Каспии, не нашли общего языка Россия и Азербайджан. Тему практически закрыли. Однако в 2000 г. диалог возобновился и в результате этого состоялась делимитация Каспийского моря в районе, охватываемом Россией и Азербайджаном. Азербайджанская Республика стала третьей после России и Казахстана, признавшей делимитируемым статус дна Каспия. В отличие от казахстано-российских договоренностей вышеотмеченный документ не решил проблему реализации принципа «общая вода», но этот вопрос остался на повестке дня для последующих этапов переговоров.

Проблемы Каспия – это прежде всего проблемы международной (либо региональной) безопасности.

Для полного, всестороннего и четкого определения международно-правового статуса Каспийского моря необходимо прежде всего решить проблемы международной безопасности в бассейне и регионе Каспийского моря. До тех пор пока прикаспийские государства не смогут договориться о формах, видах, моделях и способах обеспечения международной безопасности, а также международных гарантиях, решить проблемы Каспия практически невозможно. Важно при этом определить геополитические ориентиры прикаспийских государств, характер игр складывающихся во взаимодействиях прибрежных стран, как между собой так и с некаспийскими игроками (акторами).

Таким образом, международно-правовое оформление положения Каспийского моря всецело зависит от уровня взаимозависимости и характера отношений между прибрежными государствами. Поэтому проблема обеспечения международной безопасности Каспия важный (точнее один из четырех) компонент его предполагаемого нового международно-правового статуса.

Статус Каспийского моря станет реальным если удастся перевести стрелку от фактора противостояния к сотрудничеству и дружбе.

В этой связи представляется актуальным и важным исследовать вопросы определения категории международной безопасности, изучение ее основ по отношению морей и озер, в частности Каспийского моря.

Особенно важным является анализ военных аспектов международной безопасности в бассейне Каспия и тем самым определить те правовые основы, которые должны кодифицировать мирные устремления прикаспийских государств. По этому случаю следует заметить, что несколькими положениями в проекте Конвенции по правовому статусу Каспия решить общую проблему не возможно. Требуется отдельный пятисторонний договор, а может быть параллельно еще несколько двусторонних соглашений по вопросам международной (военной) безопасности.

В контексте вышеизложенного следует отметить, что анализ международной безопасности и тенденций ее изменения предполагает наличие определения этой категории, раскрывающего ее сущность. Без этого, как указывает О.О.Хохлышева, исследование взаимосвязей международной безопасности с какими бы то ни было явлениями социальной природы было бы поневоле фрагментарным [23, 590].

При этом сложность определения международной безопасности связана с многозначностью самого понятия «безопасность». Трудности возникают и в связи с тем, что необходимо четко различать пути и средства обеспечения безопасности государств и конечный результат этого процесса [22, 88-90].

В юридической и политической литературе традиционно международная безопасность в целом идентифицировалась с ее военно-политическим аспектом. Международная безопасность, например, часто связывалась и связывается сегодня с созданием системы договорных обязательств между государствами с целью обеспечения мира между ними на основе коллективных усилий. Это, как правило, и имеется в виду, когда речь идет об организации международной безопасности в том или ином регионе[18, 56-59]. Кроме того, в обеспечение международной безопасности вкладывается во многих случаях и более широкий смысл ликвидации очагов военной опасности, предотвращение конфликтов и войн между государствами. Понятно, что эти аспекты международной безопасности отнюдь не противоречат друг другу, но, наоборот, являются взаимодополняющими, представляют собой ее отдельные стороны и грани.

Относительно трактовки права международной безопасности Л.А.Иванащенко констатирует следующее: право международной безопасности в широком смысле совокупность международно-правовых принципов и норм, направленных на поддержание мира и обеспечение безопасности в самых различных областях (военной, политической, экономической, финансовой, гуманитарной, экологической и др.); право международной безопасности в узком смысле подразумевает принципы и нормы, которые связаны с поддержанием международного мира и безопасности в военной и политической областях [6, 12].

По мнению Ю.Е.Федорова, военный аспект международной безопасности крайне важен. Его роль становится особенно актуальной в современных условиях, когда существует реальная угроза гибели человеческой цивилизации в пламени термоядерной войны [24, 138].

Определяющую роль в продвижении национальных интересов в международной системе играет военный фактор, включающий в себя как военно-политические, военно-технические ресурсы, так и в целом потенциал государств[24, 144-145].

В Каспийском регионе важность военного фактора обусловливается неопределенным статусом Каспия. Неурегулированность вопроса о статусе Каспия, указывает К.Мехдиюн, это наличие спорных нефтяных месторождений, противоречивые отношения и интересы между отдельными прикаспийскими государствами и внешними игроками и, наконец, различные военно-политические возможности создают достаточно серьезный конфликтный потенциал в регионе [31, 188-189].

Самым острым вопросом, во многом определяющим взаимоотношения прикаспийских государств и требующим неотложного решения, является вопрос о статусе Каспия.

В данном случае преждевременно говорить о сближении позиций, и поэтому нерешенный вопрос о правовом статусе

Каспия создает почву для разногласий и конфликтов, особенно в отношении спорных месторождений.

Как уже ранее отмечалось, в Каспийском регионе уже складывалась критическая ситуация, когда Иран, недовольный притязаниями Азербайджана на спорные нефтяные месторождения, в конце июля 2001 г. впервые после распада СССР начал демонстрировать военную силу в южной части водоема.

Серьезным, фактором, способствующим возникновению почвы для военного конфликта, является различие военных потенциалов прикаспийских государств [25, 164-170].

Вышеперечисленные и другие аспекты актуализируют создание единой системы обеспечения безопасности в Каспийском регионе для предотвращения возникновения и развития конфликтных ситуаций. В данном контексте стоит отметить, что создание системы безопасности в регионе значительно осложняется разнополярностью внешнеполитических векторов прикаспийских государств и активным влиянием внешних сил на геополитику региона [32, 485-487].

Рассмотрим позиции новых постсоветских прикаспийских государств относительно геополитической и военно-политической ситуации в Каспийском регионе.

Для новых прикаспийских государств в данном случае Азербайджану, Казахстану и Туркменистану ситуация в регионе и бассейне Каспийского моря имеет особенно важное значение.

По мнению, А.Миззи, во-первых, главный интерес состоит в использовании энергоресурсов для решения своих экономических проблем и дальнейшего развития. Во-вторых, он считает, что внутриконтинентальное расположение этих стран и отсутствие прямого выхода к морям создают определенные трудности с транспортировкой нефти на мировой рынок. В связи с этим для указанных трех государств важно диверсифицироавть пути транспортировки энергоресурсов.

Кроме того, А.Миззи предполагает, что прикаспийские страны стоят перед задачей защитить свои национальные интересы и безопасность в условиях обостряющейся геополитической игры на Каспии между прикаспийскими, околокаспийскими и внерегиональными государствами. В этой связи следует отметить, что основная борьба за потоки каспийской нефти сегодня ведется именно вокруг Азербайджана, Казахстана и Туркменистана их секторов Каспийского моря. Доступ иностранного капитала к нефтяным залежам российского каспийского шельфа заметно ограничен. Иранский сектор практически лишен каких-либо крупных месторождений [32, 489].

При рассмотрении военно-стратегических интересов игроков Каспийского региона четко выделяются два соперничающих военно-политических блока: Организация Договора о Коллективной безопасности (ОДКБ) во главе с Россией и Организация Североатлантического договора (НАТО) во главе с США [3, 75-76].

Активная политика двух держав оказывает сильное влияние на интересы и ориентацию прикаспийских государств, временами внося диссонанс в формиро-

вание внешнеполитических интересов.

В данном случае возникает противоречивая ситуация для трех прикаспийских государств, которые являются важной компонентой системы коллективной безопасности ОДКБ и стратегическими военными союзниками России, находятся в сфере интересов США и НАТО, активно пытающихся ввести их в орбиту своего влияния [14, 40-59].

Очевидно, что военное присутствие в регионе двух военных блоков с разными интересами и подходами создает конфликтную атмосферу, и одной из важнейших задач дипломатии прикаспийских государств является разработка конструктивных механизмов сотрудничества НАТО и ОДКБ, налаживание позитивных отношений во избежание трансформации Каспийского региона в полигон противостояния двух блоков [3, 167-170].

Значимость военно-морской деятельности для прикаспийских государств обусловлена следующими основными факторами: значительной протяженностью государственной границы на Каспии; сосредоточением большей части разведанных углеводородных запасов этих стран на его континентальном шельфе; наличием в водах Каспийского моря значительных запасов разнообразных биологических ресурсов; проживанием в прибрежных районах большого количества населения.

Кроме того, эти интересы формируются с учетом сложившихся в мире тенденций в области изучения, освоения и использования озер, основными из которых являются: возрастание роли Каспийского моря в решении различными государствами и военно-политическими блоками важнейших для них задач в политической, военно-стратегической, экономической, социальной, научной, культурной и других сферах; обострение конкуренции между развитыми странами мира за доступ к его ресурсам и стремление к контролю над его стратегически важными районами и зонами; усиление влияния военно-морского потенциала государств, в том числе ядерного, на соотношение сил в мире, сохранение стратегической стабильности, ход и исход войн и вооруженных конфликтов; углубление мировой интеграции и международного разделения труда на мировом рынке морских товаров и услуг.

Собственно военные интересы прикаспийских государств и, прежде всего, Азербайджанской Республики имеют целью обеспечение гарантированной защиты всего спектра интересов в бассейне Каспийского моря [16, 123-127].

Актуальность защиты государственных интересов Азербайджана в Каспийском море возрастает вследствие существенного изменения геополитической ситуации в мире и возникновения новых угроз безопасности в области военно-морской деятельности, основными из которых являются:

– ограничение возможности выхода Азербайджанской Республики к ресурсам и пространствам Мирового океана, международным магистральным морским коммуникациям через Каспийское море;

–активизация военно-морской деятельности ведущих морских держав, имеющих свои интересы в бассейне Каспийского моря, изменение соотношения военно-морских сил в акватории, совершенствование боевых возможностей группировок

военно-морских сил ведущих зарубежных государств; [2, 42-46].

– экономическое, политическое и международно-правовое давление на Азербайджанскую Республику с целью ограничения ее морской деятельности;

– неурегулированность целого ряда сложных международно-правовых вопросов, касающихся, в первую очередь, правового статуса Каспийского моря, наличие территориальных претензий к Азербайджанской Республике со стороны ряда сопредельных государств [15, 76-77].

Заключение в рамках Бакинского саммита по Каспию 18 ноября 2010 года специальной конвенции по безопасности Каспийского моря еще более укрепила российско-азербайджанскую дружбу и сотрудничество тем самым было выведено на новый уровень.

Сотрудничество Российской Федерации и Азербайджанской Республики особенно ярко выразилась в ходе подписания Конвенции по правового статуса в Астане в августе 2018 года [10].

**Ədəbiyyat siyahısı:**

1. Багиров А. Можно ли наконец поделить Каспий? // Российская газета (Москва), 1999, 5 января.
2. Бутаев А.М. Каспий: зачем он Западу? Махачкала: Изд-во ДГУ, 2003, сс. 42-46, 576-579.
3. Дарабади П. Геоистория Каспийского региона и геополитика современности. Баку: Элм, 2002, сс. 149, 158, 162-163.
4. Дубнов А. Гейдар Алиевич "похлопал по плечу" Бориса Николаевича. Нового статуса старому Каспию еще долго не видать. // Время новостей, 1998, 1 августа.
5. Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Междунар. отношения, 2003, с. 52-53.
6. Иванащенко Л.А. Международная безопасность и международный правопорядок в Мировом океане // Международная безопасность и Мировой океан. М.: Наука, 1982, с. 12.
7. Как поделим Каспий. Дно или поверхность? // Гюнай, 1998, 28 марта.
8. Камилоглы Э. Предварительный раунд переговоров по статусу Каспия завершен // Зеркало, 1998, 22 августа.
9. Колосов Ю.В. Безопасность: геополитический аспект. http://www.nationalsecurity.ru/library/00008
10. Конвенция по правовому статусу Каспийского моря. http://kremlin.-ru/supplement/5328
11. Куандыков Б.М. Правовой статус Каспийского моря – основа планомерного освоения минеральных ресурсов региона / Материалы конференции прикаспийских государств 15-16 мая 1995 г. в Алматы. Алматы, 1995, с. 30-31.
12. Магеррамов Ч. Каспий – соперничество или сотрудничество? Определиться ли статус Каспийского моря? // Ежедневные новости, 1999, 3 сентября, с. 10.
13. Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря. Баку, Азернешр, 2006.
14. Мамедов Н. Отношения между Азербайджаном и НАТО: установление, развитие и перспективы // НАТО и региональная безопасность на Кавказе / Международный Фонд Евразия Пресс. Баку: Корпорация «ГАПП – Полиграф», 2003, с. 40-59.
15. Мамедов Р. Каспийский регион как приоритет внешней политики Азербайджан-

ской Республики // Стратегія національної безпеки України в контексті досвіду світової спільноти: Зб. ст. за матер. Міжнар. Конф. К.: Сатсанга, 2001, с. 75-76
16. Мустафаев Р.Ф. Азербайджанская государственность: на пути осознания себя и мира. Баку: Азгосиздат, 1995, с. 123-133.
17. Пузин И.Н., Баланчук М.А. Межгосударственные связи стран НАТО: Военно-экономический аспект. М.: Междунар. отношения, 1979, с. 212-220.
18. Региональная безопасность: геополитические и геоэкономические аспекты (теория и практика): Монография / Под общ. ред. А.В.Возженникова. М.: Изд-во РАГС, 2006, с. 56-59.
19. Робертсон Дж. НАТО и Россия: новый этап отношений // Дипломатический ежегодник, 2002. М.: Научная книга, 2003, с. 186-188
20. Рогов С.М. Россия и США на пороге XXI века: новая повестка дня // Внешняя политика и безопасность современной России, 1991-2002. Хрестоматия в четырех томах. Том III. Исследования. М.: Росспэп, 2002, с. 235-244.
21. Совместное азербайджано-российское заявление по итогам визита делегации Российской Федерации в Азербайджанскую Республику от 29 июля 1998 г.//Архив МИД Азербайджанской Республики.
22. Хасанов У.А. Региональная безопасность и национальные интересы (Центральноазиатский регион). М.: ЗАО Вагриус-плюс, 2004, сс. 83, 89-90.
23. Хохлышева О.О. Право международной безопасности и современная внешняя политика России // Десять лет внешней политики Первого Конвента Российской ассоциации международных исследований / Под ред.А.В.Торкунова. М.: Российская политическая энциклопедия (РОССПЭН), 2003, с. 590.
24. Федоров Ю.Е. Международная безопасность и глобальные проблемы. М.: Наука, 1983, с. 138.
25. Чернявский С.И. Азербайджан: выбор курса. М.: Азер-Медиа; Книга и бизнес, 2003, с. 164-170.
26. Штоль В.В. НАТО: динамика эволюции. М.: Научная книга, 2002, с. 13-20.
27. Соловьев В. НАТО и Россия открывает новую страницу сотрудничества // Независимое обозрение, 2000, № 19.
28. Bahman Aghai Diba. The Law and Politics of the Caspian Sea in the Twenty-First Century. The Positions and Views of Russian, Kazakhstan, Azerbaijan, Turkmenistan, with Special Reference to Iran. Bethesda (Maryland): IBEX Publishers, 2003, p. 31-33.
29. Gulnar Nugman. The legal status of the Caspian Sea // Eurasian Studies. Spring, 1998, №13, p. 80-83.
30. Witt Raczka. A sea or a lake? The Caspian's long odyssey // Central Asia Survey, 2000, Vol. 19 (2), p. 19.
31. Mamedov R.F. The Convention on the legal status of the Caspian sea:Twenty-year road on the way from the idea to its legal implementation. Berlin, 2019.
32. Mehdiyoun Kamyar. Current development; Ownership of Oil and Gaz Resources in the Caspian Sea // American Journal of International Law (AJIL), Vol. 94, January, 2000, pp. 180, 188-189.
33. Mizzi A.P. Caspian Sea Oil, Turmoil and Caviar: Can they provide a basis for an Economic union of the Caspian States? // Colorado Journal of International Environmental Law and Policy, Vol. 7, Summer, 1996, pp. 485-486, 493, 498-502.

# 2020-ci İLİN DÖVLƏT BÜDCƏSİ QARŞIDA DURAN VƏZİFƏLƏRİN REALLAŞMASINA ƏSASLI ZƏMİN YARADIR

**Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda gələn il üçün dövlət büdcəsinin gəlirləri 24 milyard 134,5 milyon manat, xərcləri 26 milyard 894,7 milyon manat məbləğində ifadə olunub. Xatırladım ki, büdcə hazırlanarkən, növbəti ildə 4,6 faizlik inflyasiya proqnozu nəzərə alınıb. Belə halda isə icmal büdcə cari illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz artmaqla 29 milyard 488 milyon manata çatdırılıb.**

Bu, büdcədə fiskal dayanıqlılığın diqqət mərkəzində saxlanılmasının bariz ifadəsidir. Belə bir vəziyyət, eyni zamanda, özünü daha çox ölkə başçısının tapşırığına uyğun olaraq icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin növbəti ildə daha 1 faiz azalaraq 29,1 faizə endiriləcəyində göstərir. Bu, o deməkdir ki, icmal büdcə getdikcə neftdən daha az asılı olur.

Xüsusən də nəzərə almaq lazımdır ki, gələn il sosialyönümlü xərclər 2,6 milyard manat və ya 33,5 faiz çox proqnozlaşdırılıb. Bir tərəfdən neftin qiymətinin hər barrelə görə növbəti ilin büdcəsində 5 dollar və ya 8,3 faiz az götürülməsi, digər tərəfdən isə sosial xərclərin 33,5 faizlik artımı fonunda büdcə qaydalarının pozulmaması fiskal dayanıqlılığın güclənməsi mənasına gəlir.

O da qeyd edilməlidir ki, 2020-ci ildə Dövlət Neft Fondundan büdcəyə transfertin və hasilatın pay bölgüsü üzrə mənfəət vergisinin azalan həcmi qeyri-neft sektoru üzrə kompensasiya ediləcəkdir. Bunu ölkə iqtisadiyyatının mövcud inkişaf səviyyəsi, qeyri-neft sektorunda müşahidə olunan müsbət dinamik göstəricilər deməyə əsas verir. Yeri gəlmişkən, xatırladaq ki, gələn il ÜDM-in real artımının 3 faiz, o cümlədən neft sektoru üzrə 1,6 faiz, qeyri-neft sahəsində isə 3,8 faiz təşkil edəcəyi, həmçinin qeyri-neft sənayesinin 8,8 faiz, kənd təsərrüfatının 4,8 faiz artacağı proqnozlaşdırılıb.

Burada diqqət yetirilməsi vacib bir məqam da odur ki, son illər ölkədə kölgə iqtisadiyyatından leqallaşmaya sürətli keçidin gerçəkləşməsi istiqamətində mühüm tədbirlər görülüb və bu, hazırda da davam etdirilir. Məsələn, vergi inzibatçılığının təkmilləşdirilməsi, həmçinin cari il, eləcə də 2020-ci ildə Vergi Məcəlləsinə edilən dəyişikliklər orta vergi dərəcəsini aşağı salır, vergi yükünü yüngülləşdirir.

Yeri gəlmişkən, gələn il üzrə vergi islahatlarının bəzilərini xatırlatmaq istərdim. Bunlara sabit qəbz almaqla vergi ödəyən fiziki şəxslərin sadələşdirilmiş vergi üzrə

aylıq sabit məbləğinin azaldılması, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrin ƏDV-dən azad edilməsi, dövlət büdcəsindən ödənilən ixrac təşviqinin vergidən azad edilməsi, yeni nəsil nəzarət-kassa aparatına çəkilən xərclərin vergi öhdəlikləri ilə əvəzləşdirilməsi, yeni tikilən binalardan dövlətə ayrılan hissəyə güzəştin verilməsi, sənaye və texnologiyalar parklarının rezidentlərinə verilən vergi güzəştlərinin müddətinin 7 ildən 10 ilədək artırılması daxildir. Bu isə o deməkdir ki, azalan vergi dərəcələri fonunda vergi gəlirləri artır.

Unutmayaq ki, vergi və gömrük sistemlərində səmərəli iqtisadi tədbirlər görülməsi hesabına əlavə gəlirlərin əldə olunması və büdcənin güclənməsi sosial islahatların gerçəkləşdirilməsinə əlverişli şərait yaradır.

Prezident İlham Əliyev əvvəlki çıxışlarında da son vaxtlar həyata keçirilən islahatların nəticəsi kimi, vergi və gömrük orqanlarının büdcə daxilolmalarındakı rolunu yüksək qiymətləndirərək, bu qurumların şəffaf fəaliyyəti, habelə islahatlar hesabına büdcə daxilolmalarının böyük dərəcədə artdığını diqqətə çatdırıb. Dövlət başçısı, həmçinin vurğulayıb ki, daxil olan əlavə gəlirlər, ilk növbədə, sosial məsələlərin həllinə, insanların rifahının yaxşılaşdırılmasına yönəldilir.

Prezident İlham Əliyev Azərbaycanda sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması, şəffaf gömrük-vergi sisteminin formalaşması kimi məsələlərin həllini qarşıya mühüm vəzifə kimi qoyub. Dövlət başçısı qeyd edib ki, 2018-2019-cu illərdə gömrük-vergi sistemində aparılan islahatlar nəticəsində məmur-sahibkar təmasları xeyli azalıb, şəffaflıq və büdcəyə daxilolmalar əhəmiyyətli dərəcədə artıb.

Yuxarıda ölkədə kölgə iqtisadiyyatından leqallaşmaya sürətli keçidin gerçəkləşməsi istiqamətində mühüm tədbirlər görüldüyünü qeyd etdim. Məhz elə bunun nəticəsidir ki, son vaxtlar vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında da əhəmiyyətli artım nəzərə çarpıb. Təkcə cari ilin yanvar-sentyabr aylarında əmək müqavilələrinin sayı 126 min artaraq 1 milyon 528 min 246 təşkil edib. Yeni bağlanılan əmək müqavilələrinin 35 mini dövlət, 91 mini qeyri-dövlət sektoruna aiddir. Beləliklə, ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayında 9 faizdən çox artım qeydə alınıb. Əlbəttə, belə bir göstərici dövlət başçısının müvafiq göstərişi ilə həyata keçirilən vergi güzəşti ilə bağlı islahatın məntiqi nəticəsidir.

Son illərdə vergi sistemi ilə yanaşı, gömrükdə də mühüm islahatlar aparılıb və bu, hazırda davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətin nəticəsi olaraq gömrük orqanlarında islahatların aparılması istiqamətində mühüm işlər görülür. Reallaşdırılan islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq şəraitinin yaxşılaşdırılmasına və biznes mühitinin inkişafına töhfəsini verir. Hazırda gömrük orqanları ilə sahibkarlıq subyektləri arasında səmərəli dialoq qurulur, şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir. Bundan başqa fiziki şəxslərin gömrük-sərhəd keçid tezliyinin, idxal və ixrac olunan mal və nəqliyyat vasitələrinin operativ qeydiyyatının reallaşdırılması,

ölkəyə gələn və ölkədən gedən turistlərin "Yaşıl dəhliz" və digər keçid zolaqlarından istifadə etməklə gömrük qanunvericiliyinə əməl olunması prosesləri diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, cari ilin fevral ayının 1-dən etibarən tətbiq edilən "Yaşıl dəhliz" buraxılış sisteminin idxaldakı payı 23, ixracda isə 27 faizdir.

Onu da xatırladaq ki, 2018-2019-cu illərdə gömrük sistemində gerçəkləşdirilən islahatlar sayəsində məmur-sahibkar təmasları xeyli azalıb, şəffaflıq və büdcəyə daxilolmalar əhəmiyyətli dərəcədə artıb. Bunun sayəsində isə ilin ötən aylarında Dövlət Gömrük Komitəsi illik büdcə daxilolmaları üzrə proqnoz göstəricilərini tam həcmdə yerinə yetirib.

Gələn ilin dövlət büdcəsində dqqətçəkən bir məsələyə də toxunmağı lazım bilirəm. Bu, büdcədə icbari tibbi sığortanın tətbiqinin nəzərə alınması ilə bağlıdır. Belə ki, gələn ildən ölkəmizdə mərhələli şəkildə icbari tibbi sığorta tətbiqi olunacaq və bunun üçün də 2020-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri 1 milyard 369 milyon manata yüksəlib. Başqa sözlə, gələn ilin dövlət büdcəsində icbari tibbi sığortanın tətbiqi ilə bağlı xərclər də nəzərə alınmaqla səhiyyə xərcləri bu illə müqayisədə 326,5 milyon manat və ya 31,3 faiz artırılıb.

Burada diqqətçəkən əsas məqamlardan biri "Tibbi sığorta haqqında" Qanununa təklif edilən dəyişikliklərin Milli Məclis tərəfindən qəbul edilməsidir. Dəyişikliyə əsasən, 2020-ci ilin yanvarın 1-dən mərhələlərə bölünməklə dövlət büdcəsinin vəsaiti hesabına bütün əhali üzrə təqvim ili üçün adambaşına 90 manat icbari tibbi sığorta haqqı ayrılacaq. Qanuna əsasən, bütün əhali sığortaolunan hesab edilir və xidmətlər zərfində nəzərdə tutulmuş tibbi xidmətlərdən yararlanmaqla bərabər hüquqa malik olacaq.

Ümumiyyətlə, icbari tibbi sığortanın tətbiqi ilə bağlı xərclərin əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanacaq və əhaliyə göstərilin tibbi xidmətin keyfiyyətinin artırılması istiqamətində böyük islahat tədbirləri həyata keçiriləcək.

Buradakı digər mühüm məqam isə ondan ibarətdir dünyanın bir çox ölkəsi ilə müqayisədə Azərbaycanda aşağı faizlə icbari tibbi sığorta haqları toplanacaq. Belə ki, 2020-ci il aprelin 1-dən qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən isə aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manatadək olan hissəsindən 1 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı ödəniləcək. Dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2 faiz, 8000 manatdan yuxarı olan hissəsindən 0,5 faiz miqdarında icbari tibbi sığorta haqqı tutulacaq.

Yeri gəlmişkən, bəzi ölkələrdə icbari tibbi sığorta haqqı yalnız işçi və yaxud, işəgötürən tərəfindən ödənilir. Azərbaycanda isə dövlət büdcəsinin icbari tibbi sığorta ilə bağlı yükün böyük bir hissəsini üzərinə götürməsi də büdcənin sosialyönlü olmasının göstəricisidir.

**Vəkil HÜSEYNOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru.**

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BANİSİ

***Azərbaycanın dahi oğlu Heydər Əliyevin xatirəsini anım günü paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, ruhuna Allahdan rəhmət diləyirdilər. Təkcə paytaxtda deyil, respublikamızın bütün bölgələrində, eləcə də dünyanın bir sıra ölkələrində ulu öndərin xatirəsi böyük ehtiramla yad edildi.***

**Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi.**

**İlham Əliyev ,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin məzarı xalqımızın ziyarətgahına, gənclərin and yerinə çevrilib. İlboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtdıran, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsini ehtiramla yad edirlər.

Hər bir xalqın müstəqilliyi zəngin sərvəti, öz milli mənliyinin təsdiqi, dövlətin varlığının mövcudluğu və dünya sivilizasiyasına qoşulması kimi fundamental prinsipləri özündə ehtiva edir. Müstəqillik asan yolla və istənilən tarixi dövrdə qazanılmır. Dövlətin öz müstəqilliyini əldə etməsi tarixi zərurətin meyarları əsasında və xalqın milli dövlətçilik ənənələrini formalaşdırabildiyi ictimai-siyasi zəminin mövcudluğu şəraitində mümkün olur. Həmçinin müstəqilliyin əldə olunması üçün tarixi zəmin və şəraitin yetişməsi ilə bərabər, onun mövcudluğunu təmin edən və möhkəmləndirən bazislər də əsas rol oynayır. Yetişmiş səmərəli və əlverişli tarixi şəraitdən istifadə edərək müstəqillik əldə edən dövlətlərin qarşısında daha yeni tarixi zərurətlər durur ki, onu da realizə etmək hər ölkə üçün asan deyil.

Uzun illər dövlət müstəqilliyini bərpa etmək istəyən respublikamızın bu müqəddəs ideallara qovuşması üçün səylər göstərilsə də, tarixi şəraitin, milli liderin yetişməməsi bunu mümkünsüz edib. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq, onu həyata keçirmək güclü dövlət siyasətinin,

eyni zamanda, milli liderin olmasını tələb edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən başlayaraq, respublikamızda həyata keçirilən genişmiqyaslı proqramları müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı.

Hər hansı ölkənin milli maraqlarına cavab verən iqtisadi siyasət yürütməsi, sosial-iqtisadi inkişaf doktrinasını həyata keçirməsi üçün mütləq şəkildə suverenliyi, müstəqilliyi olmalıdır. Müstəqil ola bilməyən, dövlətçilik ənənələrini formalaşdırmayan ölkənin daxili-xarici iqtisadi strategiyasının reallaşmasından söhbət gedə bilməz. Əks halda, müstəqilliyi formal xarakter daşıyan dövlətin milli maraqlara cavab verən inkişaf xətti, iqtisadi modeli olmayacaq.

Tarixi gerçəklik tam təsdiq edir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyanı iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs yerinə yetirə bilər. Məhz bu tarixi zərurətin məntiqi nəticəsi olaraq, müstəqil və milli iqtisadiyyatın yaradılmasının alt bazası, möhkəm sütunları birbaşa dövlət müstəqilliyinin təmin edilməsi ilə bilavasitə bağlıdır. Eyni zamanda, milli dövlətçiliyin sütunlarını möhkəmləndirmək, siyasi sabitliyin yeni ictimai münasibətlər şəraitində dönməzliyini təmin etmək, ölkədə kompleks islahatlara başlamaq, xarici dövlətlərlə əlaqələr yaradaraq siyasi-hərbi gərginliyi azaltmaq, iqtisadi vəziyyəti normal inkişaf məcrasına yönəltmək üçün qətiyyətli idarəetmə qabiliyyəti olan liderin olması başlıca şərtdir. Belə lider ulu öndər Heydər Əliyev idi. Xalqı düçar olduğu bəladan, müstəqilliyimizi məhv olmaqdan, Azərbaycanı parçalanmaqdan dövlət idarəçiliyndə zəngin təcrübəsi, dünyada böyük nüfuz sahibi olan yalnız ulu öndər Heydər Əliyev xilas edə bilərdi.

Həmin dövrün ictimai-siyasi və sosial-iqtisadi mühiti barədə ulu öndərin müdrik və dahiyanə bir fikrinə diqqət yetirməklə real təsəvvür əldə edə bilərik: “Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan, möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq... Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir”.

Əslində, Azərbaycanda milli dövlətçiliyin əsaslarının yaradılması, müstəqil respublikanın suverenliyi ilə bağlı strukturların formalaşdırılması ulu öndər Heydər Əliyevin başçılığı ilə 90-cı illərin sonlarından başlayaraq Naxçıvan Muxtar Respublikasının timsalında reallaşdırıldı. Ulu öndər Heydər Əliyevin malik olduğu güclü iradə,

uzaqgörən siyasət və digər mühüm keyfiyyətlər Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi və beləliklə, tarixi dialektik qanunauyğunluq gerçəkləşdi – dövlətçiliyin əsaslarını hazırlayan milli liderin dövlətçilik institutunun sükanı arxasına keçməsi öz məntiqi nəticəsi ilə yekunlaşdı.

Ulu öndər Azərbaycanın demokratik islahatlar platformasını, inkişafın mükəmməl və özünütəsdiq vektorlarını yaratdı. Onun dövlətçilik təlimində güclü dövlət anlayışı bütün atributları ilə birgə dövlətin iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapıb. Ulu öndərin müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirməsi, Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim – azərbaycançılıq ideologiyası elmi-siyasi-nəzəri konseptual məzmununa görə əvəzolunmaz məxəzdir. Bu fundamental meyarlar və prinsipial fəaliyyət planı respublikamızın milli dövlətçilik strukturlarının formalaşmasına zəngin baza yaratmış oldu.

Dövlət müstəqilliyinə qovuşmuş gənc respublikanın inkişaf ssenarilərini tərtib etmək, qlobal siyasi gərginliklərin davam etdiyi bir şəraitdə müstəqil inkişaf strategiyasının hərtərəfli, əhatəli konturlarını müəyyənləşdirmək, sosial-siyasi sabitliyin dönməzliyinə dərin təməllər yaratmaq möhkəm iradə sahibinə, uzaqgörən, təmkinli, qətiyyətli və xarizmatik şəxsiyyətə, böyük siyasi təcrübəyə malik dühaya xas ola bilərdi. Təbii ki, bu xarakterik keyfiyyətlər ümummilli lider Heydər Əliyevə məxsus idi və dünya siyasət nəhənginin xalqın bütöv və dönməz təkidi sayəsində hakimiyyətə qayıdışından sonra qeyd etdiyimiz siyasi-hüquqi-iqtisadi zərurətlərin reallaşması mümkün oldu. Ulu öndərin zəngin siyasi idarəetmə məharəti, milli dövlətçilik ənənələrinə dərindən bələd olması, islahatların mahiyyətini bütün təfərrüatları ilə dərk etməsi və həyata keçirmək qüdrətində olması, praqmatik keyfiyyətləri və digər nadir xüsusiyyətləri müstəqil Azərbaycanın əhatəli inkişaf strategiyasının hazırlanmasına əsaslı baza yaratdı. Ümummilli lider ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək, fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın alt sütunlarını təşkil etməklə perspektiv siyasi-iqtisadi proseslərin nəticələri də nəzərə alınmaqla tərtib olunan zəngin konsepsiya idi.

Ulu öndər Heydər Əliyev respublikamızın milli inkişaf strategiyasını müəyyən edərkən, daxili ictimai prosesləri və milli reallıqlarla yanaşı, regional geosiyasi vəziyyəti, xarici meylləri hərtərəfli şəkildə nəzərdən keçirərək müvafiq qərarlar qəbul edirdi. Burada ölkəmizin potensial imkanları, milli mənafeləri, xarici dövlətlərlə qarşılıqlı münasibətləri, iqtisadi əməkdaşlığın yolları, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmışdı.

Həmin dövrün ilk illərində həyata keçirilən islahatlar və əldə olunan nəticələr Azərbaycanın inkişaf konsepsiyasının nə qədər zəngin olduğunu, bu strategiyanın böyük uzaqgörənliklə düşünüldüyünü və ölkəmizin hərtərəfli tərəqqisini təmin etdiyini təsdiqləmiş oldu. Respublikamız qısa müddət ərzində idarəetmə sisteminin yeniləşməsi, struktur islahatlarının aparılması, iqtisadiyyatda funksional mexanizmlərin tətbiq olunması, bazar iqtisadiyyatı ilə bağlı hüquqi-normativ bazanın yaradılması sahəsində ciddi uğurlara imza atdı. İqtisadiyyatda liberallaşmanın təmin olunması üçün ilk addımların atılması, xüsusi mülkiyyətə əsaslanan bazar iqtisadiyyatı tələblərinin bərqərar olması Azərbaycanda maliyyə sabitliyini möhkəmləndirdi. Sistemli xarakter alan islahatların siyasi və iqtisadi inkişafın templərinə uyğun modernləşdirilməsi Azərbaycanın dinamik inkişafı üçün münbit zəmin formalaşdırdı.

Ulu öndər Heydər Əliyev milli inkişafın əsas prinsipləri kimi demokratik dəyərlərə əsaslanan cəmiyyət quruculuğu və buna paralel olaraq liberal və azad iqtisadiyyatın yaradılmasını başlıca məqsədlərdən biri hesab edirdi. Azərbaycan bazar iqtisadiyyatı və demokratiya yolunu prioritet olaraq seçdi. Bu paradiqmanın reallaşdırılması iqtisadiyyatda liberalizmin dərin kök atmasına, sosial bərabərliyin öz yerini tutmasına, demokratik islahatların coğrafi hüdudlarının genişlənməsinə səbəb oldu.

Ümummilli liderin ölkənin siyasi, iqtisadi, sosial, ictimai, mədəni həyatında gördüyü işlərin miqyası müqayisəolunmaz dərəcədədir. Onun Azərbaycanın inkişafı üçün əvəzsiz xidmətləri həm də məzmun etibarı ilə nəzərəçarpacaq dərəcədə təkrarolunmazdır.

Tarixi dialektika və siyasi-ictimai qanunauyğunluq göstərir ki, ulu öndər Heydər Əliyevin mahir dövlətçilik idarəçiliyini, strategiyasını bütün komponentləri ilə əxz etmiş varisi Prezident İlham Əliyevdən başqa biri davam etdirə bilməzdi. Yüksək intellektə, praqmatik və rasional düşüncəyə malik, enerjili və təşəbbüskar bir şəxsiyyət olan Prezident İlham Əliyev Azərbaycanda demokratik islahatların inkişaf etdirilməsi üçün qətiyyətli addımlar ataraq respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoymasına nail oldu. Azərbaycanın müstəqil siyasi kursunu, iqtisadi doktrinasını yeni dövrdə ən mükəmməl şəkildə inkişaf etdirən ictimai xadim, siyasi lider kimi dünya siyasi xəritəsində möhtəşəm yer tutan xarizmatik, rasional düşüncə tərzinə malik şəxsiyyət olan Prezident İlham Əliyevin prinsipial qərarları sayəsində Azərbaycan davamlı iqtisadi inkişafın, uzunmüddətli sabitliyin, dünya dövlətləri içərisində etibarlı tərəfdaşlığın təminatçısına çevrilib.

**Sədaqət VƏLİYEVA,**
**Beşinci çağırış Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri.**

# MÜSTƏQİL AZƏRBAYCAN TARİXİNDƏ DİNAMİK İNKİŞAF EPOXASI

***Dövlət müstəqilliyinin açdığı böyük demokratik imkanlar əsasında Azərbaycan Respublikasının seçdiyi prezident idarəçiliyi sistemi xalqımızı və ölkəmizi böyük və hərtərəfli inkişaf mərhələsinə çatdırmış, çoxəsrlik tariximizdə yeni tarixi epoxanın formalaşması ilə nəticələnmişdir.***

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin möhkəm əsaslarını, etibarlı bünövrəsini yaratdığı prezident üsuli-idarəsi müstəqillik dövrünün ən məqsədyönlü dövlət idarəçiliyi forması kimi artıq ölkəmizin timsalında özünü təsdiq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərməkdə davam edir. Artıq hər kəsə yaxşı bəllidir ki, Prezident İlham Əliyev dünyada XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.

Sözün həqiqi mənasında görkəmli dövlət xadimi kimi ölkəyə rəhbərlik etməyin şərəfini də, məsuliyyətini də özünün gündəlik əməli fəaliyyətində uğurla birləşdirən İlham Əliyev həm də müstəqil Azərbaycan dövlətini istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirir.

Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək dünya standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin siyasətinin əsasında dayanır.

Artıq dördüncü mərhələsi uğurla həyata keçirilən Azərbaycan regionlarının inkişafı üzrə Dövlət Proqramı ölkəmizin inkişafında mühüm hadisəyə çevrilmişdir. Hazırda Azərbaycanın bölgələrində aşkar görünən hərtərəfli intibahın, sürətli canlanmanın, müasir həyatın bərqərar olması ideyasının memarı və müəllifi respublikamızın Prezidenti İlham Əliyevdir. Qısa müddətdə, sözün əsl mənasında, möhtəşəm addımlarla irəliləyən müstəqil Azərbaycan dövlətinin davamlı tərəqqisində İlham Əliyevin prezidentlik fəaliyyətinin xüsusi payı vardır.

Prezident İlham Əliyev bacarıqlı, qurucu dövlət xadimi olmaqla bir sırada, həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan müdrik siyasi xadimdir. Dünya ictimaiyyəti də, Azərbaycan xalqı da çoxdandır ki, Prezident İlham Əliyevi böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq və-

zifələrini məharətlə gerçəkləşdirən siyasi xadim kimi qəbul edir. Dövlət rəhbərinin siyasi fəaliyyətinin əsas xətlərini azərbaycançılıq məfkurəsi, millətlərarası münaqişələrin həlli, yeni neft strategiyası, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, multikulturalizm və tolerantlıq fəlsəfəsi, iqtisadiyyatın şaxələndirilmiş inkişafı, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil edir. Prezident İlham Əliyevin müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında uzaqgörən yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və əsl vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Prezident İlham Əliyevin siyasəti həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilərək mütəmadi olaraq yeniləşir və zənginləşir. Ölkə rəhbərinin qəti siyasi mövqeyi onun cəmiyyəti irəli aparmaq, inkişaf etdirmək yollarındakı güclü iradəsinin real təzahürüdür. İllər ərzində inkişafda olan müstəqil Azərbaycanda əldə olunan möhtəşəm nailiyyətlər və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan düşünülmüş, məqsədyönlü və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısıdır. Ən müxtəlif məqamlarda Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin, necə deyərlər, alt yapısının mahiyyətini incəliklərinə qədər öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi İlham Əliyevin imkanları hamıdan, hətta ulu öndərin ən yaxın məsləkdaşlarından da çox olmuşdur. Həm keçmiş sovet rejimi mərhələsində, həm də müstəqillik dövründə İlham Əliyev həmişə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin yaxın əhatəsində olan bir şəxsiyyət kimi mühüm dövlətçilik məktəbi keçmişdir.

Böyük siyasi xadim ulu öndərin zamanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsil alması, Kreml mühitində cərəyan edən daxili proseslərdən xəbərdar olması, sonralar Azərbaycan Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, Respublika Olimpiya Komitəsinin prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəhayət, Baş nazir kimi məsul vəzifələrdə şərəfli və məsuliyyətli yol keçməsi, mükəmməl həyat təcrübəsi və zəngin siyasi

təcrübə qazanması, Avropa dillərində sərbəst və sərrast danışmaq imkanlarına malik olması əvəzedilməz üstünlüklər və nailiyyətlərdir.

Həyat təsdiqlədi ki, İlham Əliyev ümummilli lider Heydər Əliyevdən sonrakı dövrdə mükəmməl dövlətçilik təlimini bacarıqla və yaradıcılıqla inkişaf etdirməkdə də hamıdan fərqlənir. Əvvəla, o, Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, yaradıcılıqla, ardıcıllıqla müasirlik işığında həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və yaxşı mənada qibtə olunacaq əsl istedada malikdir.

Qazanılmış ümumxalq rəğbəti, seçilmiş və isbat olunmuş siyasi kursun ardıcıllıqla, qətiyyətlə davam etdirilməsi özündən əvvəlki ümummilli lider dövründə qazanılan nailiyyətlərin daha da artırılması və yeni layihələrin meydana çıxması müəyyən olunmuş istiqamətlərin, başlanmış mühüm işlərin, hazırlanmış böyük layihələrin uğurla icra edilməsi deməkdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə dəyişən və inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP hər gün gözəlləşən və müasirləşən Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasi kursunun uğurla, yaradıcılıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir. Zəfərlərlə dolu olan 16 ildə ardıcıl neft-qaz və nəqliyyat-logistika siyasətinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafında mühüm rol oynamışdır. "Əsrin müqaviləsi"nin uğurlu davamı və yeni inkişaf mərhələsi olan "Cənub qaz dəhlizi"nin və Türkiyədə TANAP layihəsinin rəsmi açılışlarının keçirilməsi, bu layihələri Avropa ölkələrinə qədər uzadan TAP layihəsinin uğurla irəliləməsi 16 il ərzində Azərbaycanı dünyanın ən zəngin və əlverişli enerji mərkəzlərindən biri səviyyəsinə çatdırmışdır. İlham Əliyevin neft-qaz imkanlarımızla əlaqədar aşağıdakı fikirləri bu mühüm sektorun müasir inkişafının ölkəmizin həyatındakı yerini və rolunu aydın surətdə təsəvvür etməyə imkan verir: "Cənub qaz dəhlizi"nin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaqdır".

Dünyanın nadir Dəmir İpək Yolu kimi qəbul edilən Bakı-Tbilisi-Qars dəmir yolu nəhəng layihələrindən biri kimi tarixə düşmüşdür. Bu, Azərbaycanı Avropa və Asiya bazarları ilə bağlayan və ölkəmizin inkişafı üçün yeni üfüqlər açan nadir iqtisadi layihədir. Bakı ətrafında analoqu olmayan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması Dəmir İpək Yolu ilə yanaşı, digər beynəlxalq nəqliyyat qovşaqlarının da müasir imkanlarına və perspektiv inkişafına inamla baxmağa əsas verir. Xəzər dənizində ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəmizin müəllifi olduğu "Şərq-Qərb Nəqliyyat Dəhlizi" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin uğurlu və səmərəli fəaliyyətini təmin

edə biləcək əlverişli infrastruktur layihəsi kimi, Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcəkdir. Artıq bugünkü səviyyədə nəqliyyat dəhlizlərində aparılan işlər hələ tam başa çatmamış Azərbaycandan keçən yükdaşımaların həcminin yüz dəfədən çox artması aparılan böyük işlərin sabahına daha nikbin baxmağa əsas verir.

Siyasi dünyagörüşü etibarilə "Azərbaycan naminə" əqidəsi əsasında formalaşmış İlham Əliyev siyasəti ölkəmizə beynəlxalq aləmdə də böyük şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının 2011-ci ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və dünyanın ən böyük və mötəbər təşkilatının ciddi bir qurumuna müəyyən olunmuş müddətdə rəhbərlik etməsi Prezident İlham Əliyevin apardığı xarici siyasətin əhəmiyyətini, təsir imkanlarını, beynəlxalq aləmdə tutduğu yüksək mövqeyini əyani şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Avropa Şurası, Avropa Birliyi məkanında, o cümlədən UNESCO səviyyəsində nümayiş etdirdiyi mövqe ölkəmizin qısa müddətdə böyük Avropa evində normal yer tuta bildiyini göstərdi. Müstəqil Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Kabinetinə böyük bacarıqla sədrlik etməsi, Qoşulmama Hərəkatı kimi mötəbər bir beynəlxalq quruma rəhbərlik etmək səlahiyyəti qazanması Prezident İlham Əliyevin müstəsna dərəcədə yüksək dövlətçilik istedadına malik olmasının real göstəriciləridir.

Müasir Azərbaycanda Çin, Cənubi Koreya, Yaponiya, Sinqapur, Malayziya və digər inkişaf etmiş Asiya ölkələri ilə də əməkdaşlığın sürətləndirilməsi ölkəmizdə Şərq tərəfdaşlığına dair böyük və etibarlı addımların atıldığını göstərir. Nəticə etibarilə Azərbaycan Şərq üçün də, Qərb üçün də cəlbedici və əhəmiyyətli ölkə olmaq statusu qazanmışdır. Azərbaycan Avrasiya məkanının ən əlverişli imkanlara malik dinamik inkişaf edən ölkəsidir.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə yeniləşdirən və daha da zənginləşdirən siyasi xadimdir. Ümummilli liderimiz Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir.

Həqiqətən, İlham Əliyev yeni dünya düzənində müdrik siyasəti və böyük bacarığı ilə Azərbaycana başucalığı gətirən ən müasir tipli qüdrətli liderdir. Müasir Azərbaycanın yeni tarixi mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir.

Prezident İlham Əliyevin məqsədyönlü ordu quruculuğu sayəsində Azərbaycan Ordusu dünyanın ilk əlli ordusu sırasında qərar tutur. Həm ən yüksək hərbi texnika, həm də böyük vətənpərvərlik Azərbaycan Ordusunun müasir simasını müəyyən edir. Azərbaycan Ordusunun 2016-cı ilin aprel ayında Tərtər-Murov istiqamətində, 2018-

ci ilin may ayında isə Naxçıvan ərazisində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar xalqımızın Dağlıq Qarabağ müharibəsində qələbə çalacağına inamını daha da artırmışdır. Tərtər-Murovdağda 2 min 200 hektar, Naxçıvan ərazisində 11 min hektar ərazinin işğaldan azad olunması Azərbaycanın dövlət müstəqilliyinin bütün dövrü ərzində qazandığı ən böyük zəfərdir. İşğaldan azad olunaraq Cəbrayıl rayonunda salınmış Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının Dağlıq Qarabağa qayıdışının start nöqtəsidir. Şərur rayonundakı Günnüt kəndinin düşmən mühasirəsindən çıxarılması və Qızılqaya zirvəsinin fəth edilməsi isə torpaqlarımızın azad edilməsi hərəkatının davamlı bir proses olduğunu göstərir. Prezident İlham Əliyev – qətiyyətli və möhkəm siyasi əqidəyə malik olan qüdrətli Ali Baş Komandandır.

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə də İlham Əliyev kimi geniş formatda, beynəlxalq aləmdə qəbul edilən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksəksəviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı var.

Prezidentin müdrik siyasəti Azərbaycanın dünyada və Qafqazdakı hadisələrin həlli baxımından söz sahibi olan dövlətə çevrilməsi ilə nəticələnmişdir. İndi Azərbaycanın yaxından iştirakı, mövqeyi nəzərə alınmadan Qafqaz regionunda heç bir problemin həllindən danışmaq, yaxud yeni layihələrə başlamaq olmaz.

Müstəqillik dövründə Azərbaycanın kosmos ölkəsinə çevrilməsində elmin böyük rolu var. 2018-ci ildə Azərbaycan Respublikasının üçüncü kosmik peykinin orbitə buraxılması misilsiz elmi-texniki nailiyyətdir. Azərbaycanda müstəqillik dövrünün elmi məktəblərinin yaranması dövrümüzün elmi mühitinin nailiyyətidir. Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişləndirilməsi də yeni eranın reallığıdır. Milli mədəniyyət və ədəbiyyat sahələrindəki yeni inkişaf dalğası müstəqil Azərbaycanın yüksək mədəni səviyyəsini nümayiş etdirir.

Son illərdə Azərbaycanda baş vermiş böyük dəyişikliklər müstəqil Azərbaycan Respublikasının cəmiyyət həyatının bütün sahələri üzrə sürətlə və hərtərəfli şəkildə inkişaf etdiyini parlaq surətdə nümayiş etdirir. Beynəlxalq miqyasda iqtisadi inkişafın əsas göstəriciləri üzrə rentgen funksiyasını yerinə yetirən Davos Forumunun reytinq cədvəllərində Azərbaycan Respublikasının hər il yeni bir rekordla irəliyə doğru hərəkətinin qeydə alınması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha uca zirvələrə doğru irəlilədiyini nümayiş etdirir.

Ulu öndərin idarəçilik təcrübəsindən bəhrələnən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər davamlı və hərtərəfli inkişaf illəridir və dövlət müstəqilliyimizi möhkəmləndirməklə xalqımızı daim yeni zirvələrə doğru aparır.

**Elsevən QULİYEV,**
**"UDT-Texnika" MMC-nin direktoru.**

# MÖVCUD QANUNVERİCİLİK BAZASI ƏN DEMOKRATİK SEÇKİLƏR KEÇİRMƏYƏ TAM İMKAN VERİR

***Azərbaycanın seçkilərdən-seçkilərə əldə etdiyi siyasi, sosial-iqtisadi uğurları ölkəmizə təzyiq göstərmək niyyətində olan daxili və xarici dairələrin ciddi narahatlığına səbəb olur. Həmin qüvvələr tərəfindən respublikamıza qarşı yönələn əsassız ittihamların bir çoxu hər seçki ərəfəsində daha geniş miqyas alır. Bu, indi də belədir. 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilər ərəfəsində xarici dairələr respublikamızdakı əlaltıları vasitəsilə öz çirkin niyyətlərini reallaşdırmağa cəhd göstərirlər. Onlar əvvəllər olduğu kimi, indi də hələ seçkilərə xeyli vaxt qalmış, necə deyərlər, əl-ayağa düşərək, bu prosesin qeyri-demokratik olacağı barədə heç bir fakta əsaslanmadan haray-həşir salırlar.***

Belələrinə xatırlatmaq yerinə düşər ki, Azərbaycanda demokratik, azad, şəffaf və plüralist əsaslarla prezident, parlament, bələdiyyə seçkiləri keçirmək üçün beynəlxalq normalara cavab verən qanunvericilik bazası yaradılıb. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun iştirakı ilə hələ 2000-ci ildə seçki komissiyalarının tərkibi paritet əsaslarla formalaşdırılıb.

Əli Kərimli və tərəfdarlarının Seçki Məcəlləsinin namizədlərin qeydə alınması ilə bağlı tələblərinin guya sərtləşməsi ilə bağlı fikirləri də həqiqətdən uzaqdır. Eyni zamanda, bunun bəhanədən başqa bir şey olmadığını belə bir faktdan da aydın görə bilərik: vaxtilə hər namizəd üçün 2 min imza toplamaq şərti mövcud idi. Hazırda isə qanunun tələbi ilə həmin göstərici cəmi 450 imzaya endirilib. Bundan başqa, Seçki Məcəlləsinin əvvəlki müddəalarına diqqət yetirsək, görərik ki, əvvəllər bir seçici yalnız bir namizəd lehinə imza verə bilərdisə, hazırda bu baxımdan da heç bir məhdudiyyət yoxdur.

Xarici dairələrin əlində alətə çevrilən qüvvələr, həm də iddia edirlər ki, guya siyasi partiyalara seçkiöncəsi bərabər rəqabət şəraiti yaradılmayıb. Bu da həqiqətdən uzaq, ədalətsiz fikirdir. Seçki prosesinin gedişinə yaxşı bələd olanlar bilirlər ki, 60-dan çox dairədə namizədi qeydə alınan siyasi partiyalar, siyasi partiyaların blokları hər bir seçki komissiyasının tərkibinə bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

Seçki Məcəlləsi seçkiqabağı təşviqatın aparılması üçün bütün namizədlər, siyasi partiya və siyasi partiya blokları üçün də bərabər şərtlər təsbit edib. Belə ki, bütün tərəflər üçün müvafiq icra hakimiyyəti orqanı seçki dairəsi ərazisində birbaşa təbliğat-təşviqatın həyata keçirilməsi üçün açıq və qapalı məkanlar ayırır. Eyni zamanda, birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınan siyasi partiyaların və siyasi partiyalar bloklarının seçkiqabağı təşviqatı üçün həftədə üç saatdan az olmayaraq pulsuz efir vaxtı verilir. Habelə dövlət qəzetlərində təşviqat xarakterli pulsuz təbliğat materialı dərc edilə bilər.

Göründüyü kimi, Azərbaycanda yaradılan mövcud qanunvericilik bazası ən demokratik, azad, şəffaf və plüralist əsaslarla istənilən səviyyədə seçkilər keçirməyə imkan verir. Sadəcə, vətəndaş və ya siyasi partiya olaraq, öz hüquqlarını bilmək və bundan maksimum yararlanmaq lazımdır. Fikrimcə, bunu xarici dairələrin respublikamızdakı əlaltıları, xüsusilə AXCP sədri Əli Kərimli də yaxşı bilirlər. Sadəcə onlar elektoratlarının zəif olmasını, bununla da seçkilərdə uduzacaqlarını anladıqları üçün ağa qara deməkdən çəkinmirlər. Başqa sözlə, heç bir sosial dayağı olmayan və xalqın dəstəyini ala bilməyən həmin radikal müxalifət seçkilərdəki uğursuzluğunu əvvəlcədən bilərək boykot kimi sərsəm bəyanatlar səsləndirməklə öz bacarıqsızlıqlarını ört-basdır etməyə çalışırlar.

**Sakit HÜSEYNOV,**
**AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor.**

# MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARININ NÖVBƏTİ MƏRHƏLƏSİ

## *Vahid məhkəmə təcrübəsinin yaradılması mexanizmləri müəyyən edildi*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının və bu sahədə islahatların dərinləşdirilməsinin təməli qoyulmuş, yeni yol xəritəsi müəyyən olunmuşdur. Ölkə Prezidenti islahatların yeni mərhələsinin hədəflərini belə müəyyən etmişdir: müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları daha da genişləndirilməli, məhkəmələrin fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının effektivliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir.**

Ötən dövr ərzində bu məqsədlə artıq bir sıra əhəmiyyətli işlər görülmüşdür. Belə ki, qanunvericiliyə əlavə edilmiş birinci paket dəyişiklik və əlavələr nəticəsində məhkəmə icraatının həyata keçirilməsi qaydaları daha da təkmilləşdirilmiş, sahibkarların hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsi üçün yeni kommersiya məhkəmələri yaradılmış, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə operativ baxılmasının qaydaları müəyyənləşdirilmişdir. Artıq 2020-ci il yanvar ayının 1-dən etibarən həmin normalar ölkəmizdə tətbiq edilməyə başlanılacaqdır.

İslahatların növbəti mərhələsi kimi ölkə Prezidenti 18 dekabr 2019-cu il tarixdə Milli Məclis tərəfindən 29 noyabr 2019-cu il tarixdə qəbul edilmiş qanunları imzalamış, eləcə də bununla bağlı bir sıra sərəncamlar vermişdir. Həmin qanunlar paketi yenə də Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında qəbul edilmişdir.

Məlum olduğu kimi, bu günədək vahid məhkəmə təcrübəsini formalaşdırmağa imkan verən mexanizmlər kifayət qədər təkmil deyildi. Belə ki, Ali Məhkəmənin Plenumu tərəfindən verilən izahlar tövsiyə xarakteri daşıdığından və onun nəzərə alınmamasının heç bir hüquqi nəticəsi olmadığından vahid məhkəmə təcrübəsinin yaradılmasında nəzərdə tutulan nəticəyə nail olmaq mümkün olmurdu. Bundan başqa, işə baxan məhkəmə

tərkibləri arasında hüququn tətbiqində yaranan fikir ayrılıqlarının hansı qaydada həll edilməli olduğunu nizama salan təkmil mexanizm də mövcud deyildi. Ona görə də, bəzi hallarda, məhkəmə tərkibləri tərəfindən oxşar faktiki halları olan mübahisələr üzrə fərqli qərarların qəbul edilməsinə rast gəlinirdi.

Hazırda qəbul edilən qanunlar, ilk növbədə, məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsi formalaşdırmaq vəzifəsinin icra olunması mexanizmlərini təsbit edir.

Bununla bağlı olaraq "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa yeni 79-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə görə, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında əsas məqsəd hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etməkdən, fərqli yanaşma hallarına son qoyulmasından, maddi və prosessual hüquq normalarının birinci instansiya, apelyasiya və kasasiya məhkəmələrində eyni cür tətbiqinə nail olmaqdan ibarətdir. Vahid məhkəmə təcrübəsi isə Ali Məhkəmənin kollegiyalarının, konkret işlər üzrə Plenum qərarlarının, habelə Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsi ilə formalaşdırılır.

Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi ilə əlaqədar mexanizmin yaradılması üçün Mülki-Prosessual, İnzibati Prosessual və Cinayət Prosessual Məcəllələrinə olduqca əhəmiyyətli dəyişiklik və əlavələr edilmiş, bu günə kimi İnzibati Prosessual Məcəllədə nəzərdə tutulmuş qayda bir qədər də təkmilləşdirilməklə bütün kollegiyaların fəaliyyətinə aid edilmişdir.

Buna görə, Ali Məhkəmənin işlərə baxan məhkəmə tərkibi əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqeyindən fərqli qərar qəbul edilməsini zəruri hesab etdikdə bu barədə əsaslandırılmış təqdimatla Ali Məhkəmənin sədrinə müraciət edir və sədr tərəfindən işin baxılması təyin edilir.

Mülki işlər üzrə Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları birgə, inzibati işlər üzrə inzibati kollegiyası və cinayət işləri üzrə isə cinayət kollegiyası mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqelərini qəbul edəcəyi qərardadda təsbit edəcəkdir. Bundan sonra eyni xarakterli məsələlərə baxılarkən Ali Məhkəmənin digər məhkəmə tərkibləri həmin qərardadda müəyyən edilmiş hüquqi mövqeləri rəhbər tutmaqla qərar çıxaracaqlar.

Vahid məhkəmə təcrübəsi ilə əlaqədar qanunvericilikdə edilmiş dəyişikliyin əsas mahiyyəti ondan ibarətdir ki, həmin

təcrübə qüvvədə olduğu müddətdə məhkəmələr üçün məcburi xarakter daşıyır. Yəni, təcrübənin mövcud olduğu zaman kəsiyində məhkəmələrin qəbul etdikləri qərarlar ona uyğun olmalıdır. Belə ki, təcrübəyə əməl olunmaması həmin qərarların ləğvi üçün müstəqil əsas hesab olunur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun 80-cı maddəsinə edilmiş əlavənin məzmunundan isə görünür ki, hüququn inkişafını təmin etmək məqsədi ilə formalaşmış mövcud təcrübənin dəyişdirilməsi, apelyasiya məhkəməsi və ya Ali Məhkəmənin məhkəmə tərkibi tərəfindən göstərilmiş təşəbbüsə əsasən məhkəmə təcrübəsinin yenisi ilə əvəzlənməsi anına kimi mövcud olan təcrübə məcburi xarakter daşıyır.

Nəzərə almaq lazımdır ki, yeni qanunvericilik normaları formalaşmış təcrübənin daimi xarakter daşımadığını, zərurət olarsa, onun dəyişikliyə məruz qalacağının mümkünlüyünü də nəzərdə tutur. Eyni zamanda, qanunvericilik imkan verir ki, mövcud təcrübədən fərqli olan, daha mükəmməl təcrübənin yaradılması barədə apelyasiya məhkəməsi, yaxud da Ali Məhkəmənin məhkəmə tərkibi əsaslandırılmış təşəbbüslə çıxış etsin və son nəticədə ona uyğun məhkəmə təcrübəsi formalaşsın.

Qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərdən sonra Ali Məhkəmənin Plenumunun müxtəlif məsələlərə dair işlər üzrə maddi və prosessual hüquq normalarının tətbiqinə dair verdiyi izahla bağlı qərarlarının hüquqi əhəmiyyəti artacaqdır. Məlum olduğu kimi, bu günədək Ali Məhkəmənin Plenumunun belə qərarları məcburi hüquqi qüvvəyə malik deyildi, tövsiyə xarakterli idi. Yeni dəyişikliklərlə Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlarla bağlı qərarlarının məcburi hüquqi qüvvəyə malik olduğu təsbit edilir. Belə ki, hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması məhkəmə aktlarının kasasiya və əlavə kasasiya qaydasında ləğvinin əsasını təşkil edəcəkdir. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması isə məhkəmə aktlarının ləğv edilməsinə yalnız o halda əsas olacaqdır ki, qətnamə, hökm, qərar və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.

Ali Məhkəmənin Plenumunun izahla bağlı qərarının əhəmiyyətini nəzərə almaqla "Məhkəmələr və hakimlər haqqında" Qanuna, həmçinin belə bir müddəa əlavə edilmişdir ki, Ali Məhkəmənin Plenumu onun sonuncu iclasından ötən dövr ərzində Azərbaycan Respublikası

Cinayət-Prosessual, Mülki-Prosessual və İnzibati-Prosessual məcəllələrində müəyyən edilmiş qaydada müvafiq kollegiyaların bütün hakimlərindən ibarət tərkibdə qəbul etdiyi qərarları (qərardadları) nəzərdən keçirir və Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə mövcud izahına dəyişikliklər edir və ya yeni izah verir.

Qeyd edilməlidir ki, yeni tənzimləmələr Ali Məhkəmənin Plenumunun izahla bağlı qərarlarının hansı hallarda qəbul edilməli olduğunu müəyyən etmişdir. Buna görə, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar müəyyən edildikdə Ali Məhkəmənin Plenumu məsələyə baxır və belə nöqsanlara yol verilməməsi üçün müvafiq izahı nəzərdə tutan qərar qəbul edir.

Qanunda, həmçinin təsbit olunmuşdur ki, Ali Məhkəmə Plenumunun məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlarla bağlı qərarı qəbul edildikdən sonra nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqi təşkil edilir. Monitorinq, ən azı, 1 il müddətində həyata keçirilir. Monitorinqin aparılması qaydasını Ali Məhkəmənin təklifləri əsasında Məhkəmə-Hüquq Şurası müəyyən edir.

Dövlət başçısı imzaladığı sərəncamla, həmçinin Məhkəmə-Hüquq Şurasına tövsiyə etmişdir ki, sözügedən monitorinqin aparılması qaydasını Ali Məhkəmənin təklifləri əsasında iki ay müddətində müəyyən etsin.

Monitorinqin aparılması nöqsanlar aşkar edilmiş sahələr üzrə Ali Məhkəmənin Plenumu tərəfindən qəbul edilmiş qərarların məhkəmə fəaliyyətində nəzərə alınıb-alınmadığını müəyyən etməyə imkan verəcək və beləliklə də, bütün məhkəmə instansiyalarının vahid məhkəmə təcrübəsinə uyğun fəaliyyət göstərməsini təmin edəcəkdir.

Həmçinin qanunvericilikdə edilmiş əlavə və dəyişikliklərlə ekspertiza ilə bağlı fəaliyyət daha səmərəli tənzimlənmiş, ekspertizanın aparılması müddətləri dəqiqləşdirilmiş, bu sahədə proses iştirakçılarının hüquqları genişləndirilmişdir. Bütün bunlar isə məhkəmə-hüquq islahatlarının tərkib hissəsi olmaqla ölkədə qanunların eyni cür tətbiq olunmasını, ekspertiza tədqiqatının aparılmasında süründürməçilik hallarının aradan qaldırılmasını, vətəndaşların pozulmuş hüquqlarının daha tez və ədalətli bərpasını təmin edəcəkdir.

**Xəqani MƏMMƏDOV,**
**Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi.**

# UĞURLARIN ƏSAS ŞƏRTİ XALQ-İQTİDAR BİRLİYİDİR

***Müstəqil Azərbaycan dövləti bu gün dünyada sabit və davamlı inkişaf edən iqtisadiyyata, mühüm geostrateji mövqeyə malik olan, qlobal enerji təhlükəsizliyinin təminatında getdikcə vacib rol oynayan bir dövlət kimi tanınır.***

Cənubi Qafqazın lideri statusunu daşıyan ölkəmiz artıq mövcud olduğu regionda hadisələrin inkişaf istiqamətini müəyyən edən aparıcı rola malikdir və təsadüfi deyil ki, bölgəyə iqtisadi, siyasi maraq göstərən dünya dövlətləri, beynəlxalq təşkilatlar, ilk növbədə, Azərbaycanın mövqeyini nəzərə alırlar. Bütün bunlar dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlu olduğunu, milli maraqların təmin olunmasına yönəldiyini əyani surətdə təsdiqləyir. Bu bir reallıqdır ki, Azərbaycan yeni minilliyə təkcə müstəqil dövlət kimi daxil olmayıb, həm də özünün alternativi olmayan siyasi kursunu, mükəmməl siyasi, sosial-iqtisadi və mədəni inkişaf konsepsiyalarını gətirib. Dövlətçiliyimizin güclənməsi və qüdrətlənməsi, sosial-iqtisadi inkişafın sürətlənməsi, əhalinin rifahının yüksəlməsi, demokratik-hüquqi islahatların dərinləşməsi ilə səciyyələnən bu dövrün bütün uğur və nailiyyətlərinin möhkəm bünövrəsi vardır. Bu bünövrə Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsində möhtəşəm dövlətçilik fəaliyyəti ilə xalqımızın taleyini müəyyənləşdirən ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Hər bir ölkənin uğurlu inkişafı ilk növbədə aparılan siyasətin məqsədyönlülüyündən və hədəflərin düzgün müəyyənləşdirilməsindən asılıdır. Azərbaycanın mənzərəsinə istinadən qətiyyətlə demək mümkündür ki, son 16 ildə ölkəmiz bütünlüklə iqtisadiyyatın şaxələndirilməsinə istiqamətlənib. Ötən illərdə möhkəm daxili sabitliyi ilə fərqlənən Azərbaycanda ölkəyə gələn böyük həcmlərdə neft gəlirləri məqsədyönlü şəkildə milli mənafe baxımından strateji mahiyyət kəsb edən irimiqyaslı infrastruktur layihələrinin, neftdənkənar iqtisadiyyat üzrə yeni proqramların reallaşdırılmasına yönəldilib. Ümumiyyətlə, respublikamız Prezident İlham Əliyevin möhkəm siyasi qətiyyəti sayəsində elə bir uğurlu iqtisadi inkişaf modeli seçib ki, burada neft amili heç də həlledici, dominant rol oynamır.

Ötən müddət ərzində Azərbaycan dövləti uğurlu inkişaf yolu keçib. Ümummilli liderin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Dövlət başçısının rəhbərliyi ilə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən Dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir. Ötən 16 ilin yekunlarının təhlili həm də bu qənaətə gəlməyə əsas verir ki, ulu öndər Heydər

Əliyevin siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilib. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin bu dövrdəki fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur.

Dövlət müstəqilliyinin qorunması və təhlükəsizliyin təminatı milli iqtisadiyyatın şaxələndirilmiş, davamlı inkişafından asılıdır. Ulu öndər Heydər Əliyevin göstərdiyi kimi, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin idarə edilməsində tutduğu istiqaməti də onun öz ifadəsi ilə yada salaq. "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir". Məhz elə həmin yolun nəticəsidir ki, ölkəmiz beynəlxalq aləmdə iqtisadiyyatı yüksək inkişaf edən, rəqabətqabiliyyətli bir dövlət kimi tanınır.

Azərbaycan Prezidenti həyata keçirdiyi çoxşaxəli, ardıcıl islahatlarla sübuta yetirir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Məhz bu islahatların nəticəsi olaraq beynəlxalq aləmdə Azərbaycanın nüfuzu güclənib. Ölkəmiz dünya miqyasında daha yüksək mövqelər əldə edir. Təşəbbüskarı və əsas icraçısı olduğu qlobal layihələrlə, beynəlxalq arenada qazandığı böyük nüfuzla Azərbaycan regionda əsas söz sahibinə çevrilib. Dövlət rəhbərinin ortaya qoyduğu yüksək siyasi iradə, sarsılmaz qətiyyət hesabına Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi enerji-kommunikasiya layihələri xəyaldan reallığa dönüb. Bu layihələrin ardınca Azərbaycanın hazırda uğurla davam etdirilən "Cənub qaz dəhlizi" layihəsi ilə ümumən Avropa regionunun enerji təhlükəsizliyinin əsas təminatçısına çevrilməsi, 1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi"nin müddətinin ötən il 2050-ci ilə qədər uzadılması beynəlxalq aləmdə müstəqil dövlətimizin və xalqımızın layiqli yerini müəyyənləşdirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın daha xoş sabaha olan inamını qat-qat artırıb. Dövlət başçısının uzaqgörən siyasəti, genişmiqyaslı islahatçı fəaliyyəti, o cümlədən müstəsna təşkilatçılığı sayəsində bütün bu istiqamətlərdə qazanılmış nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə dərin inam hisslərini daha da gücləndirib.

Dövlət başçısının həyata keçirdiyi genişmiqyaslı, uzaqgörən strateji tədbirlər nəticəsində ölkədə iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaradılması və stimullaşdırılması, bütün infrastruktur layihələrinin reallaşdırılması, maliyyə bazarının təkmilləşdirilməsi təmin edilmiş, milli iqtisadiyyatın rəqabətqabiliyyəti artmışdır.

Son 16 ildə Azərbaycanın keçdiyi uğurlu inkişaf yolunu göz önündə canlandırsaq, görərik ki, ölkəmizin təcrübəsi identik və heyrətamizdir. Bəhs olunan dövrdə keçilən yola nəzər saldıqda biz Prezident İlham

Əliyevin daim xalqın arzu və istəkləri ilə üst-üstə düşən və reallıqla səsləşən təşəbbüslərlə çıxış etdiyinin şahidi oluruq. Ölkədə aparılan praqmatik siyasət ilk növbədə xəlqi mahiyyəti ilə fərqlənir. Dövlət başçısı mütəmadi qaydada ictimaiyyətin nümayəndələri ilə görüşür, tez-tez bölgələrə səfərlərə gedir. Bu görüşlər və səfərlər isə izsiz ötüşmür. Dövlət başçısı insanları narahat edən məsələlərlə yerindəcə tanış olur, həmçinin əvvəllər verilən tapşırıqların müvafiq qurumlar tərəfindən necə icra edildiyi ilə maraqlanır. Beləliklə, bir tərəfdən nəzarət möhkəmlənir, məmurların məsuliyyəti artır, digər tərəfdən isə dövlət siyasətinin prioritetləri müəyyənləşdirilərkən yerlərdə insanların qaldırdıqları məsələlər mütləq nəzərə alınır. O da səciyyəvi haldır ki, xalqımız ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın siyasi hakimiyyətinə qayıdaraq öz müdrikliyi, uzaqgörənliyi ilə ölkəni xaosdan, anarxiyadan qurtaran, əldən getmək təhlükəsi ilə üz-üzə qalan müstəqilliyimizi xilas edən, onun fundamental əsaslarını yaradan ulu öndər Heydər Əliyevin siyasətinə, parlaq, həmişəyaşar ideyalarına sonsuz inam nümayiş etdirir. Müdrik xalqımızın qənaəti belədir ki, müstəqil respublikamızın işıqlı gələcəyi ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin ardıcıllığının təmin edilməsi ilə bağlıdır. Burada da xalqın istəyi ilə Prezident İlham Əliyevin iradəsi üst-üstə düşür. Ölkəmizin uğurlarını şərtləndirən həm də o amildir ki, Azərbaycanın dövlət başçısı son 16 ildə xalqımızın ümummilli lideri Heydər Əliyev siyasətinə sonsuz sədaqət nümayiş etdirib, onun ideyalarını yeni dövrün çağırışlarına uyğun daha da zənginləşdirib. Prezident İlham Əliyev bir daha qətiyyətlə vurğulayıb ki, ulu öndərin qoyduğu yol yeganə düzgün yoldur: “Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son illər ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur”.

Son 16 ildə ulu öndər Heydər Əliyevin parlaq ideyaları Azərbaycanın mayakı olub və xalqımızın, dövlətimizin yolunu işıqlandırıb. Bəhs olunan dövrdə ümummilli lider Heydər Əliyevin yolu ilə gedən respublikamız böyük uğurlara imza atıb, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayıb. Ötən illər ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən də bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verib: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Bir sözlə, təhlükəsizlik baxımından son keçən illər çox gərgin keçib. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıb. Ölkəmizdə dövlət başçısının qətiyyəti sayəsində daxili risklərin hamısı aradan qaldırılıb, eyni zamanda, Azərbaycan xarici risklərdən də özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacaq. Azərbaycan xalqı bu 16 il ərzində

sabitlik şəraitində yaşayıb. Bu da ölkənin inkişafı üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir", - deyə dövlət başçısı bildirib.

Dövlət idarəçiliyinə müasirlik ruhu gətirmiş cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca qayəsi də elə insanlara layiqli xidmətdir. Onların rifahını yaxşılaşdırmaqdır. O, lider kimi əsl siyasəti konkret işdə görür. Hər bir məsələdə vətəndaş maraqlarını önə çəkir. İnsanların rifahını, cəmiyyətin sabitliyi və inkişafını əsas məqsəd kimi müəyyənləşdirir. Ona görə də bu gün Azərbaycan xalqı cənab İlham Əliyevi ölkə prezidenti kürsüsündə görməkdən çox məmnundur. Çünki ölkənin heç bir vətəndaşı məmləkətin gələcəyindən, övladının sabahından nigaran deyil. Dövlət rəhbərimizin həyata keçirdiyi siyasət Azərbaycan insanı qarşısında aydın, firavan bir gələcək yaradır. Vətəndaşların güzəranı yaxşılaşır. Bir çox sosial problemlər həllini tapır.

Ötən illərin mənzərəsinin bəzi aspektlərinə qısaca nəzər salmaqla xalqın İlham Əliyevə verdiyi növbəti etimad mandatının əsasında hansı səbəblərin dayandığını görmək olar. Bu dövrdə respublikada uğurla həyata keçirilən siyasət, ilk növbədə, Azərbaycanın inkişafı və güclənməsi məqsədlərinə yönəlib. Cənab İlham Əliyev bu illər ərzindəki fəaliyyəti ilə xalqın seçimini doğrultmağa qadir qətiyyətli, peşəkar və milli maraqlara bağlı rəhbər olduğunu nümayiş etdirib. Yüksək siyasi iradəsi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, milli maraqlara sadiqliyi, praqmatizmi, təvazökarlığı və sadəliyi, ən əsası, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olması dövlət başçısının prezident seçkilərində xalq tərəfindən yüksək dəstək almasını birmənalı təmin edib.

Bəli, məhz Prezident İlham Əliyevin rəhbərliyi altında son on altı ildə möhtəşəm inkişaf yolu keçən Azərbaycan öz dövlətçiliyini inkişaf etdirib, siyasi və iqtisadi müstəqilliyini daha da möhkəmləndirib. Cənab İlham Əliyevin prezidentlik dövrü ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. Ümumiləşdirilmiş tərzdə ifadə etsək, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda, qeyri-neft sektorunun Ümumi Daxili Məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, işsizlik,

yoxsulluq problemlərinin tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi, infrastrukturun bütün sferalarda yeniləşdirilməsi məsələləri on altı ildə cənab İlham Əliyevin iqtisadi siyasətinin əsas qayəsini təşkil edib. Demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesi, liberal iqtisadi-siyasi mühitin formalaşdırılması, habelə ölkədə güclü insan kapitalının formalaşdırılmasına xidmət edən milli maarifçilik hərəkatının uğurla həyata keçirilməsi, cəmiyyətdə informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi və s. məsələlər də dövlət başçısının xüsusi diqqət mərkəzində olub.

Müstəqil Azərbaycan Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti ilə kifayət qədər böyük uğurlar qazanıb. Lakin dövlət başçısı bu nailiyyətlərin məqsədə çatmaq üçün kifayət etmədiyini vurğulayaraq gələcəyə inamla baxmağı vacib hesab edir. Növbəti illərdə görüləcək işlər haqqında dövlətin çox aydın planlarının, proqramlarının olduğunu deyən Prezident Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyini əminliklə vurğulayıb: "Azərbaycanın güclü siyasi iradəsi, böyük maliyyə resursları var və ölkəmiz indi öz hesabına yaşayan dövlətdir. Ölkədə xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Bütün bu uğurların ancaq müstəqillik dövründə qazanıldığını diqqətə çatdıran dövlət başçısı müstəqilliyi xalqımızın ən böyük sərvəti adlandırıb: "Azərbaycan xalqı müstəqilliyimizin üstünlüklərinin nədən ibarət olduğunu yaxşı bilir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik".

Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı kadr dəyişiklikləri, məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini məhz vətəndaşların mənafelərinin müdafiəsi, onların problemlərinin həlli istiqamətində qurmaları barədə qəti tapşırıqlar verməsi ictimai fikirdə demokratik inkişafa xidmət edən islahatların uğurla gedəcəyinə böyük inam yaratmışdır. Dövlət başçısı idarəçiliyin təkmilləşdirilməsi prosesini daim diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin yaradılmasını vacib sayır. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər qərarları qəbul edir, gəncləri dövlət idarəetməsinə irəli çəkir. Azərbaycan cəmiyyəti bütövlükdə İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir və bu islahatlardan böyük gözləntiləri var. Vətəndaşlar, eyni zamanda, islahatların tətbiqi sferasının genişlənməsini də arzu edirlər.

İdarəçilik sistemində özünü göstərən cüzi qüsurların belə aradan qaldırılması

üçün ardıcıl kadr və struktur islahatları həyata keçirmiş, xalqa layiqli xidmət məramını vəzifədə irəli çəkdiyi kadrlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırmışdır. “Xalqa doğru – haqqa doğru” prinsipinə əsaslanan bu siyasət vətəndaşların dövlət rəhbərinə olan sevgisini, rəğbətini, inamını daha da artırmışdır.

Dövlətimizin başçısı hər bir vətəndaşın layiqli həyat tərzinin təmin olunmasını, insanları narahat edən problemlərin aradan qaldırılmasını hökumət qarşısında ciddi vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Müstəqil Azərbaycanın son dövrdə əldə etdiyi böyük makroiqtisadi uğurlar, ilk növbədə, sistemli və ardıcıl şəkildə gerçəkləşdirilən islahatların nəticəsidir. Bazar münasibətlərinə söykənən liberal iqtisadi sistemin qurulmasının, vətəndaşların iqtisadi azadlığına, təşəbbüskarlığına geniş meydan verilməsinin, ölkənin zəngin təbii sərvətlərindən səmərəli istifadə edilməsinin, investisiya cəlbediciliyinin yüksəldilməsinin və digər konseptual əhəmiyyətli tədbirlərin nəticəsi olaraq son illərdə Azərbaycan iqtisadiyyatı təkcə sürətli inkişafla deyil, eyni zamanda, yeni keyfiyyət parametrləri ilə özünü təsdiqləmişdir.

“Mən hər bir azərbaycanlının Prezidenti olacağam” – deyən cənab İlham Əliyev öz fəaliyyətində bu vədinə sadiqliyini dəfələrlə əməli işi ilə sübuta yetirmişdir. Xalqın firavanlığına, yüksək sosial rifahına çalışan dövlət rəhbəri ən çətin və qayğılı günlərdə də vətəndaşların yanında olmuş, onlara diqqət və qayğısını, köməyini, mənəvi dəstəyini əsirgəməmişdir. Xalqla birbaşa təmasa üstünlük verərək yerlərdə sıravi vətəndaşlarla görüşmüş, onlarla səmimi söhbətləşərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul etmişdir. Cənab İlham Əliyevin xaraktercə sadə və səmimi, praktik siyasətçi olması onun sıravi vətəndaşlarla təmaslarında bir daha üzə çıxmışdır. Dövlət başçısı bütün müdrik rəhbərlərə xas qabiliyyətlə hər kəslə dil tapmağa, dövlət məmurları ilə sadə vətəndaşlar arasındakı psixoloji səddi aradan götürməyə nail olmuşdur. Bütün bunlar dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırmış, böyük layihələri qısa zamanda gerçəkləşdirmək imkanı yaratmışdır. Ulu öndər Heydər Əliyevin həyata keçməmiş arzularını praktik şəkildə gerçəkləşdirməklə, xalqa rəhbərlik missiyasının öhdəsindən layiqincə gəlmişdir.

Göründüyü kimi, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf yolunu davam etdirir, regionda söz sahibi olan ölkəmizin dünyada da nüfuzu getdikcə güclənir. Ötən 16 ildə əldə edilən uğurlar, başqa sözlə, dövlət başçısının “Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək” strateji xəttinin müsbət nəticələri respublikamızın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, yeni iqtisadi şəraitdə sistemli islahatların reallaşdırılmasını sürətləndirir.

**Etibar ƏLİYEV,**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru.**

# AZƏRBAYCAN BEYNƏLXALQ MULTİKULTURALİZMİN MƏRKƏZİNƏ ÇEVRİLİB

***Tarixən Azərbaycanda bütün dinlərin, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq, mehribanlıq, dostluq şəraitində yaşamış, multikultural dəyərlər və tolerantlıq mühiti yüksək səviyyədə olmuşdur.***

Müstəqil Azərbaycanda multikulturalizm siyasətinin əsası, eləcə də dövlət-din münasibətlərinin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və dövlətçilik ideologiyasına çevrilmişdir. Məhz onun müdrik siyasəti nəticəsində Azərbaycan xalqının tarixi tolerantlıq və multikultural ənənələrini qoruyub saxlamaq mümkün olmuşdur. Müasir dövrdə Azərbaycanın dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilməsi və ölkəmizin beynəlxalq aləmdə daim artan nüfuzu Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıl davam etdirilməsinin məntiqi nəticəsidir.

Multikulturalizm cənab Prezidentin daxili və xarici siyasətinin mühüm istiqaməti hesab olunur. Bu siyasətin uğurla həyata keçirilməsi ölkə daxilində etnik-mədəni müxtəlifliklərin və dəyərlərin qorunmasına səbəb olur, ölkə xaricində isə etnik, dini, irqi və mədəni mənsubiyyətlərindən asılı olmayaraq Azərbaycanın digər dövlətlərlə hərtərəfli əlaqələrinin inkişafı üçün əlverişli şərait yaradır.

Multikulturalizm və tolerantlıq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Bütün dini etiqadlar dövlət tərəfindən tam şəkildə təmin edilir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 18-ci maddəsinin 1-ci bəndində qeyd olunmuşdur ki, bütün dini etiqadlar qanun qarşısında bərabərdir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanununun 5-ci maddəsinə əsasən, bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.

Cənab Prezidentin 14 noyabr 2019-cu ildə Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində söylədiyi kimi, Azərbaycanın qədim dinlərarası ənənələri var. Müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Bunlara nümunə olaraq, islam aləminin ən qədim məscidlərindən biri olan 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidini, Şəkinin yaxınlığında yerləşən Qafqaz Alban kilsəsini, Bakıda yerləşən atəşpərəstlik məbədini - atəşgahı göstərmək olar. Dövlətin maliyyə dəstəyi ilə ölkəmizdə yerləşən bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir.

Azərbaycanın coğrafi baxımdan Şərqlə Qərbin qovşağında yerləşməsi, çoxmillətli və çoxkonfessiyalı ölkə olması, burada milli-mədəni müxtəlifliyin qorunması və etnik-dini dözümlülük mühitinin mövcud olması onu dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Azərbaycan bu gün iki fərqli sivilizasiya – Şərqlə Qərbin arasında körpü rolunu oynayır.

Ölkəmiz bütün dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşkilinə xeyli töhfələr vermiş, bir çox uğurlar qazanmışdır.

Cənab Prezidentin xalqımızın tarixi tolerantlıq və multikultural ənənələrinə verdiyi dəyər onun bu sahədə həyata keçirdiyi islahatlardan və onun şəxsi təşəbbüsü ilə ölkəmizdə keçirilən millətlər, mədəniyyətlər və dinlər arasında olan münasibətlərə həsr edilmiş beynəlxalq səviyyəli tədbirlərdən açıq şəkildə aydın olur.

2008-ci ildə Bakıda Avropa Şurasının mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı keçirilmiş və konfrans çərçivəsində cənab Prezident tərəfindən "Bakı prosesi" təşəbbüsü irəli sürülmüşdür. "Bakı prosesi" – mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür. Cənab Prezident "Bakı prosesi" təşəbbüsü haqqında demişdir: "BMT "Bakı Prosesi"ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasının mədəniyyət nazirlərini dəvət etdik. Bu gün beynəlxalq aləmdə "Bakı Prosesi" çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır".

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) qərarı ilə 2009-cu ildə Bakı islam mədəniyyətinin paytaxtı elan olunmuş, bununla bağlı ölkəmizdə silsilə tədbirlər keçirilmişdir.

2010-cu ilin aprelində Bakı şəhərində "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda Dünya dini liderlərinin I Sammiti keçirilmiş, 2019-cu ilin noyabr ayında Dünya dini liderlərinin II Sammiti təşkil olunmuşdur.

2011-ci ildə Bakıda "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu" təşkil edilmiş, bu forumun hər iki ildənbir keçirilməsi qərara alınmış, daha sonra 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu illərdə ölkəmizdə yenidən yüksək səviyyədə təşkil olunmuşdur. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Qürur hissi ilə deyə bilərik ki, bu möhtəşəm forum müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilmişdir.

2011-2018-ci illərdə ardıcıl olaraq Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunun xüsusi önəmini qeyd etmək lazımdır. Forum – bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan tədbirdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2015-ci ilin sentyabrında Paris şəhərində "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmişdir.

2015-ci ilin noyabrında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş konfransı Bakıda keçirilmiş, "Müsəlman

dünyasında mədəni vasitəçilik rolunun təşviqi üçün fəaliyyət planı layihəsinin geniş xətləri" mövzusu müzakirə olunmuş, mühüm qərarlar qəbul edilmiş, habelə növbəti 3 ildə baş konfransa sədrlik Azərbaycana həvalə olunmuşdur.

Daha bir mötəbər tədbir 2016-cı ilin aprelində Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu olmuşdur. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyəti, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak etmişlər. Bu forumun Azərbaycanda keçirilməsi ölkədə multikultural və tolerant mühitin olmasının göstəricisidir.

15 oktyabr 2019-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci Zirvə Görüşünün Bakı şəhərində təşkil olunması türkdilli ölkələr arasında əməkdaşlığın, dostluğun və münasibətlərin möhkəmləndirilməsi baxımından çox mühüm hadisə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Ölkə rəhbərinin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə Azərbaycanda 2016-cı il "Multikulturalizm ili" elan edilmiş və bundan irəli gələrək ölkə və beynəlxalq səviyyədə görüləcək işlərlə bağlı Tədbirlər Planı təsdiq olunmuşdur.

Ölkəmizdə dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən bu missiya layiqincə yerinə yetirilmiş, ölkə daxilində və xaricdə bir çox mötəbər tədbirlər təşkil olunmuşdur. Ötən bu müddət ərzində Heydər Əliyev Fondu tərəfindən xarici ölkələrdə bir sıra kilsə, məbəd, incəsənət və mədəniyyət evləri bərpa olunmuşdur. Buna misal olaraq, Vatikanda Müqəddəs Sebastian katakombalarının yenidən bərpa olunması və istifadəyə verilməsini də qeyd edə bilərik.

Mehriban xanım Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə 2004-cü ildə UNESKO-nun xoşməramlı səfiri, humanitar sahədə genişmiqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dilaoqun inkişafına, islam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.

Müasir dövrdə cənab Prezident tərəfindən həyata keçirilən və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti tərəfindən qətiyyətlə dəstəklənən multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Ölkəmizin dünyaya təqdim etdiyi multikulturalizm modeli bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir.

**Zeynalabdin MƏMMƏDZADƏ,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsinin magistrantı.**

# KADR İSLAHATLARI – TƏCRÜBƏ VƏ KREATİV İDEYALARIN VƏHDƏTİ

*Prezident İlham Əliyev idarəetmədə, qanunverici sistemlərdə müasir təfəkkürlü, proseslərə fərqli yanaşan gənclər üçün fəaliyyət meydanı yaradır.*

***Başa vurmaqda olduğumuz 2019-cu il Azərbaycanın iqtisadi, ictimai-siyasi həyatında yüksək nailiyyətlərin əldə edildiyi, həmçinin geniş sosial, sistemli struktur, kadr islahatlarının daha dinamik xarakter aldığı il kimi tarixə düşəcək.***

İctimai-siyasi kataklizmlər yolu ilə deyil, təkamül yolu ilə inkişaf edən Azərbaycanda bir çox ölkələr üçün örnək ola biləcək davamlı islahatlar həyata keçirilməkdədir. Prezident İlham Əliyevin ilin əvvəlindən başladığı həm iqtisadi, həm struktur, həm də siyasi islahatları artıq ilkin bəhrəsini verməkdə və ölkəyə dividendlər gətirməkdədir. Bunu tək öz statistikama əsaslanmaqla deyil, nüfuzlu beynəlxalq reytinq təşkilatlarının hesabatlarına əsasən də söyləyirik. Ən azından Davos Ümumdünya İqtisadi Forumu və Dünya Bankının "Doing Business” hesabatlarında Azərbaycanın islahatlara meyillilik, rəhbərliyə olan inam əmsalına görə dünyada birinci onluqda qərarlaşmasını, ən çox islahat aparan ölkə seçilməsini göstərmək yetərlidir.

Göründüyü kimi, cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi, kadr və struktur islahatlar, ilk növbədə, ölkəmizin beynəlxalq imicini yüksəldir. Bu da beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Prezidentinin siyasi fəaliyyətinə, islahatlar kursuna verilən növbəti böyük dəyərdir.

Şamaxıda "ASAN Həyat” Kompleksinin açılışı zamanı bir qrup gənclə görüşdə də Prezident bu mövzuya toxunaraq institusional, sistem xarakterli islahatların davam etdiriləcəyini söylədi. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yenidən formalaşdığına, gənc nəslin nümayəndələrinin vəzifələrə təyin olunduğuna diqqət çəkən ölkə lideri fevral ayında keçiriləcək parlament seçkilərində iştirakla bağlı səsləndirdiyi fikirlərlə gənclərə yeni stimul verdi. Prezident hesab edir ki, artıq zaman yetişib, idarəetmə, qanunverici sistemlərdə yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır.

Cənab İlham Əliyev kadr siyasəti barədə mühafizəkar təfəkkürü aradan qaldırır və gənc nəslə şans verir, onlar üçün fəaliyyət meydanı yaradır. Ən islahatçı Prezident hər zaman güvəndiyi gənclər ordusuna etibar edir.

Ancaq Prezident söylədiyi kimi nəsillər arasında ziddiyyətlərə də yol vermək olmaz. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti ölkəyə ancaq xeyir gətirə bilər. Elə bu səbəbdən də xalqın mütləq əksəriyyəti bu sistemli islahatları yüksək qiymətləndirir və hər kəs islahatların ölkəmizə böyük uğurlar gətirəcəyinə inanır.

Təəssüfləndirici hal odur ki, hər zaman antiazərbaycançı qüvvələrin tapşırığını yerinə yetirən ölkə müxalifəti bu uğurlara da kölgə salmağa çalışır. Yəni müxalifət yenə də öz "ampluasındadır”. Adətən, hər hansısa xarici qeyri-hökumət təşkilatının nümayəndəsinin Azərbaycanın əleyhinə səsləndirdiyi əsassız

fikri əldə "bayraq" tutaraq hakimiyyətin üzərinə "hücum" çəkən aqressiv müxalifət sanki, nəyisə tapır. Dünya Bankının nüfuzlu "Doing Business" komandasının, Davos Forumunun yaydığı hesabatları görə-görə "sapı özümüzdən olan baltalar" həyata keçirilən böyük islahatlara da qara yaxmağa cəhd edirlər. İddia edirlər ki, guya islahatlar imitasiya xarakterlidir və əhalinin xeyrinə deyil, sırf hakimiyyətin öz maraqlarına xidmət edir. Halbuki islahatlar davamlı xarakter daşıyır və inkişafın daha da dərinləşməsinə xidmət edir.

Hər kəs şahidlik edir ki, Prezident məmurlara, kadrlara qarşı tələbkarlığı daha da artırır. Dövlət başçısı yeni vəzifəyə təyin etdiyi icra başçısını qəbul edərək qarşısında ciddi tapşırıqlar qoyur. Tələb edir ki, ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara uyğunlaşdırılmalıdır. Bunun üçün innovativ yanaşmalara, müxtəlif "start-up"lara daha çox ehtiyac duyulur. Şəhər və rayonlarda, ilk növbədə, iqtisadi inkişafa nail olunmalı, məşğulluq problemləri həllini tapmalıdır. Vətəndaşlarla məmurların təmas platforması genişləndirilməlidir.

Yəni, bir sözlə, "xalqın gözü tərəzidir" prinsipi qarşıdakı dövrdə məmurların fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri elan olunur. Dövlət başçısı bu proseslərin reallaşmaması fonunda cəza tədbirlərini də açıq şəkildə elan edir.

Bəs, görəsən, bütün bunlar xalqın sosial rifahının yaxşılaşdırılması üçün deyil, ancaq hakimiyyətin maraqlarına xidmət edən tapşırıqlardır?!

İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İslahat icmalı"nda da göstərilir ki, cənab İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq qanunverici, icraedici və məhkəmə hakimiyyətinin, habelə yerli özünüidarəetmə, maliyyə xidmətləri üzrə tənzimləmə və nəzarət sisteminin islahatları dövlət idarəetməsinin səmərəliliyini artırmaqla, ilk növbədə, vətəndaşların, iş adamlarının maraqlarına xidmət edir. Dövlət idarəetmə islahatları isə Prezidentin strateji idarəetmə siyasətinə uyğun aparılır.

Ümumiyyətlə, idadəetmə islahatlarının məqsədi dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş məmnunluğunun artırılması, dövlət və bazar tənzimləmələri arasında optimal nisbətin qurulması və Azərbaycanın yerli, regional, eləcə də qlobal çağırışlara daha yaxşı cavab verməsidir.

Bir daha bəlli olur ki, Azərbaycanın istənilən uğuruna sevinməyən, bəzi ünsürlər həyata heçirilən müsbət dəyişiklikləri görməzdən gəlirlər. Belə qənaət yaranır ki, bu dövlətin, xalqın xeyrinə nə varsa, onların ziyanınadır. Ona görə də xalq tarixin bütün dövrlərində onların fəaliyyətinə layiq olduqları qiyməti verib.

Bir sözlə, antiazərbaycançı şəbəkənin buyruq qullarının mənasız, boş-boş iddiaları hər zamankı kimi iflasa məhkumdur və bütün ölkə ictimaiyyəti görür ki, islahatlar Azərbaycanın dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur və kompleks xarakter daşıyır. Kadr islahatlarının həyata keçirilməsi əlbəttə ki, idarəetmənin təkmilləşdirilməsi məqsədinə xidmət edir.

**Rəşad BAXŞƏLİYEV.**

# İSLAHATLAR ƏHALİNİN SOSİAL RİFAHININ YÜKSƏLMƏSİNİ SÜRƏTLƏNDİRİR

***Son illər ölkədə genişmiqyaslı islahatlar həyata keçirilir. Həmin islahatlar həm iqtisadi, həm də sosial sahəni əhatə edir. Əhalinin sosial müdafiəsi aparılan islahatlarda xüsusi yer tutur. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, islahatların əsas məqsədi Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılmasıdır.***

Bu məqsədlə dövlət başçısı tərəfindən qəbul edilən qərarlara əsasən, əhalinin sosial müdafiəsi gücləndirilib, sosial ödənişlər, o cümlədən əməkhaqqı, pensiya və müavinətlər əhəmiyyətli dərəcədə artıb. Şəhid ailələrinə və müharibə əlillərinə ötən il nəzərdə tutulduğundan üç dəfə çox, yəni 626 mənzil təqdim edilib, cari ildə bundan da 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilməsi planlaşdırılıb. Bununla yanaşı, imtiyazlı vətəndaşların mənzil və avtomobillə təminatı da daxil olmaqla bir sıra mühüm sosial proqramların icrası genişləndirilir.

Prezident İlham Əliyevin 2 dekabr 2019-cu il tarixli "Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamı da sosial müdafiə cəhətdən həssas kateqoriyaya olan qayğının bir nümunəsidir. Həmin sərəncamda deyilir: "Əhalinin sosial müdafiəyə xüsusi ehtiyac duyan təbəqələrinin rifahının yüksəldilməsi, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində son illərdə mühüm addımlar atılmış, bu qəbildən olan insanların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, ödənişsiz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunması uğurla həyata keçirilmişdir. Xüsusən bu dövrdə bərpa-müalicə şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi təmin olunmuş, sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiya işinin gücləndirilməsi məqsədilə uşaq-bərpa mərkəzləri yaradılmışdır". Həmin sərəncamla bu istiqamətdə görülən işlərin davam etdirilməsi, müxtəlif sosial xidmətlərin göstərilməsinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20 019 100 (iyirmi milyon on doqquz min yüz) manat vəsait ayrılmışdır. Həmin vəsait sözsüz ki, daha çox müasir tipli sosial-bərpa mərkəzlərinin tikilməsinə xidmət göstərəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bu vaxtadək dövlət başçısının diqqət və qayğısı sayəsində görülən işləri qeyd edərək deyib: "Digər tərəfdən, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri üzrə əhaliyə xidmətlərin keyfiyyətinin müasir əsaslar üzərində yüksəldilməsi təmin olunur. Xüsusilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi bu vacib məqsədə nail olunmasına imkan verib. Bakıda və növbəti ildən etibarən regionlarda DOST mərkəzləri şəbəkəsi genişləndiriləcək.

Prioritet fəaliyyət istiqaməti kimi reabilitasiya və sosial xidmət infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi işlərinin davam etdirilməsidir. Ötən ay Yevlax

və Naftalan şəhərlərində əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzləri, Mərdəkan Müalicə Pansionatı əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz edilməklə istifadəyə verilib. Bu ilin sonuna qədər daha bir sıra sosial obyektlər həssas qruplardan olan vətəndaşların istifadəsinə veriləcək, gələn il də bu istiqamətdə görülən işlər davam edəcək".

Cari ilin 10 ayı ərzində nazirliyin bərpa mərkəzləri tərəfindən 7241 nəfər əlilliyi olan şəxsə stasionar, 1867 nəfər əlilliyi olan şəxslərə isə ambulator qaydada reabilitasiya xidmətləri göstərilib. Yeni reabilitasiya mərkəzləri istifadəyə verildikcə bu kateqoriyadan olan insanlara daha çox və keyfiyyətli xidmət göstəriləcək.

Son dövrlərdə sosial xidmətlərin əhatə dairəsi xeyli genişlənib. Bununla yanaşı, göstərilən xidmətlərə, sosial xidmətçilərin fəaliyyətinə nəzarət sistemi də gücləndirilib. Məqsəd bu sahədə mövcud nöqsanları aradan qaldırmaqla vətəndaşlara yüksək səviyyədə xidmət göstərməkdir. Bununla yanaşı, ümumilikdə sosial xidmətlərin keyfiyyətinin artırılması, eyni zamanda bu sahədə fəaliyyət mexanizmini yenidən qurmaqla təkmilləşdirilməsinə ehtiyac var. Bu məqsədlə nazirlik bir sıra tədbirlərin həyata keçirilməsini planlaşdırır. Xüsusilə Peşə Reabilitasiyası Mərkəzinin imkanlarından daha geniş istifadə edilməlidir. Həmçinin nazirlik tərəfindən sosial obyektlərin tikintisi və təmirinə, sosial xidmətlərin təşkilinə, əlilliyi olan şəxslərin tibbi və sosial reabilitasiyası sahələrində aparılan işlərə xüsusi diqqət yetirilir.

Nazirlik ümumilikdə sosial yardımın aztəminatlı ailələrə daha əlçatan olmasının təmin edilməsi işlərini aparır və proqramın əhatə dairəsini genişləndirməyə səy göstərir. Eyni zamanda təyinatının şəffaflaşdırılması və ünvanlılığının təmin edilməsinə diqqət yetirilir. Səbəb bu sahədə əvvəllər mövcud nöqsanları aradan qaldırmaqdır.

Aparılan araşdırma və təhlillər nəticəsində məlum olub ki, 1800 nəfər saxta yollarla ünvanlı dövlət sosial yardımı alıb. Həmin şəxslərə yönələn yardımlar dərhal dayandırılıb. Bununla yanaşı, daha minədək şəxsin də saxta şəkildə sosial yardım aldığına dair şübhələr var. Faktlar təsdiq olunarsa, onlarla bağlı da eyni tədbirlər görüləcək. Saxta yollarla sosial yardım almağa şərait yaradan, bunun üçün bilərəkdən qısa müddətli əmək müqavilələri bağlayan, yaxud əmək müqavilələrində əməkhaqlarını reallıqda olduğundan az göstərməklə işçilərinin böyük qisminin sosial yardıma çıxışına süni imkan yaradanlarla bağlı hüquq mühafizə orqanlarına müraciət olunacaq.

Lakin ünvanlı sosial yardım almağa haqqı olan vətəndaşlar bu imkanlardan istifadə edir. Hazırda təqribən 70 min ailəyə ünvanlı sosial yardım ödənilir ki, bu da 280 min insanı əhatə edir. Onlara ödənilən məbləğin ailə başına düşən orta rəqəmi 200 manat civarındadır. Qeyd edək ki, bu, kifayət qədər ciddi rəqəmdir. Təkcə il ərzində bu qrupdan olan vətəndaşlara ödəniləcək ünvanlı yardımın məbləği 170 milyon manatdır.

**Rüstəm KAMAL.**

# SAHİBKARLIQ STRATEGİYASININ BANİSİ

***Ümummilli Lider Heydər Əliyev bu gün bizimlə olmasa da, zaman bizi o ağır gündən sürətlə uzaqlaşdırsa da, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri yaddaşlara dərindən hopmuş, hər bir azərbaycanlının qəlbində silinməz iz qoyaraq tariximizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Onun həyat yolunun möhtəşəm salnaməsini vərəqləyərkən göz önündə Azərbaycan tarixinin çətin və şərəfli bir dövrünün dolğun mənzərəsi canlanır. Xalqımızın yetişdirdiyi bu dahi şəxsiyyətin bütün fəaliyyətinin Azərbaycanın inkişaf yolu ilə sıx vəhdət təşkil etdiyini bir daha aydın şəkildə görürük.***

**"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".**

**Heydər ƏLİYEV**

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın bütün sahələrində tamamilə yeni dövr başladı, böyük intibahın təməli qoyuldu. Ulu Öndərin təşəbbüskarlığı, əzmkar fəaliyyəti tezliklə Azərbaycanı keçmiş ittifaqın inkişaf etmiş respublikaları sırasına çıxartdı. Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək əslində gələcəyin təməlini qoydu.

1993-cü ildə ölkəmiz çətin sınaqlarla üz-üzə qalanda da xalq yeganə xilaskar kimi Heydər Əliyevi rəhbərlikdə görmək istədi. 26 il əvvəl, iyun ayında Naxçıvandan Bakıya gələn Heydər Əliyev öz zəkası, müdrikliyi və qətiyyəti ilə respublikamızı məhvolmadan xilas etdi, müstəqilliyimizi qorudu və müasir Azərbaycan dövlətinin müəllifinə çevrildi.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

On illik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Heydər Əliyev hakimiyyətə praqmatik və balanslaşdırılmış xarici siyasət kursu ilə gəlmişdi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

Heydər Əliyevin müəyyənləşdirdiyi yeni neft strategiyası nəticəsində Azərbaycanın karbohidrogen ehtiyatlarının dünyanın ən qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri”, "Çıraq” yataqlarının və "Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında müqavilə imzalandı. "Əsrin müqaviləsi” bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur” deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin – iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını, intellektual resurslarını insan kapitalının

gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosial-yönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla, sahibkarlığın inkişafına güclü təkan verir.

Ölkə iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, habelə cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Elmi-texniki inqilabın məhsulu olan müasir informasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, insanlar arasında olan mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən də yüksək qiymətləndirilir.

Yaxın günlərdə Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri zamanı Heydər Əliyev Fondu tərəfindən bərpa olunmuş Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yerləşən "Azərbaycan" pavilyonunun onun iştirakı ilə açılışı ölkəmiz üçün tarixi əhəmiyyətə malikdir.

23 noyabr 2019-cu il tarixində Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş X Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfede-

rasiyasının nümayəndələri də iştirak etmişlər.

Forum çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyası ilə "Opora Rosii" Ümumrusiya Kiçik və Orta Sahibkarlıq İctimai Təşkilatı arasında əməkdaşlığa dair memorandum imzalanıb. Həmçinin Rusiyanın tanınmış mətbuat kommunikasiya qurumu olan "Biznes-Dialoq Media" ilə əməkdaşlıq sazişi də rəsmiləşdirilib.

Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərdə konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr fəal iştirak ediblər.

Tədbir zamanı "Delovaya Rosiya" Ümumrusiya İctimai Birliyi ilə görüş keçirilib və qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunub, eyni zamanda Rusiya Federasiyasının Omsk vilayətindən Azərbaycana biznes-missiyanın səfəri barədə razılıq əldə edilibdir.

Konfederasiya üzvləri inanırlar ki, "Azərbaycan" pavilyonunun açılışı çərçivəsində Moskvada keçirilmiş X Azərbaycan-Rusiya Regionlararası Forumu Azərbaycan sahibkarlarına münbit şərait yaratmaqla hər iki ölkənin iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Prezident İlham Əliyev öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

2019-cu il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə ölkə Prezidentinin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur. Ölkə Prezidenti iclasda bildirdi ki, "Bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır".

Prezident İlham Əliyevin uğurlu il kimi qiymətləndirdiyi 2019-cu ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilir.

Bu ilin on ayı ərzində ümumi daxili məhsulun 3 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 15,0 faiz artması dövlətin apardığı mütərəqqi iqtisadi-siyasətin bariz nümunəsidir.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm addımlardır.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Görülən işlərə əsasən deyə bilərik ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından əvvəlki illərdən fərqlənən il olacaq. Prezidentin söylədiyi kimi, Azərbaycan bu il də inkişaf yolu ilə gedir.

Aparılmış islahatların nəticələri beynəlxalq hesabatlarda da öz əksini tapmışdır, "Doing Business 2020" hesabatında Azərbaycan ümumilikdə 190 ölkə arasında 34-cü mövqedə qərarlaşıb. Belə ki, Azərbaycan kreditlərin alınması üzrə 1-ci, biznesə başlama üzrə 9-cu, müqavilələrin icrası üzrə 28-ci, vergilərin ödənilməsi üzrə 40-cı, əmlakın qeydiyyatı üzrə 44-cü, müflisləşmənin həlli indikatoru üzrə 47-ci, tikinti üçün icazələrin alınması üzrə 59-cudur. Göründüyü kimi, Azərbaycanın "Doing Business 2020" hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində "Daşınar əmlakın yüklülüyü haqqında" qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklərlə uyğunlaşdırmaların aparılması daha çox səmərə verib.

Bu hesabata görə, Azərbaycan ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasındadır. Üstəlik, Azərbaycandan başqa ilk 25-likdə olan heç bir ölkə top-20 siyahısına daxil edilməyib. Çünki etalona yaxınlaşdıqca ən çox islahat aparan ölkə statusunu qorumaq da çətinləşir.

Aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla qeyri-neft sektoruna sərmayə qoyuluşunu asanlaşdırır. Azərbaycan 270 milyard dollardan çox sərmayə cəlb etməklə hər nəfərə düşən sərmayə həcminə görə regionun lider ölkəsidir. Bu ilin ilk 9 ayında da qeyri-neft sektorunda əsas kapitala yönəldilən vəsaitlər 8,9 faiz artaraq 6,3 milyard manatı üstələyib. Sərmayə cəlbinin artması isə həm yeni iş yerlərinin yaradılması, həm də əhalinin sosial rifah halının yaxşılaşdırılması deməkdir.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə çoxalması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Bu tədbirlərdən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. Belə ki, fondun fəaliyyəti dövründə 36 min sahibkara 2,2 milyard manat güzəştli şərtlərlə kreditlər verilmişdir ki, bundan istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minədək yeni iş yerinin açılmasına imkan yaradılmışdır. 2019-cu ilin əvvəlindən bugünədək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 450 milyon manat olan 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən

857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 3800-dək yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye istehsalı və digər sahələrin, 66 faizi regionların, 34 faizi isə Bakı qəsəbələrinin payına düşür.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə edilən uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini quraraq, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi, kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir. Bu gün hər bir sahibkar dərk edir ki, qüd-

rətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, İlham Əliyev xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıracaq. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərllik etdiyi 16 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzindədir və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Azərbaycanın tərəqqisi üçün geniş imkanlar açan, həm də bölgəmizin və ümumən Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan "Əsrin müqaviləsi" sazişinin müddətinin 2050-ci ilə uzadılmasına nail olan cənab Prezident İlham Əliyev möhtəşəm bir tarix yazdı.

Bütün yuxarıda göstərilənləri təhlil edərək belə bir məntiqi nəticəyə gəlmək olar ki, Heydər Əliyev yolu – müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir. Ulu Öndərin formalaşdırdığı milli dövlətçilik ənənələri qorunur. Onun müdrik ideyaları ölkəmizin gələcəyə yönəlmiş strateji hədəflərini müəyyən edir. Ulu Öndərin Azərbaycanın gələcəyi ilə bağlı böyük ideallarının həyata keçirilməsi indi İlham Əliyevin missiyasıdır. Dövlət rəhbəri öz tarixi missiyasını əzmlə həyata keçirir. Dövlət başçımızın, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında Azərbaycan bəşəriyyətə sevgini, şəfqəti, xeyirxahlığı, maarifi, mədəniyyətlərarası dialoqu, sülh və tolerantlığı aşılayır, ölkələr və cəmiyyətlər arasında mənəvi körpüyə çevrilir.

Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir, bunun təzahürünü daha aydın və dərindən dərk edir. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi

nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, əsrlər boyu bu mövzuya müraciət olunacaq və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu Öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycan torpağının adını bütün dünyada uca zirvələrə qaldırmış və özünün şəxsiyyət bütövlüyü ilə doğma vətəni Azərbaycanı bütövləşdirmiş və hər yerdə onu layiqincə təmsil etmişdir.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gercəkliyə cevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub, əsrlər boyu qalacaq və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Ulu Öndərin xatirəsinə ən böyük abidə də elə çiçəklənən, güclənən, qüdrətlənən müstəqil Azərbaycandır!

Unudulmaz liderimiz Heydər Əliyevin qoyduğu zəngin irs, ölməz ideyalar bu gün də yaşayır və bizi inamla gələcəyə aparır. Ulu Öndərin özünün də dediyi kimi, nə qədər ki, Azərbaycan var, o da olacaqdır. Əminliklə demək olar ki, hazırda Azərbaycanın taleyi etibarlı əllərdədir. Ölkəmiz Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf tariximizin yeni salnaməsi yaranır.

Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız və Sahibkarlar Konfederasiyası Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində səlahiyyətləri daxilində əlindən gələni əsirgəməyəcək.

**Məmməd MUSAYEV,**
**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti.**

# VƏTƏNDAŞ CƏMİYYƏTİ VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞUNDA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ ROLU

***Azərbaycanın dövlət müstəqilliyinin bərpasından bugünümüzə qədər keçən illər ərzində ölkəmizin böyük inkişaf yolu keçməsi dünya miqyasında qəbul olunan reallıqdır. 28 ildə qüdrətli ölkəyə çevrilən, dünyada öz mövqeyini cəsarətlə bildirən, hüquqi dövlət quran Azərbaycan hər bir vətəndaşın qarantına çevrilmişdir.***

Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol bir daha göstərir ki, vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. İnsan və vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət formalaşdırmaq mümkündür. Cəmiyyətdə hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərir. Azərbaycan da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçdiyindən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin edir. Respublikamızın inkişaf tarixinə bir daha nəzər salsaq görərik ki, XX əsrin 70-ci illərindən ölkədə yüksələn sürətlə inkişaf edən sosial, iqtisadi, təhsil və mədəni quruculuq işləri başlamışdı. Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən qısa bir dövrdə vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilmişdir. Mühüm sənədlər qəbul edilmiş, öhdəliklərə imza atılmışdır. Əgər biz tarixi zaman ardıcıllığını özündə daşıyan sistemli inkişafın insan hüquqlarının əhatəli formada təmin olunmasına xidmət etməsini nəzərə alsaq, onda belə qənaətə gələ bilərik ki, müstəqil ölkəmizdə insan hüquqlarının inkişaf tarixi iki mərhələni – 1993-2003 və 2003-cü ildən sonrakı dövrləri əhatə edir. Bu iki mərhələni eyni məzmun və istiqamətdə məhz insan hüquqları üzrə normativ-hüquqi bazanın yaradılması tamamlamışdır.

Müasir dövrün ən çox işlədilən sözlərindən biri də "vətəndaş cəmiyyəti” ifadəsidir. Bu ifadənin hər hansı ölkə daxilində işlədilməsinin səviyyəsi dövlət hakimiyyətinin formasını müəyyən etmək üçün təsəvvürlər sistemi yaradır. Vətəndaş cəmiyyəti quruculuğundan söhbət gedirsə, demək demokratik dəyərlərin mövcudluğundan danışılır. İnkişaf nəticəsində əldə edilmiş, müəyyən meyarlara cavab verən cəmiyyət anlaşılır ki, bu da tərəqqidə daha yüksək pillədir.

Vətəndaş cəmiyyəti açıq, demokratik, antitotalitar, müstəqil inkşaf edən cə-

miyyətdir ki, burada əsas yeri insan, vətəndaş, şəxsiyyət tutur. Vətəndaş cəmiyyəti insanların siyasi yox, başlıca olaraq iqtisadi və şəxsi həyat fəaliyyəti sferasıdır. Burada avtoritar hakimiyyətə, totalitarizmə, insanlara qarşı zorakılığa yer yoxdur. Humanizm prinsiplərinə, qanunlara və əxlaqa hörmət edilir.

İnsan hüquqları ideyası öz kökü etibarilə qədimlərə, antik dövrlərə gedib çıxsa da, bu ideyanın müasir fəlsəfi-siyasi əsasları XVII-XVIII əsrlərdə böyük maarifçilik dövründə formalaşmışdır. XVIII-XIX əsrlərdən başlayaraq "vətəndaş cəmiyyəti” anlayışı insanların digər birlik formalarından ayrıca öyrənilməyə başlanıb. Məlum olduğu kimi, bu cəmiyyətin gerçəkləşməsi üç tarixi mərhələdən keçib: XVI-XVII əsrləri əhatə edən birinci mərhələdə vətəndaş cəmiyyətinin siyasi, iqtisadi və ideoloji zəmini formalaşıb. XVIII-XIX əsrləri əhatə edən ikinci mərhələdə vətəndaş cəmiyyəti xüsusi mülkiyyətə, azadlıq və liberal demokratiyaya əsaslanan ictimai münasibətlər şəraitində inkişaf edib. Vətəndaş cəmiyyətinin inkişafında üçüncü mərhələ müasir dövrü – XX əsri və XXI əsrin əvvəllərini əhatə edir. Bu dövrdə isə vətəndaş cəmiyyəti və hüquqi dövlət bazar iqtisadiyyatı, demokratiya, millət ideyası, milli dövlət ümumbəşəri sərvətə çevrilib. Siyasi plüralizm, söz, fikir, mətbuat azadlığı və çoxpartiyalı sistem formalaşıb. Azərbaycanda da cəmiyyəti narahat edən problemləri aradan qaldırmaq, ictimai maraqları uzlaşdırmaq, mənəvi tələbatları ödəmək məqsədilə vətəndaşların müxtəlif ictimai birliklər yaratmaq ənənəsi tarixən mövcud olub. Ancaq etiraf edilməlidir ki, tarixin müxtəlif mərhələlərində hələ vətəndaş cəmiyyəti kimi tam formalaşmamış ictimai birliklər müxtəlif siyasi qüvvələrin təsiri altına asanlıqla düşə biliblər. Əksər vətəndaş cəmiyyətlərinin şəxsi maraqlara üstünlük vermələri onları ictimai-siyasi proseslərdən kənar qoymuş, yaxud barələrində xoşagəlməz fikirlər yaratmışdı.

Burada tarixə bir ekskurs etmək yerinə düşər. Bizə elə gəlməsin ki, yerli özünüidarə orqanları – bələdiyyələr XX əsrin sonlarında formalaşmışdı. Bu təcrübə hələ XIX əsrdən, Azərbaycanın çar Rusiyasının tərkibində olduğu illərdən mövcud olmuşdur. Rusiyada təhkimçilik islahatından sonra Cənubi Qafqazı kəndli hərəkatı bürümüşdü. Çar hökuməti vətəndaş cəmiyyəti, hüquqi dövlət yaratmaq naminə yox, öz idarə sistemini tənzimləmək və başlanan hərəkatı yatırmaq xatirinə 1870-ci illərdə obyektiv olaraq Azərbaycanda da bir sıra islahatlar, o cümlədən şəhər islahatı da keçirmişdi. Belə ki, 1870-ci il iyulun 11-də çar şəhərlər haqqında yeni "Əsasnamə”nin layihəsini təsdiq etmişdi. "Əsasnamə”yə görə şəhər dumaları silksiz əvəz olunurdu. Duma üzvləri – bələdiyyə üzvləri isə əmlak senzi əsasında dörd il müddətində

seçilirdi. Duma (bələdiyyə) seçkilərində vergi verən əhalinin hamısı iştirak edə bilərdi. Şəhərdə vergiləri verməyən fəhlələr, qulluqçular, ziyalılar bələdiyyə üzvləri seçkilərində iştirak edə bilməzdi. Şəhər özünüidarəsinin başlıca vəzifəsi isə təsərrüfat məsələləri – şəhərin abadlaşdırılması, bazarların tikilməsi, yerli ticarət, maarif, səhiyyəni himayə və s. ilə məhdudlaşdırılırdı. Eyni zamanda, məhdud şəkildə "Şəhər əsasnaməsi” 1874-cü ildə Bakı, Gəncə, Şuşa, Nuxa, Naxçıvan və Ordubad şəhərlərinə şamil edilmişdi. Göründüyü kimi, o dövrdə məcburiyyətdən keçirilməsinə icazə verilən bələdiyyə seçkiləri Azərbaycanın bütün şəhərlərinə aid edilməmiş və qəsdən keçirilməsi gecikdirilmişdir. Bələdiyyə üzvlərinin hüquqlarının məhdudlaşdırılması bir yana, seçkilərdə iştirak silklər üzrə müəyyənləşdirilmiş, əhalinin əsas hissəsi – ziyalılar və şəhərdə yaşayanlar vətəndaş cəmiyyəti və hüquqi dövlətin olmadığından seçkidən kənarda qalmışlar.

Hazırda "vətəndaş cəmiyyəti və hüquqi dövlət”in bərqərar olduğu Azərbay-canda keçirilən seçkilərlə çar Rusiyası dövründə aparılan bələdiyyə seçkilərini müqayisə etməklə görürük ki, ovaxtkı bələdiyyə seçkiləri və onların fəaliyyətləri "vətəndaş cəmiyyəti və hüquqi dövlət”in bərqərar olmadığından asılılıq şəraitində olmuşdur.

Belə müqayisələr obyektiv olaraq göstərir ki, Azərbaycan müstəqillik illərində demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçmişdir. Aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə demokratik və hüquqi dövlət qurulmuş, xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılmış, dönməz ictimai-siyasi sabitlik və əmin-amanlıq bərqərar olunmaqla, qanunun aliliyinə əsaslanan sivil vətəndaş cəmiyyəti formalaşdırılmışdır. Bu gün Azərbaycan inkişaf etmiş ölkələr arasında xüsusi yeri və böyük nüfuzu olan dövlətdir.

Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının keçdiyi inkişaf yoluna nəzər saldıqda istər-istəməz XX əsrin 90-cı illərinin əvvəlləri yada düşür. Xalqımız o vaxt milli dövlətçiliyini bərpa etsə də, çoxlu mənəvi sarsıntılara məruz qalmış, böhranlı, ağrılı-acılı və faciəli günlər yaşamışdır. Azərbaycanın müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı Ulu Öndərin adı ilə bağlıdır. 1993-cü ilin yayında xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizi xaos və hakimiyyətsizlik bəlasından xilas etmiş, içtimai-siyasi sabitliyin təmin edilməsinə nail olmuş, bütün sahələrdə əsaslı islahatların aparılması üçün zəmin hazırlamışdır.

Hüquqi dövlətin Azərbaycan modeli ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın Konstitusiyası ilə gerçəkləş-

mişdir. 5 bölmə, 12 fəsil və 158 maddəni özündə birləşdirən Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarına üstünlük verən ən demokratik konstitusiyalardan biridir. Bu ali qanunun bütöv bir fəslinin və 60-a yaxın maddəsinin məhz insan hüquq və azadlıqları ilə bilavasitə bağlılığı dövlətimizin hüquqi və demokratik prinsipləri uca tutmasını təsdiq edir. Konstitusiyanın "Əsas insan hüquqları və azadlıqları" adlanan və 48 maddədən ibarət olan III fəsli insan hüquqları və azadlıqlarının geniş dairəsini nəzərdə tutur.

Heydər Əliyevin müəllifi olduğu yeni Konstitusiya dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açdı. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratdı və yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərləri özündə əks etdirdi. Müstəqil Azərbaycanın Konstitusiyası insan hüquq və azadlıqlarının təminatı, demokratik vətəndaş cəmiyyəti quruculuğunu dövlətin ali məqsədi kimi müəyyən etdi. Konstitusiyanın "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" müddəası ölkəmizin sivil gələcəyinə hesablanmış dövlət sisteminin qurulmasından xəbər verirdi. Belə ki, 1993-cü ildə ölüm cəzası üzərində moratorium qoyulmuş, 1995-ci ildə əfvetmə institutu bərpa edilməklə əfv komissiyası yaradılmış, 10 fevral 1998-ci il tarixdə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası tamamilə ləğv edilmişdi.

1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradıldı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunların qəbulu və 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi hüquqi dövlət quruculuğunun inkişafında reallaşdırılan uğurlu islahatların bariz göstəricisidir.

Bələdiyyələrin hüquqi statusu ilə bağlı əsas müddəalar Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiya ilə yanaşı, yerli özünüidarəni birbaşa tənzimləyən iyirmiyə yaxın qanun qəbul edilmişdir. Bunlardan "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Yerli rəy sorğusu haqqında" sənədləri, "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"ni qeyd etmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsi "Yerli özünüidarəetmə", IX fəsli isə "Bələdiyyələr" adlanır ki, burada yerli özünüidarəetmənin təşkili, bələdiyyələrin statusu, səlahiyyətləri haqqında Konstitusiya qanunu təsbit edilmişdir.

2001-ci il yanvarın 17-də dövlətimiz Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul olunmuşdur. 2001-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir.

Heydər Əliyev dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının üstün tutulması Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsipini təşkil edir. Azərbaycan Prezidentinin 7 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl və məqsədyönlü siyasətin parlaq nümunəsidir. Azərbaycan Prezidentinin siyasətinin mərkəzində insan amili durur. Dövlət siyasəti vətəndaşın sosial rifahının, təhlükəsiz yaşayışının təmin edilməsinə xidmət edir.

Bələdiyyələrin fəaliyyət göstərdiyi 20 illik dövrü nəzərdən keçirərkən aydın olur ki, yerli özünüidarəetmə işinin qurulmasında, uğur əldə edilməsində və vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolunun təmin edilməsində bir sıra mühüm şərtlər var. Belə ki, keçən dövrdə bələdiyyə üzvlərinin və bələdiyyə qulluqçularının peşəkarlıq səviyyəsi artmışdır. 20 illik fəaliyyətin nəticəsi olaraq yerli özünüidarəetmə sistemində təcrübəli və peşəkar kadr heyəti formalaşmışdır. Bələdiyyə üzvlərinin təhsil səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli yüksəlmişdir. 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində ali təhsillilərin sayı 7563 nəfər olmaqla 34 faiz təşkil edirdisə, 2014-cü ildə keçirilmiş son bələdiyyə seçkilərində seçilmiş ali təhsilli bələdiyyə üzvlərinin sayı 13434 nəfər olmaqla, 89,8 faiz təşkil etmişdir. 2004-cü ildə bələdiyyə sədrlərinin yalnız 44 faizini ali təhsilli şəxslər təşkil edirdisə, hazırda rəsmi məlumata görə bütün bələdiyyə sədrləri ali təhsillidir.

Bələdiyyə üzvləri yaş fərqinə görə də gəncləşmişdir. Son dövrlər dövlət qurumlarında müşahidə olunan gəncləşmə siyasəti, gənclərin dövlət idarəçiliyində önə çıxarılması və yüksək postlara təyin edilmə prosesi yerli özünüidarəetmə sistemində də gənclərin aktivliyinə səbəb olmuşdur. Belə ki, respublika üzrə 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində seçilmiş gənc bələdiyyə üzvlərinin sayı 500 nəfər olaraq, 2 faiz təşkil etmişdirsə, 2009-cu ildə bu rəqəm artaraq 4303 nəfər – 27,6 faiz olmuşdur. 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində isə seçilmiş gənclərin sayı artaraq 5450 nəfər olmaqla 36,42 faizə kimi yüksəlmişdir. Ən yaxşı hal olaraq bələdiyyə üzvləri arasında qadınların sayında artım olmuşdur. Qadınların ölkənin ictimai-siyasi

həyatında iştirakında və mühüm dövlət orqanlarına irəli çəkilmə hallarında ötən illərlə müqayisədə yüksək göstəricilik müşahidə edilmişdir. Cinsi ayrı-seçkilik olmadan kişilərlə bərabər hüquqlu vətəndaş olmasına dövlət idarəçiliyində və ümumiyyətlə, ictimai-siyasi sahədə qadınların atkivliyinə Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin II bəndinə əsasən təminat verilmişdir. Ölkənin ictimai-siyasi həyatında qadınların fəallığının artması bələdiyyə sistemində də özünü göstərmişdir. Bələdiyyə üzvü seçilmiş qadınların sayı ilk seçkilərlə müqayisədə 6 dəfə artaraq 5236 nəfər olmuşdur. Bu isə bələdiyyə üzvlərinin sırasında qadınların payının 4 faizdən yüksələrək 35 faiz təşkil etməsi deməkdir. Bütün bu göstərilən şərtlər vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolunun artmasını şərtləndirən amillər olmuşdur.

Bu ilin dekabr ayında keçiriləcək yeni bələdiyyə seçkiləri ərəfəsində olduğumuzu nəzərə alaraq bəzi fikirlərimi də bildirmək istərdim. Bəzən bələdiyyə üzvləri öz fəaliyyətlərində gözləmə və yaxud müşahidəçi qismində iştirak edən kimi görünürlər. Yaxşı olar ki, onlar təşəbbüskar olsunlar və fəallıqlarını artırsınlar. Görüşlər keçirsinlər. Bu görüşlərə "Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu"ndan danışmaq üçün tanınmış mütəxəssislər, ziyalılar, hüquqşünaslar, hüquq mühafizə orqanlarının nümayəndələri dəvət olunsa, daha faydalı olardı.

Respublikada aparılan hərtərəfli quruculuq işləri və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti göstərir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə rəhbəri İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar və quruculuq işləri respublikanın bütün regionlarını əhatə etməkdədir. Azərbaycanda inteqrasiya prosesinin gücləndiyi, hüququn müasir inkişafı və keçirilən islahatların məntiqi davamı kimi, Konstitutsiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir və qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir. Ölkə rəhbərinin xalqın intellektual potensialının, təhsilinin, elminin, mədəniyyətinin inkişafı naminə imzaladığı silsilə fərmanlar, sərəncamlar və bugünkü uğurlar bizə əsas verir deyək ki, Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolu əvəzsizdir.

**Şikar QASIMOV,**
**Azərbaycan Texniki Universitetinin kafedra müdiri, professor.**

*RƏSMİ SƏNƏDLƏR*

# 2020-ci İLİN İŞ VAXTI NORMASI VƏ İSTEHSALAT TƏQVİMİ TƏSDİQ EDİLİB

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə 2020-ci ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata əsasən 2020-ci ilin iş vaxtı normasında qeyd olunur ki, Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin "2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 712s nömrəli Sərəncamına əsasən 2020-ci ildə aşağıdakı günlər iş günü hesab edilmir:

1, 2 yanvar – Yeni il bayramı;
20 Yanvar – Ümumxalq Hüzn günü;
8 mart – Qadınlar günü;
20, 21, 22, 23, 24 mart – Novruz bayramı;
9 may – Faşizm Üzərində Qələbə günü;
24, 25 may – Ramazan bayramı;
28 may – Respublika günü;
15 iyun – Azərbaycan xalqının Milli Qurtuluş günü;
26 iyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü;
31 iyul, 1 avqust – Qurban bayramı;
9 noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı günü
31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi günü.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci hissəsinə və Nazirlər Kabinetinin "2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 712s nömrəli Sərəncamına və "İş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında" 2019-cu il 2 dekabr tarixli 461 nömrəli Qərarına əsasən 2020-ci ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi və iş və istirahət günlərinin yerdəyişməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 3, 6 yanvar, 9, 25, 26 mart, 11, 26 may, 3 avqust tarixləri, altıgünlük iş həftəsində 3 yanvar, 9, 25 mart, 26 may tarixləri istirahət günləridir.

2020-ci ilin fevral ayı 29 təqvim günündən, il isə 366 təqvim günündən ibarətdir.

Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən Milli Məclis deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Səsvermə günü qanunvericiliyə uyğun olaraq müəyyən edilir. "Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli Sərəncamı ilə Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci hissəsinə əsasən həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir. 2020-ci ildə beşgünlük iş həftəsində 241 iş günü (onlardan, 6-sı bayramqabağı iş günüdür), iş günü hesab edilməyən 112 istirahət günü (onlardan, 6-sı iş günü hesab edilməyən bayram günləri, 1-i səsvermə günü ilə üst-üstə düşən və 2 günü ötən ilin istirahət günü ilə yeri dəyişdirilən), iş günü hesab edilməyən 18 bayram (6-sı istirahət günləri ilə üst-üstə düşən), 1

səsvermə günü və 1 ümumxalq Hüzn günü var (241+112+18+1-6= 366).

Əmək Məcəlləsinin 89-cu və 90-cı maddələrinə əsasən Azərbaycan Respublikasında gündəlik normal iş vaxtının müddəti 8 saatdan artıq ola bilməz və bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir. Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq ola bilməz.

2020-ci ilin iş vaxtı norması 40 saatlıq beşgünlük iş həftəsi üzrə 8 saatlıq iş günü hesabından müəyyən edilir və bu zaman Əmək Məcəlləsinin 108-ci maddəsinin 1-ci hissəsinə müvafiq olaraq iş günü hesab edilməyən bayramqabağı, səsvermə, habelə Ümumxalq Hüzn günü qabağı iş günlərində həftəlik iş günlərinin müddəti bir saat qısaldılır.

Qanunvericiliyə uyğun olaraq 2020-ci il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1922 saat təşkil edir (235x8 + 6x7 = 1922 saat).

İstehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq tətbiq edilən bir istirahət günü olan altıgünlük iş həftəsi və müəyyən qeydiyyat (uçot) dövrü üçün növbə cədvəlləri beşgünlük iş həftəsinin həmin dövr üzrə iş vaxtı normasına riayət edilməklə tərtib olunur.

Əmək Məcəlləsinin 90-cı və 108-ci maddələrinə əsasən altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə səhəri gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz. Əmək Məcəlləsinin 91-ci, 92-ci və 93-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, qalan iş yerlərində səsvermə, bu Məcəllənin 105-ci maddəsində göstərilən iş günü hesab edilməyən bayram günləri və Ümumxalq Hüzn günü qabağı iş gününün müddəti həftəlik iş günlərinin sayından asılı olmayaraq bir saat qısaldılır. Altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsində çalışan işçilər üçün 2020-ci ildə beşgünlük iş həftəsi üzrə hesablanmış 1922 saatlıq illik iş vaxtı norması tətbiq edilməlidir.

İş vaxtının qeydiyyatı (uçotu) dövründə və ya təqvim ili ərzində iş vaxtı saatları iş vaxtı normasına uyğun gəlirsə, ayrı-ayrı aylarda iş vaxtının normal iş vaxtından az və ya çox işlənilməsi halları altıgünlük iş həftəsi cədvəlinə yenidən baxılması üçün əsas ola bilməz.

İş vaxtının illik normasına görə altıgünlük iş həftəsi cədvəlinə il ərzində düzəliş edilməsi ilə bağlı konkret məsələlər istehsalat və digər yerli şərait nəzərə alınmaqla bilavasitə kollektiv müqavilədə nəzərdə tutulmaqla həll olunur. Qeydiyyat (uçot) dövründə iş vaxtının müddəti qanunvericiliklə müəyyən olunmuş iş saatlarının sayından çox olmamaq şərti ilə iş vaxtının cəmlənmiş uçotu tətbiq edilə bilər. Bu halda qeydiyyat (uçot) dövrü bir ildən artıq, gündəlik işin (növbənin) müddəti isə 12 saatdan çox ola bilməz.

Qeyd edək ki, 2020-ci ilin iş vaxtı norması və istehsalat təqvimi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytının (http://sosial.gov.az/) "Faydalı" bölməsində tanış olmaq mümkündür. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi beşgünlük və altıgünlük iş həftələrində iş və istirahət günləri və iş vaxtı norması ilə əlaqədar işəgötürənlər üçün İzahat hazırlayıb və həmin İzahat nazirliyin "Əmək müqaviləsi bildirişləri" altsistemində yerləşdirilib.

**AZƏRTAC**
www.respublica-news.az

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair**

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun QƏRARI

4 dekabr 2019-cu il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, sorğuverən orqanın nümayəndəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimovun, cavabverən orqanın nümayəndələri Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyevin, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin sorğusu əsasında konstitusiya məhkəmə icraatı qaydasında "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, tərəflərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan

Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasını məqsədəmüvafiq hesab etmişdir.

Sorğuda göstərilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 99 səs çoxluğu ilə "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Qərar qəbul edilmişdir.

Həmin Qərar ilə Azərbaycan Respublikasının Prezidentindən Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti hesab etmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin Qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Azərbaycan Respublikası Prezidentinin sorğusu ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Sorğudan və ona əlavə edilmiş sənədlərdən göründüyü kimi, Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərar qəbul etmişdir.

Həmin Qərara əsasən, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti hesab etmişdir ki, Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatların daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur. Qərarda, həmçinin qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların genişləndirilməsi və dərinləşdirilməsi prosesindən kənarda qalmamalıdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəlmiş və növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişdir.

Sorğuda qaldırılan məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının bəzi normalarına diqqət yetirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu məsələnin həlli üçün Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsində nəzərdə tutulan "vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə" müddəasının yaranmış vəziyyətə uyğun açıqlanmasını zəruri hesab edir.

Azərbaycan Respublikasının Milli Məclisi hakimiyyətin bölünməsi prinsipinə əsasən qanunvericilik hakimiyyətini həyata keçirdiyi üçün əsas vəzifəsi qanunların və qərarların qəbul edilməsidir və onun müəyyən etdiyi ümumi qaydalar, habelə həll etdiyi məsələlər Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində təsbit edilmişdir.

Müasir demokratik cəmiyyət üçün parlamentin fəallığı böyük əhəmiyyət kəsb edir. Qabaqcıl və mütərəqqi hüquqi aktların qəbul edilməsi ölkədə ictimai münasibətlərin ədalət və hüququn aliliyi əsasında tənzimlənməsini təmin edir. Bu baxımdan, qanunvericinin üzərinə düşən vəzifələrin məhz ölkənin sürətli inkişafına cavab verəcək şəkildə həyata keçirilməsi vacibdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsində təsbit edilmiş "vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə" müddəası ilə bağlı qeyd edir ki, aradan qaldırıla bilməyən səbəblər dedikdə, parlamentin mövcud tərkibdə vəzifələrinin icra edilməsini qeyri-mümkün edən səbəblər başa düşülür. Bu baxımdan, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyası ilə ona verilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini obyektiv qiymətləndirməklə öz işini davam etdirib-etdirməməsinin mümkünlüyünə dair qərar qəbul edə bilər.

Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarından da göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyəti parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqe ortaya qoymuşdur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının mütləq əksəriyyətinin parlamentin öz səlahiyyətlərini artıq həyata keçirə bilməməsi barədə qəti mövqeyinin formalaşmasını nəzərə alaraq hesab edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məc-

lisinin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması üçün Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsində müəyyən edilmiş əsası yaradır.

Belə olan halda Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğundur.

Həmçinin qeyd edilməlidir ki, parlament buraxıldıqda qanunvericilik hakimiyyətinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, növbədənkənar parlament seçkilərinin keçirilməsi zamanı parlamentin səlahiyyətlərinin müəyyən dərəcədə saxlanılması zəruridir.

Bununla bağlı qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyasının 111-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinə görə isə, Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Göründüyü kimi, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti dövlətin, cəmiyyətin və insanların qorunması üçün Azərbaycan Respublikası Prezidentinin hərbi və fövqəladə vəziyyətin elan edilməsi barədə fərmanlarının təsdiq olunması və s. bu kimi həyati əhəmiyyətli funksiyaların həyata keçirilməsi ilə də bağlıdır. Buna görə həmin funksiyaların icrası ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin parlamentin yeni tərkibi formalaşanadək saxlanılması zəruri hesab edilməlidir.

Eyni zamanda, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərlə, habelə bir sıra beynəlxalq təşəbbüslərlə bağlı müxtəlif beynəlxalq parlamentlərarası əməkdaşlıq qurumlarının fəaliyyətində iştirak edirlər. Bu səbəbdən parlament buraxıldıqdan sonra da həmin səlahiyyətlərin müvəqqəti saxlanılması zəruri hesab edilir.

Qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışı fəaliyyətə başlayanadək müstəsna olaraq Azərbaycan Respublikası Konstitusiyasının 111-ci və 112-ci maddələrində, 95-ci maddəsinin I hissəsinin 16-cı və 17-ci bəndlərində nəzərdə tutulmuş səlahiyyətlərin, habelə beynəlxalq təşkilatlarda təmsilçilik funksiyalarının həyata keçirilməsi üçün V çağırış Azərbaycan Respublikası Milli Məclisinin müvafiq səlahiyyətlərinin saxlanılması zəruridir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsinə uyğun hesab edilməlidir;

– "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsinə uyğun hesab edilsin.

2. "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilsin.

3. Qərar elan edildiyi andan qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

# “DÖVLƏT MƏHKƏMƏ EKSPERTİZASI FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 7; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 3, maddə 211; 2018, № 2, maddə 147) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Qanunun adında "Dövlət məhkəmə ekspertizası” sözləri "Məhkəmə ekspertizası” sözləri ilə əvəz edilsin;

**1.2.** Preambulanın birinci abzasında "Dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra – məhkəmə ekspertizası fəaliyyəti)” sözləri "məhkəmə ekspertizası fəaliyyətinin” sözləri ilə əvəz edilsin;

**1.3.** 1-ci maddə üzrə:

**1.3.1.** dördüncü abzasda "marağı olmayan” sözlərindən sonra ", məhkəmə eksperti şəhadətnaməsi almış” sözləri əlavə edilsin;

**1.3.2.** beşinci abzasda "təyin” sözündən sonra "(sifariş)” sözü əlavə edilsin;

**1.3.3.** yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"məhkəmə ekspertizası tədqiqatının metodu – məhkəmə ekspertizasının predmeti ilə bağlı işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslərin tədqiqi zamanı tətbiq edilən üsul və vasitələr sistemidir.”;

**1.4.** 6-cı maddənin birinci hissəsinin birinci cümləsində, 8-ci maddənin üçüncü hissəsinin birinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-cu maddənin ikinci hissəsinin üçüncü abzasında, üçüncü hissəsinin üçüncü abzasında, 10-cu maddənin birinci hissəsinin yeddinci abzasında, 12-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, üçüncü hissəsinin ikinci abzasında, dördüncü hissəsində, beşinci hissəsinin səkkizinci abzasında, 13-cü maddənin birinci hissəsinin ikinci abzasında, 16-cı maddədə, 17-ci maddədə, 18-ci maddənin ikinci hissəsinin ikinci cümləsində, 19-cu maddənin ikinci, üçüncü hissələrində və altıncı hissəsinin birinci cümləsində (birinci halda), 20-ci maddənin birinci hissəsində, 24-cü maddənin üçüncü hissəsinin ikinci cümləsində, 25-ci maddənin birinci və dördüncü hissələrində, 26-cı maddənin ikinci hissəsinin dördüncü abzasında, üçüncü hissəsinin üçüncü cümləsində "təyin” sözündən sonra "(sifariş)” sözü əlavə edilsin;

**1.5.** 8-ci maddənin üçüncü hissəsinin ikinci cümləsinə "(qərardadda)” sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə” sözləri əlavə edilsin;

**1.6.** 9-cu maddə üzrə:

**1.6.1.** birinci hissədə "(qərardadı) aldıqdan” sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan” sözləri əlavə edilsin;

**1.6.2.** ikinci hissənin ikinci abzasında "icra edilmədən" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə rəsmi müraciəti təmin edilmədən" sözləri əlavə edilsin;

**1.6.3.** ikinci hissənin dördüncü abzasında "(qərardadda)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

**1.6.4.** üçüncü hissənin ikinci abzasında "(qərardad)" sözündən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə" sözləri əlavə edilsin;

**1.7.** 10-cu maddənin birinci hissəsi üzrə:

**1.7.1.** ikinci abzasda "(qərardadı) aldıqdan" sözlərindən sonra "və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan" sözləri əlavə edilsin;

**1.7.2.** dördüncü abzasda "qərarda" sözündən sonra "(qərardadda) və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə" sözləri əlavə edilsin;

**1.8.** 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Məhkəmə eksperti**

Ali təhsilli və müəyyən ekspertiza ixtisası üzrə xüsusi biliklərə malik Azərbaycan Respublikasının vətəndaşı məhkəmə eksperti ola bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, cinayət törətdiyinə görə məhkum olunmuş, barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxs məhkəmə eksperti ola bilməz.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən şəxs məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün məhkəmə eksperti şəhadətnaməsini (bundan sonra – şəhadətnamə) almalıdır.

Məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərə dövlət məhkəmə eksperti şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən və özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs özəl məhkəmə eksperti şəhadətnaməsini almaq üçün müvafiq dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədlə yanaşı aşağıdakı tələblərdən birinə cavab verdiyini təsdiq edən sənədləri təqdim etməlidir:

1) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə ən azı 10 il işlədiyini;

2) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinin olduğunu;

3) xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərinin (diplom, sertifikat və sair) mövcudluğunu.

Şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs şəhadətnamə almaq üçün həmin siyahıda olmayan sənəd təqdim etdikdə, həmin sənədin siyahıya daxil edilməsi məsələsi araşdırılır və bu sənəd siyahıya daxil edildiyi halda

ona şəhadətnamə verilməsi üçün əsas qismində çıxış edir.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən internet informasiya ehtiyatı vasitəsilə təşkil edilən məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyin ümumi tələbləri, ekspert rəyinin tərtib edilməsi qaydaları və etik davranış kodeksinin müddəalarına dair icbari təlimdə iştirak etməlidir. Təlimin keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərlə müsahibə keçirir.

Özəl məhkəmə ekspertlərinə şəhadətnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Şəhadətnamənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Şəhadətnamə almış şəxs barədə ətraflı məlumat müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərhal Məhkəmə Ekspertləri Reyestrinə daxil edilir. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə bilər.

Reyestrə daxil edilmiş şəxslər məhkəmə ekspertizasının aparılması və ekspert rəyinin hazırlanması ilə əlaqədar məhkəmə ekspertləri üçün bu Qanunla və müvafiq prosessual qanunvericiliklə nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir, vəzifələri yerinə yetirirlər.

Məhkəmə eksperti yalnız şəhadətnamədə qeyd edilən məhkəmə ekspertizası ixtisası (ixtisasları) üzrə ekspert rəyi verə bilər.

Məhkəmə eksperti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən məhkəmə ekspertinin etik davranış kodeksinin tələblərinə riayət etməlidir.

Müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertizası idarələrinin ekspertlərinə bu orqanların işçiləri üçün qanunla müəyyən edilmiş qaydada xüsusi rütbələr verilir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertlərinin bu Qanunun tələblərinə riayət etməsinə nəzarət edir.";

**1.9.** aşağıdakı məzmunda 11-1 - 11-5-ci maddələr əlavə edilsin:

**"Maddə 11-1. Məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi**

Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməni ləğv edərək məhkəmə ekspertinin fəaliyyətinə xitam verir:

şəxs öz arzusu ilə şəhadətnamənin ləğv olunması barədə yazılı ərizə verdikdə;

şəhadətnamə almaq üçün təqdim edilən sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

şəhadətnamə aldıqdan sonra 5 il ərzində məhkəmə eksperti qismində fəaliyyət göstərmədikdə;

attestasiyadan keçə bilmədikdə və ya attestasiya keçməkdən yayındıqda;

qanunvericiliyin tələblərini kobud və ya mütəmadi pozmaqla ekspertiza apardıqda;

ekspertin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspertin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya ekspert

Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

ekspert məhkum edildikdə, onun barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspert barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verildikdə;

ekspert vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməsi ləğv edilmiş ekspertin adını Məhkəmə Ekspertləri Reyestrdən çıxarır.

Şəhadətnaməsi ləğv edilmiş ekspertə qəbul edilmiş qərarla bağlı üç iş günü müddətində məlumat verilir.

**Maddə 11-2. Məhkəmə ekspertlərinin attestasiyası**

Məhkəmə ekspertləri 5 ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilirlər. 20 ildən artıq müddətdə ekspert qismində fəaliyyət göstərən şəxslər attestasiyadan azaddırlar.

Attestasiya nəticəsində məhkəmə ekspertizası idarələrinin ekspertlərinə ixtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 11-3. Məhkəmə Ekspertlərinin Reyestri**

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertizası idarələrinin ekspertləri və özəl məhkəmə ekspertləri barədə məlumatları Məhkəmə Ekspertlərinin Reyestrinə daxil edir.

Reyestrin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Reyestr açıqdır, müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

Reyestrə daxil edilməyən şəxslərin məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olması qadağandır və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 11-4. Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri**

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ekspertlər məhkəmə ekspertizasının aparılması zamanı Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olan tədqiqat metodlarından istifadə edir. Ekspert Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olmayan metoddan yalnız həmin metodun aşağıdakı bütün şərtlərə cavab verdiyini ekspert rəyində əsaslandırmaqla istifadə edə bilər:

1) qanunda nəzərdə tutulmuş norma və prinsiplərə zidd deyildir;

2) elmi cəhətdən əsaslandırılmışdır;

3) insanların həyat və sağlamlığı və ətraf mühit üçün təhlükəsizdir.

**Maddə 11-5. Məhkəmə ekspertizasının metodik fondu**

Məhkəmə ekspertizalarının elmi-metodik materiallarından ibarət xüsusi fond yaradılır.

Həmin materialların elektron nüsxələri fonda daxil edilir.

Fondun yaradılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”;

**1.10.** 12-ci maddənin beşinci hissəsi üzrə:

**1.10.1.** ikinci abzasda "idarəsinin” sözündən sonra "ekspertlərinə həmin idarənin” sözləri əlavə edilsin;

**1.10.2.** üçüncü abzasda "başqa” sözündən əvvəl "məhkəmə ekspertizası idarəsinin ekspertlərinə” sözləri əlavə edilsin;

**1.11.** 13-cü maddənin birinci hissəsinin yeddinci abzasında "təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə)” sözləri "məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxsə” sözləri ilə əvəz edilsin;

**1.12.** 19-cu maddə üzrə:

**1.12.1.** altıncı hissənin birinci cümləsində "işləyib hazırlamaq” sözlərindən sonra ", ekspertizanın aparılmasının ümumi müddəti daxilində ayrı-ayrı tədqiqatların icra müddətlərini təyin etmək və onlara əməl olunmasına nəzarət etmək” sözləri əlavə edilsin;

**1.12.2.** dördüncü-səkkizinci hissələr müvafiq olaraq beşinci-doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.”;

**1.13.** 21-ci və 22-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 21. Məhkəmə ekspertizasının aparılmasının əsasları**

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallarda təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilir. Təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilmiş ekspertiza məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarələrinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdir. Bu halda məhkəmə ekspertizası həmin şəxslərlə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə ekspertləri arasında bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş edən şəxslərin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda şübhəli, təqsirləndirilən şəxs və ya onların müdafiəçisi, yaxud mülki cavabdeh məhkəmə ekspertizasının aparılmasını məhkəmə ekspertizası idarələrinə sifariş vermək üçün rəsmi müraciət etmək hüququna malikdir.

**Maddə 22. Məhkəmə ekspertizasının aparılması**

Məhkəmə ekspertizasını təyin (sifariş)

etmiş orqan və ya şəxs tədqiqatın aparılması və ekspert rəyinin verilməsi üçün suallar siyahısını, tədqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli tədqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.

Tədqiqat prosesində ekspert tərəfindən eksperimental nümunələr hazırlana bilər və bu hal ekspertin rəyində göstərilməlidir. Ekspertizanı təyin etmiş orqan və ya şəxs bu cür nümunələrin hazırlanmasında iştirak edə bilər və onun bu hərəkəti tərtib etdiyi protokolda əks etdirilir.

Məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.";

**1.14.** 22-1-ci maddə ləğv edilsin;

**1.15.** 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 23. Məhkəmə ekspertizası fəaliyyətinin təşkili**

Məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

Məhkəmə-tibb (məhkəmə-psixiatriya), məhkəmə-ballistik, məhkəmə partlayış-texniki, pul nişanları və qiymətli kağızların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin, dərman vasitələrinin məhkəmə ekspertizaları yalnız məhkəmə ekspertizası idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən şəxslər və qurumlar məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

Məhkəmə ekspertizası idarələri məhkəmə ekspertlərinə metodik köməklik göstərir.

Məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.16.** 43-cü maddədə "vəzifəli şəxslər və vətəndaşlar" sözləri "şəxslər" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**
Bakı şəhəri, 29 noyabr 2019-cu il

# "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun 2020-ci il martın 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** iki ay müddətində:

**1.1.1.** "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsinə uyğun olaraq, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**1.1.2.** həmin Qanunun 11-ci maddəsinin onuncu hissəsinə uyğun olaraq, məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.1.3.** həmin Qanunun 11-2-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.1.4.** həmin Qanunun 11-3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.1.5.** həmin Qanunun 23-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

**1.1.6.** həmin Qanunun 11-ci maddəsinin on dördüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertinin etik davranış kodeksini təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.7.** həmin Qanunun 11-4-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.1.8.** həmin Qanunun 11-5-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.2.** "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 31; 2001, № 6, maddə 415; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 224; 2011, № 10, maddə 889; 2014, № 4, maddə 370) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** Fərmanın adında, preambulasında, birinci hissəsinin ikinci və dördüncü abzaslarında "Dövlət məhkəmə" sözləri "Məhkəmə" sözü ilə əvəz edilsin;

**2.2.** həmin Fərmanın 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

**"2.** Müəyyən edilsin ki:

**2.1.** "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsində, onuncu hissəsində, on dördüncü hissəsində, 11-2-ci maddəsinin üçüncü hissəsində, 11-3-cü maddəsinin ikinci hissəsində, 11-4-cü maddəsinin ikinci hissəsində, 11-5-ci maddəsinin ikinci hissəsində, 23-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**2.2.** həmin Qanunun 11-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

**2.3.** həmin Qanunun 11-ci maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində, səkkizinci və doqquzuncu hissələrində, on birinci hissəsinin birinci cümləsində, 11-1-ci maddəsinin ikinci hissəsində, 11-3-cü maddəsinin birinci və üçüncü hissələrində, 11-4-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

**2.4.** həmin Qanunun 11-ci maddəsinin on beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

**2.5.** həmin Qanunun 11-ci maddəsinin on altıncı hissəsində və 11-1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinə və özəl məhkəmə ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

**2.6.** həmin Qanunun 23-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini məhkəmə-tibb (məhkəmə-psixiatriya) eks-

pertizası sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, məhkəmə ekspertizasının digər sahələrində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, ilkin və əlavə məhkəmə-daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə-ballistik ekspertizaları sahəsində isə həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

**2.7.** həmin Qanunun 33-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

**2.8.** həmin Qanunun 34-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Ədliyyə Nazirliyi birgə həyata keçirirlər;

**2.9.** həmin Qanunun 39-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının və 40-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Daxili İşlər Nazirliyi həyata keçirirlər.”.

**3.** Bu Fərmanın 2-ci hissəsi 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**
Bakı şəhəri, 18 dekabr 2019-cu il

## AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ PROSESSUAL MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, №5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, №12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 63.1-ci maddədə "və məhkəmə tərəfindən təyin edilən” sözləri ", məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış” sözləri ilə əvəz edilsin;

**1.2.** 97.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.3.** aşağıdakı məzmunda 97.4-1-ci maddə əlavə edilsin:

**"97.4-1.** İşdə iştirak edən şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Məhkəmə təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.4.** 99-cu maddə üzrə:

**1.4.1.** 99.1-ci maddənin ikinci cümləsində "Məhkəmə" sözündən sonra "və işdə iştirak edən şəxslər" sözləri əlavə edilsin;

**1.4.2.** 99.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"99.2.** Ekspertiza məhkəmə ekspertizası idarəsinin ekspertləri və ya özəl məhkəmə ekspertləri tərəfindən keçirilir. Ekspertizanın keçirilməsi bir neçə ekspertə həvalə edilə bilər.";

**1.4.3.** 99.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman işdə iştirak edən şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.";

**1.5.** 101-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 101. Ekspert rəyi**

**101.1.** Ekspert ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, bu Məcəllənin 172.2-ci maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə göndərir. Bu Məcəllənin 172.3-cü maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə ekspert rəyi 3 günədək müddətdə verilir.

**101.2.** Ekspertizanın aparılmasını bu Məcəllənin 101.1-ci maddəsində göstərilən müddətlərdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə məhkəməyə dərhal məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti məhkəmə ilə yazılı formada razılaşdırılır.

**101.3.** Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

**101.4.** Məhkəmə tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzadılır.

**101.5.** Ekspertin həmin vəsatəti bu Məcəllənin 101.4-cü maddəsində nəzərdə tutulan müddətdə təmin edilmədikdə məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadını icra olunmadan geri qaytarmaq hüququna malikdir.

**101.6.** Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

**101.7.** Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

**101.8.** Bu Məcəllənin 101.1-ci və 101.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə məhkəmə ekspertizası idarəsi məhkəmə tərəfindən yüz manat məbləğində cərimə edilə bilər.";

**1.6.** aşağıdakı məzmunda 101-1-ci və 102.3-cü maddələr əlavə edilsin:

**"Maddə 101-1. İşdə iştirak edən şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

**101-1.1.** İşdə iştirak edən şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə rəsmi müraciət etmək hüququna malikdirlər.

**101-1.2.** İşdə iştirak edən şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

**101-1.3.** Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.";

**"102.3.** Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

**1.7.** 132-ci maddəyə "ərizəsi üzrə" sözlərindən sonra ", habelə bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatəti əsasında" sözləri əlavə edilsin;

**1.8.** 257-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda və ya bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatətinə baxılması zərurəti yarandıqda, işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.";

**1.9.** 418-ci maddə üzrə:

**1.9.1.** 418.1-ci maddədə "tətbiq olunmaması" sözlərindən sonra ", o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması" sözləri əlavə edilsin;

**1.9.2.** aşağıdakı məzmunda 418.6-cı maddə əlavə edilsin:

**"418.6.** Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı

məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.”;

**1.10.** aşağıdakı məzmunda 418-1-ci maddə əlavə edilsin:

**"Maddə 418-1. Kasassiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

**418-1.1.** Ali Məhkəmənin məhkəmə tərkibi işə kasassiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

**418-1.2.** Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılarkən müvafiq təqdimatı verən məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki və kommersiya kollegiyaların hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

**418-1.3.** Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

**418-1.4.** Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

**418-1.5.** Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.”;

**1.11.** 424.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.6-cı maddə əlavə edilsin:

**"424.2.6.** kasassiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.”.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**
Bakı şəhəri, 29 noyabr 2019-cu il.

# Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə və 96-cı maddəsinin VI hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

**Maddə 1. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihəsini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına mənsubdur.

**Maddə 2. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi**

Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü (bundan sonra – vətəndaşların qanunvericilik təşəbbüsü) hüququndan istifadə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, bu Qanundan, Azərbaycan Respublikasının Seçki Məcəlləsindən, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 3. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsinə dair tələblər**

**3.1.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 50-ci, 53-58-ci və 62.4-cü maddələrində müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

**3.2.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsində (bundan sonra – layihə) aşağıdakı məsələlər nəzərdə tutula bilməz:

**3.2.1.** dövlət büdcəsi, dövlət rüsumu, vergilər və gömrük işi;

**3.2.2.** əmək haqqının məbləği və onun ödənilməsi qaydası;

**3.2.3.** cinayət və ya inzibati xətalar;

**3.2.4.** ailə münasibətləri;

**3.2.5.** ərazi quruluşu və inzibati ərazi bölgüsü;

**3.2.6.** dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi;

**3.2.7.** seçki və referendum;

**3.2.8.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad;

**3.2.9.** amnistiya;

**3.2.10.** seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

**3.3.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Konstitusiya qanunlarının layihələri təqdim oluna bilməz.

**Maddə 4. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupunun yaradılması**

**4.1.** Layihəni Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra – Milli Məclis) müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edən seçki hüququ olan ən azı 300 nəfər Azərbaycan Respublikasının vətəndaşı tərəfindən vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupu (bundan sonra - təşəbbüs qrupu) yaradılır.

**4.2.** Bir təşəbbüs qrupu öz fəaliyyəti dövründə yalnız bir layihəni Milli Məclisin müzakirəsinə təqdim etmək təklifi ilə çıxış edə bilər.

**4.3.** Təşəbbüs qrupunun yaradılmasının məqsədləri Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün imza toplanması və qanunvericilik təşəbbüsü ilə çıxış edən vətəndaşların mənafelərinin müdafiə edilməsidir.

**4.4.** Təşəbbüs qrupunun ilk iclasında onun yaradılması barədə qərar qəbul olunur, təşəbbüs qrupunun sədri və ən azı iki sədr müavini, həmçinin seçki dairələri üzrə koordinatorları seçilir və təklif olunan layihənin mətni təsdiq olunur. Həmin iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır və iclasda iştirak edən vətəndaşların siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, həmçinin vətəndaşın təklif olunan layihənin lehinə və ya əleyhinə səs verməsi qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

**4.5.** Təşəbbüs qrupunu onun sədri təmsil edir. Sədr müvəqqəti olmadıqda onun səlahiyyətlərini sədrin müəyyən etdiyi müavinlərdən biri icra edir.

**4.6.** Təşəbbüs qrupunun iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Təşəbbüs qrupunun iclasında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

**Maddə 5. Təşəbbüs qrupunun və layihənin qeydiyyatı**

**5.1.** Təşəbbüs qrupu onun yaradıldığı gündən bir ay ərzində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması üçün ərizə ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edir.

**5.2.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

**5.2.1.** bu Qanunun 4.4-cü maddəsinə uyğun olaraq tərtib olunmuş təşəbbüs qrupunun yaradılması, onun sədrinin və müa-

vinlərinin, həmçinin seçki dairələri üzrə koordinatorlarının seçilməsi və layihənin təsdiqi barədə iclas protokolu və həmin protokola əlavə edilən iclas iştirakçılarının siyahısı;

**5.2.2.** bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib edilmiş layihə (kağız daşıyıcısında və eyni zamanda, elektron daşıyıcıda);

**5.2.3.** layihənin qəbul edilməsi zərurətinin əsaslandırılması;

**5.2.4.** layihəyə dair ekspert rəyləri;

**5.2.5.** layihəni hazırlamış şəxslərin siyahısı;

**5.2.6.** layihəyə aid digər sənədlər (təşəbbüs qrupunun qərarına əsasən).

**5.3.** Bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulan sənədlər Mərkəzi Seçki Komissiyasına daxil olduğu gündən iki ay ərzində Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin bu Qanuna uyğun olaraq qeydiyyata alınması və yaxud bundan imtina edilməsi barədə qərar qəbul edilir.

**5.4.** Mərkəzi Seçki Komissiyası təşəbbüs qrupunun təqdim etdiyi sənədlər əsasında təşəbbüs qrupunun yaradılmasının bu Qanunun tələblərinə uyğunluğunu yoxlayır. Təşəbbüs qrupunun təqdim etdiyi layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər layihənin bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olub-olmaması barədə bir ay ərzində rəyin hazırlanması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir. Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər "Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq bir ay ərzində maliyyə ekspertizası rəyinin hazırlanması üçün həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

**5.5.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən həmin layihə Milli Məclisə təqdim edilənədək layihədə dəyişiklik edilə bilməz.

**5.6.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən 3 iş günü müddətində təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın surəti və imza toplanması üçün imza vərəqələrinin nümunəsi təşəbbüs qrupunun sədrinə təqdim edilir, həmçinin təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına müvafiq vəsiqələr verilir.

**5.7.** İmza toplanması üçün imza vərəqələrinin və təşəbbüs qrupunun sədrinə, müavinlərinə və seçki dairələri üzrə koordinatorlarına verilən vəsiqələrin nümunələri Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

**5.8.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından aşağıdakı hallarda imtina edilir:

**5.8.1.** təşəbbüs qrupunun yaradılmasının bu Qanunla müəyyən edilmiş qaydası pozulduqda;

**5.8.2.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən təşəbbüs qrupunun təqdim etdiyi layihə bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

**5.8.3.** Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaitinin istifadəsini nəzərdə tutan layihəyə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyinə əsasən layihənin tətbiqinin maliyyələşdirilməsi üçün müvafiq vəsait olmadıqda.

**5.9.** Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınmasından imtina barədə Mərkəzi Seçki Komissiyasının qərarından apelyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 6. Layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması qaydası**

**6.1.** Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alındığı gündən iki ay ərzində yalnız təşəbbüs qrupunun üzvləri tərəfindən həyata keçirilir.

**6.2.** Təşəbbüs qrupunun üzvləri Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzasını toplamalıdırlar. İmzaların toplanması ən azı 60 seçki dairəsinin ərazisini əhatə etməli və hər seçki dairəsinin ərazisindən ən azı 500 imza toplanmalıdır.

**6.3.** İmza toplanması üçün imza vərəqəsində layihənin adı, imza toplayan təşəbbüs qrupu üzvünün soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti, təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarın tarixi və nömrəsi, təklif olunan layihəni dəstəkləyən vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti göstərilməlidir.

**6.4.** Təşəbbüs qrupunun imza toplayan üzvü vətəndaşa təklif olunan layihənin tam mətnini təqdim etməli, layihənin məzmununu izah etməli və oxuması üçün vaxt verməlidir.

**6.5.** Bir imza vərəqəsinə yalnız eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olan vətəndaşlar daxil edilir.

**6.6.** Layihəni dəstəkləyən vətəndaş imza vərəqəsində öz imzasını qoyur, soyadını yazır və imzalama tarixini qeyd edir.

**6.7.** Layihəni dəstəkləyən vətəndaş yalnız bir dəfə imza qoya bilər.

**6.8.** Dövlət orqanlarının, bələdiyyə qurumlarının və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində vətəndaşları imza qoymağa məcbur etmək və ya imza qoymağa imkan verməmək, yaxud bunlara görə onları hər hansı formada mükafatlandırmaq qadağandır.

**6.9.** İmza toplanması prosesinin və vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı bu Qanunla nəzərdə tutulan digər tədbirlərin maliyyələşdirilməsi üçün xarici dövlətlərin, beynəlxalq təşkilatların, xarici hüquqi şəxslərin,

əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, həmçinin təsisçisi xarici dövlət, beynəlxalq təşkilat, xarici hüquqi şəxs, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan hüquqi şəxslərin vəsaitindən istifadə oluna bilməz. Bu qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə qərarının ləğv edilməsi üçün əsas hesab edilir.

**6.10.** Azərbaycan Respublikasının seçki hüququ olan ən azı 40 min vətəndaşının imzası toplandıqdan sonra vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokol tərtib edilir, təşəbbüs qrupunun sədri və seçki dairələri üzrə koordinatorları tərəfindən imzalanır.

**6.11.** Vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokolun nümunəsi Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunur.

**Maddə 7. İmza vərəqələrində olan məlumatların yoxlanılması və imza toplanmasının nəticələrinin təsdiqi**

**7.1.** Bu Qanunun 6.10-cu maddəsində nəzərdə tutulan protokol imzalandığı gündən bir ay ərzində həmin protokolun 2 nüsxəsi və imza vərəqələri təşəbbüs qrupu tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim olunur. Mərkəzi Seçki Komissiyasına təqdim edilən imza vərəqələri nömrələnməli və qovluq formasında səhifələnməlidir.

**7.2.** Mərkəzi Seçki Komissiyası sənədləri qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələrinin sayının vətəndaşların imzalarının toplanmasının nəticələri haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbul edilmə tarixini qeyd edərək təşəbbüs qrupunun sədrinə, qəbul edilmiş imza vərəqələrinin sayını və oradakı imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir.

**7.3.** Mərkəzi Seçki Komissiyası iki ay müddətində Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsi ilə müəyyən edilmiş qaydada imza vərəqələrində olan məlumatların düzgünlüyünü, həmçinin təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsini yoxlayır.

**7.4.** Aşağıdakı imzalar qeyri-düzgün (etibarsız) hesab edilir:

**7.4.1.** Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu maddəsinə əsasən qeyri-düzgün (etibarsız) hesab edilən imza;

**7.4.2.** bu Qanunun 6.6-6.9-cu maddələrinin tələbləri pozulmaqla toplanmış imza;

**7.4.3.** imza vərəqəsinə imza qoymuş vətəndaşlar eyni seçki dairəsinin ərazisi üzrə seçici siyahılarında olmadıqda, yaxud imza vərəqəsi imza toplayan təşəbbüs qrupunun üzvü tərəfindən imzalanmadıqda və ya onun imzası qeyri-düzgün olduqda həmin imza vərəqəsindəki bütün imzalar.

**7.5.** İmza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq yaradılmış işçi qrupunun rəhbəri (Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvü) tərəfindən protokol tərtib edilir, im-

zalanır və qərar qəbul olunması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Protokolda vətəndaşların yoxlanılmış imzalarının sayı, habelə əsası qeyd olunmaqla etibarsız sayılmış imzaların sayı göstərilir. Protokol Mərkəzi Seçki Komissiyasının müvafiq qərarına əlavə olunur.

**7.6.** Bu Qanunun 7.7-ci maddəsində nəzərdə tutulan hallar olmadıqda, Mərkəzi Seçki Komissiyası tərəfindən təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə qərar qəbul edilir. Həmin qərarın və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur.

**7.7.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının qəbul edilməsi üçün əsaslar aşağıdakılardır:

**7.7.1.** imzaların toplanması zamanı bu Qanunun 6.8-ci və 6.9-cu maddələrinin tələblərinin pozulması;

**7.7.2.** bu Qanunun 7.1-ci maddəsində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

**7.7.3.** etibarlı imzaların lazımi saydan az olması.

**7.8.** Bu Qanunun 7.7.2-ci maddəsində göstərilən hallar müəyyən edildikdə, təşəbbüs qrupunun sədrinə bu barədə yazılı məlumat verilir və müvafiq çatışmazlıqların Mərkəzi Seçki Komissiyasının müvafiq iclasının tarixinə ən geci 3 iş günü qalanadək aradan qaldırılması üçün vaxt verilir.

**7.9.** Cinayət məsuliyyətinə səbəb ola biləcək hüquqpozmanın əlamətləri aşkar edildikdə Mərkəzi Seçki Komissiyası təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

**7.10.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarının və bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti həmin qərarın qəbul edildiyi gündən 3 iş günü müddətində təşəbbüs qrupunun sədrinə təqdim olunur. Lazımi sayda imzaların olmadığı aşkar olunduğu hallarda təşəbbüs qrupu bu Qanunun 7.5-ci maddəsində nəzərdə tutulan protokolun surəti ilə yanaşı, imzaların etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəlin surətini də almaq hüququna malikdir.

**7.11.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarından apelyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

**Maddə 8. Layihənin Milli Məclisə təqdim edilməsi və müzakirəsi**

**8.1.** Təşəbbüs qrupunun bu Qanunun tələblərinə riayət etməsi barədə Mərkəzi Seçki Komissiyasının qərarı qəbul edildiyi gündən bir ay ərzində layihə və bu Qanunun 5.2.3-5.2.6-cı maddələrində göstərilən sənədlər təşəbbüs qrupu tərəfindən Milli Məclisə təqdim olunur.

**8.2.** Layihə təqdim olunmuş şəkildə iki ay ərzində Milli Məclisin müzakirəsinə

çıxarılır və səsə qoyulur. Layihədə yalnız texniki xarakter daşıyan dəyişikliklər edilə bilər.

**Maddə 9. Layihənin geri çağırılması**

**9.1.** Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim olunmuş layihə yekun oxunuşda baxılana qədər təşəbbüs qrupunun iclasında üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərar əsasında geri çağırıla bilər.

**9.2.** Layihənin geri çağırılması haqqında qərarın qəbul edildiyi iclasın protokolu iclasın sədri və katibi tərəfindən imzalanır, həmçinin layihənin geri çağırılmasını dəstəkləyən təşəbbüs qrupunun üzvlərinin siyahısı protokola əlavə olunur. Bu siyahıda onların soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin nömrəsi və etibarlılıq müddəti qeyd olunur. Siyahıda qeyd edilən hər bir vətəndaş özünə aid məlumatları imzası ilə təsdiq edir.

**9.3.** Bu Qanunun 9.2-ci maddəsində nəzərdə tutulan protokol Milli Məclisə daxil olduqda geri çağırılmış layihə Milli Məclisin gündəliyindən çıxarılır və təşəbbüs qrupunun sədrinə bu barədə məlumat verilir.

**Maddə 10. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

Bakı şəhəri, 22 oktyabr 2019-cu il.

## “Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun tətbiqi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması

ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** həmin Qanunun 5.9-cu və 7.11-ci maddələrinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.5.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinin ikinci və üçüncü cümlələrində, 5.8.2-ci və 5.8.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**3.2.** həmin Qanunun 5.4-cü maddəsinin ikinci cümləsində və 5.8.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

**3.3.** həmin Qanunun 5.4-cü maddəsinin üçüncü cümləsində və 5.8.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 4 dekabr 2019-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1677-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 43.1-ci maddədə "388-1" rəqəmləri "388-2" rəqəmləri ilə əvəz edilsin;

**1.2.** 384.0.1-ci maddə ləğv edilsin;

**1.3.** aşağıdakı məzmunda 388-2-ci maddə əlavə edilsin:

**"Maddə 388-2. Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması**

**388-2.0.** Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulmasına, yəni:

**388-2.0.1.** uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələri tətbiq edilmədən yayılmasına;

**388-2.0.2.** informasiya məhsulunun "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin Qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayılmasına;

**388-2.0.3.** informasiya məhsulunun yayımçıları tərəfindən televiziya yayımı, kino və video xidmətlərinin göstərilməsi zamanı hər bir informasiya məhsulunun nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarəsinin və yaş məhdudiyyəti barədə, o cümlədən internet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlığa dair mətnin yerləşdirilməməsinə;

**388-2.0.4.** "18+" yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlığı televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilməməsinə;

**388-2.0.5.** uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında (telekommunikasiya şəbəkələri, o cümlədən internet şəbəkəsi vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsi də daxil olmaqla) onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə;

**388-2.0.6.** məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına və ya həmin informasiya məhsulunun qablaşdırmadan yayılmasına;

**388-2.0.7.** uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına görə –

fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 19 noyabr 2019-cu il.

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli 1693-VQD nömrəli Qanununun tətbiqi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli 1693-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.5.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Bakı şəhəri, 19 dekabr 2019-cu il.

*ELM XADİMLƏRİ*

# VƏTƏNPƏRVƏR ALİM, İCTİMAİ-SİYASİ XADİM, QAYĞIKEŞ İNSAN

***Böyük insanları həmişə uca dağlara bənzədirlər. Çünki onlar adiliklər müstəvisinə sığmırlar. Görkəmli alim, akademik Həsən Əliyev də təkrarsız insani xüsusiyyətlərə malik olan şəxsiyyət idi. Sadəlik, təbiilik, müstəsna qayğıkeşlik, səmimiyyət, xeyirxahlıq, alicənablıq onu ətrafdakılara doğmalaşdıran və sevdirən ən mühüm keyfiyyətlərdən idi. Həsən Əliyev keşməkeşli həyat yaşamışdı. Ziyalılığı, insanpərvərliyi ilə hamının, xüsusilə elmi ictimaiyyətin sonsuz hörmət və ehtiramını qazanmışdı. Bu böyük alimin həyatı və yaradıcılığı bugünkü və gələcək nəsillər üçün bir nümunədir.***

Qədim Zəngəzur torpağında dünyaya göz açan Həsən Əliyevin hələ uşaq yaşlarından təbiət vurğunu olması, vətənpərvərliyi sonrakı dövrlərdə onun Azərbaycan təbiətinin qorunması üçün "Həyəcan təbili” çalmasına, belə qiymətli əsər yazmasına gətirib çıxarmışdır. Hələ 7-8 yaşlarında Comərdli kəndinin güllü-çiçəkli kövşənindən başlayan kiçik bir cığır yorulmaz tədqiqatçı alimin zəhməti, yüksək fitri istedadı, intellektual potensialı, ən əsas isə vətəninə sevgisi sayəsində genişlənmiş, elmin akademik Həsən Əliyev zirvəsinə qalxmasına səbəb olmuşdur.

Əvvəlcə Naxçıvandakı Kənd Təsərrüfatı Texnikumunda (1927-30-cu illərdə), sonra isə Gəncə şəhərində Kənd Təsərrüfatı İnstitutunda (1930-32-ci illərdə) təhsil almışdı. 1932-ci ildə aspiranturaya daxil olmuşdur. Bundan sonra bütün həyatını elmə həsr edərək, düz altmış illik fəaliyyətində ölkəmizin təbiətinin qorunması, zənginləşməsi, daha da səmərəli şəkildə istifadə olunması yolunda fədakarlıq göstərmiş, şərəfli bir ömür yolu keçmişdir.

Həsən Əliyevin apardığı elmi-tədqiqat işlərinin istiqaməti onun gələcəkdə böyük torpaqşünas, botanik, ekoloq alim kimi formalaşmasına səbəb olmuşdur.

Prezident İlham Əliyevin akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqındakı sərəncamında qeyd olunduğu kimi: "Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir”.

Akademik Həsən Əliyevin 1930-1940-cı illərdə apardığı tədqiqatlar təkcə onun elmi fəaliyyətinin başlanğıcı deyil, eyni zamanda Azərbaycan torpaqşünaslıq elminin əsasının qoyulduğu tarixi dövrdür.

Ömrünün üç ilini Böyük Vətən müharibəsinin odu-alovu içərisində keçirmiş Həsən müəllim ağır döyüşlərin birində ciddi yaralanaraq ön cəbhədən tərxis olunmuş və yenidən elmi fəaliyyətini davam etdirmişdir.

1944-cü ildə namizədlik, 1965-ci ildə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdi. Qısa zamanda Azərbaycan elminə böyük töhfələr vermiş, görkəmli alim, ictimai-siyasi xadim kimi tanınmışdır. Beləliklə, böyük torpaqşünas alim, kənd təsərrüfatı elmləri doktoru, professor Həsən Əliyev 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir.

O, Azərbaycan elminin korifeyləri olan Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Mustafa Topçubaşov və digər görkəmli alimlərlə birlikdə elmimizin inkişafında müstəsna xidmətlər göstərmişdir. Azərbaycanda coğrafiya, kənd təsərrüfatı, aqrobiologiya, torpaqşünaslıq, ekologiya kimi elm sahələri onun rəhbərliyi ilə formalaşmışdır.

1949-1952-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutuna rəhbərlik edən Həsən müəllimin səyi nəticəsində səkkiz cildlik "Azərbaycan florası" kitabı hazırlanmış və nəşr olunmuşdur. Akademik EA-nın akademik katibi vəzifəsində işləyərkən (1952-1957-ci illərdə) Torpaqşünaslıq və Aqrokimya İnstitutunda respublika torpaq fondunun pasportlaşdırılmasına başçılıq etmişdir.

Həsən müəllimin Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini, Botanika, Coğrafiya institutlarının direktoru, Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Azərbaycan filialının sədri kimi fəaliyyət göstərdiyi dövr torpaqşünaslıq və aqrokimya elminin hərtərəfli inkişaf mərhələsi kimi dəyərləndirilir.

Alimin əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə etmişdir. O, Şərqi Zaqafqaziya torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətidir.

Görkəmli alim 1952-1960-cı illərdə Böyük Qafqazın torpaqlarının genetik-coğrafi cəhətdən öyrənilməsi sahəsində "Azərbaycanda qəhvəyi meşə torpaqlarının yayılması", "Azərbaycanda qaratorpaqların yayılması məsələsinə dair", "Yüksək dağlıq zonada torflu torpaqların bəzi xüsusiyyətləri", "Böyük Qafqazın Şərq hissəsinin qəhvəyi meşə torpaqları"

və s. elmi əsərlərini çap etdirmişdir. Bu kitablarda Böyük Qafqazda torpaq əmələgəlmə şəraiti dərindən tədqiq edilmiş, taksonomik torpaq vahidlərinin hərtərəfli elmi təsviri verilmişdir.

Azərbaycan Respublikası torpaqlarının kompleks tədqiqi, müxtəlif miqyaslı xəritələrin tərtib edilməsi, coğrafi atlasların hazırlanması, ətraf mühitin öyrənilməsi bilavasitə akademik Həsən Əliyevin adı ilə bağlıdır.

Görkəmli alim 1970-ci ildən başlayaraq ömrünün sonuna qədər əsas diqqətini Azərbaycanda təbiətin mühafizəsinə, ekoloji problemlərin, torpağın eroziyası, çirklənməsi və rekultivasiyası məsələlərinə yönəltmişdir.

Respublikamızda ətraf mühitin pozulması, təbii sərvətlərin deqradasiyası və tədricən sıradan çıxması Həsən Əliyevi daim narahat edirdi. O, insanları təbiəti sevməyə, ona qayğı göstərməyə çağıraraq yazırdı: "Mühitin dəyişdirilməsi bəşərin varlığını təhlükə qarşısında qoyur. İnsan özü-özünün keşikçisi olmalıdır. Ayrı heç bir canlı onun harayına gəlməyəcək... Bu gün həyəcan təbili çalmaq yerinə düşərdi. Bu "təbili" heç yerdən asmaq lazım deyil. O, bugünün insanlarının ürəyidir. Bu ürək ətrafına daha həssas baxmalı, təbiətdən harada, nəyi, necə götürmək məsələsində, həmişə, hər yerdə öz sözünü deməlidir. Bu münasibət üzərində yaşadığımız, havasını udduğumuz Azərbaycan təbiətinə aiddir. Azərbaycan təbiətinə kor-koranə münasibət görəndə bu təbil daha böyük həyəcanla döyülməli, bizi ayıq-sayıq salmalıdır. Bəlkə toya, yasa və digər mərasimə yubanmaq da olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır..."

Akademikin vaxtilə dediyi "..təbiət aynadır. Ona ləkə düşməməlidir. Ləkəli ayna əksi eybəcər hala saldığı kimi, qorunmayan təbiət də insana həm maddi, həm mənəvi əziyyət verir" sözləri bütün dövrlər üçün aktualdır.

Akademik Həsən Əliyev qırx ildən artıq bir dövr ərzində respublikamızda təbiəti mühafizə ideyasının təbliği yolunda maarifçilik işi aparmışdır. XX əsrin ikinci yarısında elmi-texniki tərəqqinin yaratdığı möcüzələr heyrət doğursa da, onun təbiətə vurduğu yaraların sızıltısı hələ uzun çəkəcəkdir. İnsanların məqsədyönsüz fəaliyyəti məhsuldar düzənləri səhralara, meşələri bozqırlara, çılpaqlaşmış dağ yamaclarını sıldırım qayalıqlara çevirir. Planetimizdə insanların sayı artır, təbii mühitin isə onları yaşatmaq imkanı azalır. Daha doğrusu, insanın özü bu imkanı azaldır. Həsən müəllim bunu çoxlarından yaxşı görürdü və dərk edirdi. O, həmişə deyirdi ki, elliklə ümidlərimizin, arzu və istəklərimizin həqiqətə çevrilməsi, reallığa qovuşması bizim təbiətə münasibətimizdən çox asılıdır. Təbiətə münasibət həm də dünya sivilizasiya sistemində konkret bir millətin özünüdərketmə və mənəvi-mədəni inkişafının səviyyəsini, yetkinliyini göstərir.

"Dünyada mövcud olan on bir iqlim növündən doqquzu bütövlükdə, ikisi isə qismən Azərbaycanda var. Bu, möcüzədir.

Bunu dərk edin, qiymətini bilin ...” Onun təbiət adlı simfoniyasının uvertürası idi bu kəlmələr. Tez-tez təkrar edər, bu hikmətin çəkisini, dəyərini, mənasının dərinliyini anlatmağa çalışardı.

Həsən müəllimə görə təbiəti sevmək vətəni sevmək demək idi. Təbiətimizin mühafizəsi sahəsində göstərdiyi xidmətlərin nəticəsi idi ki, o, Azərbaycan Elmlər Akademiyasının Təbiəti mühafizə üzrə komissiyanın sədri seçilmişdi.

Təbiətin mühafizəsinə xüsusi diqqət ayıran akademik respublikamızda həmin problemin həllinin vacibliyi ilə bağlı həyəcan təbili çalmışdır. Onun "Həyəcan təbili” əsəri (Bakı, 1976, 1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırış idi.

1957-ci ildə Həsən Əliyevin təşəbbüsü ilə Bakıda Zaqafqaziyada təbiətin mühafizəsinə həsr olunmuş müşavirə keçirilmiş, bu müşavirədə ilk dəfə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilati formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti təhlil edilmiş və əməli təkliflər irəli sürülmüşdür. Bir vaxtlar respublikada fəaliyyət göstərmiş Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi, Təbiəti Mühafizə Cəmiyyəti bilavasitə böyük alimin şəxsi təşəbbüsü ilə yaradılmşdır.

Akademik Həsən Əliyevin redaktorluğu ilə çap edilən "Azərbaycan təbiəti” adlı elmi-kütləvi jurnal təbiətimizin mühafizəsinin təbliğində mühüm rol oynamışdır.

Akademikin təşəbbüsü ilə Kürboyu "Qarayazı”, "Bəsitçay”, "Türyançay”, "İsmayıllı”, "Pirqulu”, Kiçik Qafqazda "Göygöl”, Qarabağ vulkanik yaylasının cənub hissəsində "Qaragöl” və nəsli kəsilmək təhlükəsi olan ceyranların mühafizəsi, artırılması üçün "Şirvan” dövlət qoruqları yaradılmışdır.

Sevindirici haldır ki, görkəmli təbiətşünas alimin ölkəmizin ekoloji mühiti, zəngin təbiətinin qorunması haqqındakı arzuları reallığa çevrilmişdir. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, yaşıllıqların sahəsi artırılır, yeni qoruqlar, milli parklar yaradılır, təbiətimizin mühafizəsi istiqamətində dövlət səviyyəsində mühüm işlər görülür. Bu günlərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizin müxtəlif bölgələrində 650 min ağac əkildi. Bu mühüm əhəmiyyətli kampaniyada Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etmişdir. Bütün bunlar həm də görkəmli alim Həsən Əliyevin təbiətin zənginləşdirilməsi sahəsindəki arzularının reallığa çevrilməsi, onun təməlini qoyduğu ənənələrinin davam etdirilməsidir.

Mənalı və şərəfli ömür yaşamış akademik Həsən Əliyev özündən sonra gələn nəsillərə zəngin elmi irs qoymuşdur. 60 ildən çox davam edən elmi yaradıcılıq fəaliyyətində 800-ə qədər elmi məqalənin, monoqrafiyanın, 140-a qədər müxtəlif təyinatlı xəritələrin, xeyli sayda elmi-kütləvi əsərlərin müəllifi olan, dünyanın

onlarla ölkəsini gəzmiş Həsən Əliyev yazırdı: "Öz ölkəmiz qədər mənə xoş təsir bağışlayan ikinci bir ölkə tanımıram. Buranın insanları da, iqlimi də, torpağı, suyu, meşəsi, havası da əvəzolunmazdır. Burada yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir. Qaş kirpiyi, kirpik isə gözü qoruduğu kimi, bizim hər birimiz Allahın bizə bəxş etdiyi bu neməti göz bəbəyimiztək qorumalıyıq, onun keşiyində durmalıyıq, qayğısını çəkməliyik... Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim "çörək ağacımız" olmaqla yanaşı, həm də yaşayışımızın ibtidasını təşkil edir. Torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir".

Akademik Həsən Əliyevin Vətən sevgisinin, torpaq təəssübünün, təbiətə vurğunluğunun dəfələrlə şahidi olmuşam. Yüzlərlə vətənpərvər elm adamının yetişməsində akademik Həsən Əliyevin mühüm xidmətləri vardır. Onunla həm doğulduğu Comərdli kəndində, həm də Naxçıvandakı görüşlərimizdə vətənimiz üçün canını belə verməyə hazır olan qiymətli bir ziyalı obrazı görmüşəm.

Akademik Həsən Əliyevin ölkəmizin təbiətinin, ekoloji mühitinin qorunması naminə apardığı mübarizənin dəfələrlə şahidi olmuşam. Onlardan biri barədə oxucularımıza məlumat vermək yerinə düşərdi. Ötən əsrin 60-cı illərində Naxçıvanın Nehrəm kəndi yaxınlığında "Kaustik soda" kombinatının tikilməsi nəzərdə tutulmuşdu. Kombinatın layihəsi SSRİ Nazirlər Soveti tərəfindən təsdiq olunmuşdu. Kombinatın tikintisinə başlamaq ərəfəsində Həsən müəllim bu layihədən xəbər tutdu və dərhal dövlət səviyyəsində öz sözünü dedi. O, rəsmi şəxslərdən əgər kombinat inşa olunarsa, onun tüstüsünün hara gedəcəyini soruşdu. Geologiyada Naxçıvan muldasının (təknəvari çökəklik) mürəkkəbliyi, burada hakim küləklərin istiqaməti xüsusi olaraq vurğulanır. Həsən müəllim kombinatın Naxçıvan çökəkliyinə mənfi təsirini, tullantı sularının Araz çayına axması nəticəsində ətraf mühitdə baş verə biləcək fəsadları əsas gətirərək problemin həllinin cavabını tələb etdi. Beləliklə, Həsən müəllimin mübariz xarakteri, iradəsi və nəhayət, inadı hesabına Naxçıvanın ekoloji vəziyyəti təhlükədən xilas oldu.

Bir vaxtlar akademik Həsən Əliyevin çalışdığı AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutuna rəhbərlik etmək bu gün bizim üçün nə qədər qürurverici olsa da, bir o qədər də məsuliyyətlidir.

Sanki hər elmi şurada, elmi müzakirələrdə Həsən müəllimin ruhunun yanımızda olduğunu hiss edirik. Gözəl bir el məsəli var: "İnsan yad edildikcə yaşar, unudulduqda isə ölərmiş". Akademik Həsən Əliyev həmişəyaşar alimdir.

**Əlövsət QULİYEV,**
**AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü.**

*ELM XADİMLƏRİ*

# AZƏRBAYCANIN KORİFEY İQTİSADÇI ALİMİ

Bütün şüurlu həyatını Azərbaycanda iqtisad elminin inkişafına, yüksək ixtisaslı iqtisadçı kadrların hazırlamasına həsr etmiş korifey iqtisadçı alim, ölkəmizin ilk iqtisad elmləri doktorlarından biri Mədət Mustafa oğlu Allahverdiyev yaşasaydı, indi onun 90 yaşı tamam olacaqdı. Ancaq xəstəlik onu hələ yaradıcılığının ən məhsuldar vaxtında – 55 yaşında yaxalamış və ömrünün 62-ci ilində onu sıralarımızdan ayırmışdır. Keçmiş İttifaqda ən çox elmlər namizədləri və doktorları hazırlamış bu əfsanəvi elm adamı sözün əsil mənasında böyük alim, söz sahibi və şəxsiyyət idi. O, doğulduğu məkandan, milliyyətindən və ictimai vəziyyətindən asılı olmayaraq elmə həvəsi olan, bu sahədə qabiliyyəti olan bütün gənclərə elmin keşməkeşli yollarında yüksəlməsinə hər cür mənəvi və lazım gəldikdə maddi yardım göstərirdi. Bu görkəmli alimin bilavasitə rəhbərliyi ilə 100-dən artıq elmlər namizədləri və doktorları yetişmiş, onlarla vətəndaşımızın elmi səviyyəsinin yüksəldilməsinə köməklik etmiş, onlara elmi məsləhətlər vermiş, çətin günlərində onlara dayaq durmuşdur. Onun qələmindən 2 min çap vərəqi həcmindən çox əsər çıxmış, onların 500 çap vərəqi həcmindən çoxu nəşr edilib geniş oxucu kütləsinə təqdim edilmişdir.

M.M.Allahverdiyev sərbəst elmi fəaliyyətə keçən əsrin 50-ci illərindən başlamışdır. O, 1950-ci ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Azərbaycan EA-nın iqtisadiyyat sektorunun aspiranturasına daxil olmuş və təhsilini davam etdirmək üçün Moskva şəhərinə ezam edilmişdir. 1954-cü ildə Moskvada müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir. M.Allahverdiyevin məhsuldar həyatının ən böyük dövrü Azərbaycan EA İqtisadiyyat İnstitutunda, yeddi ili isə keçmiş Azərbaycan Dövlət Plan Komitəsi nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda keçmişdir.

Mədət Allahverdiyevin əsərləri iqtisadi oriyentləri dəyişdiyi indiki şəraitdə də öz aktuallığını saxlamışdı. O, elmi fəaliyyətinin ilk mərhələsində iqtisad elminin aqrar problemləri, sonrakı mərhələlərində isə iş qüvvəsinin təkrar istehsalı, əmək, makroiqtisadi tarazlıq, milli gəlir, regionların sosial-iqtisadi inkişafının proqnozlaşdırılması və sair bu kimi mühüm problemlərin tədqiqi ilə məşğul olmuşdur.

Keçən əsrin 50-ci illərinin axırları və 60-cı illərinin əvvəllərində Sovetlər İttifaqında kənd təsərrüfatının iqtisadi problemləri diqqət mərkəzində olduğu üçün bu təsərrüfat sahəsini stimullaşdırmaq, burada istehsalı tədricən intensivləşdirməklə ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan ehtiyacının təmin edilməsi zərurəti həmin sahənin dərindən tədqiq edilib öyrənilməsini tələb edirdi. Məhz buna görə də bu dövrdə M.Allahverdiyevin bir-birinin ardınca "Azərbaycan SSR-nin çayçılıq kolxozlarının iqtisadiyyatının inkişafı" (Bakı, Akademiya nəşriyyatı, 1956, 11,5

ç.v.), "Kolxozlarda ictimai və şəxsi mənafelərin əlaqələndirilməsi" (Bakı, Azərnəşr, 1956, 8,0 ç.v.), "Kolxoz istehsalının inkişafında maşın-traktor stansiyalarının rolu" (Bakı, Azərnəşr, 1959, 7,0 ç.v.), "Dağ rayonları şəraitində kompleks mexanikləşdirmənin bəzi məsələləri" (Bakı, Azərnəşr, 1960, 7,0 ç.v.), "Pambıqçılıqda əmək məhsuldarlığı və onun artırılması yolları" (Bakı, Akademiya nəşriyyatı, 1960, 9,3 ç.v.), "Kolxoz və sovxozlarda əməyin və istehsalın düzgün təşkili" (Bakı, Azərnəşr, 1962, 9,7 ç.v.) kimi tədqiqat əsərlərinin çap olunub geniş ictimaiyyətə və müvafiq təşkilatların diqqətinə çatdırılması təsadüfi olmamışdır. O dövrün iqtisadi ədəbiyyatlarında plan və bazar münasibətlərinin qarşıdurmasının geniş mübahisələr və diskussiyalar obyektinə çevrilməsinə baxmayaraq real gerçəklikdə əmtəə-pul münasibətlərinin, mübadilənin inkişafı inkaredilməz iqtisadi hadisə idi. Ona görə də kolxozların geniş miqyasda əmtəə mübadiləsinə cəlb edilməsi labüd idi və heç bir şübhə doğurmurdu. Ancaq bunları təmin etmək üçün iqtisadi mexanizmlər yox idi və bu mexanizmlərin hazırlanması tələb olunurdu. Bunu nəzərə alan görkəmli alim iqtisadi ədəbiyyatda ilk dəfə olaraq kolxozlarda məhsul vahidinə məsrəflərin ölçülməsi zəruriliyini və imkanlarını elmi və nəzəri cəhətdən əsaslandırmış, burada kapital qoyuluşlarının ölçüsü və ödəmə müddətinin müəyyənləşdirilməsi metodikasını işləyib hazırlamışdır.

Keçmiş Sovetlər İttifaqında Azərbaycan özünün demoqrafik inkişaf xüsusiyyətlərinə görə həmişə fərqlənmişdir. Orta İttifaq səviyyəsinə nisbətən əhalinin yüksək təbii artımı, yaş, cins, peşə tərkibində fərqli cəhətlərin olması, milli mentalitetin azərbaycanlıların ittifaqdaxili miqrasiyasına təsiri burada əmək ehtiyatlarının daha geniş və dərindən tədqiqini zəruri etmişdir. M.Allahverdiyev bu sahədə geniş tədqiqatlar aparmaqla böyük bir elmi məktəbin – demoqrafiya və əməyin iqtisadiyyatı elmi məktəbinin əsasını qoymuşdur. M.Allahverdiyevin və bu məktəbin digər görkəmli nümayəndələrinin tədqiqatçı peşəkarlıqları sayəsində Azərbaycan Respublikası həmin problemlərin öyrənilməsi sahəsində keçmiş İttifaqda ən nüfuzlu elmi mərkəzlərindən biri hesab olunurdu. 1964-1967-ci illərdə M.Allahverdiyev bu sahədə bir sıra fundamental tədqiqat əsərləri yazıb çap etdirmişdir. Bunlara: "Əmək ehtiyatları və Azərbaycan SSR kənd təsərrüfatında onlardan istifadə olunması", Bakı, Azərnəşr, 1964, 7,0 ç.v.; "Sosialist əhalisakinliyi qanunu", (Rus dilində Azərbaycan SSR materialları əsasında) Bakı, EA Akademiyasının nəşriyyatı, 1965, 6 ç.v.; "Azərbaycan SSR-də iş qüvvəsinin təkrar istehsalı məsələləri", Bakı, EA Akademiyasının nəşriyyatı, 1966, 14,0 ç.v.; "Məhsuldar və qeyri-məhsuldar əmək", (Azərbaycan SSR materialları əsasında) Bakı, Azərnəşr, 1966, 8,0 ç.v. kitabları aiddir. Bu əsərlərin çap edilməsi onun elmi yaradıcılığının ən uğurlu yekunlarındandır. Bu tədqiqatların yekunu olaraq M.Allahverdiyev 1966-cı ildə 37 yaşında "Azərbaycan SSR-də iş qüvvəsinin təkrar istehsalı problemləri" adlı doktorluq dissertasiyası yazıb müdafiə edərək Azərbaycan EA İqtisadiyyat İnstitutunda birinci, respublikada isə B.Y.Axundov və T.S.Vəliyevdən sonra üçüncü elmlər doktoru oldu.

M.Allahverdiyev ölkəmizin çox az iqtisadçı alimlərindən biridir ki, o, tədqiqatları ilə öz dövrünü xeyli qabaqlamışdır. O, bir çox məsələləri sanki bu günün tələbləri mövqeyindən izah etmişdir. M.Allahverdiyevin tədqiqatlarının xarakteri demək olar ki, müasir ekonomiksin tələblərinə tam uyğun gəlir. O, iqtisad elmini nəzəri və praktiki elmə bölüb onların arasında süni sədd çəkən iqtisadçılardan olmamışdır. Onun bütün əsərləri nəzəriyyə və praktikanın sintezi prinsipi ilə yazılmış və bu səbəbdən də bu gün də və gələcəkdə də öz müasirliyini itirməyəcəkdir. Doğrudur, professor M.Allahverdiyevin məhsuldar və qeyri-məhsuldar əməyə dair düşüncələri bu gün ilk baxışda sadəlövh görünə bilər. Çünki məhsuldar və qeyri-məhsuldar əmək ətrafında hələ merkantelistlər, fiziokratlar və A.Smit dövründən başlanan ehtiraslar, indiki neoklassik iqtisadçılara müəyyən dərəcədə məzmunsuz görünür. Onlar elə bir cəmiyyətdə yaşayırlar ki, burada hər bir əməyin öz ödənilmə ölçüsündə məhsuldar olmasına dair meyarlar müəyyənləşmişdir. Lakin həmin meyarlar sisteminin dəyişdiyi keçid pillələrində, tarixi çevrilişlər dövründə bu problem ön plana keçir. Azərbaycan bu gün belə ölkələr sırasındadır. Bu da bir həqiqətdir ki, indi Azərbaycanda istehsal edilən ÜDM-in xeyli hissəsi neft sənayesi sahəsinin payına düşür. Bunu müəyyən mənada fiziokritizmin Azərbaycan variantı hesab etmək olar.

Azərbaycan iqtisadi fikir tarixində ilk dəfə olaraq iş qüvvəsinin təkrar istehsalının məzmununun və bu prosesi tənzimləyən əsas qanunun – əhalisakinliyi qanununun araşdırılması da M.Allahverdiyevin mühüm xidmətlərindən biridir. Maraqlı cəhət odur ki, M.Allahverdiyev əhalisakinliyi qanunundan bəhs etməklə öz konkret tədqiqatlarına nəzəri don geydirmək cəhdindən uzaq idi (təəssüflə demək lazımdır ki, o zamanlar bu cür meyillər geniş yayılmışdı). O, əhalisakinliyi qanununa makroiqtisadi tənzimləmənin amili kimi, istehsalın inkişafı ilə əhalinin inkişafı arasındakı münasibətlərin obyektiv tənzimləyici kimi baxmışdır. Tədqiqatçı alim əhalisakinliyi qanununa əslində Azərbaycan əhalisinin son 100 ildə kəmiyyət və keyfiyyət tərkibinin dərin təhlili və bu prosesdəki obyektiv meyillərin araşdırılması əsasında gəlib çıxmışdı.

Əhalinin demoqrafik inkişaf xüsusiyyətlərinin ölkənin sosial-iqtisadi planlaşdırılmasında nəzərə alınması zəruriliyinin və uçot metodikasının əsaslandırılması da professor M.Allahverdiyevin dərin düşüncələrinin məhsuldur. Ölkənin inzibati və iqtisadi rayonları üçün resurslarının hesabat və plan balanslarının tərtibi metodologiyasının hazırlanmasında və təcrübədə onun həyata keçirilməsində M.Allahverdiyevin misilsiz xidmətləri danılmazdır.

Mədət Allahverdiyev öz elmi-tədqiqat işlərinin yekunlarını gerçəkləşdirən, onların tətbiqinə nail olmağa cəhd edən və əksər hallarda buna nail olan bir alim idi. Bu, onu öz həmkarlarından fərqləndirən daha bir üstün keyfiyyəti idi. Azərbaycan SSR Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutuna başçılıq etdiyi 1968-1975-ci illər M.Allahverdiyevin həm elmi təşkilatçılıq qabiliyyətinin üzə çıxması və həm də onun tədqiqatlarının hökumət və dövlət səviyyəsində öz tətbiqini tapması baxımından müstəsna rol oynamışdı. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə bu institut qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş

və həmin mərkəzdə respublikanın iqtisadi inkişafının uzunmüddətli proqnozlaşdırılması ilə əlaqədar mühüm problemlər işlənib hazırlanmış və müvafiq dövlət və hökumət orqanlarına təqdim edilmişdir. M.Allahverdiyevin başçılığı və bilavasitə iştirakı ilə "1971-1980-ci illərdə Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi sxemi", "1976-1990-cı illərdə Azərbaycan SSR-in uzunmüddətli iqtisadi proqnozu, məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi" tərtib olunmuşdur. Xeyli vaxt və böyük enerji tələb edən bu fundamental tədqiqat işləri Azərbaycanın sosial-iqtisadi inkişafının daha mütərəqqi istiqamətlərini müəyyən etmək üçün vahid ümumdövlət konsepsiyasının yaradılmasına xidmət etmişdir. Bu tədqiqatlar respublikanın sosial-iqtisadi inkişafının planlaşdırılmasında da nəzərə alınmışdır.

M.Allahverdiyevin elmi-təşkilatçılıq bacarığı sayəsində respublikamızda iqtisad elminin yeni bir istiqaməti - region iqtisadiyyatının optimal fəaliyyəti adlı istiqaməti təşəkkül tapmışdır. Keçən əsrin 70-ci illərinin əvvəllərində "1971-1980-ci illərdə Azərbaycan SSR-nin məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsi konsepsiyası və əsas istiqamətləri"; "Uzunmüddətli perspektiv üçün Azərbaycan SSR-in xalq təsərrüfatının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin metodoloji əsasları"; "Azərbaycan SSR-nin sahələrarası və rayonlararası əlaqələri"; "İctimai istehsalın strukturunun təkmilləşdirilməsi"; "Respublikanın ayrı-ayrı rayonlarının kompleks iqtisadi inkişafının optimallaşdırılması" və digər bu kimi fundamental elmi tədqiqatların başa çatdırılması ilə həmin elmi istiqamətin əsası qoyulmuşdur.

M.Allahverdiyevin bilavasitə iştirakı və rəhbərliyi altında yerinə yetirilən elmi-tədqiqatların böyük əksəriyyəti təhriri məruzələr və elmi tövsiyələr şəklində direktiv orqanlara təqdim edilərək istifadə olunmuşdur. Alimin bu cür tədqiqatlarının sayı 80-dən çoxdur.

Yaradıcılığının son mərhələsində, daha doğrusu, 1976-1990-cu illərdə görkəmli iqtisadçı alimin elmi maraq dairəsi iqtisadi qanunların fəaliyyəti və istifadə mexanizmi; region iqtisadiyyatının təsərrüfat mexanizminin təkmilləşdirilməsi; respublikada milli gəlirin təkrar istehsalı, sənayenin baza sahələrinin inkişafı problemləri və sairini əhatə etmişdir ki, bu da təsadüfi olmamışdı. Belə ki, artıq keçən əsrin 70-ci illərinin axırlarında sosializm siyasi iqtisadının təkamülü açıq müşahidə olunurdu. İqtisadi fikirdə mərkəzləşdirilmiş dövlət sosializmi sisteminin tədricən dağılmasının müəyyən aspektləri öz ifadəsini tapırdı. İqtisadçı alimlərin makroiqtisadi tənzimləmə amillərini müəyyən etmək axtarışına düşməsi də məhz bu zərurətdən irəli gəlmişdi. Həm bütövlükdə keçmiş İttifaqda və həm də müttəfiq respublikalarda obyektiv iqtisadi qanunlar geniş şəkildə mühüm makroiqtisadi tənzimləmə amili kimi tədqiq olunur, onların fəaliyyət və istifadə mexanizmlərinin müəyyənləşdirilməsinə ciddi-cəhdlər edilirdi. Professor M.Allahverdiyev də bu problemin həllində öz xidmətlərini göstərmişdi. Bu cəhətdən region iqtisadiyyatının təsərrüfat mexanizminin təkmilləşdirilməsi, milli gəlirin təkrar istehsalı, sənayenin baza sahələrinin inkişafı problemləri iqtisadi subyektlərin təsərrüfat müstəqilliyinin artırılması zərurətini ifadə edirdi.

O vaxtlar respublikada bu problemin tədqiqini iqtisad elminin indiki anlayışları

ilə ifadə etmiş olsaq, belə nəticəyə gəlmək olar ki, liberal iqtisadiyyata keçid problemləri hələ Sovetlər İttifaqının mövcudluğu dövründə iqtisadçı alimləri, o cümlədən M.Allahverdiyevi düşündürmüşdür. Keçmiş Sovet məkanında həyata keçirilən yenidənqurma təsərrüfat mexanizminin təkmilləşdirilməsi zərurətini ortaya atdı. Buna görə də planlaşdırmanın səmərəliliyini yüksəltmək üçün iqtisadi subyektlərin müstəqilliyinin artırılması ideyasını reallaşdırmaq lazım gəldi. Azərbaycan Respublikasının misalında bu məsələlər də professor M.Allahverdiyevin "Təsərrüfat mexanizmi və iqtisadi səmərəlilik" (1981, 3 ç.v.) adlı kitabçasında öz əksini tapmışdı.

Keçmiş sosialist iqtisadiyyatı şəraitində müttəfiq respublikanın ən ümumi sintetik göstəricisi olan milli gəlirin hesablanması, onun dinamikası çox mühüm siyasi-iqtisadi əhəmiyyət kəsb edən problem sayılırdı. Bu göstərici əsasında ölkənin və onun regionlarının iqtisadi-sosial inkişaf səviyyəsi xarakterizə edilir, müvafiq plan və direktivlər müəyyənləşdirilirdi. 1956-cı ilədək Azərbaycanın Dövlət statistika külliyyatlarında milli gəlirə dair müntəzəm məlumatların olmaması bir sıra iqtisadi proporsiyaları müəyyən etməyə, iqtisadi inkişaf səviyyəsinin ölkələr və regionlar üzrə müqayisəli təhlilini aparmağa imkan verməmişdir. Bu problem də uzun müddət professor M.Allahverdiyev narahat etmiş və artıq keçən əsrin 80-ci illərinin əvvəllərində onun tədqiqat obyektinə çevrilmişdir. Onun elmi redaktorluğu altında və şəxsi iştirakı ilə çap olunan "Azərbaycan SSR-də milli gəlirin təkrar istehsalının tempi və proporsiyaları" adlı (Bakı, "Elm" nəşriyyatı, 1982, 9 ç.v.) kitabda bu görkəmli tədqiqatçı alim özünəməxsus hesablama metodu ilə respublikada milli gəlirin həcmini və dinamikasını müəyyən etmişdir. İstehsal olunan milli gəlirlə istehlak olunan milli gəlir arasında uzun illər ərzində mövcud olmuş böyük bir fərqin respublikamızın ziyanına olması, bu fərqin köklü səbəbləri və onların aradan qaldırılması yolları aşkara çıxarılmış və müvafiq elmi təkliflər irəli sürülmüşdür. Beləliklə, həmin kitabda o dövr üçün heç də kiçik məbləğ olmayan ildə təqribən 2 milyard manatlıq sərvətin respublikadan kənara çıxmasının qarşısını almaq üçün çox cəsarətli və konstruktiv təkliflər vermişdir. Müqayisə üçün deyək ki, o zaman respublikada istehsal olunan milli gəlir 11 milyard manat təşkil edirdi. Fikrimizcə, təkcə bu faktın özü görkəmli iqtisadçı alimin hələ o zaman Azərbaycanın iqtisadi müstəqilliyinə xidmət etdiyini göstərmək üçün tamamilə kifayət edir və onun nə qədər böyük vətəndaş alim olduğunu bir daha sübut edir.

Bütün bunlar onu göstərir ki, professor M.Allahverdiyev Azərbaycan iqtisadi gerçəkliyinin zaman-zaman qarşıya qoyduğu ən aktual problemlərə, prioritet istiqamətlərə müraciət etməkdən nəinki çəkinmirdi, əksinə özünün istedadlı və böyük işgüzarlığı ilə bu problemlərin həllinə yeniliklər gətirə bilirdi.

Keçən əsrin 80-ci illərinin II yarısında iqtisad elminin bir tərəfdən kütləviliyinin artması, digər tərəfdən isə elmin özünün diferensiasiyası ilə əlaqədar olaraq iqtisadi terminlərdən geniş istifadə olunmasına zərurət yaranmışdır. Bu terminlərin düzgün işlədilməsi və dərk olunması həm dilimizin təmizliyini, həm də iqtisadi publisistikanın təhriflərdən qorunması üçün vacib idi. La-

kin buna baxmayaraq o vaxt respublikada mükəmməl və əhatəli iqtisadiyyat terminləri lüğətinin olmaması bu işdə xeyli çətinliklər yaradırdı. Professor M.Allahverdiyevin başçılığı ilə bu problem də öz həllini tapdı. Onun təşəbbüskarlığı sayəsində az bir müddət ərzində olduqca tutumlu böyük bir iş həyata keçirildi. Daha doğrusu 20 min termini əhatə edən iri həcmli "Rusca-Azərbaycanca iqtisadiyyat terminləri lüğəti" (23 ç.v.) hazırlandı. Təəssüf ki, həmin lüğət alimin sağlığında deyil, onun ölümündən sonra – 1994-cü ildə çap olundu.

Professor M.Allahverdiyevin böyük elmi təşkilatçılıq və pedoqoji fəaliyyəti respublika çərçivəsindən çox-çox kənarlara çıxırdı. O, məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi üzrə Zaqafqaziya Elmi Şurasının sədri kimi bu regionun iqtisadi problemlərinin birgə tədqiqinə xüsusi əhəmiyyət verirdi. Onun təşəbbüskarlığı ilə Zaqafqaziya iqtisadi rayonunun planlaşdırılması, gələcək sosial-iqtisadi inkişaf problemlərinə dair elmi müşavirələr, konfranslar keçirilmiş, regionun istirahət-turizm, torpaq-su, yanacaq-enerji və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi problemləri, 1976-1980-ci illərdə Zaqafqaziya regionunda məhsuldar qüvvələrin inkişafının əsas istiqamətləri müzakirə edilmişdir. Bütün bunlar indiki anlamda Ümumiqafqaz evinin yaradılması sahəsində hələ o zamandan başlanan ilk cəhdlər hesab oluna bilər.

Müasir iqtisadi fikrimizi belə bir sual həmişə düşündürür ki, nə üçün Qərb iqtisadi nəzəriyyəsi müharibədən sonrakı dövr Sovet siyasi iqtisadçılarının əsərlərinə maraq göstərməyib. Bizcə belə hesab etmək düzgün olmazdı ki, ideoloji qarşıdurma və fərqi nəzərə almamaq şərti ilə Sovet iqtisadi fikri Qərb iqtisadi fikrindən geri qalırdı. Sovet iqtisad elmidə iqtisadi-riyazi istiqamətə Qərbdə böyük marağın olduğunu təsdiq edən çoxlu faktlar vardır. Lakin qərbdə sovet iqtisadçı nəzəriyyəçiləri iqtisadçı sovetoloqlar kimi qəbul edildiyindən onlara maraq zəif idi. Zənnimizcə, digər mühüm bir səbəb iqtisad elminin qapalılığı, elm üzərində mərkəz inhisarçılığı olmuşdur. Bu cür maneələr olmasaydı professor M.Allahverdiyevin bir çox elmi tədqiqatları Qərb iqtisadi fikri tərəfindən də etiraf olunardı. Həm də yalnız M.Allahverdiyevin deyil, respublikanın digər iqtisadçılarının da Qərbdə tanınması üçün müəyyən əsaslar vardır.

Professor M.Allahverdiyev elmi ictimaiyyət, xüsusən iqtisadçı alimlər arasında böyük nüfuz sahibi idi. Bu nüfuzu ona alim istedadı, elm yolu ilə gedənlərə təmənnasız köməyi, mübahisəli məsələlərdə prinsipial mövqe tutması qazandırmışdır. Respublikanın çoxsaylı iqtisadçı alimlərinin içərisində az adam tapılar ki, yüksək ixtisaslı kadr kimi onun hazırlanmasında Mədət müəllimin rolu olmasın.

Mədət Allahverdiyev artıq 28 ildir ki, həyatda yoxdur, lakin onun miras qoyub getdiyi zəngin irs yaşayır. Bu irs alimin qoyub getdiyi iqtisadi ideyalarından, müasir Azərbaycan iqtisadi fikrini təmsil edən görkəmli iqtisadçı alimlərdən ibarətdir.

**Şahbaz MURADOV,**
**AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor.**

*YENİ KİTABLAR*

## “Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri” kitabının təqdimatı

Bu günlərdə AMEA İqtisadiyyat İnstitutunda ümummilli lider Heydər Əliyevin Anım günü münasibətilə AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, prof. Şahbaz Muradovun ulu öndərin əziz xatirəsinə və onun Azərbaycan Respublikasının rəhbəri vəzifəsinə birinci gəlişinin 50 illiyinə həsr edilmiş: “Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri” kitabının təqdimat mərasimi keçirilib.

AMEA əməkdaşlarının, ölkəmizin tanınmış alimlərinin, ali məktəblərin müəllimlərinin, bir neçə millət vəkilinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə AMEA İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim Müzəffərli açıb. Bildirib ki, oxuculara təqdim olunan prof. Şahbaz Muradovun ümummilli lider Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyinə həsr edilən kitabında Azərbaycanda tənəzzüldən tərəqqiyə yüksələn həmin dövrün (1969-2019-cu illər) sosial-iqtisadi nəticələri təhlil olunub.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli “Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsinə həsr edilmiş dəyərli tədqiqat əsəri” mövzusunda əsas məruzə ilə çıxış edib. AMEA-nın vitse-prezidenti ulu öndər Heydər Əliyevin görkəmli dövlət xadimi kimi Azərbaycanın dövlətçilik tarixindəki rolundan, müstəqil Azərbaycanın memarı kimi gördüyü işlərdən danışıb. Bu baxımdan “Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri” (1969-2019-cu illər. Bakı-2019. 594 səh.) kitabını dəyərli və mühüm əhəmiyyəti olan tədqiqat əsəri kimi yüksək qiymətləndirib. Qeyd edib ki, kitabda dahi şəxsiyyətin həyat yolu, tükənməz əməyi, Azərbaycanın sosial-iqtisadi tərəqqisindəki xidməti və onun yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətin uğurlu nəticələri yer alıb. Əsərdə prof. Şahbaz Muradovun ulu öndər Heydər Əliyevin fəaliyyətinə yüksək alim qiyməti, onun siyasətinə dərin inam və ehtiram öz əksini tapıb. Kitab reallıqları faktlar və rəqəmlər əsasında özündə əks etdirir. İqtisadi və siyasi baxımdan çox qiymətli mənbə hesab oluna biləcək əsərdə müəllif həm də Azərbaycan iqtisad elminin inkişaf istiqamətlərini göstərmişdir.

Sonra AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru (i.e.d.), professor Tofiq Hüseynov “Uğurlu sosial-iqtisadi siyasətin qələbəsi”, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru Əlizadə Əsgərli “Ulu öndər Heydər Əliyevin elm strategiyası”, AMEA İqtisadiyyat İnstitutunun

şöbə müdiri, i.e.d., professor Tərbiz Əliyev "İqtisadçı alimin ictimai mövqeyini əks etdirən kitab", AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, i.e.d., professor Rəna Sultanova "Heydər Əliyev və məşğulluq strategiyası" mövzularında məruzə ilə çıxış ediblər.

Akademik Ziyad Səmədzadə, professor Şahlar Əsgərov "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri" kitabını Azərbaycan iqtisad elminə sanballı tədqiqat əsəri olaraq mühüm töhfə kimi qiymətləndiriblər.

Məruzəçilər bildiriblər ki, ümummilli liderin Azərbaycanda rəhbərliyə gəldiyi hər iki dövr ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərə təsadüf edir. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dövr (1969-1982-ci illər) ölkə iqtisadiyyatının bərpası və dinamik inkişaf dövrü, ikinci dövr (1993-2003-cü illər) Azərbaycanın "ölüm, ya olum" dilemmasından xilas edilməsi və onun qurtuluş dövrü kimi tarixin yaddaşına həkk olunub. Heydər Əliyev hər iki halda Azərbaycan xalqının və dövlətinin maraqlarını, mənafeyini müdafiə və təmin edən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə onu düşdüyü ağır vəziyyətdən çıxara bilib. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi hər iki dövr Azərbaycanda inkişafın yeni mərhələləri – bərpa və dinamik inkişaf mərhələləri; cənab İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi dövr isə Azərbaycanda inkişafın keyfiyyətcə yeni inkişaf mərhələsi kimi tarixə düşmüşdür. Azərbaycanın çağdaş tarixi ümummilli liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, dünyanın ən islahatçı Prezidenti İlham Əliyevin adları və fəaliyyətləri ilə bağlıdır.

Kitabda müəllifin müxtəlif zamanlarda rəsmi və müstəqil mətbuatda dərc edilən "Türk dünyasının müdrik ağsaqqalı", "Müstəqilliyimiz və milli mənəviyyatımızın qarantı", "Heydər Əliyev təcrübəsinə söykənən iqtisadiyyat", "Azərbaycan Elmlər Akademiyasının inkişafında Heydər Əliyev mərhələsi", "Böyük mütəfəkkir və Azərbaycan elminin hamisi", "Heydər Əliyev müstəqilliyimizin banisi və Azərbaycan xalqının əbədiyaşar lideridir" və s. digər müxtəlif sərlövhəli yazıları da çap edilib.

Qeyd olunub ki, prof. Şahbaz Muradovun həm Azərbaycanda, həm də müxtəlif xarici ölkələrin mətbu orqanlarında ulu öndərin şəxsiyyəti, apardığı yeganə düzgün siyasət və quruculuq işləri ilə bağlı monoqrafiya, kitab və məqalələri çap olunub və geniş oxucular tərəfindən rəğbətlə qarşılanıb. Müəllifin "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri (1969-2019)" adlı kitabında isə ulu öndərin siyasi hakimiyyətinin müxtəlif illərində gördüyü əzəmətli işlər, bu kursun layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanın tərəqqisi və inkişafına yönəlmiş siyasi fəaliyyəti geniş əks olunub.

Sonda kitabın müəllifi professor Ş.Muradov tədbir təşkilatçılarına və məruzəçilərə öz təşəkkürünü bildirib.

**Şükür ƏLİZADƏ.**

*ŞƏFALI BİTKİLƏR*

## DNT-ni zədələnməkdən qoruyan möcüzəvi tərəvəz

Alimlər qırmızı soğanı ən faydalı soğan növü hesab edirlər. Quelf Universiteti (Kanada) alimləri qırmızı soğanın xərçəng toxumalarına olan təsirini araşdırıblar.

Məlum olub ki, qırmızı soğanın tərkibində olan kversetin və antosian maddələri bağırsaq xərçəngi toxumasının artmasını ləngidir.

Kversetin DNT-ni zədələyən və xərçəngin inkişafına təkan verən sərbəst radikalları neytrallaşdırır və həmçinin orqanizmə iltihab əleyhinə təsir edir.

Antosian maddələri də qırmızı soğanın xərçəng əleyhinə xüsusiyyətlərini artırır. Mütəxəssislər xərçəng xəstəliyinə qarşı profilaktika məqsədi ilə qidalanmaya daha tez-tez qırmızı soğanı daxil etməyi tövsiyə edirlər.

*ELMİ ARAŞDIRMA*

## Ağıl genetik imiş

İngilis araşdırmaçı İmperial Collac insanların ağlını müəyyənləşdirən genlər tapıb. Araşdırmalar zamanı ağlın 75 faizinin genetik, geri qalanının isə məktəb və ətrafdakı şəxslərdən asılı olduğunu ortaya qoyub.

Məlum olub ki, həmin genlər mutasiyaya uğradığı zaman düşünmə durğunluğu və zehni problemlər yaranır. Əks halda isə sürətli düşünmə və parlaq zəka özünü daha yaxşı göstərir.

İndiyə qədərki araşdırmalarda yaddaş, diqqət, beyinin sürəti və məntiq genləri haqda dəqiq məlumat əldə edilməmişdi.

Beyin xəstəliklərinin genetik səbəbləri araşdırılarkən isə HMGA2 geninin variasiyaları aşkarlanıb. Məlum olub ki, HMGA2 geninin müəyyən kimyəvi strukturu olanda insanlar başqaları ilə müqayisədə daha ağıllı olurlar. Bu isə genetik koddakı kiçik dəyişikliklərin insanlar arasında intellektual fərqlərə səbəb olmasını təsdiqləyir.

**TİBBİ YENİLİK**

## İnsanın DNT analizinə görə xəstəliyi müəyyənləşdiriləcək

ABŞ-ın Miçiqan Universitetinin alimlərinin hazırladığı neyron şəbəkə DNT-yə görə insanların boyunu dəqiqliklə proqnozlaşdırır və potensial riskli ciddi xəstəlikləri (ürək xəstəlikləri, xərçəng) qiymətləndirir.

Məlumata görə, kompüter alqoritmi ilk dəfə boy, sümüklərin sıxlığı və insanın nail olacağı təhsil səviyyəsi kimi keyfiyyətləri proqnozlaşdırmağa çalışır. Bunların müəyyənləşdirilməsi üçün neyroşəbəkə yalnız genoma əsaslanır. Böyük Britaniyanın "UK Biobank" DNT bazasının – səhiyyə haqqında beynəlxalq informasiya resursunun məlumatlarından istifadə edən alqoritm 500 min nəfərin DNT-sini analiz edərək insanlar arasında fərqli cəhətləri aşkarlayıb və onların xüsusiyyətlərini müqayisə edib. Testlər zamanı kompüter hər insanın boyunu 1 santimetr dəqiqliklə proqnozlaşdırıb.

## MÜNDƏRİCAT

*Ramiz Mehdiyev.* Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran lider ..........3

*Urxan Ələkbərov.* Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır..........20

*İsmayıl Hacıyev.* Dahi siyasətçi, görkəmli dövlət xadimi, ümummilli lider..........25

*Ziyad Səmədzadə.* Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası..........31

«Azərbaycan cəmiyyəti bütövlükdə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir» ..........38

*Nizami Cəfərov.* Mükəmməl tarixi missiya..........42

*Əhməd Əhmədzadə.* Heydər Əliyev ideyalarının Azərbaycanın meliorasiya və su təsərrüfatının uğurlu inkişafındakı misilsiz rolu..........52

İslahatların əsas hədəfi qüdrətli dövlət qurmaqdır..........62

*Aslan Aslanov.* İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı prezident..........66

*Mübariz Qurbanlı.* Xalqın inam və etimadına arxalanan lider..........76

*Rəşad Cəfərli.* İnkişafa, rifaha və mütərəqqi idarəçiliyə xidmət edən islahatlar..........80

*Hüseynbala Mirələmov.* Yeni Azərbaycanın müəllifləri..........82

*Aytən Mustafazadə.* Müasir, inkişaf edən Azərbaycan – Heydər Əliyevin gerçəkləşən arzusu..........90

*Октай Эфендиев.* Нюрнбергские принципы как компас международно-правового урегулирования Нагорно-Карабахского конфликта..........97

*İbrahim Quliyev.* Yerli özünüidarəetmə sistemində bilavasitə xalq demokratiyası..........107

*Рустам Мамедов.* Международно-правовые основы стратегического сотрудничество Российской Федерации и Азербайджанской Республики в бассейне Каспийского моря..........115

*Vəkil Hüseynov.* 2020-ci ilin dövlət büdcəsi qarşıda duran vəzifələrin reallaşmasına əsaslı zəmin yaradır..........125

*Sədaqət Vəliyeva.* Müasir Azərbaycan dövlətçiliyinin banisi..........128

*Elsevən Quliyev.* Müstəqil Azərbaycan tarixində dinamik inkişaf epoxası..........132

*Sakit Hüseynov.* Mövcud qanunvericilik bazası ən demokratik seçkilər keçirməyə tam imkan verir....................................................................................137

*Xəqani Məmmədov.* Məhkəmə-hüquq islahatlarının növbəti mərhələsi...................... 138

*Etibar Əliyev.* Uğurların əsas şərti xalq-iqtidar birliyidir........................................... 142

*Zeynalabdin Məmmədzadə.* Azərbaycan beynəlxalq multikulturalizmin mərkəzinə çevrilib.......................................................................... 148

*Rəşad Baxşəliyev.* Kadr islahatları – təcrübə və kreativ ideyaların vəhdəti.................151

*Rüstəm Kamal.* İslahatlar əhalinin sosial rifahının yüksəlməsini sürətləndirir............153

*Məmməd Musayev.* Sahibkarlıq strategiyasının banisi................................................155

*Şikar Qasımov.* Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarinın rolu.......................................................163

**RƏSMİ SƏNƏDLƏR**

2020-ci ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.................................169

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı..............................171

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanunu.........................176

Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı..........................................................................................................................182

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.........................................................................184

Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında Azərbaycan Respublikasının Qanunu................................188

"Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1689-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı....................**194**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu....................**196**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli 1693-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....................**198**

## ELM XADİMLƏRİ

*Əlövsət Quliyev.* Vətənpərvər alim, ictimai-siyasi xadim, qayğıkeş insan....................**199**

*Şahbaz Muradov.* Azərbaycanın korifey iqtisadçı alimi....................**204**

## YENİ KİTABLAR

*Şükür Əlizadə.* "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi: tənəzzüldən tərəqqiyə yüksələn 50 illik çətin yolun sosial-iqtisadi nəticələri" kitabının təqdimatı ....................**210**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**